# Kəlam elmi

# Dərslik

# 1-ci cild

**Məhəmməd Səidimehr**
**Tərcüməçi: Vaqif Quliyev**

# Giriş

Səmavi dinlərin ardıcılları, o cümlədən müsəlmanlar inanırlar ki, Allah-taala dini insanların hidayəti üçün göndərmiş, dinin təlimlərini vəhy və peyğəmbərlərin təbliği vasitəsi ilə insanlara çatdırmışdır. Ənənəvi bir bölgüyə əsasən, dinin təlimləri üç əsas hissəyə, yəni etiqad, əxlaq və şəriətə bölünür. Digər tərəfdən, şübhəsizdir ki, kamil dindarlığa məhz dini tanımaq sayəsində nail olmaq olar. Buna görə də dindarın dini tanımadan layiqli dəyərə nail olması mümkün deyildir. Bir çox dindarlar dinin maarif və həqiqətlərindən məlumatsız olduqları üçün düzgün yoldan yayınır və zəlalətlərə yuvarlanırlar. Odur ki, dinin düzgün nəzəri və əməli təlimlərinə yiyələnmək insanda sarsılmaz bir baxışlar sisteminin formalaşmasına və onun öz dini vəzifələrinə düzgün əməl etməsinə zəmin yaradır ki, bu da şüurlu şəkildə olan bir dindarlıqla nəticələnir.

Beləliklə, peyğəmbərə (s) və onun sözlərinin həqiqətlə uyğun olmasına inandıqdan sonra hər bir insanın ilk mühüm vəzifəsi peyğəmbərin (s) təlimlərini təfərrüatı ilə mənimsəmək və dini öyrənmək yolunda çalışmaqdır. Hər bir insan bu yolda bütün imkanlarından və istedadlardan bəhrələnməlidir ki, dini düzgün şəkildə tanımaqla həqiqi səadətə nail ola bilsin.

Müsəlmanların tarix boyu islam təlimlərini qavramaq səyləri islam elmləri adlanan müxtəlif elm sahələrinin yaramasına səbəb olmuşdur ki, bu sahələrin hər biri özünə məxsus bir baxışla, xüsusi bir metod və hədəflə dinin maarifi sahəsində tədqiqatla məşğuldur. Burada "kəlam" elmi[1] xüsusi əhəmiyyətə malikdir. İslamın meydana çıxdığı ilk illərdə bir sıra etiqadi bəhslərin müzakirəsi zəminində yaranan bu elm həmişə islamın ən əsas maarifinin tədqiqat sahəsi olmuş və bu günümüzə qədər elm və dəyanət dünyasına qiymətli əsərlər təqdim etmişdir.

---

[1] İslam dininin təlimləri üç hissədən ibarətdir:

1) İnsanın düşüncələri və əqidələri ilə bağlı təlimlər;

2) İnsanın ruhi keyfiyyətləri ilə bağlı təlimlər;

3) İnsanın əməlləri ilə bağlı təlimlər.

Əqidələrlə bağlı təlimlər kəlam elmində, ruhi keyfiyyıtlərlə bağlı təlimlər əxlaq elmində, əməllərlə bağlı təlimlər fiqh elmində araşdırılır.

Xristian dünyasında isə mövzusundan asılı olmayaraq, bütün dini təlimlər teologiya *(ərəbcə: ilahiyyat)* adı altında araşdırılır. Sxolastika isə orta əsrlərdə kilsədə öyrədilən bütün dini təlimlərin və dini təlimlərlə yanaşı tədris olunan bir sıra digər elmlərin məcmusuna deyilirdi. Odur ki, kəlam elmini teologiya və ya sxolastika şəklində tərcümə etmək dəqiq tərcümə deyildir. (Red.)

## Kəlam elminin tərifi

Kəlam elminə müxtəlif təriflər verilmişdir. Bu elm haqqında ümumi anlayış əldə etmək üçün qeyd etmək lazımdır ki, kəlam elminin vəzifəsi dini etiqadların:

**1) dini mətnlərdən çıxarışı;**

**2) izahı;**

**3) məntiqi şəkildə tənzimlənməsi;**

**4) isbatı;**

**5) və müdafiəsidir.**[2]

İndi isə bu vəzifələri ayrı-ayrılıqda izah edək:

1. Bildiyimiz kimi islam maarifi iki əsas mənbəyə, yəni Quran və sünnəyə əsaslanır. Bu səbəbdən kəlamçının ilk işi bu iki mənbəyə müraciət etməklə dini etiqadları üzə çıxarmaq və dini mətnlərin dərki üçün mötəbər sayılan metodlardan istifadə etməklə Quran və sünnənin məzmununu başa düşməkdir. Qeyd etmək lazımdır ki, kəlamçının tədqiqat obyekti islamın nəzəri təlimlərindən ibarətdir ki, bu sahəyə "etiqadi prinsiplər" deyilir (fiqh elmində isə əksinə olaraq, praktiki məsələlər araşdırılır).

2. Kəlam elminin əsas vəzifələrindən biri də dini etiqadları heç bir qaranlıq qalmadan izah etməkdir. Kəlamçı dini etiqadları Quran və hədislərdən çıxardıqdan sonra onları hər bir insanın düşüncəsinə uyğun ibarələrlə aydın şəkildə bəyan edir. Kəlamçı bu mərhələdə Quran və hədislərdən üzə çıxardığı həqiqətləri ən gözəl bəyanla çatdırmaq üçün digər elmlərin terminlərindən və qaydalarından istifadə etməyə məcbur olur. Kəlamçılar bu mərhələdə etiqadi düşüncələrin münasib formada çatdırılması üçün öz fəlsəfi və elmi məlumatlarından istifadə edirlər və hər bir kəlamçı bu yolda öz təfəkkürünə uyğun metodlar seçir.

3. İslamın etiqadi təlimləri dinin əsas mənbələrində, xüsusilə Quranda ardıcıl və nizamlı şəkildə gəlməmişdir. Bu səbəbdən kəlam alimlərinin vəzifəsi müxtəlif mövzuda olan təlimləri tənzimləmək və onların bir-biri ilə qarşılıqlı əlaqəsini aşkar etməkdir. Başqa sözlə desək, kəlam elminin hədəflərindən biri etiqadi təlimlərin toplusu üçün vahid bir sistem yaratmaqdır, belə ki, hər bir mövzunun yeri müəyyən edilsin və komponentləri arasında heç bir ziddiyyət olmayan harmonik bir məcmuə meydana gəlsin. Beləliklə, etiqadi prinsiplər arasında mövcud olan uyğunsuzluğu aradan qaldırmaq kəlamçının vəzifəsidir.

Qeyd etmək lazımdır ki, kəlam alimləri bir çox hallarda bu məsuliyyətin öhdəsindən gəlmək üçün kəlam elminin əsaslarında yenidən təhlillər aparır və nəticədə daha dərin həqiqətlərə yol açırlar.

---

[2] Kəlam alimləri bu elmə müxtəlif təriflər vermişlər. Əbdürrəzzaq Lahici, "Şəvariqül-ilham", səh. 3, 8; "Gövhəri-murad", səh. 18.

4. Kəlamçılar dini əqidələri izah edib, tənzimlədikdən sonra sübuta ehtiyacı olan təlimlərin düzgünlüyünü möhkəm və dəqiq sübutlarla isbat etməyə və heç bir şübhə yeri qoymamağa çalışırlar.

5. Kəlam elminin əsas vəzifələrindən biri də dini və kəlami prinsipləri əqli şəkildə müdafiə etməkdir. Bir çox hallarda etiqadi prinsiplər və dini təlimlər müxaliflərin etirazına tuş gəlir. Kəlam alimləri bu məqamda məqsədəuyğun və mötəbər metodlardan istifadə etməklə etirazlara cavab verir və bu yolla dini etiqadları müdafiə edirlər.

## Kəlam elminin metodu

Hal-hazırda elmlərin metodlarının təsnifatı haqda müxtəlif nəzəriyyələr mövcuddur. Klassik bir təsnifata əsasən, elmlərin tədqiqat metodu üç əsas yerə bölünür: əqli, təcrübi və nəqli. Bu bölgünü nəzərə almaqla demək olar ki, kəlam elmi əsasən, əqli və nəqli metodlardan istifadə edir.

Əqli metodda tədqiqat əqli və məntiqi qaydalar əsasında irəliləyir. Burada adətən deduktiv[3] metoddan istifadə edilir. Nəqli metod əsasında olan tədqiq isə xüsusi bir mənbənin sözlərinin mötəbər olmasına əsaslanır. Quran ayələrinə istinad etmək nəqli metoda bariz misaldır. Quran ayələri kəlamçı üçün mötəbərdir, belə ki, ayələrin məzmununun düzgünlüyü və həqiqətlə tam uyğunluğu onun üçün sübuta yetmişdir.

Nəqli metodun mahiyyətinə diqqət etsək görərik ki, bu metodun mötəbər olması ağılla isbat edilir. İlk öncə hər hansı bir sözün və ya nəql edilmiş məsələnin etibarı əqli sübutlarla isbat edilməlidir və yalnız bundan sonra etibarı ağılla isbat olunmuş nəqli metodla istənilən nəticənin düzgünlüyünə nail ola bilərik.

Hər halda, kəlamçılar hər iki metoddan istifadə edirlər. Əlbəttə, unutmaq olmaz ki, kəlam elmində bəhs olunan məsələlər üç yerə bölünür:

1. Onların bir hissəsi həm əqli, həm də nəqli (Quran və hədislər) dəlillərlə isbat edilir. Kəlam elminin bir çox hissəsi bu növ məsələlərdən ibarətdir. Misal olaraq, Allahın sifətləri məsələsində hər iki metoddan istifadə edilir.

2. Bəzi məsələlərdə təkcə əqli metoddan bəhrələnmək olar. Allahın varlığını və ya islam peyğəmbərinin (s) nübuvvətini isbat etmək bu qrupa aiddir.

3. Başqa bir sıra məsələləri də yalnız nəqli metodla sübuta yetirmək mümkündür. Bu növ məsələlərin bariz misalı insanın ölümdən sonrakı və ya axirət dünyasındakı həyatının təfərrüatıdır. Bu məsələlərdə əqli dəlillərlə nəticə çıxarmaq mümkün deyil, yalnız Quran və hədislərə istinad etmək lazımdır.

---

[3] **Deduksiya** – ümumi hökmlərdən xüsusi hökmü nəticə çıxarmaq üsuluna deyilir. (Red.)

## Bu elmin kəlam adlanmasının səbəbi

Kəlam elminə yiyələnmək istəyənlərin başlıca suallarından biri bu elmin adı ilə bağlıdır. "Bu elm nə üçün kəlam adlanmışdır?" sualının cavabında qəti bir fikir yoxdur. Məsələn, bəzilərinin fikrincə, ilkin firqələr arasındakı ən böyük ixtilaf Allahın kəlamının məxluq və ya əzəli olması barəsində olduğu üçün bu elm kəlam adlanmışdır. Digər bir ehtimal budur ki, bu elm dini məsələlərdə nitq və danışıq qabiliyyətini gücləndirir və elə bu səbəbdən "kəlam" adlanmışdır. Hər halda bu elmə verilən adın səbəbi haqqında müxtəlif ehtimallar mövcuddur, lakin onlardan heç birini düzgün və qəti bir fikir olaraq qəbul etmək olmaz.[4]

## Kəlam elminin əhatə dairəsi

Əvvəldə kəlam elminə verdiyimiz tərifdən bu elmin əhatə dairəsinin geniş olması aydın olur. Bununla belə, dinin ən əsas təlimlərini və kəlam elminin məsələlərini üç əsas mövzuda qruplaşdırmaq olar:

1) Allah haqqında təlimlər;

2) hidayətçi haqqında təlimlər (nübuvvət və imamət);

3) məad haqqında təlimlər.

Şübhəsiz, islam dini insan və kainat haqqında dərin təlimlərə malikdir. Kəlam elmində isə bir sıra məsələlərin, o cümlədən fitrət, feildə tövhid, bəşərin dinə və nübuvvətə ehtiyacı, məadın keyfiyyəti və s. kimi bəhslərin bir cəhətdən antropologiya ilə bağlı olmasına baxmayaraq, kəlamçılar antropologiya mövzusuna ayrıca yer verməmişlər.

Kosmologiya da bu qəbildəndir. Son zamanlar kəlam elmində yazılmış və islam filosoflarından təsirlənmiş bir sıra kitablarda kosmologiyanın məsələlərinə də toxunulmuşdur. Amma qeyd etmək lazımdır ki, belə məsələlərin bəhs olunması məhz fəlsəfi atmosferdə baş vermişdir və kəlami xarakter daşımır.[5]

Şübhəsiz, kəlam elminə tam şəkildə yiyələnmək üçün onun məsələləri ilə tanış olmaqdan əlavə, bir sıra bəhslərin geniş şəkildə müzakirə olunması lazımdır. O cümlədən, kəlam elminin başlanğıcından bu günə qədərki tarixini araşdırmaq, müxtəlif kəlami firqələrinin nəzəriyyələrini öyrənmək, bu elmin təfsir, fəlsəfə, irfan və s. kimi

---

[4] Təftazani "Məqasid" kitabının şərhində bu barədə beş ehtimal qeyd etmişdir. Təftazani, "Şərhul-məqasid", səh. 164.

[5] Qeyd edilmişdir ki, özü həm böyük filosof, həm də məşhur kəlamçı olan Nəsirəddin Tusidən sonra şiə kəlamı fəlsəfə elmindən təsirlənmişdir. Sonralar bir çox kəlam alimləri Nəsirəddin Tusiyə tabe olaraq, öz kitablarının başlanğıcının əsas hissəsini ontologiyaya həsr etmişlər. Bax: Nəsirəddin Tusi, "Təcridül-etiqad", birinci və ikinci bölüm.

islamın digər elmləri ilə əlaqəsini tarixi və nəzəri cəhətdən araşdırmaq kəlam elmi haqqında hərtərəfli təsəvvür yaratdığı üçün onların öyrənilməsi zəruridir. Lakin bu kitabın hədəflərini və onun məhdud olduğunu nəzərə alıb, müqəddiməmizi burada sona çatdırır və kəlam elmini "Allahı tanıma" bəhsi ilə başlayırıq.

# Birinci bölüm

# Allahı tanıma

## Birinci fəsil

## Müqəddimə

Kitabın girişində qeyd etdiyimiz kimi, kəlam elminin məsələlərini üç əsas mövzuda qruplaşdırmaq olar:

1) Allah haqqında təlimlər;

2) hidayətçi haqqında təlimlər;

3) məad haqqında təlimlər.

Bəhsimizi Allah haqqında təlimlərlə başlayırıq.

### Allahı tanımanın əhəmiyyəti

Allahı tanımanın əhəmiyyəti və insan həyatında dərin təsiri inkar edilməzdir. Tarix bu həqiqətə şahiddir ki, aləmin yaradıcısını tanımaq həmişə bəşəri düşündürmüşdür. Dinin müxtəlif mənbələrinin əsas bir hissəsi aləmin yaradıcısına və ya başqa sözlə desək, Allaha və Onun insanla, təbiətlə rabitəsinə həsr edilmişdir.

Allahı tanımanın bəşəriyyətin düşüncə tarixində geniş və dinamik şəkildə yer tutması bu mövzunun nə qədər böyük əhəmiyyətə malik olmasını göstərir.

Allahı tanımanın əhəmiyyətini insanların fərdi və ictimai həyatlarında olan təsir nöqteyi-nəzərdən də araşdırmaq olar. Şübhəsiz ki, Allaha inanan bir şəxsin həyatı bu həqiqəti danan bir şəxsin yaşayışı ilə əsaslı şəkildə fərqlənir. Eləcə də, Allaha fərqli düşüncə və təsəvvürlərlə inanan iki şəxsin həyatını müqayisə edərkən böyük fərqlər aşkara çıxır. Bu onu göstərir ki, insanın Allaha olan inancı və bu inancdan əldə etdiyi düşüncələr onun fikrində, istəklərində, rəftarında və mühakimələrində böyük təsir bağışlayır, bir sözlə desək, insanın yaşayışına özünəməxsus bir məna verərək, onun şəxsiyyətinin formalaşmasına təsir göstərir.

### Allahı tanımanın zəruriliyi

Gələcək bəhslərimizdə qeyd edəcəyik ki, Allahı tanımanın bir dərəcəsi fitri şəkildə insanların varlığı ilə yoğurulmuşdur. Amma bu növ idrak ibtidai bir tanışlıq olduğu üçün Allahı layiqli şəkildə tanımaq sayılmır və sadəcə, insanın Allah haqqında dərkinin tərəqqisinə zəmin yaradır. Odur ki, bu fitri və ibtidai idrakdan qafil olmayan insanlar bu

yolda böyük addımlarla irəliləməyə ehtiyac duyurlar. Bu ehtiyac insanın Allahı daha dərindən tanımaq üçün çalışmasının əsas amilidir.

Bununla belə, kəlam alimləri insanların Allahı tanımaq istiqamətində daha artıq səy göstərmələri üçün Allah haqqında axtarışların zəruriliyini isbat edən müxtəlif dəlillər qeyd etmişdirlər. Burada onlardan ikisini nümunə olaraq oxuculara təqdim edirik:[6]

1. Ehtimal olunan zərəri və əzabı dəf etmək. Bu dəlilin məzmunu ondan ibarətdir ki, ilahi peyğəmbərlərin göndərilməsindən, onların Allaha iman gətirməyə və bir sıra vəzifələr yerinə yetirməyə çağırışından, eləcə də başqa bir dünya haqqında olan iddialarından azacıq xəbərdar olan hər hansı bir insan bu həqiqətlərə inanmasa belə, ən azından bu sözlərin düzgün olmasına ehtimalla yanaşar. Bu surətdə insanın zehnində belə bir ehtimal yaranar ki, peyğəmbərlərin çağırışı həqiqətə uyğun ola bilər. Nəticədə, belə bir ehtimal yaranır ki, peyğəmbərlərin gətirdikləri vəzifələrə əməl etməyənləri əzab və cəza gözləyir və bu cəhətdən böyük bir ziyana uğraya bilərlər. Digər tərəfdən isə ağıl hökm edir ki, insan hətta ehtimal olunan məsələlərdə də bacardığı qədər ziyan və əzabdan özünü qorusun.

Beləliklə, hər bir insan üçün belə bir ehtimal var ki, dinin qanunlarına tabe olmamaq nəticəsində əzab və cəza ilə qarşılaşacaqdır. Digər tərəfdən, ağıl, hətta ehtimal həddində olan ziyanı da dəf etməyi zəruri hesab etdiyi üçün Allahın varlığı və Onun sifətləri haqqında düşünməyə hökm edir ki, birdən bu ehtimal həqiqətlə uyğun olarsa (yəni Allahın vücudu və peyğəmbərlərin dəvəti düzgün olan təqdirdə), insan Allahın əzabından xilas olsun.

2. Nemət sahibinə şükür etməyin zəruriliyi. Şübhəsiz, hər bir insan öz həyatında bir çox nemətlərdən bəhrələnir ki, bu nemətləri insan özü özünə verməmiş, əksinə başqa bir varlıq tərəfindən ona bəxş edilmişdir. Digər tərəfdən, ağıl nemət bəxş edənə şükür etməyi vacib və zəruri hesab edir. Deməli, hər bir insan öz nemət sahibinə təşəkkür etməlidir. Hər hansı bir varlığa təşəkkür etmək, o varlığı tanımaqdan asılı olduğundan ağıl hökm edir ki, həqiqi nemət sahibini (Allah-taalanı) tanımaq istiqamətində addım atılsın.

Beləliklə, Allahı tanımanın insan həyatındakı həlledici rolunu, eləcə də ehtimal olunan ziyanın qarşısını almağın və həqiqi nemət sahibinə şükür etməyin zəruri olmasını nəzərə alsaq, deməliyik ki, Allah haqqında axtarışlar faydalı olmaqdan əlavə, həm də lazımlı və zəruri bir işdir.

---

[6] Bu məsələ bəzi kəlam kitablarında "Vucubun-nəzər" (Allah haqqında araşdırmanın zəruriliyi) adı ilə qeyd edilmişdir. Şiə və mötəzilə kəlamçılarının fikrincə, bu zərurilik ağılla, əşərilərin fikrincə isə şəriət vasitəsilə isbat olunur. Əllamə Hilli, "Kəşful-murad", səh. 260, 261; Camaləddin Miqdad ibn Abdullah Süyuri (Fazil Miqdad); "İrşadut-talibin ila nəhcil-müstərşidin", səh. 111-113.

## Allahı tanımanın müxtəlif mərhələləri

Allahı tanıma bəhsinin əsas müqəddimələrindən biri budur ki, Allahı tanımaqdan danışılarkən müxtəlif mənalar nəzərdə tutula bilər. Başqa sözlə desək, Allahı tanımanın müxtəlif mərhələləri vardır ki, onların ən əsası bunlardır:

**1. Allahın həqiqətini və zatını dərk etmək.** Allahı tanıma dedikdə, bəzən Allahın zatını tanımaq başa düşülür. Allahı tanıma bu mənada mümkündürmü? Kəlamçıların və teosofların[7] bu suala cavabları mənfidir. Əqli və nəqli dəlillər təsdiq edir ki, Allahın həqiqətinə və zatına varmaq nə insan, nə də digər bir məxluq üçün mümkün deyildir.

Bu məsələnin əqli dəlili bundan ibarətdir ki, gələcək bəhslərdə qeyd edəcəyimiz kimi Allahın zatı sonsuz və mütləq, başqa varlıqlar isə (o cümlədən insan) məhduddur. Digər tərəfdən, hər hansı bir şeyi dərk etmək subyektin (dərk edənin) obyektə (dərk olunana) əhatəsi deməkdir. Məhdud varlıqların sonsuz və mütləq varlığı əhatə etməsi mümkün olmadığı üçün məxluqların Allahın zatını dərk etməsi mümkün deyildir. Bu səbəbdən Allahın zatı nəinki bizim üçün məchuldur, hətta belə bir idrak mümkün deyil.[8]

**2. Allahın var olmasını dərk etmək.** Allahı tanımağın digər bir mərhələsi Allahın var olduğunu bilməkdən ibarətdir. İnsan bu dərk sayəsində ateistlərdən və skeptiklərdən[9] ayrılır və Allaha inananların cərgəsinə daxil olur. Bəşər nəinki bu cür dərkə nail ola bilər, hətta bu idrak Allahı tanımanın digər mərhələlərinin təməli sayılır. Allaha inananların hamısı Onu eyni şəkildə vəsf etmədikləri üçün burada idrak obyekti barədə konkret tərif vermək mümkün deyildir. Bununla belə, təqribən demək olar ki, insanlar bu mərhələdə ümumi şəkildə aləmin ülvi bir mənbəyinin, müqəddəs və əzəmətli bir varlığın olmasını təsdiq edirlər.

**3. Allahın sifətlərini və feillərini dərk etmək.** Allah-taalanın sifətlərini və feillərini tanımaq da Onu tanımağın mərhələlərindən biridir. İnsan "Allah vardır" cümləsi şəklində Allah-taalanın varlığını təsdiq etdikdən sonra onun sifətlərini və feillərini təfərrüatı ilə tanımaq istiqamətində addımlamağa başlayır. İkinci mərhələ Allaha inananları ateistlərdən və skeptiklərdən ayırırdısa, bu mərhələ Allaha inananları müxtəlif qruplara bölür. Başqa sözlə desək, istər müxtəlif dinlər, istərsə də vahid dinin müxtəlif məzhəbləri arasında Allah-taala ilə bağlı əqidə ixtilafları buradan qaynaqlanır. Misal olaraq, islam dini ilə xristian dini arasında olan ixtilaflar məhz "üç üqnum" və

---

[7] Teosofiya - dini fəlsəfə

[8] Quran bu həqiqəti təsdiq edərək, buyurur: "Onların elmi isə Allahın zatını əhatə edib qavraya bilməz!", "Taha": 110.

[9] **Skeptisizm** – obyektiv varlığın insan tərəfindən dərk edilə bilməsini inkar edən fəlsəfi cərəyana deyilir. Burada isə skeptik dedikdə əsasən Allahın varlığının dərk edilə bilməsini inkar edənlər nəzərdə tutulur. (Red.)

"təcəssüm"[10] kimi Allahın bəzi sifətləri haqqında mübahisədən irəli gəlir ki, xristianlar bunları Allahın sifətlərindən hesab edir, müsəlmanlar isə inkar edirlər. Digər tərəfdən, müsəlmanların bir qrupu Allahı cisim hesab edirlər, halbuki islamın bir çox firqələri bu etiqadla müxalifdirlər və Allahı cisimlikdən, cismə aid xüsusiyyətlərdən pak bilirlər. Bir sözlə, Allahı tanıma mövzusunda mövcud olan ixtilafların ən çoxu Allahın sifətləri haqqında olan ixtilafdan irəli gəlir.

Deyilənləri nəzərə almaqla, bu kitabda, Allahı tanıma mövzusunun əsas bəhslərini Allahın varlığı məsələsi ilə başlayırıq. Sonra isə Onun sifətləri və feillərindən bəhs edəcəyik.

## Allahı tanımanın yolları

İnsanların Allahı tanıma istiqamətində getdiyi yolun özəl xüsusiyyətlərini nəzərə alsaq, deməliyik ki, hər bir insan özünəməxsus yolla Allahı tapır və tanıyır. Bu nöqteyi-nəzərdən Allahı tanıma yolları saysız-hesabsızdır və elə buna görə də deyirlər ki, Allaha tərəf olan yollar yaranışın sayı qədərdir.

Amma əgər bu yolların oxşar cəhətlərini nəzərə alsaq, onları ümumi qruplara bölmək olar. Filosoflar və kəlamçılar tərəfindən hər biri xüsusi meyarlara əsaslanan müxtəlif təsnifatlar irəli sürülmüşdür. Nümunə olaraq, onlardan ikisini burada qeyd edirik.

**1. Nəzəri yol.** Burada hər bir insan əqli prinsiplər ilə Allahın varlığını, onun sifətlərini və feillərini isbat edir.

**2. Praktiki və əməli yol.** İnsan ruhi paklıq və mənəvi saflıq nəticəsində qəlb gözü ilə Allahı və Onun camal və calal sifətlərini dərk edir.

Digər bir bölgünü nəzərə alsaq, Allahı tanımanın əsas yolları ağıl, təcrübə və intuisiyadan ibarətdir.

**1. Ağıl.** Burada insan sırf əqli prinsiplər əsasında Allahın varlığını və Onun sifətlərini sübuta yetirir, eləcə də Onun feilləri haqqında bəhs edir. Allahı isbat edən fəlsəfi dəlillər bu metoddan hesab olunur.

**2. Təcrübə.** Bəzən insan sırf əqli prinsiplərdən istifadə etmək əvəzinə öz ətrafındakı aləmə nəzər salaraq, dünyada mövcud olan hadisələrin xüsusiyyətlərini və onlar arasında olan əlaqələri dəqiqliklə müşahidə edib düşünməklə Allahın varlığını və Onun elm, hikmət, qüdrət və s. kimi sifətlərini dərk edir. Bu yol təbiət aləmini müşahidəyə əsaslandığından, "təcrübə yolu" adlanır. Qeyd etmək lazımdır ki, bu yolda bir sıra əqli prinsiplərə və metodlara əsaslanmadan nəticəyə çatmaq olmaz və beləliklə, təcrübəni ağıldan ayrı təsəvvür etmək mümkün deyil. Teleoloji dəlil bu növ dəlillərdən sayıla bilər.

---

[10] Xristianların inancına əsasən Allah-taala tək olmaqla bərabər, həm də "üç şəxs" və ya "üç üqnum"dur. Digər bir etiqadları da bu üç şəxsdən birinin həzrət İsanın (ə) cismani bədənində yerləşməsidir. Bu etiqada "təcəssüm" deyilir.

**3. İntuisiya.** Bəzən də insan əqli dəlillərə və təcrübəyə əsaslanmadan, daxili aləminə müraciət etməklə Allahı duyur və qəlb yolu ilə Onu dərk edir. Fitri yolla Allahı tanıma buna misal ola bilər.[11] Ariflərin qəlbi müşahidəsini də bu qəbildən hesab etmək olar.

**Ümumi və xüsusi yollar**

Allahı tanımanın yollarını ümumi və xüsusi yollara ayırmaq olar. Ümumi yol dedikdə, hamı üçün mümkün olan yol nəzərdə tutulur. Demək olar ki, elminin və savadının səviyyəsindən asılı olmayaraq, bütün insanlar bu yoldan bəhrələnə bilərlər. Xüsusi yolun isə özünəməxsus müqəddimələri vardır. Bir çox insanlar üçün bu yoldan istifadə etmək ya qeyri-mümkündür, yaxud olduqca çətindir. Fəlsəfi dəlillərin bir hissəsi bu qəbildəndir. Halbuki sadə dəlillər, eləcə də teleoloji dəlil daha kütləvi xarakter daşıyır və fitrət yolu da (maneə olmadığı təqdirdə) hamının üzünə açıqdır.

Hazırkı mövzumuz olan Allahı tanıma məsələsində ilk öncə fitrət yolunu və sonra teleoloji dəlili araşdırıb, nəhayət Allahın varlığına əqli dəlilləri oxucunun diqqətinə çatdıracağıq.

**Terminlər**

Ehtimal olunan ziyanı dəf etmək

Nemət sahibinə şükür etməyin zəruriliyi

Allahı tanımanın yolları: ağıl; təcrübə; vasitəsiz bilik.

**Birinci fəslin xülasəsi**

1. Allahı tanıma məsələsi nəzəri və elmi əhəmiyyətə malik olmaqdan əlavə, insanın həyatında böyük rol oynayır. Allaha və Onun sifətlərinə olan etiqad insanın stimullarında, mühakimələrində və rəftarlarında dərin təsir bağışlayır.

2. Allahı tanıma əhəmiyyətli məsələ olmaqla bərabər, həm də zəruri bir işdir. Allaha olan fitri dərkin dərinləşdirilməsinə olan ehtiyac, eləcə də ehtimal verilən ziyanı dəf etməyin və nemət sahibinə şükür etməyin vacibliyi Allahı tanıma istiqamətində addımlamağın zəruriliyini təsdiq edir.

3. Allahı tanıma üç əsas mərhələdə müzakirə edilir.

a) Allahın zatını tanımaq; bu növ dərk məxluqların heç biri üçün mümkün deyil.

b) Allahın varlığını bilmək;

c) Allahın sifətlərini və feillərini tanımaq.

İkinci və üçüncü mərhələ hər bir insan üçün mümkündür. İkinci mərhələ dindarları ateist və skeptiklərdən ayırır. Digər tərəfdən, dindarların Allahın sifətləri və feilləri

[11] Bəzən fitrət dəlilinə bir sıra müqəddimələr əlavə etməklə əqli sübuta çevrilir. Bu halda artıq qəlb yolu sayıla bilməz.

haqqında müxtəlif təsəvvürlərə malik olması müxtəlif dinlərin və məzhəblərin ardıcılları arasında fikir ayrılığına səbəb olur.

4. Allahı tanıma yollarının saysız-hesabsız olmasına və hər bir insanın özünəməxsus yolla hərəkət etməsinə baxmayaraq, bu yolları üç əsas dəstədə qruplaşdırmaq olar:

a) ağıl yolu;

b) təcrübə yolu;

c) qəlb və intuisiya yolu.

Allahın varlığına əqli dəlillər birinci yola aiddir. Teleoloji dəlil və fitrət yolu da uyğun olaraq ikinci və üçüncü yollara aid edilir.

5. Allahı tanımanın bəzi yolları ümumidir, belə ki, hamı bu yoldan istifadə edə bilər. Amma digər bir qisim məhz xüsusi bir qrupun imkan dairəsindədir.

## İkinci fəsil

### Fitrət

### Giriş

Qeyd etdiyimiz kimi Allahı tanımanın yollarından biri qəlb yoludur. Bu yolun ilk mərhələsi Allahı fitri yolla tanımaqdan başlayır ki, buna "fitrət yolu" deyilir. Bu yolun inkişaf etmiş forması isə ariflərin sülukunda özünü əks etdirir. Ariflər o kəslərdir ki, ibadət və mənəvi saflıq nəticəsində Allahın camal və calal sifətlərini bəsirət gözü ilə dərk edirlər.

Burada "fitrət yolunu" qısa da olsa izah etmək istəyirik. Amma hər şeydən öncə bir neçə məsələni xatırlatmağı zəruri hesab edirik:

**Fitrət sözünün leksik və terminoloji mənası**

"Fitrət" sözünün kökü olan "fətr" hər hansı bir şeyi uzununa yarmaq mənasını verir. Sonralar hər cür yarmağa da "fətr" deyilmişdir.

"Fətr"sözünün mənalarından biri yaratmaq və xəlq etməkdir. Çünki yaranış da həqiqətdə bir növ yoxluq pərdəsini yarmaq deməkdir. "Fitrət" sözü ərəb morfologiyasına görə "fi`lət" vəznində olan məsdərdir və bu vəzndə olan məsdərlər tərzi-hərəkət mənası ifadə edir. Odur ki, fitrət xüsusi tərzdə olan yaranışa deyilir.

Yuxarıda deyilənləri nəzərə alaraq demək olar ki, fitrət dedikdə, bir şeyin bir sıra özəlliklərə malik olan xüsusi yaranışı və xilqəti nəzərdə tutulur. İslam alimləri bəlkə də fitrət terminini işlədərkən Qurandan ilham almışlar. Quranda buyurulur:

﴿فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَةَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا﴾

"Batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə tərəf tut". (Rum surəsi: 30)

Hər halda, islam təfəkkürünə əsasən, Allah-taala insanı yaradarkən xüsusi istəkləri və düşüncələri onun təbiətində qoymuşdur. Bu istəklər və düşüncələr fitridir və geniş bir sahəni əhatə edir. Burada isə bizim bəhsimiz bu fitri düşüncələrdən yalnız biri haqqında, yəni Allahın var olduğunu fitri şəkildə təsdiq etmək barəsindədir.[12]

---

[12] "Fitrət" mövzusu islamda antropologiyanın əsas məsələlərindəndir və hələ də bu haqda geniş tədqiqə ehtiyac var. Əlavə məlumat üçün bax: Şəhid Mütəhhəri, "Fitrət"; Misbah Yəzdi, "Maarifi-Quran" 1-3-cü cild, səh. 26-47; Əli Şirvani, "Sirişti-insan"; "Pejuhişi dər xodaşinasiye-fitri".

**Allahı fitri tanımanın izahı**

"Fitrət" sözünü mənalandırdıqdan sonra Allahı fitri tanımanın mənasını aydınlaşdırmaq lazımdır ki, Allaha fitri etiqad dedikdə, nə nəzərdə tutulur? Bu sualın cavabında müxtəlif fikirlər mövcuddur. Onlardan ən əsasını qeyd edirik:

**1. "Allah-taala mövcuddur" hökmü ilkin prinsiplərdəndir.** Bu nəzəriyyəyə əsasən, "Allahı tanımaq fitridir" - dedikdə, "Allah vardır" hökmünün ilkin prinsiplərdən olması nəzərdə tutulur.

Məntiq elmində aksiomlar bir neçə növə bölünür ki, onların bir növü də ilkin prinsiplərdir. İlkin prinsiplər o hökmlərə deyilir ki, insanın təkcə subyekt ilə predikatı və onlar arasındakı əlaqəni təsəvvür etməsi həmin hökmlərin doğruluğunu təsdiq etmək üçün kifayətdir, başqa bir şeyi təsəvvür etməyə, yaxud başqa bir hökmdən sübut üçün istifadə etməyə ehtiyac yoxdur. Misal olaraq, tamın öz hissəsindən böyük olması, eləcə də üçüncünü istisna qanunu ilkin prinsiplərdəndir. Beləliklə, Allaha etiqadın fitri olması dedikdə, "Allah vardır" hökmünün ilkin prinsiplərdən olması başa düşülür.[13]

**2. "Allah-taala mövcuddur" cümləsi fitri hökmlərdəndir.** Aksiomların başqa bir növü fitri hökmlər adlanır. Məntiq elmində fitri hökm o hökmə deyilir ki, insan onun doğruluğunu dəlillə təsdiq edir, lakin həmin hökmə diqqət etməklə onun dəlili də dərhal zehində hazır olur. Riyaziyyatda olan "iki dördün yarısıdır"və s. kimi bir sıra hökmlər fitri hökmlərdən sayılır.

İkinci nəzərə əsasən, Allahı tanımaq fitridir deyildikdə "Allah mövcuddur" hökmünə diqqət etməklə dərhal onun dəlilinin də zehnə gəlməsi nəzərdə tutulur. Bu səbəbdən dərhal təsdiqlənir və qəbul edilir. Bu dəlil mümkün varlıqların zəruri varlığa ehtiyaclı olması qanunu, yaxud buna bənzər başqa qanunlar ola bilər.

Hər halda, ikinci nəzərə əsasən, "Allahı tanımaq fitridir" - dedikdə, Allahın varlığına tam aydın dəlillərin olması nəzərdə tutulur ki, azacıq diqqət etdikdə bu dəlillər zehində hazır olur və insan Allahın varlığına yəqin edir.

**3. İnsan dünyaya gəlməzdən öncə Allah-taala Özünü ona tanıtdırmışdır.** Allahı fitri şəkildə tanımaq haqqında digər bir nəzəriyyəyə görə insan təbiət aləminə gəlməzdən öncə digər bir aləmdə olmuş, Allah-taala orada özünü camal və calal sifətləri ilə birlikdə ona göstərmişdir. Bu mənəvi görüşdən sonra bütün insanlar Allahın varlığını təsdiqləmişlər. Əlbəttə, insan təbiət aləminə qədəm qoyduqdan sonra Rəbbi ilə mənəvi görüşün təfərrüatını yaddan çıxarmışdır. Lakin bu idrakın əsası hamının təbiətində qalır və aradan getməmişdir.

Bu nəzərin tərəfdarlarının əsaslandıqları müxtəlif hədislərdən və ayələrdən biri də "Əraf" surəsinin 172sidir.

---

[13] Qeyd etmək lazımdır ki, Allahın varlığını dərk etməyin fitri olması çətin mövzulardandır və geniş tədqiqə ehtiyacı var.

﴿وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتَ بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا أَن تَقُولُواْ يَوْمَ الْقِيَامَةِ إِنَّا كُنَّا عَنْ هَذَا غَافِلِينَ﴾

"Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən nəsillərini çıxardıb onları özlərinə şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!" – deyə cavab vermişdilər. Qiyamət günü: "Biz bundan qafil idik"- deməməniz üçün belə etdik".[14]

**4. Bütün insanlar Allahı vasitəsiz idrakla, yəni intuisiya ilə tanıyırlar:** Bu nəzəriyyəyə görə, Allahı tanımanın fitri olmasının mənası hər insanın öz Yaradanını vasitəsiz idrakla dərk etməsidir. Geniş izah üçün vasitəsiz idrakla vasitəli idrakın fərqini əziz oxucuların diqqətinə çatdırırıq.

Alimlər bir qayda olaraq, idrakın iki növünü fərqləndirirlər: vasitəli və vasitəsiz

Vasitəli idrak zehni məfhumlar vasitəsi ilə yaranır, belə ki, hər hansı bir şeyi dərk etmək zehnimizdə o şeyin təsvirinin yaranması ilə mümkün olur. Vasitəsiz idrak isə binun əksinədir. Bu idrakda zehindəki hansısa bir təsvir və ya məfhum rol oynamır, əksinə dərk olunan şeyin özü (obyekt) dərk edən (subyekt) ilə birbaşa rabitədə olur. Bu iki növ idrakın digər bir fərqi də budur ki, vasitəli idrakda səhv etmək ehtimalı var, vasitəsiz idrakda isə dərk edən dərk olunanın təsvirini deyil, özünü birbaşa dərk etdiyi üçün səhv etmək ehtimalı yoxdur.

Sonuncu təfsirə görə, Allahı dərk etməyin fitri olması o deməkdir ki, insan öz vücudunun dərinliyində Allahı intuisiya ilə dərk edir. Belə bir dərk əqli dəlillərlə deyil, insanın vücudunun dərk olunan həqiqətlə birbaşa əlaqəsindən irəli gəlir.[15] İnsan bu dərk vasitəsi ilə Allahı öz vücudunun dərinliyində duyur və onu qəlb gözü ilə dərk edir. Burada "Allah" məfhumundan və ya "Allah vardır" hökmündən söz açılmır. Vasitəsiz idrak dedikdə, qəlblə dərk etmə, yəni intuisiya nəzərdə tutulur.

Allahı tanımanın fitri olması haqqında qeyd etdiyimiz təfsirlərin müxtəlifliyinə baxmayaraq[16], onların hamısı Allahı tanımanın sübuta ehtiyacı olmadığını vurğulayır və insanın daxilindən Allaha doğru yol açır. Bəlkə də elə buna görə, Quran Allahın varlığını aşkar həqiqət hesab edir və Allahla bağlı təlimlərində əsasən, Onun sifətlərindən və feillərindən bəhs edir. Sonda bir neçə məsələni qeyd etməyi lazım bilirik:

---

[14] Bu ayənin təfsirində təfsirçilər arasında fikir ayrılığı vardır. Bu haqda məlumat üçün bax: Məkarim Şirazi, "Peyami-Quran", 3-cü cild, səh. 107, 112.

[15] Allahı intuisiya ilə dərk etməyin fəlsəfi dəlili budur ki, hər bir mücərrəd nəticə, vücudunun əhatə dairəsi miqdarında öz səbəbini intuisiya ilə dərk edir. İnsanın ruhu da mücərrəd olduğundan, öz səbəbini (xaliqini) intuisiya ilə dərk edir.

[16] Birinci və ikinci nəzərə əsasən Allahı tanımanın fitri olması vasitəli elm ilə izah edilir, halbuki dördüncü nəzərə görə bu dərkin vasitəsiz elmlə (intuisiya ilə) olmasına təkid edilir.

1. Allaha etiqadın fitri olması heç də bütün insanların Onun varlığını təsdiq etməsi və dünyada heç bir ateistin və ya skeptikin olmaması demək deyildir. Bildiyimiz kimi, bəzən bir qrup insanlar hətta ən aşkar və aydın həqiqətləri belə inkar edir və ya onlara şübhə ilə yanaşırlar (Məsələn, skeptiklərin bir qrupu obyektiv aləmin varlığına şəkk edirlər). Beləliklə, hər hansı bir hökmün ilkin prinsiplərdən olması ilə bir qrup insanların onu qəbul etməməsi və ya ona şübhə ilə yanaşması arasında ziddiyyət yoxdur. Bu səbəbdən birinci və ikinci nəzər ilə ateist və ya skeptiklərin olması ziddiyyət təşkil etmir.

Üçüncü və dördüncü təfsirə əsasən, insanın Allahı "vasitəsiz idrak" ilə dərk etməsinə baxmayaraq, təbiət aləmi ilə ünsiyyət nəticəsində o, bu idraka olan diqqətini itirə bilər (necə ki, hər hansı bir xəstə sevindirici xəbər eşitdikdə ağrısını unudur, halbuki ağrının amilləri olduğu kimi qalır). Bu səbəbdən insanlar böhran anlarında ümidlərini bütün təbii səbəblərdən üzərkən məhz Allahın sonsuz qüdrətinə üz tutur, ixtiyarsız olaraq Onu səsləyir və Ondan kömək diləyirlər.

Deməli, dünyada ateist və ya skeptiklərin olması Allaha dərkin fitri olması müddəasında heç bir problem yaratmır.

2. Qeyd etdiyimiz kimi, Allaha olan fitri etiqad bəzən insanın təbiətlə olan sıx əlaqəsi nəticəsində unudulur. Bu zaman insanları qəflətdən ayıldan bir amil lazımdır ki, onları təbiətin qovğasından azad edib öz daxili aləmlərinə yönəltsin və qəflət yuxusundan oyatsın. İnsanları qəflətdən ayıldan müxtəlif amillər mövcuddur ki, onlardan bəziləri elmi və bəziləri isə psixoloji amillərdir. İnsanın fitrətinin qəflətdən oyanmasında təsirli olan elmi amillərdən biri Allahın varlığına olan möhkəm əqli dəlillərdir. Beləliklə, Allahı tanımanın fitri olması əqli dəlillərin əbəs və ya səhv olması demək deyil. Odur ki, bir tərəfdən Allahı tanımanın fitri olmasına inanan, digər tərəfdən bu məsələni tutarlı dəlillərlə əsaslandıran alimlərə irad tutmaq düzgün olmazdı.

**Allahı tanımanın fitri olması haqda ayələr**

Ayə və hədislər fitrət nəzəriyyəsini təsdiq edir. Burada onların bir neçəsini qeyd edirik.

Bəzi ayələr islam dinini insanın fitrəti ilə uyğun bir həqiqət hesab edir.

﴿فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَةَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا﴾

"Batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə tərəf tut". ("Rum": 30)

Bu ayə dinin fitri olmasını bəyan etsə də, nəticə etibarı ilə Allaha etiqadın da fitri olması ondan başa düşülür. Çünki əgər din dedikdə, onun əsas təlimləri nəzərdə tutularsa, şübhəsiz ki, Allaha etiqad bu təlimlərin əsasında dayanır. Amma əgər din

Allah qarşısında kiçilmək və ona ibadət mənasına olarsa, şübhəsiz, Allaha ibadətin fitri olması ilə Onun varlığına olan idrakın fitri olması arasında məntiqi bağlılıq vardır.[17]

Allahı tanımanın fitri olmasına başqa bir dəlil "Əraf" surəsinin 172sidir.

﴿وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتُ بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا أَن تَقُولُواْ يَوْمَ الْقِيَامَةِ إِنَّا كُنَّا عَنْ هَذَا غَافِلِينَ﴾

"Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən nəsillərini çıxardıb onları özlərinə şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!" – deyə cavab vermişdilər. Qiyamət günü: "Biz bundan qafil idik"- deməməniz üçün belə etdik". ("Əraf": 172)

Bu ayənin məzmunu dərin və düşündürücüdür. Təfsirçilər bu ayənin təfsirində müxtəlif nəzərlər irəli sürmüşlər. Hətta bəzi alimlər onu mütəşabih ayələrdən hesab etmişlər. Bütün bunlara baxmayaraq, ayədən ümumi şəkildə bunu başa düşmək olar ki, Allah-taala qiyamətə qədər dünyaya gələcək bütün insanları toplamış, onları özlərinə şahid etmiş və onlardan Öz rübubiyyətinə iqrar almışdır. Bu iqrardan məqsəd də bu olmuşdur ki, qiyamət günü kafirlər və müşriklər həqiqətdən xəbərsiz olduqlarını bəhanə etməsinlər.

Hər halda, Allaha etiqadın fitri olmasını insanın təbiət aləmindən öncə Allah ilə qarşılaşması mənasına izah edənlər bu ayəyə istinad edirlər. Təfsirçilərin bir qrupu isə bu qənaətdədir ki, bu ayə simvolik bəyanla insanların Allahı şəxsi və intuitiv idrakla (fitri idrakın mənalarından biri) dərk etdiklərini çatdırır. Belə bir idrak səhvə məruz qalmadığından, dinsizliyə və şəkkə heç bir bəhanə qalmır.

Quranın bəzi digər ayələri də bu həqiqətin şahididir. Belə ki, insanlar çətin və böhranlı şəraitdə, özlərini ölümün bir neçə addımlığında görüb, ümidlərini bütün maddi səbəblərdən üzdükdə, qəlblərinin dərinliklərində gizli qalmış fitri dərk ayılır və ixlasla Allahı çağırır:

﴿فَإِذَا رَكِبُوا فِي الْفُلْكِ دَعَوُا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ إِذَا هُمْ يُشْرِكُونَ﴾

"Gəmiyə mindikləri zaman dini yalnız Ona məxsus edərək (ixlasla) Allaha dua edərlər. Allah onları sağ-salamat quruya çıxaran kimi, yenə də şərik qoşarlar". ("Ənkəbut": 65)

Bu ayələrdən də başa düşmək olar ki, Quran bəşərin Allaha fitri dərkini təsdiq etmişdir.[18]

### Allahı tanımanın fitri olması haqda hədislər

Fitrət məsələsinə çoxlu hədislərdə diqqət yetirilmişdir. Əlbəttə, həmin hədislərdə fitri xüsusiyyətin nə olduğu müxtəlif şəkillərdə bəyan edilmişdir. Bəzi hədislərdə islam dini,

---

[17] Misbah Yəzdi, "Maarifi-Quran", 1-3-cü cild, səh. 37.

[18] Tövhid məsələsində qeyd edəcəyik ki, bu ayələr tövhidin də fitri olmasına sübutdur.

başqa hədislərdə tövhid, nübuvvət və vilayət kimi islamin əsas etiqadi prinsipləri fitri xüsusiyyət olaraq tanıtdırılmışdır. Bəzi hədislərdə isə xüsusi olaraq tövhidin fitri olduğuna təkid edilmişdir. Nəhayət, fitrətlə bağlı hədislər arasında elələri ilə rastlaşırıq ki, Allahı tanımanı fitri xüsusiyyət hesab edir. Məsələn, bir hədisdə deyilir ki, İmam Baqirin (ə) səhabələrindən biri ondan ***"Allaha hənif olub Ona şərik qoşmadığınız halda"*** ("Həcc": 31) ayəsi barədə soruşulduqda buyurdu:

Həniflik o fitrətdir ki, Allah insanları onun üzərində yaratmışdır. Allahın yaranışında dəyişiklik olmaz. Sonra isə buyurdu: Allah-taala insanları Onu tanıma fitrəti ilə yaratdı.

**Terminlər**

Fitrət

İlkin prinsiplər

Vasitəli idrak

Allahı fitri yolla tanıma

Fitri hökmlər

Vasitəsiz idrak (intuisiya)

**İkinci fəslin xülasəsi**

1. Fitrət xüsusi tərzdə olan yaranışa deyilir. İnsanın fitrəti deyildikdə onun özəl xüsusiyyətlərə malik olan xilqəti və xarakteri nəzərdə tutulur.

2. Allahı tanımanın fitri olması barədə müxtəlif təfsirlər var. Onlardan ən əsası bunlardır:

a) "Allah vardır" hökmü ilkin prinsiplərdəndir.

b) "Allah vardır" hökmü fitri hökmlərdəndir. Bu hökmlərin dəlilləri həmişə onların özü ilə birlikdə zehində hazırdır.

c) İnsanlar təbiət aləminə gəlməzdən öncə digər aləmdə olmuşlar və orada Allah-taala mənəvi qarşılaşma yolu ilə özünü onlara tanıtdırmışdır. Təbiət aləminə qədəm qoyduqdan sonra bu idrakın təfərrüatı unudulsa da, ümumi şəkildə hamının vücudunda qalmaqdadır.

ç) Fitri dərk dedikdə, intuisiya (vasitəsiz elm) nəzərdə tutulur. Hər bir insanın varlığı tam şəkildə Allaha bağlı olduğu üçün öz yaradanını şəxsi idrakla dərk edir. Zehni məfhumlar və sübutlar vasitəsi ilə yaranmayan bu idrak fitri idrakın təməlini təşkil edir.

3. Allahı tanımanın fitri olması bütün insanların Onun varlığını təsdiq etməsi və heç bir ateist və ya skeptikin olmaması mənasına deyil.

4. Bəzən insan təbiət aləminə həddən artıq bağlandığı üçün Allaha olan fitri idrakın üzərini qəflət pərdəsi örtür. Bu surətdə elmi və psixoloji amillər insanı qəflət yuxusundan oyadır və onu yeganə olan Yaradana tərəf yönəldir.

5. Allahı tanımanın fitri olması Onun varlığına olan əqli dəlillərin nə lüzumsuz, nə də səhv olması demək deyildir. Beləliklə, bu dərkin fitri olmasına baxmayaraq, Allahın varlığını isbat edən dəlillər faydalı və etibarlıdır.

6. Müqəddəs Quran bir sıra ayələrdə insanların Allaha olan şəxsi və fitri idrakına işarə edərək bildirir ki, fitri idrak əsasən, böhran şəraitində özünü büruzə verir. Bəzi hədislər də Allahı tanımanın fitri olduğunu təsdiq edir.

**Üçüncü fəsil**

**Teleoloji dəlil[19] (nizam dəlili)**

Allahı tanımaqda batini yol sayılan fitrət yolunu araşdırdıq. Yeni söhbət açacağımız mövzu təcrübə yoludur. Qeyd etdiyimiz kimi, burada təcrübə deyildikdə insanın təbiət aləmini araşdırmaqla Allahın varlığını dərk etməsi nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, bu metodun bir sıra imtiyazlarına görə Qurani-kərim ona xüsusi diqqətlə yanaşmış, bir çox ayələrdə insanları Allahın nişanələri olaraq təbiət aləmi barəsində düşünməyə çağırmışdır. Amma görünür, islam filosofları və kəlamçılar bu ümumi və asan yola layiqincə təkid etməmişlər.

Allahı tanımaqda təbiət aləmini araşdırmağa əsaslanan təcrübə metodu "teleoloji dəlil" adlanır. Bu dəlili bəyan etməzdən öncə bir neçə məsələni xatırlatmağı lazım bilirik:

1. İslam filosoflarının və kəlamçılarının bu haqda fikirlərinə nəzər saldıqda aydın olur ki, teleoloji dəlilin mahiyyəti, müqəddimələri və ondan alınan nəticə barəsində əsaslı fikir ayrılığı mövcuddur. Bir qrup alimlər onu təcrübi müqəddimələrə əsaslanan əqli sübut hesab edir, digər bir qrup isə yatmış fitrətlərin oyanması üçün münasib yol sayır.

Bu dəlilin müqəddimələri haqqında da müxtəlif fikirlər mövcuddur. Misal olaraq, "nizam" sözü üçün müxtəlif mənalar qeyd etmişlər. Eləcə də nizamlı əşyalardan Allahın varlığını necə dərk etmək barədə də fikir ayrılığı var. Fikir ayrılıqlarından biri də budur ki, bir qrup bu dəlili Allahın varlığını isbat etmək üçün istifadə edir, digər bir qrup isə onu yalnız Allahın elm, hikmət kimi sifətlərinin isbatı üçün istifadəli bilir.[20]

2. Qeyd etdiyimiz kimi, bu metod məntiqi sübut, yaxud da sadəcə polemik və ya ritorik bir dəlil olmasından asılı olmayaraq, bir sıra xüsusiyyətlərinə görə hamının diqqət mərkəzində olmuşdur. Bu xüsusiyyətlərdən bəzisini aşağıda qeyd edirik:

a) Bu metodda təcrübi və bəzən xariqüladə müqəddimələrdən istifadə olunduğu üçün asanlıqla düşüncələri özünə cəlb edir və insanların qəlbi ilə sıx əlaqə yaradır;

b) Çətin fəlsəfi terminlərə və qanunlara şamil olmadığından, ümumi insanların düşüncəsinə asanlıqla yol tapır;

---

[19] **Teleologiya** – təbiətdə hər şeyin müəyyən məqsədlə yaranmış olduğunu və hər bir inkişafda qabaqcadan müəyyən olunmuş məqsədin həyata keçirildiyini qəbul edən təlimə deyilir. (Red.)

[20] Bəzi müasir alimlərin fikrini müqayisə etmək üçün bax: Əllamə Təbatəbai, "əl-Mizan", 18-ci cild, səh. 154; Şəhid Mütəhhəri, "Eləle gerayiş be maddigəri" (Materializmə yönəlmənin səbəbləri); Misbah Yəzdi, "Amuzeşe-əqaid", 6-cı dərs; Cəfər Sübhani "əl-İlahiyyat əla hudəl-kitabi vəs-sunnəti vəl-əql", 1-ci cild, səh. 33-59; Cavadi Amuli, "Təbyini bərahini isbati xuda", səh. 238-243.

c) Bir çox Quran ayələri ilə məzmunca yaxınlığı bir tərəfdən onu dindarlar üçün xüsusi şəkildə doğmalaşdırır, digər tərəfdən də ağılla vəhyin həmahəngliyini çatdırır;

ç) Təbiət aləminin sirlərini açan və bu aləmin müxtəlif guşələrindəki nizamı kəşf edən təcrübi elmlərin yeni nailiyyətləri ona yaxşı dəstəkdir;

d) Qeyd etdiyimiz xüsusiyyətlərdən əlavə, Allahın varlığını isbat edən digər sübutlarla müqayisədə dindarların imanının daha da möhkəmlənməsində böyük təsirə malikdir.

3. Teleoloji dəlil bütün bu imtiyazlarına rəğmən, klassik kəlam kitablarında alimlərin diqqət mərkəzində olmamış və bir çox kitablarda ona toxunulmamışdır. Bu dəlilə işarə edən alimlərdən əşəri kəlamçısı Fəxrəddin Razinin və şiə kəlamçısı Əbdürəzzaq Lahicinin adını çəkmək olar. Fəxrəddin Razi "əl-Mətalibül-aliyə" kitabında teleoloji dəlili müxtəlif formalarda bəyan etmişdir. Amma onun fikrincə, bu dəlil yalnız digər dəlillərlə birləşdikdə insanda Allahın varlığına yəqin yarada bilər.[21] Əbdürəzzaq Lahici də "Gövhəri-murad" kitabında yaranışın ən mükəmməl şəkildə olduğunu isbat etdikdən sonra teleoloji dəlilin Allahın varlığını deyil, Onun hikmətli olmasını isbat etdiyini qeyd edir.[22]

**Nizam nədir?**

Teleoloji dəlili izah etməzdən və araşdırmazdan öncə bu dəlilin əsasını təşkil edən nizam anlayışını oxucuların diqqətinə çatdırmağı zəruri hesab edirik.[23] Nizam anlayışını təhlil etdikdə nəticə alırıq ki, hər bir nizamda üç ünsür olmalıdır:

1. Bir neçə şeyin toplusu;
2. Bu əşyaları bir-biri ilə əlaqələndirən amil;
3. Bu əşyaların xüsusi şəkildə düzülüşü.

Başqa sözlə desək, nizam elə bir topludur ki, xüsusi bir amil bu toplunun tərkib hissələrini bir-biri ilə əlaqələndirərək, onlar arasında xüsusi bir tərtib və kompozisiya yaradır.[24]

Nizam məfhumu bu geniş mənada müxtəlif predmetlərə şamil olur. Teleoloji dəlildə isə xüsusi bir növ nizam nəzərdə tutulur. Bu xüsusi növün yaranması üçün bir neçə şey zəruridir.

1. Maddi əşyalardan təşkil olunan toplu;

---

[21] Fəxrəddin Razi, "əl-Mətalibül-aliyə minəl-elmil-ilahi" 1-ci cild, səh. 239-248.

[22] Əbdürrəzzaq Lahici, "Göhəri-murad", səh. 223.

[23] Nizam termininin mənası və müxtəlif qisimləri haqda bax: Əhməd Deyləmi, "Təbiət və hikmət"; "Pejuheşi dər bürhani nəzm", 2-ci fəsil, səh. 57-76.

[24] Fəlsəfi terminlə desək, "nizam" abstrakt anlayışdır.

2. Tərkib hissələrinin təbii şəkildə (insan və ya digər şüurlu məxluqların dəxaləti olmadan) bir-birinin yanında yerləşməsi;

3. Tərkib hissələrinin bir-biri ilə uyğun olması və vahid məqsədə yönəlmələri.

Beləliklə, bu dəlildə haqqında danışılan nizam yuxarıda deyilən xüsusiyyətlərə malik olmalıdır.

**Teleoloji dəlilin sadə bəyanı**

Teleoloji dəlil sadə şəkildə iki müqəddimədən təşkil olunur:

1. Təbiət aləmi nizamlıdır.

2. Nizamlı olan hər bir şeyin şüurlu və tədbirli nizamlayıcısı vardır.

Deməli, təbiət aləminin şüurlu və tədbirli nizamlayıcısı vardır.

Qeyd etdiyimiz kimi, bu sübutun hər iki müqəddiməsinin izahı və ondan hansı nəticənin alınması barədə fikir ayrılığı vardır. Burada məsələnin yalnız mövzumuza aid olan hissəsinə işarə edirik.[25]

**Teleoloji dəlilin birinci müqəddiməsi**

Birinci müqəddiməni bir neçə şəkildə izah etmişlər.

1. "Təbiət aləmi nizamlıdır"- dedikdə, bir toplu olaraq bütün yaranışa hakim olan vahid bir nizam başa düşülür. Belə ki, bu toplunun bütün tərkib hissələri bir-biri ilə tam şəkildə həmahəngdir və vahid hədəfə xidmət edir. Birinci müqəddimə haqqındakı bu izaha görə, bütün təbiət aləmi, bədəninin bütün üzvləri, hətta bütün hüceyrələri də nizamlı bir plan əsasında fəaliyyət göstərərək, bir-biri ilə üzvi əlaqədə olan və vahid hədəfə xidmət edən bir insana bənzəyir.

2. Dünya nizamlı topluların məcmusundan ibarət olan bir topludur. Bu baxışa əsasən, dünyada olan ayrı-ayrı əşyalar istisnasız olaraq nizamlıdır və onların hər biri harmonik şəkildə vahid bir hədəfə tərəf yönələn komponentlərdən ibarət nizamlı bir topludur. Təbiət aləminin ən kiçik zərrəciklərindən tutmuş, ulduzlar, qalaktikalar, dağlar, dənizlər, bitkilər, heyvanlar və nəhayət insanlar qəribə bir daxili harmoniya ilə öz funksiyalarını yerinə yetirən nizamlı və məqsədli toplulardan ibarətdir.

3. Təbiət aləmində olan bir sıra əşyalar nizamlı şəkildə qurulmuşdur. Bu baxışa görə, kainatda nizam vardır – istər bütün əşyalarda olsun, istərsə də bəzilərində. Başqa sözlə, bu baxışa əsasən, teleoloji dəlildən nəticə almaq üçün heç də bütün təbiət aləminin nizamlı bir məcmuə olmasını (birinci baxışda olduğu kimi) və ya nizam əsasında qurulan topluların məcmusu olmasını (ikinci baxış) isbat etmək vacib deyildir. Beləliklə, aləmin məhdud bir hissəsində də nizamın olması bizim müddəamızın isbatı üçün kifayətdir.

[25] "Təbiət və hikmət", 3-5-ci fəsillər, səh. 83-164.

Hər halda, teleoloji dəlilin birinci müqəddiməsi təcrübə və ya müşahidələrə əsaslanaraq, təbiət aləmini üç mənadan birində nizamlı hesab edir.

**Teleoloji dəlilin ikinci müqəddiməsi**

İkinci müqəddimədə deyilir ki, hər bir nizamlı məcmuə həmin məcmuənin komponentlərini öz elmi əsasında spesifik bir harmoniya və kompozisiya ilə, xüsusi bir hədəfə çatmaq üçün bir-birinin yanında düzən, onu hikmətli bir planla nizamlayan şüurlu və tədbirli bir nizamlayıcının varlığına dəlildir. Odur ki, ikinci müqəddimədə nizam ilə hikmətli bir nizamlayıcının varlığı arasında məntiqi əlaqənin olduğu iddia olunur.

İkinci müqəddimə aksiom olmadığından onun digər bir dəlillə isbat olunması lazımdır. Teleoloji dəlil barədə olan ixtilafların bir hissəsi bu müqəddimənin necə isbat olunması ilə bağlıdır.[26] Biz bu müqəddiməni isbat etmək üçün deduktiv metoddan istifadə edirik:

İkinci müqəddimə deduktiv metodla belə isbat olunur ki, səbəbiyyət qanununa əsasən, nəticənin varlığı səbəbin varlığına dəlil olmaqla yanaşı, həm də nəticənin xüsusiyyətləri səbəbin xüsusiyyətlərini özündə əks etdirir.[27] Buna görə də, ağıl nizamlı bir məcmuənin hər bir səbəbdən deyil, məhz şüurlu və hikmətli səbəbdən yarandığına hökm edir. Çünki nizamlı bir toplunun tərkib hissələri xüsusi tərtiblə düzülməlidir ki, lazım olan nəticəni versin. Şübhəsiz, bu xüsusi tərtib və düzülüş yalnız hikmət və şüur əsasında qurulur. Çünki bir çox hallarda tərkib hissələrinin bir-biri ilə birləşməsi üçün həddən artıq çoxlu variantlar olur və belə bir şəraitdə bu variantlardan birini seçmək elm və şüur olmadan mümkün deyil.

**Teleoloji dəlilin nəticələri**

Bura qədər teleoloji dəlilin iki müqəddiməsi açıqlandı. Qeyd etdiyimiz kimi birinci müqəddimədə nizamla düzülmüş və xüsusi hədəfi izləyən bir topludan danışıldı. İkinci

---

[26] Bir qrup ikinci müqəddimənin isbatı üçün analogiyadan istifadə etmişdir. *(Analogiya elə bir əqli nəticədir ki, burada idrak prosesi xüsusidən xüsusiyə doğru gedir. Red.)* Belə ki, insanın düzəltdiyi şeylərin şüursuz səbəb tərəfindən yaradıla bilmədiyini görüb, nəticə alırlar ki, aləmdəki nizamlı fenomenlərin səbəbi də insan kimi şüurlu olmalıdır. Digər bir qrup isə induksiyadan *(İnduksiya – xüsusi hökmlərdən ümumi hökmü nəticə çıxarmaq üsuludur. Red.)* istifadə edərək, iddia etmişlər ki, müxtəlif nümunələri araşdırmaqla hər bir nizamlı fenomenin şüurlu nizamlayıcıya ehtiyaclı olmalısını nəticə almaq olar. Bu nəzəriyyələrin izah və tənqidi mövzumuzdan kənardır.

[27] İslam fəlsəfəsində səbəb-nəticə ilə bağlı qanunlardan biri də səbəblə nəticənin uyğunluğu qanunudur. Bu qanuna görə hər nəticə hər səbəbdən qaynaqlanır, odur ki, nəticənin xüsusiyyətləri səbəbin xüsusiyyətlərini özündə əks etdirir.

müqəddimənin köməyi ilə bütün təbiət aləminə nizam verən və ya ən azından təbiət aləmində mövcud olan nizamlı əşyalara nizam bəxş edən hikmətli və şüurlu bir varlıq sübuta yetirildi. Burada belə bir sual meydana çıxır ki, belə bir varlığın isbatı Allahın isbatı deməkdirmi?

Alimlərin bir qrupu bu qənaətdədir ki, bu dəlil Allahın varlığını isbat etmir, onun nəticəsi yalnız Allahın elm, hikmət və tədbir sifətlərini isbat etməkdir.

Digər bir qrup alimlərin fikrincə, teleoloji dəlil Allahın varlığına tam bir dəlildir. Amma Allahı "zəruri varlıq", "ilk təkanverici" və ya "yaradan" sifəti ilə deyil, aləmə nizam verən varlıq olaraq sübut edir. Beləliklə, teleoloji dəlilin nəticəsi olaraq deyə bilərik ki, təbiətin fövqündə öz elmi və hikməti əsasında təbiət aləminə və onda olan bütün varlıqlara nizam bəxş edən varlıq mövcuddur. Bu varlıq saysız mümkün variantlar arasında yalnız nizamlı formada özünəməxsus hədəfi izləyən xüsusi bir vəziyyəti təsbit edir. Təbii ki, bu varlıq Allahdan başqası ola bilməz.

Deyilənləri nəzərə almaqla aydın olur ki, teleoloji dəlil Allahın digər sifətlərini, o cümlədən vücudunun zəruriliyini və tövhidi isbat etmir. Lakin bunu teleoloji dəlil üçün nöqsan hesab etmək olmaz. Çünki bu dəlilin hədəfi Allahın bütün sifətlərini isbat etmək deyil. Ümumiyyətlə, belə bir nəticəni digər dəlillərdən də gözləmək olmaz.

Son nəticəni qısa şəkildə bəyan etmək istəsək, deyə bilərik ki, təbiət aləmi və ya ən azından, bu aləmdə mövcud olan bir sıra varlıqlar nizamlı topludan ibarətdir. Belə ki, onların tərtibi və düzülüşü müəyyən bir hədəfə xidmət edir. Ən kiçik zərrəciklərdən tutmuş ən böyük qalaktikalara qədər hər bir şey özünəməxsus nizamla hərəkət edir, dağlar, dənizlər, bitkilər, heyvanlar və s. xüsusi harmoniyanı nümayiş etdirir. Belə bir hədəfli nizam təbiətin fövqündən bu nizamı bəxş edən tədbirli bir nizamlayıcının olmasına dəlildir. Şübhəsiz ki, bu nizamlayıcı Allahdan başqası ola bilməz.

### Quranda teleoloji dəlil

Müqəddəs Quran bir çox ayələrdə müxtəlif təbii varlıqların adını çəkir, onları Allahın varlığına nişanə olaraq tanıtdırır və insanı onlar haqda düşünməyə çağırır ki, bəlkə bu yolla Allahı tanıya bilsinlər. Allahı nişanələrlə tanıma adlanan bu yol teleoloji dəlildə deyilənlərlə tam uyğundur. Ayələrdən nümunələri qeyd etməzdən öncə bu ayələrin təfsiri barəsində olan müxtəlif fikirləri oxucuların diqqətinə çatdırmaq istərdik.

1. Bir qrup alimlər bu ayələri Allahın varlığını, elmini və hikmətini isbat edən əqli sübutun müqəddimələri hesab edir.[28]

2. Bəzi alimlərin qənaətinə görə, bu ayələr Allaha olan fitri dərki insanın yadına salır və insanları qəflət yuxusundan ayıldır.[29]

---

[28] Əllamə Təbatəbai, "əl-Mizan", 18-ci cild, səh. 154.

[29] Misbah Yəzdi, "Amuzeşi-əqaid", 6-cı dərs.

3. Digər bir nəzərə əsasən, bu ayələr müşriklərə qarşı gözəl şəkildə olan polemika xarakteri daşıyır.[30] Çünki müşriklər yanlış olaraq, bütləri və yalançı məbudları dünyanın bir sıra işlərində aparıcı qüvvə hesab edirdilər və "rübubiyyətdə tövhid" haqqında düzgün anlayışa malik deyildirlər.[31]

Müxtəlif nəzərləri qeyd etdikdən sonra bu haqda olan Quran ayələrinə işarə edirik. Bəhsin daha sistematik şəkildə getməsi üçün hər bir ayədən sonra mövzuya uyğun hədislərə də işarə etməyi məqsədəuyğun hesab edirik.[32]

Bəzi ayələr insanı Allahın bütün yaranışdakı nişanələri haqda düşünməyə çağırır:

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ وَاخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ لآيَاتٍ لِّأُوْلِي الألْبَابِ

"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır". ("Ali-İmran": 190)

İmam Sadiq (ə) bir hədisində belə buyurur: "Ey Müfəzzəl! Böyük Yaradana ilk dəlil Onun bu aləmə xüsusi forma verməsi, onun hissələrini toplaması və onlara nizam verməsidir. Çünki ağıl və düşüncə ilə dünyanın işləri barəsində dərindən fikirləşsən, görərsən ki, bəndələrin ehtiyaclarını təmin edən hər şeylə təchiz olunan bir evə bənzəyir. Asiman hündürdə yerləşir və bu cəhətdən evin damına bənzəyir. Yer xalı kimi sərilmişdir. Ulduzlar çıraqlar kimi düzülmüş və gövhərlər orada ehtiyat bazası kimi qorunur. Hər bir şey öz layiqi yerində düzülmüşdür. İnsan da bu evin əta olunduğu və hər bir şey ixtiyarına verilən bir şəxs kimidir. Hər növ bitki və heyvan insanın ehtiyacını təmin etmək üçün hazırlanmışdır. Bunların hamısı bütün aləmin dəqiq ölçü ilə, hikmətli, nizamlı şəkildə və uyğunluqla yaranmasına sübutdur. Yaradan birdir. Quruluş verən, nizamlayan və hər bir şeyi bir-biri ilə uyğunlaşdıran Odur".[33]

Ayə və hədislərdən bir hissəsi də yaranışın bəzi sahələrində mövcud olan nizam və hədəfə təkid edir. Bunların bir neçə nümunəsini aşağıda qeyd edirik:

**a) İnsanın yaranışı**

وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَكُم مِّن تُرَابٍ ثُمَّ إِذَا أَنتُم بَشَرٌ تَنتَشِرُونَ

"Allahın sizi torpaqdan yaratması, sonra da hərənizin bir insan olub yer üzünə yayılmağınız Onun qüdrət əlamətlərindəndir". ("Rum": 20)

İmam Sadiq (ə) insanın yaranışına hakim olan nizam və bu həqiqətin Allahın varlığına sübut olması haqqında buyurur: "Allahı bəndələrdən gizli hesab edən şəxsə təəccüb edirəm, halbuki Onun xilqətinin əlamətlərini ağılları heyrətdə qoyan tərkiblə

---

[30] "Nəhl" surəsinin 125-ci ayəsində buyurulur: "İnsanları hikmətlə, gözəl öyüd-nəsihət ilə Rəbbinin yoluna dəvət et, onlarla ən gözəl surətdə mübahisə et."

[31] Cavadi Amuli, "Təbyini bərahini isbati xuda, səh. 43.

[32] Ayə və hədislərdən geniş məlumat toplamaq üçün bax: Məkarim Şirazi, "Peyami Quran", 2-ci cild, səh. 61-457; "Təbiət və hikmət", səh. 169, 200.

[33] Əllamə Məclisi, "Biharul-ənvar", c. 3, səh. 61 (Tövhidi-Müfəzzəldən nəql edir)

özündə görür! Canıma and olsun ki, bu əzəmətli işlər, o cümlədən dünyanın hamıya aşkar formada olan tərkibi, onda aydın şəkildə olan incə tədbir, yoxdan yaranma və hər bir şeyin bir təbiətdən digər bir təbiətə, bir şəkildən digər şəklə keçməsi haqqında düşünsəydilər, yaradanın varlığına olan dəlilləri müşahidə edərdilər. Çünki tədbirli yaradanın tədbirinin nişanələri hər bir şeydə mövcuddur. Hər bir şeyin tədbirli tərkibi insanı vahid və hikmətli Allaha tərəf yönəldir.[34]

**b) Müxtəlif dil və rənglər**

وَمِنْ آيَاتِهِ خَلْقُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاخْتِلَافُ أَلْسِنَتِكُمْ وَأَلْوَانِكُمْ إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِّلْعَالِمِينَ

“Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər üçün nişanələr vardır!. (“Rum”: 22)

İmam Sadiq (ə) Müfəzzələ verdiyi təlimdə buyurur: “Ey Müfəzzəl! Fikirləş, gör, Allah-taala insana necə danışmaq neməti bəxş edib. İnsan bu qüvvənin köməyi ilə qəlbində olanları ifadə edir, fikirlərini bəyan edir və insanların daxilindən xəbərdar olur. İnsanda bu qüvvə olmasaydı, dördayaqlı heyvana bənzəyərdi. Başqalarını öz fikirlərindən xəbərdar edə bilməz və özü də onların daxilindən xəbərdar ola bilməzdi”.[35]

**c) Təbiət aləmində cütlük sistemi**

وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا لِّتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُم مَّوَدَّةً وَرَحْمَةً إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ

“Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır! (“Rum”: 21)

وَمِن كُلِّ شَيْءٍ خَلَقْنَا زَوْجَيْنِ لَعَلَّكُمْ تَذَكَّرُونَ

“Biz hər şeydən cüt-cüt yaratdıq ki, bəlkə, düşünüb, ibrət alasınız!” (“Zariyat”: 49)

İmam Rza (ə) buyurur:

“(Allah-taala) işıqlığı qaranlığa, aşkarı gizliyə, qurunu yaşa və soyuğu istiyə zidd olaraq yaratdı. O, təbiətdə uyğunsuzluqları bir-biri ilə uyğunlaşdırır və yaxın şeyləri bir-birindən ayırır ki, onların birləşməsi birləşdirən və ayrılması ayıran bir qüdrətin varlığına dəlil olsun. “Biz hər şeydən cüt-cüt yaratdıq ki, bəlkə, düşünüb ibrət alasınız!” ayəsinin mənası budur”.[36]

**ç) Həyatın yaranması**

إِنَّ اللَّهَ فَالِقُ الْحَبِّ وَالنَّوَىٰ يُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ وَمُخْرِجُ الْمَيِّتِ مِنَ الْحَيِّ ذَٰلِكُمُ اللَّهُ فَأَنَّىٰ تُؤْفَكُونَ

“Şübhəsiz ki, toxumu da, çəyirdəyi də cücərdib çatladan, ölüdən diri, diridən də ölü çıxardan Allahdır. Budur Allah! Axı siz (haqdan) necə üz döndərirsiniz?” (“Ənam”: 95)

---

[34] “Biharul-ənvar”, c. 3, səh. 152.

[35] “Biharul-ənvar”, c. 3, səh. 82.

[36] Şeyx Səduq, “Ət-tövhid”, 2-ci bab, hədis 2; Həzrət Əlidən (ə) də bu məzmunda hədis nəql edilmişdir. “Nəhcül-bəlağə”, 186-cı xütbə.

Həzrət Əli (ə) canlı varlıqların xilqətinin Allahın böyük nişanələrindən olması haqda buyurur:

“Əgər bütün canlı məxluqlar – istər quşlar, istərsə də dördayaqlılar, müxtəlif növdə şüurlu və az şüurlu canlılar bir yerə toplansa belə, heç vaxt ağcaqanadı yaratmağa qadir olmaz və hətta hansı yolla yaranmasını da bilməyəcəklər. Onların düşüncələri bu yaradılışın sirlərinə yol tapmaqda heyran qalacaqdır”.[37]

**d) bitkilərin bitməsi**

وَهُوَ الَّذِيَ أَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجْنَا بِهِ نَبَاتَ كُلِّ شَيْءٍ فَأَخْرَجْنَا مِنْهُ خَضِرًا نُّخْرِجُ مِنْهُ حَبًّا مُّتَرَاكِبًا وَمِنَ النَّخْلِ مِن طَلْعِهَا قِنْوَانٌ دَانِيَةٌ وَجَنَّاتٍ مِّنْ أَعْنَابٍ وَالزَّيْتُونَ وَالرُّمَّانَ مُشْتَبِهًا وَغَيْرَ مُتَشَابِهٍ انظُرُواْ إِلِى ثَمَرِهِ إِذَا أَثْمَرَ وَيَنْعِهِ إِنَّ فِي ذَلِكُمْ لآيَاتٍ لِّقَوْمٍ يُؤْمِنُونَ

“Göydən su endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, yaşıl fidanlar göyərtdik, onlardan bir-birinə sarmaşmış dənələr çıxartdıq. Biz xurma ağacından, onun tumurcuğundan bir-birinə sarmaşmış salxımlar yetişdirdik. (Həmçinin) üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar yetişdirdik. Onların bar verdiyi vaxt meyvəsinə və onun yetişməsinə baxın. Şübhəsiz ki, bunda iman gətirən bir camaat üçün dəlillər vardır”. (“Ənam”: 99)

İmam Sadiq (ə) bitkilərin yaranmasının sirləri və bu həqiqətin Allahın varlığına dəlil olması haqda buyurur: “Ağacların və müxtəlif bitkilərin yaradılışındakı hikməti düşünün. Ağac da heyvan kimi qidaya möhtacdır, amma heyvan kimi qidanı tutmağa ağzı yoxdur və hərəkət edə bilmir. Onun kökləri yerin dərinliklərində batıb ki, qidanı (yerin dərinliklərindən) alıb, budaq, yarpaq və meyvəyə çatdırsın. Heyvanlar öz uşaqlarına necə süd verirsə, yer də o şəkildə ağacı öz balası kimi bəsləyir, qidanı yerdən alan köklər də sanki onun ağzıdır”.[38]

**e) Quşlar aləmi**

أَلَمْ يَرَوْاْ إِلَى الطَّيْرِ مُسَخَّرَاتٍ فِي جَوِّ السَّمَاء مَا يُمْسِكُهُنَّ إِلاَّ اللّهُ إِنَّ فِي ذَلِكَ لآيَاتٍ لِّقَوْمٍ يُؤْمِنُونَ

“Məgər yerlə göy arasında ram olmuş quşları görmürlər?! Onları yalnız Allah saxlayır. Həqiqətən, bunda möminlər üçün ibrətlər vardır!” (“Nəhl”: 79)

Qeyd etdiyimiz ayə və hədislər Allahın varlığına, sonsuz elm və qüdrətinə dəlil olan çoxlu sayda ayə və hədislərdən az bir hissəsi idi. Mövzunun həddən artıq uzanmasına yol verməmək üçün bu miqdara kifayət edirik.

**Terminlər**

Nizam

Teleoloji dəlil

**Üçüncü fəslin xülasəsi**

---

[37] “Nəhcül-bəlağə”, 186-cı xütbə.

[38] “Biharul-ənvar”, c. 3, səh. 130.

1. Kəlam alimləri arasında teleoloji dəlilin mahiyyəti, müqəddimələri və ondan alınan nəticə barəsində fikir ayrılığı vardır.

2. Digər dəlillərlə müqayisədə teleoloji dəlilin özünəməxsus üstünlükləri vardır. Bu üstünlüklərdən bəziləri bunlardır:

a) bu dəlilin müqəddimələri təcrübi və hissi olduğuna görə insanların düşüncəsini özünə cəlb edir;

b) onda çətin fəlsəfi terminlərdən və qanunlardan istifadə olunmur;

c) asan şəkildə düşünülür;

ç) onun məzmunu bir çox Quran ayələrinin məzmunu ilə yaxındır;

d) yeni təcrübi elmlər tərəfindən dəstəklənir və imanın güclənməsində böyük rol oynayır.

3. Nizamlı toplu o topluya deyilir ki, xüsusi amil onun tərkib hissələrinin bağlılığına səbəb olsun və onları xüsusi bir tərtiblə düzmüş olsun.

4. Teleoloji dəlil tərkib hissələri təbii şəkildə bir-birinin yanında düzülən və tam bir harmoniya ilə xüsusi bir hədəfi izləyən maddi əşyalar toplusunun olması ilə şərtləndirilir.

5. Teleoloji dəlilin sadə forması belədir:

***Təbiət aləmi nizamlıdır;***

***Nizamlı olan hər bir şeyin şüurlu nizamlayıcı vardır;***

***Deməli, təbiət aləminin tədbirli nizamlayıcısı vardır.*** (Bu tədbirli nizamlayıcı təbiət aləminin fövqündədir və maddi deyil)

6. Teleoloji dəlilin birinci müqəddiməsi neçə cür izah oluna bilər.

a) Kainat bütövlükdə nizamlı bir topludur və ona vahid bir nizam hakimdir.

b) Kainat başdan-başa nizamlı toplulardan biridir.

c) Kainatda bir sıra nizamlı toplular vardır.

7. Teleoloji dəlilin ikinci müqəddiməsi əqli yolla belə isbat olunur:

Ağıl hökm edir ki, nizamlı bir toplunun hikmətli, şüurlu və tədbirli nizamlayıcısı olmalıdır. Belə bir varlıq müxtəlif mümkün olan variantlar arasında yalnız xüsusi bir vəziyyəti seçir və həmin toplunun tərkib hissələrini belə bir xüsusi vəziyyət əsasında nizamlayır. Digər tərəfdən, nəticə təkcə səbəbin varlığına deyil, onun xüsusiyyətlərinə də dəlalət edir. Beləliklə, nizamlı toplu bir nəticə olaraq şüurlu və hikmətli varlığın olmasına dəlildir.

8. Teleoloji dəlil Allahın varlığını təbiət aləminin nizamlayıcısı olaraq isbat edir. Allahın digər sifətlərinin isbatı üçün isə digər dəlillərə istinad etmək lazımdır.

9. Quran bir çox ayələrdə aləmin müxtəlif hissələrində mövcud olan nizama təkid edir, göydə, yerdə, insanın xilqətində və onun həyatının müxtəlif sahələrində, bitkilərin və heyvanların həyatında olan nizamı və hədəfliliyi hikmətli yaradanın ayə və nişanəsi hesab edir.

**Dördüncü fəsil**

**Zərurət və imkan dəlili**

Allahı tanımanın üçüncü yolu əqli yoldur.[39] İnsanın, məntiqi qayda-qanunlardan istifadə etməklə Allahın varlığını və eləcə də Onun kamal sifətlərini isbat etməyə qadir olması burada bir postulat olaraq götürülür.[40]

Sırf əqli müqəddimələrə əsaslanan bu yol öncə qeyd etdiyimiz iki yoldan fərqlidir. Bu fərqlərdən bəzilərinə işarə edirik:

1. Bu yol ümumiyyətlə, fəlsəfi qaydalarla sıx əlaqəlidir. Fəlsəfi qaydalar da bəzən çətin olduğundan və çoxlu əqli vərdişlərə yiyələnmədən onları dərk etmək mümkün olmadığından Allahı tanımanın bu yolu professional xarakter daşıyır. Odur ki, fəlsəfi məsələlərə alışmayan insanlar bir çox əqli dəlillər qarşısında çətinliklə üzləşirlər.

Beləliklə, əsas fərqlərdən biri budur ki, əqli dəlillərin ən azından bəzisi kütləvi xarakter daşımır. Əlbəttə, bu məsələ bu metod üçün zəif cəhət sayıla bilər, amma onun bir çox üstünlükləri də vardır ki, ikinci fərqi qeyd edərkən ona işarə edəcəyik.

2. Bəzən elmi və psixoloji amillər nəticəsində Allahı tanıma məsələsində skeptik mövqe tutaraq, etiraz etmək və irad tutmaqla məşğul olan insanlarla rastlaşırıq. Şübhəsiz, daha çox fitrətə əsaslanaraq, ayıq və pak vicdanlı insanlara gətirilən dəlillər belə insanları qane etmək üçün kifayət etmir. Bu surətdə dəqiq əqli dəlillər öz yerini tapır və kəlami diskussiyalar vasitəsilə Allaha etiqadın düzgünlüyünü aşkar edir.

Bu səbəbdən, əqli dəlillərin üstünlüyü budur ki, inkarçıların etirazı qarşısında böyük rol oynayır.[41] Bu cür dəlillər inadkar şəxsləri hidayət etməsə belə, onların şübhələrinin digərlərində təsirinin qarşısını alır və məntiqsiz olmasını aşkar edir.

**Əqli dəlillərin əhəmiyyəti**

Güman oluna bilər ki, Allahı tanıma fitri oduğu üçün əqli dəlillər lüzumsuzdur. Amma şübhəsiz ki, bu güman yersizdir. Çünki əqli dəlillər ən azı iki cəhətdən əhəmiyyət daşıyır:

---

[39] Bu yolun əqli olması o demək deyildir ki, Allahı tanımanın digər yollarında ağlın heç bir rolu yoxdur. Əqli dəlil dedikdə bu üslubda intuisiya və ya təcrübənin heç bir dəxaləti olmadan sırf əqli müqəddimələrdən və metodlardan istifadə olunması nəzərdə tutulur.

[40] Bu postulat idrak nəzəriyyəsində isbat edilir.

[41] Bu səbəbdən məsum imamların bəzi ateistlər və qeyri-müsəlmanlarla mübahisələrində islamın haqq olmasını isbat etmək məqsədilə gətirdikləri dərin və incə dəlillərlə qarşılaşırıq. Nümunə olaraq İmam Rzanın (ə) buyurduğu dəlillərə müraciət edin; "ət-Tövhid", 65 və 66-cı bab.

1. Əqli dəlillər imanın güclənməsində təsirli ola bilər. Çünki ağıl hər hansı bir şeyin qarşısında təslim olarsa, qəlb də istər-istəməz ona tərəf yönələr. Başqa sözlə desək, iman əqli idrakla eyni şey olmasa da, onunla əlaqəlidir və ondan təsirlənir.

2. Dini etiqad (xüsusilə əgər emosiyalara əsaslanarsa) şübhələrlə qarşılaşdıqda çaşqınlığa düçar ola bilər. Belə hallarda əqli prinsiplər əsasında şübhələri aradan qaldırmaq imanın zəifləməsinin qarşısını alır.[42]

Əqli dəlillərin əhəmiyyətini qeyd etdikdən sonra onların araşdırılmasını lazım bilirik. Kəlam alimləri və islam filosofları bu sahədə müxtəlif dəlillər qeyd etmişlər. Bəhsin məhdudluğunu nəzərə alaraq, yalnız "zərurət və imkan" adı ilə tanınan dəlili burada qeyd edirik.

**Zərurət və imkan dəlilinin müqəddimələri**

Zərurət və imkan dəlili Allahın varlığını isbat edən möhkəm əqli sübutlardandır. Bu sübutu müxtəlif şəkillərlə bəyan etmişlər ki, burada onlardan biri ilə kifayətlənirik.[43] Bu sübutu qeyd etməzdən öncə onunla bağlı bəzi müqəddimələri əziz oxucuların diqqətinə çatdırmağı lazım bilirik.

**a) Zəruri və mümkün varlığın tərifi:**

Hər hansı bir mövcudun varlıqla münasibəti nəzərə alındıqda iki vəziyyətdən biri ola bilər: ya o mövcudun var olması zəruridir, belə ki, "varlıq" xüsusiyyətinin ondan ayrılması təsəvvür oluna bilməz, yaxud da o mövcudun var olması heç də zəruri deyil və hansısa bir zamanda var olmaya bilər.

Varlığı zəruri olan mövcuda zəruri varlıq və digərinə isə mümkün varlıq deyilir. Məsələnin daha da geniş aydın olması üçün belə bir təşbehdən istifadə edək: zəruri və mümkün varlığın vücudla əlaqəsi, şəkər və suyun şirinlik ilə əlaqəsinə bənzəyir. Şəkərin şirinliyi ondan ayrılmaz və şirin olmayan şəkər təsəvvür oluna bilməz. Su isə həm şirin, həm də acı ola bilər. Bu səbəbdən suyun şirin olması üçün kənardan şirinliyin ona əlavə olunması labüddür.[44] Kəlamçıların və islam filosoflarının fikrincə, Allah-taala zəruri varlıq, digər varlıqlar isə mümkün varlıqdır.

**b) Səbəbiyyət qanunu:**

Zəruri və mümkün varlığın tərifi əsasında səbəbiyyət qanunu belə ifadə olunur ki, hər bir mümkün varlıq səbəbə ehtiyaclıdır. Odur ki, səbəbiyyət qanunu ilkin

---

[42] Möhsün Cavadi, "Dər amədi bər xodaşinasiye fəlsəfi", səh. 21-25.

[43] Bu dəlil ilk dəfə "İbn Sina" tərəfindən bəyan edilmişdir. İbn Sinadan sonra, xüsusilə fəlsəfə ilə kəlamın yaxınlaşdığı zaman bu dəlil buna oxşar bəyanlarla kəlam elminə daxil olmuşdur. Bu dəlil bəzi fəlsəfi qanunlara söykənir və bu dəlili düzgün başa düşmək üçün onları bilmək zəruridir. Biz çalışacağıq ki, bu müqəddimələri ən sadə üslubla bəyan edək.

[44] Burada zəruri və mümkün varlığa verilən tərif sadə bir tərifdir. Geniş məlumat üçün "Zərurət və imkan" haqqında yazılan fəlsəfi kitablara müraciət edin.

prinsiplərdəndir, belə ki, subyekt ilə predikatı təsəvvür etməklə onların rabitəsinə hökm olunur. Yəni, mümkün varlığın vücudu onun üçün zəruri deyil, başqa sözlə desək, onun varlıq və yoxluqla əlaqəsi eynidir, belə ki, ola da bilər, olmaya da bilər. Ona görə də, belə bir şeyin mövcud olması üçün onu bərabərlik vəziyyətindən çıxarıb, varlığı yoxluğa üstünlük verən amil lazımdır. Bu amil səbəb adlanır. Beləliklə, hər bir mümkün varlığın mövcud olması üçün onu vücuda gətirən digər bir varlıq olmalıdır. Zəruri və mümkün varlığa başqa cür də tərif vermək olar: mümkün varlıq mövcud olmaq üçün başqasına (yəni səbəbə) ehtiyacı olan varlıqdır, zəruri varlıq isə digərinə bağlı deyil.

**c) Silsilə sonsuzluğunun qeyri-mümkünlüyü:**

Silsilə sonsuzluğu dedikdə, səbəblər silsiləsinin sonu olmadan davam edərək, heç bir ilk səbəbə gedib çıxmaması nəzərdə tutulur. Sadə dillə desək, silsilə sonsuzluğu odur ki, "a" "b"-nin,"b" "c"-nin, "c" "d"-nin və s. nəticəsi olsun və bu silsilə heç bir zaman sona çatmasın. Bu qanuna əsasən, belə sonsuz şəkildə silsilələnmə qeyri-mümkündür. Bəzi fəlsəfə alimləri silsilə sonsuzluğunun qeyri-mümkünlüyünü aksiom hesab edirlər, bəziləri isə onu isbat etmək üçün əqli sübutlara istinad edirlər.[1]

**d) Dairənin qeyri-mümkünlüyü**:

Dairə odur ki, hər hansı bir şey, bir və bir ya neçə vasitə ilə özünün səbəbi olsun. Birinciyə, yəni bir vasitə ilə öz səbəbi olana "aşkar dairə", ikinciyə, yəni bir neçə vasitə ilə öz səbəbi olana "gizli dairə" deyilir. Beləliklə, "a"-nın "b"-yə və "b"-nin də "a"-ya səbəb olması aşkar dairə, "a"-nın "b"-yə, "b"-nin "c"-yə və "c"-nin də "a"-ya səbəb olması isə "gizli dairə" adlanır. Qeyd olunan hər iki şəkildə dairənin qeyri-mümkünlüyü aydındır.[2]
aydındır.[2]

**Zərurət və imkan dəlilinin bəyanı**

Zərurət və imkan dəlili ilə bağlı lazım olan müqəddimələri qeyd etdikdən sonra indi onu əziz oxucuların diqqətinə çatdırırıq:

Şübhəsiz, varlıq aləmində haqqında danışıla bilən müəyyən bir mövcud var.[3] Bu mövcud ya mümkün varlıq, ya da zəruri varlıqdır (üçüncü ehtimal mümkün deyildir). Başqa sözlə desək, haqqında danışdığımız varlıq ya vücuda gəlməsində başqasına ehtiyaclıdır (yəni mümkün varlıqdır) və ya ehtiyaclı deyil (yəni zəruri varlıqdır). İkinci ehtimal düz olarsa, zəruri varlığın mövcudluğu isbat olunar (Allah-taala).

---

[1] Möhsün Cavadi, "Dər amədi bər xodaşinasiye-fəlsəfi", səh. 66-77.

[2] Dairənin qeyri-mümkünlüyü belə izah edilir ki, səbəb nəticədən qabaq olamalıdır. Əgər dairə mümkün olarsa, lazım gəlir ki, nəticə səbəbdən qabağa keçsin. Halbuki nəticənin həm səbəbdən qabaq, həm də sonra olması üçüncünü istisna qanununa ziddir.

[3] Realizm məktəbinin müdafiə etdiyi obyektiv aləmin varlığı prinsipi bir çox elmlərin əsasını təşkil edən edən ən aydın bir aksiomdur. Bir qrup skeptiklərdən başqa heç kəs bu həqiqətə şübhə etməmişdir.

Ancaq birinci ehtimala əsasən, yəni qeyd etdiyimiz varlıq mümkün varlıq olarsa, səbəbiyyət qanununa əsasən, səbəbə ehtiyaclı olacaqdır. Əgər bu səbəb özü də mümkün varlıq olub digər səbəbə ehtiyaclı olarsa və bu silsilə heç bir sona çatmadan davam edərsə, silsilə sonsuzluğu əmələ gələr. Digər ehtimal budur ki, qeyd etdiyimiz mümkün varlıq ya vasitəsiz, ya bir neçə vasitə ilə bu mümkün varlığın nəticəsi olan bir varlığın nəticəsi ola. Bu ehtimal da doğru deyildir, çünki dairə ilə nəticələnir. Dairə də silsilə sonsuzluğu kimi qeyri-mümkündür.

Beləliklə, təkcə bu ehtimal qalır ki, haqqında danışılan mümkün varlıq ya vasitəsiz və ya bir neçə vasitə ilə özü başqa bir şeyin nəticəsi olmayan bir səbəbin nəticəsi olsun. Bu səbəb zəruri varlıqdır. Sonda zəruri varlıq bir daha isbat olur.

Nəhayət, bu sübutun xülasəsi belədir:

Şübhəsiz, obyektiv aləmdə hər hansı bir varlıq mövcuddur. Bu varlıq zəruri varlıq olarsa, istədiyimiz nəticə əldə ediləcək. Amma əgər mümkün varlıq olub, səbəbə ehtiyaclı olarsa, sonda elə bir səbəbə söykənməlidir ki, bu səbəb başqasının nəticəsi olmasın. Çünki belə bir səbəbə gedib çıxmasa, ya silsilə sonsuzluğu ilə, ya da dairə ilə nəticələnəcəkdir. Beləliklə, zəruri varlığın mövcudluğu isbat olur.

**Birinci və ikinci dərəcəli sifətlər**

Zərurət və imkan dəlili Allah-taalanın varlığını "zəruri varlıq" və ya "səbəblər səbəbi" kimi isbat edir. Necə ki, teleoloji dəlil də Allahı aləmin idarəçisi və nizamlayıcı sifəti ilə isbat edir. Beləliklə, Allahın varlığını isbat edən sübutlardan hər biri, Allah-taalanı xüsusi sifətlərlə isbat edir.[1] Əlbəttə, bu o demək deyildir ki, bu sübutlar öncədən varlığı isbat olunmuş Allah-taalanın sifətlərini isbat edir. Əksinə, bu sübutların əsas hədəfi məhz Allahın varlığını isbat etməkdir. Amma hər şeydən öncə isbat etmək istədiyimiz varlıq haqqında anlayışımız olmalıdır. Odur ki, qeyd etdiyimiz sübutların hər birində Allah-taalanın sifətlərindən birini bəyan edən xüsusi bir məfhumla Onun zatından xəbər verilir.

Başqa sözlə desək, Allah-taalanın varlığını isbat etməzdən öncə, Onun zatını müəyyən bir məfhum çərçivəsində təsəvvür etməli və sonra o məfhumun obyektiv aləmdə predmeti olmasını isbat etməliyik.

Allahın varlığını zəruri varlıq, nizamlayıcı və s. sifətlər ilə isbat etdikdən sonra, növbə digər sifətlərə çatır. Bu iki dəstə sifətlər arasında fərq qoymaq üçün Allahın varlığını isbat edən sübutlarda istifadə olunaraq Onun varlığını müəyyən adla isbat edən sifətləri birinci dərəcəli sifətlər, digər sifətləri isə ikinci dərəcəli sifətlər adlandırırıq.[2]

---

[1] Bu məsələ digər dəlillərə də aiddir. Məsələn, "hərəkət" dəlilində Allah-taala "ilk təkanverici" sifəti ilə, kosmoloji dəlildə isə "yaradan" sifəti ilə sübut olunur.

[2] Bu iki növ sifətlər arasındakı fərq kəlam və fəlsəfə kitablarında qeyd olunmamışdır. Amma məsələnin daha geniş izahı və bu sahədə olan iradları cavablandırmaq üçün belə bir fərqin qoyulması lazımdır.

**Mümkün varlıqların Allaha ehtiyacı haqda ayələr**

Zərurət və imkan dəlili fəlsəfi formada Qurani-kərimdə qeyd edilməmişdir. Bununla belə, bəzi ayələrdə varlıqların Allaha olan ehtiyacından söhbət edilir. Bu ayələrin, haqqında bəhs etdiyimiz əqli sübutlara işarə etdiyini demək olar. Fatir surəsində buyurulur:

يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاء إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

"Ey insanlar, siz hamınız Allaha ehtiyaclısınız. O, ehtiyacsız və tərifə layiq Allahdır". ("Fatir": 15)

Bu ayədə qeyd olunan "ehtiyac" sözü geniş mənaya malikdir və hər növ ehtiyaca şamildir ki, onların ən əhəmiyyətlisi ontoloji ehtiyacdır (varlıq ehtiyacı).

Bəzi ayələrdə isə mövcudların, o cümlədən insanın "nəticə" və "məxluq" olmasına işarə edilir və Allahın varlığı "xaliqi" adı ilə isbat edilir. Quran, kafirlərə qarşı buyurur:

أَمْ خُلِقُوا مِنْ غَيْرِ شَيْءٍ أَمْ هُمُ الْخَالِقُونَ

"Yoxsa onlar heç bir şeydən (xaliqsiz) yaranmışlar?! Yaxud onlar (öz-özlərini) yaradanlardır?!" ("Tur": 35)

Bu ayədən aşağıda qeyd edəcəyimiz şəkildə sübut çıxarmaq olar:

Şübhəsiz, hər bir insan məxluqdur. Çünki bir zaman olmamış, sonradan vücuda gəlmişdir. Burada bir neçə ehtimalla qarşılaşırıq:

1) İnsanlar səbəbsiz yaranmışlar.

2) İnsanlar özləri, özlərini yaratmışdır.

Aydındır ki, qeyd etdiyimiz bu iki ehtimal səhvdir və azacıq diqqətlə onların əsassızlığı aydın olur. Beləliklə, yeganə məntiqi ehtimal budur ki, onlar ülvi bir varlığın (yəni Allah-taalanın) məxluqlarıdır. Hər halda, ayədən belə bir sübutun çıxmasını kimsə düzgün hesab etməyə bilər, amma ayənin insanların məxluq (nəticə) olmalarına təkid etməklə hamının diqqətini həqiqi xaliq olan Allaha cəlb etməsinə şübhə yoxdur.

**Terminlər**

Zəruri varlıq

Mümkün varlıq

Səbəbiyyət qanunu

Silsilə sonsuzluğu

Aşkar dairə

Gizli dairə

Birinci dərəcəli sifətlər

İkinci dərəcəli sifətlər

**Dördüncü fəslin xülasəsi**

1. Allahı tanımanın sırf əqli yolu fəlsəfi qayda-qanunlarla sıx bağlıdır. Bu səbəbdən, belə dəlillər fəlsəfi qanunlarla tanış olmayanlar üçün çətindir.

2. Əqli dəlillər digər dəlillərlə müqayisədə Allahı inkar edənlərlə mübahisədə daha istifadəlidir. Bu növ dəlillərin əhəmiyyəti ondan ibarətdir ki, imanı gücləndirir və inkarçıların şübhələri qarşısında imanın sarsılmasının qarşısını alır.

3. Mümkün varlıq elə bir varlıqdır ki, həm ola, həm də olmaya bilər. Yəni varlıq onun üçün zəruri deyil və ondan ayrıla bilər. Zəruri varlıq elə bir varlıqdır ki, varlığı zəruridir və ondan ayrılmaz.

4. Səbəbiyyət qanunu. Hər bir mümkün varlığın mövcud olması üçün digərinin onu icad etməsi lazımdır ki, bu məsələyə səbəbiyyət qanunu deyilir. Beləliklə, səbəbiyyət qanununa əsasən, hər bir mümkün varlığın səbəbə ehtiyacı var.

5. Silsilə sonsuzluğu, yəni səbəblər silsiləsinin sonsuz şəkildə davam etməsi qeyri-mümkündür. Həmçinin dairə, yəni hər hansı bir şeyin ya vasitəsiz, yaxud bir neçə vasitə ilə öz səbəbi olması da qeyri-mümkündür.

6. Zərurət və imkan dəlilinin xülasəsi: Fərz olunan hər hansı bir varlıq ya mümkündür, ya zəruri. İkinci ehtimala görə Allah-taalanın varlığı zəruri varlıq adı ilə isbat edilir. Birinci ehtimal da, silsilə sonsuzluğu və dairə qeyri-mümkün olduğundan zəruri varlığın (yəni Allahın) varlığının isbatı ilə nəticələnir.

7. Allahın varlığı hansı mənalar çərçivəsində isbat olunursa, onlara birinci dərəcəli sifətlər deyilir. "Zəruri varlıq", "nizamlayıcı" və s. kimi sifətlər bu qəbildəndir. Allahın digər sifətlərinə isə ikinci dərəcəli sifətlər deyilir.

8. Bəzi Quran ayələri insanların və bütün varlığın vücudunu Allaha ehtiyaclı bilir. Zərurət və imkan dəlilinin din tərəfindən də təsdiq olunduğunu bilmək üçün bu ayələrə istinad etmək olar.

## İkinci bölüm
## Tövhid

**Birinci fəsil**

**Müqəddimə**

İslam tövhid dinidir. Tövhid islam təlimləri arasında böyük yer tutur. İslam dininin əbədi məramnaməsi olan Quran bir çox ayələrdə tövhid prinsipinə və onun müxtəlif cəhətlərinə toxunmuşdur. Tövhidin böyük əhəmiyyətə malik olmasına dəlil olaraq təkcə bu kifayət edər ki, tövhidə inam da həzrət Muhəmmədin (s) peyğəmbərliyini qəbul etmək kimi, islam dininə daxil olmağın birinci şərtidir. Allahın birliyinə inam və yalnız Ona pərəstiş etmək islamın təkcə əqidə sahəsində deyil, hətta islam təlimlərinin digər sahələrində, o cümlədən əxlaq və şəriətdə də böyük əhəmiyyətə malikdir. İslamın əxlaq sisteminin bünövrəsi tövhid prinsipi üzərində qurulmuşdur.[1] Dinin bir çox hökmləri islamın tövhid ruhundan qaynaqlanır. Tövhid insan həyatını, həm fikir və etiqad sahəsində, həm də əməl və rəftar sahəsində dəyişdirərək, ona xüsusi ruh bağışlayır. Təkallahlı ilə müşrikin fərqi o qədər böyükdür ki, onu gözdən qaçırmaq mümkün deyil. Bir sözlə, tövhid islam ağacının kökü və digər sahələrdə olan təlimlər onun qol-budağı və meyvələridir.

**Tövhid digər ilahi dinlərdə**

Quran ayələrindən və tarixi faktlardan aydın olur ki, tövhidə dəvət islam dininə məxsus deyildir, əksinə bütün ilahi peyğəmbərlər insanları təkallahlılığa çağırmış və bütün səmavi dinlər təkallahlılıq dini olmuşdur. Quran aşkar şəkildə bu tarixi həqiqəti bəyan edir:

وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رَّسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدُونِ

"Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: "Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!" – deyə vəhy etməyək". ("Ənbiya": 25)

Ümumiyyətlə, ilahi peyğəmbərlərin müxaliflərlə olan əsas qarşıdurması tövhid məsələsi üzərində idi. Bu səbəbdən, müxaliflərin bir çox hissəsini müşriklər və bütpərəstlər təşkil edirdi. Misal olaraq, Nəmrudun tərəfdarlarının İbrahim peyğəmbər (ə) ilə düşmənçiliklərinin əsas səbəbi, bu böyük peyğəmbərin tövhidə dəvəti idi.[2]

---

[1] "əl-Mizan," 1-ci cild, səh. 358-360.

[2] "Şüəra": 70-74. Hal-hazırda yəhudilər özlərini tövhid əhli hesab edirlər. Hazırkı Tövratda müxtəlif ibarələr Allahın təkliyini çatdırır. Xristianlıqda böyük təhriflərdən biri olan üç üqnuma etiqad da bir çox xristian alimlərinin fikrincə, tövhidlə ziddiyyət təşkil etmir. Odur ki, xristianlar da özlərini təkallahlı hesab edirlər.

**İslamdakı tövhid təliminin dərinliyi**

Qeyd etdiyimiz kimi tövhid məsələsi islama məxsus deyil və bütün ilahi peyğəmbərlər bu həqiqətə dəvət etmişlər. Amma belə güman etmək olmaz ki, islam tövhiddən söz açdıqda, keçmiş peyğəmbərlərin təlimlərini təkrar etmişdir. İslam dini tövhidə dəvət cəhətindən digər səmavi dinlərlə eyni olsa da, islamın Quranda və məsumların (ə) kəlamlarında əks olunan tövhid təlimi misilsiz dolğunluğa malikdir. Başqa sözlə desək, islamın tövhid sahəsində olan təlimləri həm ümumi insanlar üçün hidayət yolu, həm də alimlər üçün dərin elm və ariflər üçün uca mənəviyyat mənbəyidir. Bu təlimlərin dərinliyi o qədərdir ki, əsrlər keçsə belə, bu həqiqətin yalnız bir hissəsini dərk edə bilmişik. Əlbəttə, başqa cür də ola bilməz. Çünki xatəmiyyət prinsipinə əsasən, islam dini insanların düşüncə və əməl sahəsində olan əsas ehtiyaclarını həmişəlik olaraq cavablandırmışdır.

**Tövhid sözünün leksik mənası**

Mövzunu davam etdirməzdən öncə "tövhid" sözünün leksik mənasına işarə etmək istərdik. Ərəb dilində tövhid sözü "vəhədə" kökündən "təf`il" vəznində olan məsdərdir. "Təf`il" vəznində olan feillərin mənalarından biri münasibət bildirməkdir. Misal olaraq "təzim" - (kimisə) əzəmətli hesab etmək və "təkfir" - (kimisə) kafir bilməkdir. Bu səbəbdən, tövhid sözü "tək bilmək və yeganə hesab etmək" mənasınadır.[3]

Qeyd etmək lazımdır ki, Quran bir çox yerlərdə tövhidlə bağlı məsələlərə toxunsa da, tövhid sözü və ya onunla eyni kökdən olan sözlər Quranda işlənməmişdir. Tövhid məsələsini bəyan edərkən başqa sözlərdən istifadə edilmişdir. Amma bu söz bir çox hədislərdə qeyd edilmişdir.[4]

**Tövhid nəzər və əməldə**

Qeyd etdiyimiz kimi tövhid geniş sahəni əhatə edir, həm düşüncə, həm də əməl sahəsinə şamil olur. Bu səbəbdən, ilk öncə tövhidi iki növə ayırmaq mümkündür.

1. nəzəri tövhid;
2. əməli tövhid.

Nəzəri tövhid hər bir insanın öz düşüncəsində Allahın təkliyinə inanmasıdır. Başqa sözlə desək, Allahın zat, sifət və feildə təkliyinə qəti şəkildə etiqad nəzəri tövhid adlanır. Şübhəsiz, bu etiqad insanın qəlbinin dərinliklərinə yol tapsa, onun əməl və rəftarında xüsusi təsir bağışlayar və belə bir insanın rəftarı da tövhid rənginə boyanar ki, bu da əməli tövhid adlanır. Beləliklə, əməli tövhid dedikdə, tövhidi əks etdirən əməllər, yəni

---

[3] Qeyd etmək lazımdır ki, bəzən tövhid sözü Allahın təkliyinə etiqad mənasını deyil, Allahın təkliyi mənasını verir.

[4] "Tövhid haqqında ayələr və hədislər" bəhsində bu hədislərin bəziləri ilə tanış olacağıq.

insanın Allah qarşısında tövhid etiqadına uyğun rəftar etməsi nəzərdə tutulur. Məsələn, "ibadətdə tövhid" (təkməbudluluq) əməli tövhidin şaxələrindəndir. Burada hər hansı bir etiqaddan söz açılmır. İbadətdə tövhid insanın tövhid etiqadına əsasən ibadət etməsi, başqa sözlə desək, yalnız yeganə Allaha ibadət etməsi, məhz Onun qarşısında baş əyməsi və digər məbudlara ibadətdən uzaqlaşmasıdır.[5]

**Tövhid sözünün terminoloji mənası**

Burada "tövhid" sözünün kəlam elmindəki mənasını bəyan edirik. Tövhidin bütün qisimlərini əhatə edən ətraflı və dolğun bir tərif demək çətindir. Qeyd etdiyimiz kimi tövhidi nəzəri və əməli sahələrə bölmək olar. Gələn bəhslərdə də qeyd edəcəyik ki, bu qisimlərin də özünün də şaxələri vardır. Beləliklə, bu məqamda edə biləcəyimiz iş tövhidə qısa və yığcam tərif verməkdir. Nəticədə belə deyə bilərik ki, tövhid, Allahın zat, sifət və feilində təkliyinə qəti şəkildə inanmaq və bu etiqad əsasında əməl etməkdir".

Etiraf etməliyik ki, bu tərif geniş və əhatəli bir tərif deyil. Tövhidin mənasının təfsilatı onun müxtəlif qisimlərinin izahı sayəsində aşkar ola bilər.

**Tövhid sözünün iki mənası**

Bir məsələyə diqqət etmək lazımdır ki, etiqadi bəhslərdə tövhid bəzən qeyd etdiyimiz mənadan geniş mənada işlənir. Bu geniş mənada tövhid Allahı tanıma ilə bağlı bütün bəhsləri, o cümlədən Allahın varlığını isbat edən dəlilləri və Allahın sifətlərinə aid məsələləri əhatə edir. Müsəlman kəlamçılardan biri tövhidin dar və geniş mənasını belə bəyan edir:

"Tövhid – zəruri varlığın üluhiyyətdə və üluhiyyətə məxsus olan isimlərdə və sifətlərdə şəriksizliyinə olan qəti etiqada deyilir.

Üsuli-dinin birinci prinsipi olan tövhid isə Allahın zat və sifətlərini tanımaqdır. Belə bir idrakı tövhid adlandırmaq tamı ən şərafətli hissəsinin adı ilə adlandırmaq qaydasına görədir".[6]

Göründüyü kimi o ilk növbədə tövhidin xüsusi mənasını (yəni Allahın təkliyi və şəriksizliyini), sonra tövhidin ümumi mənasını qeyd etmişdir. Tövhid geniş mənada Allahın varlığını isbat edən sübutları və Allahın sifətlərini əhatə edir. Bundan əlavə ibarədən başa düşülən digər iki məsələni əziz oxucuların diqqətinə çatdırırıq:

a) Tövhid üsuli-dindən biri sayılarkən onun geniş mənası nəzərdə tutulur. (Allahı tanıma)

---

[5] Əllamə Təbatəbai "əl-Mizan" təfsirində əməli tövhid haqqında belə yazır: Əməli tövhid yaxşı əməlləri nəfsani istəklərə görə və Allaha şərik qoşmaqla deyil, məhz Allahın razılığını əldə etmək və axirətdə savab qazanmaq üçün yerinə yetirməkdir." "əl-Mizan" 4-cü cild, səh. 353.

[6] Xacəki Şirazi, Mühəmməd ibn Əhməd, "ən-Nizamiyyə fi məhzəbil-imamiyyə", səh 77.

b) Allahı tanımanın tövhid adlandırılması tamın ən şərafətli hissəsinin adı ilə adlandırılması qaydasına görədir. Təkallahlılıq mənasını verən tövhid islamın Allah haqqında təlimlərinin ən əsas prinsipi olduğu üçün bu ad (tövhid) onun bütün bəhslərinə şamil edilir.

Tövhidin dar və geniş mənasını açıqladıqdan sonra qeyd etmək lazımdır ki, bundan sonra tövhiddən söz açdıqda onun dar mənası nəzərdə tutulacaq.

**Kəlam elmində tövhid məsələsinin yeri**

Tövhid bəhsinə başlamazdan öncə bu mövzunun kəlam elmində yeri haqqında danışmaq lazımdır. Bu bəhsin məzmununa diqqət etdikdə aydın olur ki, tövhid bəhsi həqiqətdə Allahın sifətlərindən biri, yəni təkliyi haqqındadır.

Bu səbəbdən tövhid mövzusunu Allahın sifətləri mövzusunun bir hissəsi hesab etmək olar. Buna baxmayaraq kəlamçılar tövhid mövzusunun kəlam elmindəki yeri haqda iki müxtəlif üslubdan istifadə etmişlər:

a) Bəzi alimlər bu mövzunun Allahın sifətlərindən biri haqqında olduğunu nəzərə alıb, sifətlərlə bağlı bölümdə ondan bəhs edir, elm, qüdrət, həyat və s. kimi sifətlər haqda bəhs edərkən bu mövzunu müzakirə edirlər.[7]

b) Bəzi alimlər isə tövhid sifətinin digər sifətlərlə müqayisədə üstünlüyünü nəzərə alıb, bu mövzunu müstəqil şəkildə müzakirə etmişlər.[8]

Şübhəsiz, bu üslublardan hər biri düzgün və məqbuldur. Amma qeyd etməliyik ki, bu kitabda ikinci üslubdan istifadə edilmiş və tövhid mövzusu müstəqil şəkildə bəhs edilmişdir.

**Tövhid Quran və hədislərdə**

Keçən bəhslərdən aydın oldu ki, tövhid məsələsi islamın təməl prinsipidir və Allahı tanıma mövzusundan əlavə əxlaq və şəriətdə də böyük əhəmiyyətə malikdir. Bu səbəbdən, Quranda, Peyğəmbərin (s) və əhli-beytin (ə) kəlamlarında bu təməl prinsipinə geniş yer ayrılması təbiidir. Əlbəttə, tövhidlə bağlı Quran ayələri və hədislər o qədər geniş və dərindir ki, onlara qısa bir baxış da geniş yazı tələb edir. Odur ki, ayə və hədislərin yalnız bir hissəsinə işarə edəcəyik. Ümidvarıq ki, əziz oxucular geniş məlumat toplamaq üçün Quran təfsirlərinə və digər mənbələrə müraciət edəcəklər.

Tövhidin islamda və digər səmavi dinlərdə əhəmiyyəti

Qeyd etdiyimiz kimi tövhid məsələsi islama məxsus deyil. Bütün ilahi peyğəmbərlər tövhidə dəvət etmişlər.

---

[7] Misal olaraq, Nəsirəddin Tusi "Təcridül-etiqad" kitabında "tövhidi" Allahın sifətlərindən biri kimi, qüdrət, elm, həyat və s. kimi sifətlərdən sonra qeyd edir.

[8] Bizim əsrdə yazılan bütün kəlam kitablarında bu üslubdan istifadə edilmişdir.

وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رَّسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَهَ إِلَّا أَنَا فَاعْبُدُونِ

"Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: "Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!" – deyə vəhy etməyək". ("Ənbiya": 25)

Bu ayəyə əsasən, tövhid prinsipi bütün peyğəmbərlərin əsas şüarı olmuşdur. "Nəhl" surəsində belə buyurulur:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ

"Biz hər ümmətə: Allaha ibadət edin, tağutdan çəkinin! – deyə peyğəmbər göndərdik". ("Nəhl": 36)

Əmirəlmöminin Əli (ə) Peyğəmbərin (s) besətinin fəlsəfəsini bəyan edərkən buyurur:

"Bir çox insanlar Allahın onlarla olan əhdini dəyişdirib, Onun (Allahın) haqqını bilmədilər və Ona şərik qoşdular... Allah-taala onların arasında öz elçilərini aşkar etdi ki, fitrət əhdinin haqqını yerinə yetirsinlər".[9]

İmam (ə) buna işarə edir ki, bəşər tarixinin ilk vaxtlarında bir çox insanlar Allah-taala ilə bağladıqları əhdi sındırdılar və şirkə üz tutdular. Bu səbəbdən, Allah-taala öz peyğəmbərlərini göndərdi ki, insanlara öz fitri əhd-peymanlarını xatırlatsınlar və onları şirkdən azad edib tövhidə hidayət etsinlər.

Quran da sonuncu səmavi kitab olaraq, tövhid məsələsinə böyük əhəmiyyətlə yanaşmış və onu təkidlə vurğulamışdır. Tövhid şüarı Quranda müxtəlif ibarələrlə qeyd edilmişdir:

لاَ إِلَهَ إِلاَّ اللّهُ

"Allahdan başqa heç bir tanrı yoxdur". ("Saffat": 37)

لاَ إِلَهَ إِلاَّ هُوَ

"Ondan başqa heç bir tanrı yoxdur". ("Bəqərə": 163)

لَا إِلَهَ إِلَّا أَنَا

"Məndən başqa heç bir tanrı yoxdur". ("Ənbiya": 25)

لا إِلَهَ إِلَّا أَنتَ

"Səndən başqa heç bir tanrı yoxdur". ("Ənbiya": 87)

وَإِلَهُكُمْ إِلَهٌ وَاحِدٌ

"Sizin tanrınız bir olan Allahdır". ("Bəqərə": 163)

مَا مِنْ إِلَهٍ إِلاَّ اللّهُ

"Allahdan başqa heç bir tanrı yoxdur". ("Ali-İmran": 62; Sad: 65)

مَا مِنْ إِلَهٍ إِلاَّ إِلَهٌ وَاحِدٌ

"Bir olan Allahdan başqa heç bir tanrı yoxdur". ("Maidə": 73)

مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ

[9] "Nəhcül-bəlağə", birinci xütbə.

“Sizin Ondan başqa heç bir tanrınız yoxdur”. (“Əraf”: 59, 65, 73 və 85; Hud: 50, 62 və 84)

İslam Peyğəmbəri (s) də Allahın göstərişi əsasında elan edir ki, onun missiyasının şüarı tövhidə çağırışdır.

قُلْ إِنَّمَا أُمِرْتُ أَنْ أَعْبُدَ اللّهَ وَلا أُشْرِكَ بِهِ إِلَيْهِ أَدْعُو وَإِلَيْهِ مَآبِ

De: “Mənə Allaha ibadət etmək, Ona şərik qoşmamaq əmr olunmuşdur. Mən Ona dəvət edirəm və mənim axır dönüşüm də yalnız Onadır!” (“Rəd”: 36)

قُلْ إِنَّمَا يُوحَى إِلَيَّ أَنَّمَا إِلَهُكُمْ إِلَهٌ وَاحِدٌ فَهَلْ أَنتُم مُّسْلِمُونَ

“De ki, mənə, həqiqətən, belə vəhy olunur: “Sizin tanrınız ancaq bir olan Allahdır. Bundan sonra (Ona) təslim olacaqsınızmı?” (“Ənbiya”: 108)

Keçmiş peyğəmbərlər də bu missiya və çağırışı eynilə öz öhdələrinə götürmüşlər. Misal olaraq, Quran Nuh peyğəmbərin (ə) missiyasını belə tanıtdırır:

وَلَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ إِنِّي لَكُمْ نَذِيرٌ مُّبِينٌ أَن لاَّ تَعْبُدُواْ إِلاَّ اللّهَ إِنِّيَ أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ أَلِيمٍ[10]

“Həqiqətən, Biz Nuhu öz tayfasına peyğəmbər göndərdik. Nuh dedi: “Mən sizi (Allahın əzabı ilə) açıq-aşkar qorxudan bir peyğəmbərəm! Allahdan başqasına ibadət etməyin. Mən (cəzası) şiddətli günün sizə üz verəcək əzabından qorxuram!” (“Hud”: 25, 26)

Bundan əlavə, Quran bir çox ayələrdə tövhid və onun şaxələrini, eləcə də tövhid və şirkin təsirlərini, şirkə yönəlmənin amillərini, onun nəticələrini və s. bəyan edir. Gələn bəhslərdə onlardan bəzilərinə işarə edəcəyik. Quranla yanaşı dinin digər mötəbər mənbəyi olan hədislər də bu mövzu haqda dərin və incə həqiqətləri açıqlamışdır. Misal olaraq, Nəhcül-bəlağənin xütbələrində həzrət Əli (ə) dolğun və dərin mənalar bəyan etmişdir. Əsrlər keçdikdən sonra hələ də insanların düşüncəsi onların dərinliklərinə yol tapmamışdır.

**Terminlər**

Tövhid

Nəzəri tövhid

Əməli tövhid

Geniş mənada tövhid

Dar mənada tövhid.

**Birinci fəslin xülasəsi**

1. İslam tövhid dinidir və tövhid bu dinin təməl prinsipidir. Tövhid təkcə əqidə sahəsində deyil, əxlaq və şəriətdə də böyük əhəmiyyətə malikdir.

[10] Digər peyğəmbərlərin tövhidə dəvəti haqda bax: Əraf: 59, 65, 73 və 85; Hud: 50, 61 və 84; Muminun: 23 və 32.

2. Tövhid prinsipi islam dininə məxsus deyil. Bütün ilahi dinlər və peyğəmbərlər tövhidə dəvət etmişlər.

3. İslam tövhidə dəvət etmək baxımından digər səmavi dinlərlə eynidir. Lakin bu oxşarlıqla bərabər islamdakı tövhid təlimləri bənzəri olmayan dərinlik və zənginliyə malikdir. Bu təlimlər həm ümumi insanlar, həm də alimlər üçün faydalıdır.

4. Tövhid sözü "tək bilmək" mənasınadır. Bu söz Quranda gəlməsə də, bir çox hədislərdə qeyd edilmişdir.

5. Tövhid iki qisimdir: "nəzəri tövhid" və "əməli tövhid". Nəzəri tövhid Allahın zat, sifət və feildə təkliyinə qəti şəkildə inanmaqdır. Əməli tövhid isə tövhid düşüncəsi əsasında əməl etməkdir.

6. Tövhid bir mənada Allahın zat, sifət və feildə təkliyinə qəti etiqaddan və bu etiqada münasib əməldən ibarətdir.

7. Tövhid bəzən daha geniş məna daşıyır. Bu mənada Allahla bağlı bütün bəhsləri əhatə edir.

8. Tövhid mövzusu bir cəhətdən Allahın sifətləri mövzusunun bir hissəsidir. Amma bu mövzunun əhəmiyyətinə görə müstəqil şəkildə də bəhs edilir.

9. Tövhid prinsipinə və onun şaxələrinə Quran və hədislərdə təkid edilmişdir.

10. İnsanları tövhidə dəvət etmək ilahi peyğəmbərlərin, xüsusilə islam Peyğəmbərinin (s) əsas məqsədi olmuşdur.

## İkinci fəsil

## Zatda tövhid

Keçən fəslidə qeyd etdik ki, tövhid iki əsas qismə, yəni nəzəri və əməli tövhidə, bu iki qisim də öz növbəsində müxtəlif qisimlərə bölünür. Nəzəri tövhidi əsasən üç qismə bölürlər:

1. Zatda tövhid;
2. Sifətdə tövhid;
3. Feildə tövhid.

Bəhsimizi zatda tövhid mövzusu ilə başlayırıq. Nəzəri tövhidin digər qisimlərini araşdırdıqdan sonra əməli tövhiddən bəhs edəcəyik.

### Zatda tövhidin mənası

Zatda tövhid dedikdə, əsasən Allahın zatda təkliyi, Onun misilsiz, oxşarsız, şəriksiz olması nəzərdə tutulur. Bəzən zatda tövhid geniş mənada işlənilir və qeyd etdiyimiz mənadan əlavə, Allahın zatının bəsitliyinə (mürəkkəb olmamasına) də şamil olur. Bu ümumi mənaya əsasən, zatda tövhid iki əsas mənanı əhatə edir:

a) Allahın zatı bəsitdir və Onda heç bir tərkib ola bilməz. Zatda tövhidin bu mənası Allahın hər cür tərkibdən uzaq olmasıdır;

b) Allahın heç bir bənzəri və şəriki yoxdur.

Göründüyü kimi, birinci mənada olan tövhid Allahın mürəkkəbliyini inkar etməkdirsə, ikinci mənada olan tövhid çoxallahlılığın inkarı deməkdir. Bir sıra kəlamçılar ayə və hədislərə əsasən birinci mənanı "tövhidi-əhədi" ikinci mənanı isə "tövhidi-vahidi"[11] adlandırırlar. Əlbəttə, zatda tövhidin dəqiq mənası Allahın zatının sadəcə mürəkkəb və çox olmaması yox, ümumiyyətlə Onun mürəkkəb və ya çox olmasının qeyri-mümkünlüyüdür.

Zatda tövhid bəhsini və kəlamçıların bu haqda olan sübutlarını müzakirə etməzdən öncə bir daha qeyd etmək lazımdır ki, Quran və hədislərə əsasən bu, çox dərin bir bəhsdir və onun müxtəlif qatları vardır. Şübhəsiz, lazımi müqəddimələrə yiyələnmədən bu etiqadi prinsipin daha dərin qatlarını dərk etmək mümkün deyildir. Buna görə də yadda saxlamaq lazımdır ki, tövhid mövzusunda olan ayə və hədisləri dərindən araşdırmaq bizi bu etiqadi prinsipin daha dərin qatlarına yönəldər.

[11] "Əl-İlahiyyat əla hüdəl-kitab" və s. 2-ci cild, səh. 11.

**Allahın zatı bəsitdir**

Qeyd etdik ki, Allahın zatının bəsitliyi (mürəkkəb olmaması) "zatda tövhid" bəhsinin bir hissəsidir. Əlbəttə, bir sıra kəlamçılar bu məsələni tövhid bəhsində deyil, Allahın səlbi (inkari) sifətləri bəhsində müzakirə etməyi münasib bilmişlər. Çünki mürəkkəb olmamaq anlayışı inkar mənası ifadə edir.[12]

Hər halda tövhidin bu cəhətini daha dəqiq başa düşmək üçün tərkibin qisimlərinə nəzər salmalıyıq. Tərkib üç növdür.

**a) Əqli tərkib.** Bu növ tərkib bir şeyin əqli təhlilə görə zehində müxtəlif hissələrdən ibarət olmasıdır. Bir şeyin varlıq və yoxluqdan ibarət olması[13], mümkün varlıqların mahiyyət və vücuddan təşkil olması, bəsit olmayan mahiyyətin cins və növ fərqindən təşkil olunmasını bunları misal çəkmək olar. Bunlar əqli tərkibin nümunələridir.

**b) Xarici tərkib.** Hər hansı bir şeyin obyektiv aləmdə hissələrdən təşkil olunmsı xarici tərkib adlanır. Cismin materiya və formadan, maddi əşyaların kimyəvi elementlərdən təşkil olunması xarici tərkibin nümunələrindəndir.

**c) Potensial tərkib.** Bu növ tərkib en, uzunluq və hündürlüyə malik olan əşyalarda olur ki, bu əşyalar malik olduqları kəmiyyət (en, uzunluq və hündürlük) baxımından müxtəlif hissələrə bölünə bilər. Əlbəttə, bu növ tərkibin hissələri aktual yox, potensial şəkildə mövcuddur və yalnız bölündükdən sonra bu tərkib hissələri meydana gəlir.[14] Bəzən potensial tərkibi xarici tərkibin qisimlərindən hesab edirlər. Çünki bu növ tərkibin hissələri də zehindən kənarda mövcuddur.[15] Bununla belə, xarici tərkibin digər qisimlərinin hissələrinin aktual, potensial tərkibin hissələrinin isə potensial şəkildə olmasını nəzərə alıb, xarici tərkiblə potensial tərkibi iki ayrı-ayrı qisim hesab etmək olar.

**Tövhidin dəlillərinin müxtəlifliyi**

Tərkibin növlərini qeyd etdikdən sonra kəlamçıların Allahın zatında bu növ tərkiblərdən heç birinin olmamasına gətirdikləri sübutları bəyan edirik. Amma hər şeydən öncə tövhidin sübutlarının müxtəlifliyi haqda bir məsələni əziz oxucuların diqqətinə çatdırmaq istərdik.

---

[12] "Kəşfül-murad", səh. 317; "Mənahicul-yəqin fi üsulid-din", səh. 201.

[13] Varlıq və yoxluqdan ibarət tərkib dedikdə eyni bir şeyin həm var olması, həm də yox olması nəzərdə tutulmur. Çünki varlıq və yoxluq bir-birilə ziddir və onların eyni varlıqda toplanması mümkün deyil. Varlıq və yoxluqdan ibarət tərkib dedikdə bəzi kamalların varlığı ilə bəzi kamalların yoxluğunun bir varlıqda olması nəzərdə tutulur.

[14] Məsələn, bir metrlik ip bölündükdən sonra iki yarım metrlik ip şəklini alır. Amma bölünməzdən öncə, şübhəsiz ki, iki ədəd yarım metrlik ip mövcud deyildir.

[15] Əllamə Hilli, "Kəşfül-murad" kitabında potensial tərkibi xarici tərkibin bir qismi hesab edir. "Kəşfül-murad", səh. 317.

Bildiyimiz kimi, tövhid bəhsləri kəlam elmindən əlavə, fəlsəfə və irfan elmlərində də araşdırılır. Bu səbəbdən, kəlamçılarla yanaşı, filosoflar və ariflər də bu mövzuda dərin məsələlər söyləmiş və dəlillərə ehtiyac olduqda, onlardan hər biri özlərinə məxsus metod və prinsiplər əsasında müxtəlif dəlillər gətirmişlər. Bu böyük səylərin nəticəsi budur ki, bu günümüzdə belə bir bəhsdə dəlillərin müxtəlifliyi ilə qarşılaşırıq.[16] Bu kitabın həcmini və hədəfini nəzərə almaqla bu dəlillərdən bir neçəsini oxuculara təqdim edirik. Beləliklə, əvvəlki bəhslərdə olduğu kimi kəlami xarakter daşıyan, eyni zamanda kifayət qədər tutarlı olan dəlillərə kifayətlənməyə çalışacağıq.

**Allahın mürəkkəb olmamasının dəlilləri**

Allahın zatının hər cəhətdən bəsit olduğunu isbat etmək üçün qeyd etdiyimiz müxtəlif növ tərkiblərin heç birinin Allahda ola bilməməsini isbat etməliyik. Lakin tərkibin müxtəlif növlərinin heç birinin Allahda mümkün olmadığını eyni zamanda isbat edən vahid bir dəlil yoxdur. Odur ki, bu hədəfə nail olmaq üçün müxtəlif dəlillərdən istifadə etməliyik.

1. **Xarici tərkibin inkarı:** Allah-taalanın xarici hissələrdən təşkil olunmamasının dəlillərindən biri belədir: mürəkkəb bir toplunu öz tərkib hissələri ilə nəzərdə tutduqda bu toplunun öz tərkib hissələrindən asılı olduğunu müşahidə edirik, belə ki, tərkib hissələrinin biri olmadıqda, toplu da aradan gedir. Başqa sözlə desək, ağıl hökm edir ki, hər bir hissənin varlığı topludan qabaqdır.[17]

Beləliklə, hər bir mürəkkəb mövcudun varlığı öz tərkib hissələrinə bağlıdır. Halbuki Allahın varlığı başqasına bağlı deyil, çünki başqasına bağlı olmaq Onun zəruri varlıq olması ilə ziddiyyət təşkil edir. Bu səbəbdən Allahın zatının mürəkkəb olması Onun mümkün varlıq olması ilə nəticələnir. Halbuki, Allah-taala zəruri varlıqdır. Nəticə alırıq ki, Allahın zatının xarici hissələrdən təşkil olunması mümkün deyildir.

2. **Əqli tərkibin inkarı:** Allah-taalada əqli tərkibin qeyri-mümkünlüyünü isbat edən qısa dəlillərdən biri belədir:

Cins və növ fərqindən, eləcə də varlıq və mahiyyətdən təşkil olunmaq mahiyyətlərin xüsusiyyətlərindəndir. Başqa sözlə, yalnız mahiyyətlərdə belə bir iş mümkündür ki, zehin onların müştərək cəhətlərini özünəməxsus cəhətlərindən ayırmaqla cins və növ fərqini dərk edib o ikisindən mürəkkəb məfhum yaratsın. Digər tərəfdən, aydındır ki, varlıq və mahiyyətdən təşkil olunmaq yalnız mahiyyət olan yerdə mümkündür.

Odur ki, cins və növ fərqindən, eləcə də varlıq və mahiyyətdən təşkil olunmaq yalnız mahiyyətlərə aiddir. Halbuki öz yerində sübut edildiyi kimi Allah-taala sirf varlıqdan

---

[16] Abdullah Müdərris Zunuzi "Ləməati-ilahiyyə" kitabında (səh. 124-195) zatda tövhidə on bir dəlil qeyd etmişdir.

[17] Əlbəttə, fəlsəfi bəhslərdə qeyd olunduğu kimi, bu növ qabaqcıllıq zaman nöqteyi-nəzərindən deyil, təbiət etibarilə olan qabaqcıllıqdır.

ibarətdir və onun mahiyyəti yoxdur. Bir sözlə, Allah-taalanın mahiyyəti olmadığı üçün qeyd edilən tərkiblərdən (həm cins və növ fərqi tərkibindən, həm də varlıq və mahiyyət tərkibindən) uzaqdır.

Bildiyimiz kimi, əqli tərkib üçün başqa bir növ də təsəvvür edilə bilər ki, o da varlıq və yoxluqdan təşkil olunmaqdır. Bu növ tərkibin Allahda olmamasının dəlili budur ki, Allah-taala zəruri varlıq olduğu üçün bütün kamallara malikdir (Çünki bütün kamallar mümkün varlıqdır və Onun nəticəsidir və bütün kamalların səbəbi olan Allahda bu kamalların olmaması mümkün deyildir). Odur ki, heç bir kamalı Ondan istisna etmək mümkün deyildir və buna görə də varlıq və yoxluq tərkibi (yəni hansısa kamala sahib olmamaq) Allahda ola bilməz.

3. **Potensial tərkibin inkarı:** Allah-taalada potensial tərkibin qeyri-mümkünlüyünü isbat edən qısa dəlillərdən biri belədir:

Əgər Allahda potensial hissə olarsa, həmin hissə ya mümkün varlıq olar, ya da zəruri varlıq. Əgər mümkün varlıq olarsa, bu, tam ilə hissənin zəruri və mümkün olmaq baxımından fərqli olması ilə nəticələnər. Çünki bu o deməkdir ki, Allah-taalanın zatı (bir bütöv olaraq) zəruri varlıq, onun hissəsi isə mümkün varlıq olsun. Bu isə absurddur. Çünki mümkün varlıq olan hissələrin birləşməsindən zəruri varlığın əmələ gəlməsi qeyri-mümkündür.

İkinci ehtimala, yəni fərz edilən potensial hissələrin zəruri varlıq olması ehtimalına gəlincə, bu da absurddur. Çünki qeyd etdiyimiz kimi, potensial tərkibdə hissələr potensial şəkildə mövcuddur, zəruri varlığın isə vücudunun potensial olması qeyri-mümkündür

Bu növ tərkibin inkarını isbat edən digər bir dəlil budur ki, potensial tərkib cisimlərin xüsusiyyətlərindəndir. Cisim isə cisimlik mahiyyətinə malikdir. Halbuki Allahın mahiyyəti yoxdur.

Qeyd olunan sübutlar əsasında Allahın hər bir cəhətdən bəsitliyi və onda heç bir tərkibin olmaması isbat olur. Beləliklə, zatda tövhidin birinci qismi olan "tövhidi-əhədini" əqli yolla isbat etdik.

**Allahın vəhdətinin (vahidliyinin) isbatı**

Allahın bəsitliyini isbat etdikdən sonra tövhidi-vahidini, yəni Allahın təkliyini və Onun oxşarının qeyri-mümkünlüyünü isbat edirik. Burada da müxtəlif sübutlar qeyd edilmişdir ki, bir neçəsini əziz oxucuların diqqətinə çatdırırıq.

1. **Mütləq kamillik dəlili.** Bu sübutun əsas müqəddiməsi odur ki, Allahın zatı kamil və mütləqdir, Onda heç bir məhdudiyyət mümkün deyildir. Çünki Allahın vücudunun zəruriliyi bütün kamilliklərin Onda olmasını tələb edir. Ona görə ki, hər hansı bir kamilliyin olmaması naqis və ehtiyaclı olmaq deməkdir, ehtiyaclı olmaq isə zəruri varlıq olmaqla ziddiyyət təşkil edir.

Beləliklə, iki allahın varlığı fərz olunarsa[18], onların arasında fərq olmalıdır, çünki əgər heç bir fərq olmazsa, "iki" olmaq fərzi də aradan gedər. Bu halda iki ehtimalla qarşılaşırıq:

Birinci ehtimal. İki allahdan biri sonsuz və bütün kamallara sahib olsun, digəri məhdud olsun və birinci allahda olan bəzi kamallar onda olmasın. Belə bir ehtimala görə, həqiqi Allah onlardan birincisidir. İkinci isə məhdud olduğundan və bəzi kamallara malik olmadığından, allah ola bilməz. Beləliklə, birinci ehtimal çoxallahlılıqla deyil, tohidlə nəticələnir.

İkinci ehtimal. Fərz edilmiş iki allahdan hər birində digərinin malik olduğu kamallardan bəzisi olmasın. Bu ehtimalın nəticəsi onların heç birinin allah olmamasıdır. Belə bir nəticə bizim fərzimizlə uyğun deyil. Çünki bu ehtimala əsasən, fərz edilmiş iki allah varlıqla yoxluqdan (bəzi kamalların yoxluğu) tərkiblənmiş olur. Halbuki keçən mövzuda deyildiyi kimi, Allah hər növ tərkibdən uzaqdır.

Nəticədə, çoxallahlılıq fərzi bir ehtimala görə tövhidlə və ikinci ehtimala görə qeyri-mümkünlüklə nəticələnir. Beləliklə, çoxallahlılıq əsassız bir fərzdir.

Üçüncü ehtimal da bundan ibarət ola bilər ki, fərz edilmiş hər iki allah bütün kamilliklərə malik olsun. Bu ehtimala cavab olaraq xatırladırıq ki, qeyd etdiyimiz kimi o yerdə çoxlu varlıqlardan danışmaq olar ki, onların arasında fərqlilik olsun. Beləliklə, fərz edilmiş iki allah bütün kamallara malik olarsa, artıq onların arasında heç bir fərq olmayacaqdır və bu ehtimal bizim fərzimizlə (allahların çox olması fərzi) uyğun deyil.

2. **Bəsitlik dəlili.** İki allahın varlığı fərz olunarsa, vücudlarının zəruriliyi onların oxşar cəhətləri olacaqdır. Digər tərəfdən qeyd etdiyimiz kimi çoxlu əşyalardan danışılırsa, deməli onların arasında fərq olmalıdır. Məsələn, iki kitabdan söhbət gedirsə, oxşar cəhətlərindən əlavə, ən azı bir cəhətdən fərqlənməlidirlər (rəng, məkan, həcm, məzmun və s. kimi). Beləliklə, fərz olunan iki allah allahlıq cəhətindən eyni olsalar da, iki olduqlarına görə bir-birindən fərqlənməlidirlər.

Bu fərzin nəticəsi fərz edilmiş iki allahın oxşar və fərqli cəhətlərə malik olması və nəticə etibarı ilə onların zatının iki hissədən təşkil olmasıdır:

1) fərz olunan digər allahla oxşar cəhət;

2) özünəməxsus cəhət.

Bu isə zəruri varlığın mürəkkəb olması deməkdir. Halbuki, zəruri varlığın hər növ tərkibdən uzaq olmasını isbat etdik.

Bu sübutun xülasəsi budur ki, zəruri varlığın çoxluğu fərzi onun mürəkkəb olması ilə nəticələnir. Belə bir tərkib mümkün olmadığından allahların çoxluğu da mümkün deyildir.

---

[18] Dəlillərdə misal olaraq iki zəruri varlıqdan söhbət açılır. Lakin aydındır ki, dəlillərin məzmunu ikidən artıq zəruri varlığın olmasını da rədd edir.

3. **Qarşılıqlı maneçilik dəlili.** Tövhidin məşhur sübutlarından biri də qarşılıqlı maneçilik adlanan dəlildir. Bu dəlili müxtəlif bəyanlarla ifadə etmişlər. Onlardan birini burada ifadə edirik:

İki allahın varlığı fərz edilərsə, üç ehtimalla qarşılaşarıq:

1. İki allahdan biri digərinin istəyinə və iradəsinə mane ola bilər, amma qarşı tərəf buna qadir deyil. Bu surətdə məlumdur ki, həqiqi Allah birincisidir və ikincisi isə iradəsi məğlub olduğu üçün allah ola bilməz.

2. Hər ikisi digərinin iradəsinə mane ola bilər.

3. Onlardan heç biri digərinin iradəsinə mane ola bilməz. Son iki ehtimal da iki allahın varlığı fərzi ilə uyğun deyil. Çünki ikinci ehtimal allahlardan birinin iradəsinin məğlubiyyəti və üçüncü ehtimal hər iki allahın acizliyi və qüdrətsizliyi ilə nəticələnir. Bu iki məna, yəni iradənin məğlub olması və acizlik Allahın zəruri varlıq olması ilə ziddiyyət təşkil edir.

Beləliklə, ikinci və üçüncü ehtimal da əsassızdır. Buna görə də, başqa bir ehtimal olmadığı üçün çoxlu allahların varlığı fərzi də qəbul olunmazdır.

**Həqiqi vəhdət və ədədi vəhdət**

Zatda tövhid mövzusunun sonunda bir məsələni əziz oxucuların diqqətinə çatdırmağı lazım bilirik.

Allahın tək və vahid olmasını bir çox insanlar ədədi vəhdət başa düşürlər, yəni "Allah təkdir" cümləsini bir çox hallarda "günəş birdir" və "yer birdir" cümləsi ilə eyni məzmunda hesab edirlər. Lakin bir tərəfdən dəqiq düşüncələr, digər tərəfdən Quran və hədislərin dərin təlimləri zatda tövhidin daha dolğun mənasını bizlərə çatdırır ki, buna "həqiqi vəhdət" deyilir.

Çoxlu predmetləri ola bilən ümumi bir anlayışın hər bir predmetinin vəhdəti ədədi vəhdət adlanır. Odur ki, say etibarilə vahid olan şey ilə yanaşı ona oxşar ikinci, üçüncü və s. əşyaları təsəvvür etmək mümkündür. Nəticədə onları bir-birinin kənarında qoysaq bir, iki, üç və s. ədədlər yaranar. Həqiqi vahid dedikdə, isə heç də müxtəlif predmetləri ola bilən geniş məfhumdan söhbət getmir. Əksinə, elə vahid həqiqətdən danışılır ki, onun oxşarı olan ikinci, üçüncü və s. varlıqların olması ümumiyyətlə mümkün deyildir.

Allahın həqiqəti barəsində düşünməklə aydın olur ki, O, say etibarilə yox, həqiqi vahiddir. Çünki vahid Allahla yanaşı başqa bir və ya bir neçə allahın olması mümkün deyil. Beləliklə, tək Allah mütləq varlıqdır və hər məhdudluqdan uzaqdır, digər belə bir varlığın olması mümkün deyildir.

**Zatda tövhid haqqında ayələr**

Keçən bəhslərimizdə qeyd etdik ki, nəzəri tövhidin qisimlərindən biri də zatda tövhiddir. Zatda tövhid isə iki qismə bölünür:

1. Tövhidi-əhədi, yəni Allahın bəsitliyinə və mürəkkəb olmamasına etiqad;

2. Tövhidi-vahidi, yəni Allahın təkliyinə və şəriksizliyinə etiqad. Quran ikinci qismə təkid edir, çünki iki və ya daha çox allaha etiqad insanlar arasında geniş yayılmışdır. Əlbəttə, bəzi ayələrdən Allahın bəsitliyi də aydın olur.

Quran "Şura" surəsində Allahın təkliyini və heç bir şəriki olmadığını aşkar şəkildə bəyan edir.

لَيْسَ كَمِثْلِهِ شَيْءٌ وَهُوَ السَّمِيعُ البَصِيرُ

"Ona bənzər bir şey yoxdur. O, eşidəndir, görəndir!" ("Şura": 11)

Bu ayə ərəb dilinin qanunlarına əsasən, Allahın hər hansı bir oxşarı, misli və şəriki olmasını inkar edir.[19]

Əlbəttə, bu ayənin birinci cümləsindəki sözlərin dəqiq mənası haqda təfsir alimləri arasında fikir ayrılığı vardır. Bu fikir ayrılığı cümlədə "kə-misli-hi" birləşməsindəki "kimi" (oxşarlıq) mənasını bildirən "kə" ön qoşmasından irəli gəlir. Buna görə də, sanki ayədə misl mənası iki dəfə təkrar olunmuşdur və ayənin hərfi mənası belə olur: "Heç bir şey Onun misli kimi deyil". Təfsir alimləri bu təkrarın hikmətini aydınlaşdırmağa çalışmışlar. Bu səbəbdən bəziləri bu qənaətdədirlər ki, ayədə olan "kə" ön qoşması "kimi" mənasına deyil, sadəcə, ayənin məzmununa təkid olaraq istifadə edilmişdir. Bəziləri isə bu fikirdədir ki, ayədə olan misl sözü zat mənasınadır. İkinci rəyə əsasən, ayənin mənası "Heç bir şey Onun zatı kimi deyil" olacaq.

Qeyd olunan fikir ayrılıqlarını nəzərə almasaq, ayənin ümumi mənası aşkardır. Allahın zatı hər bir cəhətdən sonsuzdur, digər varlıqlar isə məhduddur və şübhəsiz ki, sonsuz varlığı məhdud varlıqlarla müqayisə etmək olmaz. Beləliklə, bu ayə Allahın bənzərsizliyini birmənalı şəkildə vurğulayır.

"İxlas" surəsinin ayələri də Allahın təkliyini çatdıran ayələrdəndir:

قُلْ هُوَ اللَّهُ أَحَدٌ اللَّهُ الصَّمَدُ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُن لَّهُ كُفُوًا أَحَدٌ

De "O Allah birdir. Allah möhtac deyildir! O, nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!" ("İxlas": 1-4)

Birinci ayədə Allah-taala peyğəmbərə (s) əmr edir ki, Allahın təkliyini açıq şəkildə elan etsin. Bəzi təfsir alimlərinin fikrincə, "əhəd" və "vahid" sifətləri Allaha aid edildikdə bu iki söz fərqli mənalar daşıyır - "əhəd" bəsitliyi və "vahid" isə təkliyi çatdırır. Bu halda birinci ayə Allahın hər növ tərkibdən uzaq olmasını bildirir.[20] Sonuncu ayədə isə açıq şəkildə bildirilir ki, Allah-taalanın oxşarı yoxdur. Ayədə qeyd olunan "kufuvən" sözü

---

[19] Ərəb dilinin qanunlarına görə qeyri-müəyyənlikdə olan bir isim inkar cümlədə gələrkən ümumilik ifadə edir. Odur ki, ayədə "leysə" inkar feilindən sonra gələn "şey" sözü inkarın ümumiliyini ifadə edir (Başqa sözlə, "Ona bənzər bir şey yoxdur" cümləsi "Ona bənzər ***heç*** bir şey yoxdur" kimi başa düşülməlidir. Red.)

[20] "Əl-Mizan," İxlas surəsinin təfsiri, 20-ci cild, səh. 387-389.

oxşar və misl mənasınadır. Bu səbəbdən, ayə Allahın hər hansı bir şəriki və oxşarı olduğunu inkar edərək, Onun təkliyini təsbit edir. Əlbəttə, ayədəki "kufuvən" (bənzər) sözü zat cəhətindən şərik mənasını bildirdiyi kimi, onun feil cəhətindən də şərik mənasını ifadə etməsi mümkündür. Bu halda, zatda tövhiddən əlavə, yaratma, idarə etmə və s. kimi feildə tövhidi də isbat etmiş oluruq.[1]

Qurandan başa düşülən digər maraqlı bir məsələ budur ki, bir çox ayələr Allahı vəhdət və təkliklə vəsf etdikdən sonra Onun "qəhhar" sifətinə də təkid edir:

سُبْحَانَهُ هُوَ اللَّهُ الْوَاحِدُ الْقَهَّارُ

"O, pak və müqəddəsdir. O, vahid və qəhhar (qəhr edən) Allahdır".[2] ("Zümər": 4)

Bəzi təfsirçilərin fikrincə, "vahid" və "qəhhar" sifətlərinin bir yerdə qeyd olunmasının əsas sirri bundan ibarətdir ki, hər hansı bir varlıq məhdud olarsa, onun məhdudluğu əhatə olunduğu qeydlər və hədlər tərəfindən qəhr olunması deməkdir (yəni belə bir varlıq qəhr edən yox, qəhr olunandır). Bu səbəbdən Allah-taalanın mütləq qəhharlığı heç bir qeydin və həddin Ona hakim olmaması deməkdir. Əksinə, bütün mövcudlara hakim olan mütləq varlıq Odur. Beləliklə, bu iki sifətin yanaşı gəlməsi bu həqiqəti göstərir ki, Allah-taalanın vəhdəti ədədi vəhdət deyil. Çünki say etibarilə vahid olan bir şeyin oxşarını təsəvvür etmək mümkün olduğu üçün məhdud sayılır. Məhdud varlıq isə qarşısında təsəvvür olunmuş bir şeyi öz əhatəsi altına ala bilmədiyi üçün qeyd və hədlər tərəfindən qəhr olunmuş sayılır.

Nəhayət, "vahid" və "qəhhar" sifətlərini bir-birilə yanaşı qeyd edən ayələr bu həqiqəti göstərir ki, nəinki Allah-taalanın oxşarı, şəriki yoxdur, hətta Onun üçün hər hansı bir oxşar və şərik təsəvvür etmək belə qeyri-mümkündür. Ədədi vəhdətin əksi olan həqiqi vəhdət elə bu deməkdir.[3]

**Zatda tövhid haqqında hədislər**

Hədislərdə də zatda tövhid haqqında dərin mətləblər qeyd edilmişdir. Nümunə olaraq, islam peyğəmbəri (s) Allahı layiqli şəkildə tanımanı belə izah edir:

"Allahı layiqli şəkildə tanıma odur ki, Onu misilsiz, oxşarsız biləsən və Onu heç bir misli və bənzəri olmayan Tək, Yaradan, Qadir, Əvvəl, Axır, Aşkar və Gizli Allah kimi tanıyasan".[4]

---

[1] Yenə orada.

[2] Eyni məzmun bu ayələrdə də gəlmişdir: "Yusif": 39, "Rəd": 16; "İbrahim": 48; "Sad": 65, "Mumin": 16. 16.

[3] "Əl-Mizan", Maidə: 86, 6-cı cild, səh. 86-91.

[4] "Biharul-ənvar", c. 3, səh. 74.

Peyğəmbər (s) bu hədisin əvvəlində Allahın misilsiz olmasına təkid edir. Bəzi sübuti (iqrari) sifətləri saydıqdan sonra bir daha tövhid məsələsinin üzərinə qayıdıb, Allahın misilsiz olmasını bəyan edir.

Əmirəlmöminin Əli (ə) "Cəməl" müharibəsində döyüş zamanı tövhid haqqında sual verən şəxsin cavabında tövhidin dörd mənasına işarə edir. Bu mənalardan yalnız ikisini Allahın məqamına layiq bilir:

"Allaha layiq olmayan iki qisim tövhiddən biri "Allah vahiddir"- deyib, ədədi vəhdəti nəzərdə tutmaqdır. Bu növ vəhdət Allaha layiq deyil. Çünki ikincisi (bənzəri) olmayan varlıq ədədlər sırasına daxil ola bilməz... Digəri isə "Allah insanlardan biridir" – deyib, cinsin bir növünü nəzərdə tutmaqdır. Bu növ vəhdət də bizim Rəbbimizə layiq deyil, çünki Allahı başqasına oxşatmaqla nəticələnir. Allah-taalaya layiq olan digər iki qisim tövhiddən biri "O, təkdir və varlıqlar arasında Onun oxşarı yoxdur. " – deməkdir. Bəli, bizim Rəbbimiz belədir. Digəri isə "Allah-taala mənada da təkdir" – deyib, Allahın nə vücudda, nə də ağıl və xəyalda hissələrə bölünməməsini nəzərdə tutmaqdır. Bəli, bizim Rəbbimiz belədir.[1]

Qeyd olunduğu kimi imam (ə) tövhidin iki qismini, Allahın böyük məqamına layiq bilmir. Bu iki qismdən birincisi ədədi vəhdətdir. Çünki bu növ vəhdətdə ikinci və üçüncünün varlığı isbat edilir və ya ən azından, təsəvvür oluna bilər. Halbuki, Allah-taala üçün ikinci təsəvvür oluna bilməz. Allaha isnad verilməyən ikinci qisim vəhdət hər hansı bir şeyin öz həmcinsləri və ya həmnövləri ilə müqayisədə xarakterizə olunduğu vəhdətdir. Belə yerdə nəzərdə tutulan şeydən əlavə digər fərdlərə də aid olan müəyyən bir növdən və ya cinsdən söhbət gedir. (Məsələn, Hüseyni insan növünün bir fərdi adlandırmaq kimi). Bu növ vəhdət də Allaha isnad verilə bilməz. Çünki bu, növdə və ya cinsdə onunla müştərək olan oxşar fərdlərin olması deməkdir. Bu isə Allahı digərinə oxşatmaqdan başqa bir şey deyil.

İmam (ə) söhbətinin ardında Allaha isnad verilə biləcək digər iki qisim vəhdətdən söz açır. Bu cümlələrə diqqət etdikdə aydın olur ki, son iki növ tövhid, zatda tövhidin öncə qeyd etdiyimiz iki cəhətini xatırladır, yəni Allahın şəriki yoxdur (tövhidi-vahidi) və Onun zatı hissələrdən təşkil olunmayıb (tövhidi-əhədi). Cümlədə qeyd olunan "Allah-taalaya oxşar və misl yoxdur" ibarəsi birinci növə və "Allahın zatı bəsitdir və hissələrdən ibarət deyil" ibarəsi ikinci növə işarədir. Maraqlıdır ki, imam (ə) öz gözəl cümləri ilə tərkibin qismlərinə işarə edir: "Vücudda bölünmə" xarici tərkibə və "ağılda bölünmə" əqli tərkibə işarə edir. Xəyalda bölünmək isə o yerdə olur ki, actual olaraq hissələrə malik olmayan bir şey xəyalda hissələrə bölünür (məsələn: zamanı fərz olunmuş hissələrə bölmək).

[1] "Ət-Tövhid", 3-cü bab, 3-cü hədis.

Hər halda, imam (ə) zatda tövhidi hər növ şərik, oxşar və tərkibin inkarı bilir və bu mənanı Allaha aid edir.

Həzrət Əli (ə) digər bir cümləsində Allahda ədədi vəhdətin olmasını aşkar şəkildə inkar edərək, buyurur: "(Allah-taala) vahiddir, lakin say etibarilə yox. O, sonu olmayan əbədi bir varlıqdır".[1]

İmam Sadiq (ə) yaxın dostlarından birindən "Allahu əkbər"in mənasını soruşdu. O şəxs dedi: "Allah bütün şeylərdən daha böyükdür". İmam (ə) buyurdu: "Allahdan başqa bir şey varmı ki, Allah ondan böyük olsun?" Sonra imam (ə) özü "Allahu əkbər" cümləsini belə mənalandırır: "Allah vəsf olunmaqdan daha böyükdür".[2]

Şübhəsiz, imam (ə) bu cümləsində tövhidin ən dərin mənalarından birinə işarə edir. Xalis tövhid odur ki, Allahın həqiqi vəhdəti və Onun mütləq, sonsuz varlığı Onu öz yaratdıqları ilə müqayisə etməyə yol vermir. Çünki hər növ müqayisə Allahı digərinə oxşatmaq deməkdir. Xalis tövhid tələb edir ki, Allahı antropomorfizmlə[3] nəticələnən hər bir vəsfdən pak bilək.

**Terminlər**

Zatda tövhid

Əqli tərkib

Xarici tərkib

Potensial tərkib

Ədədi vəhdət

Həqiqi vəhdət

**İkinci fəslin xülasəsi**

1. Nəzəri tövhid üç qismə bölünür: zatda tövhid; sifətdə tövhid; feildə tövhid.

2. Zatda tövhid bir tərəfdən Allahın bəsitliyi (mürəkkəb olmaması) və digər tərəfdən də şəriksiz olmasıdır. Birinciyə tövhidi-əhədi və ikinciyə isə tövhidi-vahidi deyilir.

3. Quran və hədislərdə bəyan olunduğu kimi, zatda tövhidin çox dərin qatları vardır. Müsəlman alimləri bu vaxta qədər onlardan yalnız bəzilərinə yol tapmışlar.

4. Tərkib üç növdür:

a) Əqli tərkib: varlıq və yoxluqdan, vücud və mahiyyətdən, cins və fəsldən ibarət olan şeylər kimi.

b) Xarici tərkib: cismin materiya və formadan, maddi əşyaların elementlərdən təşkil olunması kimi.

---

[1] "Nəhcül-bəlağə", 185-ci xütbə.

[2] Biharul-ənvar c. 90, s. 218

[3] Allahı məxluqlara bənzətmə

c) Potensial tərkib: cismin üç ölçüyə malik olduğu cəhətdən imkan halında olan (potensial) hissələrdən təşkil olunması kimi.

5. Allah-taala hər üç növ tərkibdən pak və münəzzəhdir. Bu müddəanı əqli dəlillərlə isbat etmək olar.

6. Allahın təkliyini və şəriksizliyini müxtəlif əqli yollarla isbat etmək olar.

7. Allah-taala say etibarilə yox, həqiqi vahid olduğu üçün bir və ya bir neçə başqa allahın təsəvvürü mümkün deyildir.

8. Müqəddəs Quran "Şura surəsinin 11-ci ayəsi (Heç nə Ona tay ola bilməz) ilə və "İxlas" surəsinin ayələri ilə Allahın misilsiz və şəriksiz olmasına təkid edir. Bəzi təfsir alimlərinin fikrincə, "Qul huvəllahu əhəd" cümləsi Onun bəsitliyini, "Və ləm yəkun ləhu kufuvən əhəd" cümləsi isə şəriksiz olmasını bildirir.

9. Quranın müxtəlif ayələrində "qəhhar" sifəti "vəhdət" sifətindən bilavasitə sonra gəlmişdir. Bu da Allah-taalanın həqiqi vəhdətini təkid edir.

10. Əmirəlmöminin Əli (ə) tövhid haqqında soruşan şəxsin cavabında say və növ cəhətindən vəhdəti Allah-taala haqqında düzgün hesab etmir, zatda tövhidi şəriksizlik və xarici, əqli, xəyali tərkibdən uzaq olmaq hesab edir.

11. İmam Sadiq (ə) "Allahu əkbər" cümləsinin mənasını belə izah edir: "Allah-taala hər bir vəsfdən pak və münəzzəhdir.

## Üçüncü fəsil

## Sifətdə tövhid

### Giriş

Qeyd etdik ki, nəzəri tövhid zatda, sifətdə və feildə tövhidə bölünür. Zatda tövhidi araşdırdıqdan sonra sifətdə tövhid mövzusuna növbə çatır.

Keçən bəhslərdə deyildiyi kimi, Allah-taala zəruri varlıq olduğuna görə bütün kamal sifətlərinə malikdir və vücudun kamilliklərindən sayılan, olmaması naqislik hesab olunan elm, qüdrət, həyat və s. kimi sifətlər ən kamil şəkildə, mütləq və qeyri-məhdud formada Ona aid edilir. Burada belə bir sual meydana çıxır ki, bu kamal sifətlərinin Allahın zatı ilə əlaqəsi necədir? Bu sifətlər Allahın zatı ilə eynidir, yoxsa əksinə, hər biri Allahın zatından kənar həqiqət olan qeyri-zati xüsusiyyət sayılır?

Sualın daha aydın olması üçün öz xüsusiyyətlərimizə diqqət etmək yaxşı olardı. Özümüzdə olan müxtəlif xüsusiyyətlərə diqqət etməklə aydın olur ki, bəzi xüsusiyyətlərimiz zatımızdan kənar bir şey olmayıb onunla eynilik təşkil edir. Məsələn: "insanlıq" sifəti bizim zatımızla eynidir. İnsanlıq kənardan bizim zatımıza əlavə olunan qeyri-zati xüsusiyyət deyildir. Amma bir çox xüsusiyyətlər qeyri-zati xüsusiyyətlərdir, belə ki, bu xüsusiyyətlər zatımızla eynilik təşkil etmir. Buna misal olaraq "şadlıq" və "qəmginlik" xüsusiyyətlərini göstərmək olar. Biz zatən nə şadıq, nə də qəmgin. İndi isə Allah-taala haqda bəhs etmək lazımdır ki, Onun sifətləri hansı qisimdəndir? Suala cavab verməzdən öncə bir müqəddiməni oxucuların diqqətinə çatdırmaq yerinə düşərdi.

### Mənaca eynilik və obyektiv eynilik

Sifətin zatla eyniliyindən söhbət gedirsə, hansı eyniliyin nəzərdə tutulduğunu aydınlaşdırmaq lazımdır. Eynilik iki cür olur: mənaca eynilik və obyektiv eynilik.

Mənaca eynilik məfhumlara aiddir və zehində olan iki məfhumun eyni məna daşımasına deyilir. Mənaca eynilik sözlərdə olan sinonimliyə bənzəyir. Vücud və varlıq sözlərinin sinonim olmasından danışarkən, bu iki sözün eyni mənanı daşıması nəzərdə tutulur. Eləcə də, vücud və varlıq məfhumlarını mənaca eyni hesab ediriksə, bunu demək istəyirik ki, bu iki məfhumu təsəvvür edərkən əslində bir məfhumu iki dəfə təsəvvür etmiş oluruq.

Obyektiv eynilik isə mənaca eyni olmayan iki və ya daha artıq məfhumun obyektiv aləmdə vahid predmetə aid olmasına deyilir. Məsələn, "müsəlmanların səmavi kitabı" və "islam peyğəmbərinin (s) əbədi möcüzəsi" məfhumları mənaca eyni olmasa da, xaricdə eyni predmetə (Qurana) aid olur.

**Sifətdə tövhidin mənası**

Yuxarıda verdiyimiz izah "sifətdə tövhid" haqqında aydın təsəvvür yarada bilər. Allahın zatı ilə sifətləri arasında, eləcə də Onun ayrı-ayrı sifətləri arasında məna etibarı ilə müxtəliflik, xaricdə isə eynilik hakimdir. Bu səbəbdən Allahın zatı elm, qüdrət və s. kimi sifətlərlə məna etibarı ilə müxtəlif olsalar da, hamısı xaricdə vahid varlıq sayılırlar.

Qeyd etmək lazımdır ki, sifətdə tövhid mövzusu əvvəla feili sifətlərə yox, zati sifətlərə və zati sifətlər arasında da səlbi sifətlərə deyil, sübuti sifətlərə məxsusdur.[1] Beləliklə, sifətdə tövhid üç prinsip üzərində qurulmuşdur.

1. Allahın zatı və sifətləri mənaca bir-birindən fərqlidir;
2. Allahın zatı ilə sifətləri arasında xaricdə və obyektiv aləmdə eynilik hakimdir;
3. Allahın sifətləri arasında da bu eynilik hakimdir.

Əlbəttə, bir az diqqət etməklə aydın olur ki, üçüncü prinsip ikinci prinsipdən qaynaqlanır. Çünki aydındır ki, vahid bir həqiqətlə eynilik təşkil edən əşyalar arasında da eynilik hakim olar, vahid bir həqiqətlə fərqli olan əşyalar arasında isə eynilik mümkün deyildir.[2] Odur ki, zat ilə sifətlər arasında eyniliyin olması sifətlər arasında da eyniliyin olması deməkdir. Bununla belə, məsələnin daha aydın olması üçün üçüncü prinsipi ayrıca qeyd etmək olar.

Bəzi alimlərin qənaətinə görə, sifətdə tövhid hər növ tərkibin Allahın zatından uzaq olmasına olan etiqada şamil olur.[3]

**Sifətdə tövhidin dəlilləri**

Sifətdə tövhidin mənalarını qeyd etdikdən sonra onun dəlillərini əziz oxucuların diqqətinə çatdırırıq. Kəlamçılar və filosoflar bu haqda müxtəlif dəlillər gətirmişlər. Onlardan bəziləri çətin fəlsəfi qanunlara əsaslanır. Burada asanlıqla başa düşülən üç dəlillə kifayətlənirik.

**Birinci dəlil:**

Bu dəlil iki əsas müqəddiməyə əsaslanır.

a) Allahın mütləq kamilliyi tələb edir ki, Onun öz sifətlərinə malik olması ən kamil şəkildə olsun.

b) Hər hansı bir sifətə ən kamil şəkildə malik olmaq odur ki, bu və ya digər varlıq öz zatından kənarda olan sifətə möhtac olmasın, əksinə bu sifət onun zatında olsun.

---

[1] Bu terminlərin dəqiq mənası "Allahın sifətləri" mövzusunda bəyan ediləcək.

[2] Eynilik əlaqəsi bu cəhətdən riyaziyyatdakı bərabərlik əlaqəsinə bənzəyir. $x = y$ və $y = z$ olarsa, $x = z$ bərabərliyi nəticə alındığı kimi, eləcə də "x" və "z"-in "y" ilə eyniliyindən "x" və "z"-in eyniliyi nəticə alınır.

[3] Şəhid Mütəhhəri sifətdə tövhidin tərifində deyir: "Sifətdə tövhid hər çoxluğun və tərkibin zatdan uzaq olması deməkdir. Şəhid Mütəhhərinin əsərlərinin külliyyatı, 2-ci cild, səh. 101.

Nəticə: Allah-taalanın mütləq kamilliyi tələb edir ki, Onun zatı, zatdan fərqli və ayrı olan sifətə möhtac olmadan Öz sifətlərinə malik olsun.

Bu dəlili qısa şəkildə belə ifadə etmək olar ki, sifətlərin zatla eyniliyi kamillik sayılır və Allah-taala bütün kamilliklərə sahib olduğundan Onun zatı sifətləri ilə eyniyyət təşkil edir.

Bir çoxlarının fikrincə, bu dəlilin müqəddimələri aksiomdur və onların heç bir sübuta ehtiyacı yoxdur, belə ki, mütləq kamillik anlayışını təhlil edərkən aydın olur ki, mütləq kamil varlıq bütün cəhətlərdən, hətta öz sifətləri ilə əlaqəsi baxımından da kamil olmalıdır. Digər tərəfdən, ağıl zatın sifətlərlə eyniliyi əlaqəsi ilə zatın sifətlərlə fərqliliyi əlaqəsini müqayisə etdikdə birinci növ əlaqənin, yəni zatın sifətlərlə eyni olub, özündən kənar bir şeyə ehtiyaclı olmamasının daha kamil olmasına hökm edir.[4]

**İkinci dəlil.**

Bu dəlilin müqəddimələri aşağıdakılardan ibarətdir:

1. Allah-taala zəruri varlıq və ilkin səbəbdir, digər bütün varlıqlar ya bilavasitə, ya da vasitə ilə Onun nəticəsidir.

2. Nəticədə olan elm, qüdrət və s. kimi bütün kamal sifətləri daha mükəmməl şəkildə onun səbəbində mövcuddur.

3. Allahın sifətlərinin Onun zatından ayrı olması Allah-taalanın zatının kamalsız olması deməkdir.

Birinci və ikinci müqəddimədən nəticə alırıq ki, Allah-taalanın zatı bütün kamilliklərə malikdir. Bu nəticəni üçüncü müqəddimə ilə birləşdirdikdə nəticə alırıq ki, Allahın sifətləri Onun zatından ayrı deyil, əksinə, eynidir.[5]

Bu dəlili sadə formada da bəyan etmək olar. Allah-taalanın elm, qüdrət, həyat və s. kimi zati sifətləri Onun zatından ayrı olarsa, Allahın zatı kamalsız olar. Halbuki Allahın varlığının zəruriliyi və ilk səbəb olması tələb edir ki, Allah-taala zatından kənar heç bir şeyə möhtac olmadan bütün kamallara malik olsun. Beləliklə, Allah-taalanın zəruri varlıq və ilk səbəb olması tələb edir ki, Allahın sifətləri Onun zatı ilə eyni olsun.[6]

---

[4] Bu dəlilin daha dəqiq bəyanı üçün bax: Əbdürrəzzaq Lahici, "Sərmayeyi-iman", səh. 50 və 51.

[5] Son nəticə digər bir şəkildə bəyan oluna bilər:

Allahın sifətləri Onun zatından ayrı olarsa, Allahın zatı kamalsız olar;

Allahın zatının kamalsız olması mümkün deyil;

Deməli, Allahın sifətləri Onun zatından ayrı deyil.

[6] Göründüyü kimi, dəlildə "Allahın sifətlərinin Onun zatından ayrı olmaması" "sifətlərin zatla eyniliyi" mənasına götürülür və sifətlərin zatın bir hissəsini təşkil etməsi fərzi nəzərdə tutulmur. Sonrakı dəlildə deyiləcək ki, bu fərzin əsassızlığı tam şəkildə aydındır, çünki Allahın zatının mürəkkəb olması ilə nəticələnir. Digər tərəfdən, sifətdə tövhidin bəzi dəlillərində (məsələn, mətndə gələn ikinci dəlil) yalnız Allahın sifətlərinin Onun zatından ayrı olması fərzi rədd edilir, zatın müxtəlif sifətlərdən tərkiblənmə fərzinin absurdluğu isə bir aksiom kimi götürülür.

**Üçüncü dəlil:**

Allahın sifətləri Onun zatı ilə eyni olmasa, iki ehtimalla qarşılaşarıq:

1. Allahın sifətləri zatın bir hissəsidir.

2. Allahın sifətləri zatdan ayrıdır.

Birinci ehtimal əsassızdır, çünki Allahın zatının tərkiblənməsi ilə nəticələnir. Halbuki zatda tövhid bəhsində isbat etdik ki, Allahın zatı hissələrdən ibarət deyil və hər cəhətdən bəsitdir.

İkinci ehtimalın özündə də bu iki fərz ortaya çıxır ki, zatdan ayrı fərz olunmuş sifətlər:

1) ya zəruri varlıqlardır. Bu fərz zəruri varlığın çoxluğu ilə nəticələnir və bu nəticə zatda tövhidlə (tövhidi-vahidi ilə) ziddiyyət təşkil edir.

2) ya da mümkün varlıqlardır. Bu halda belə bir sual yaranır ki, onların (zatdan ayrı fərz olunmuş sifətlərin) səbəbi nədir? Hər bir mümkün varlıq ya vasitəsiz, ya da vasitə ilə zəruri varlığın nəticəsi olduğu üçün əgər bu sifətlərin səbəbi digər bir zəruri varlıq olarsa, birinci fərzdə olduğu kimi, zəruri varlığın çoxluğu ilə nəticələnir ki, zatda tövhidlə uyğun deyil. Beləliklə, təkcə bir fərz qalır və o da bundan ibarətdir ki, Allahın sifətləri Onun zatından ayrı olsa da, Allahın zatının nəticəsidir. Lakin bu fərzin nəticəsi budur ki, Allahın zatı əzəldən həyat, qüdrət və s. kimi sifətlərə malik olmadığı halda öncə həyat və qüdrəti Öz zatından xaricdə yaratsın və yalnız bundan sonra Öz yaratdığı məxluqun sayəsində həyat və qüdrət sifətlərinə malik olsun. Bu da tamamilə əsassız bir fərzdir. Çünki əqli qanuna əsasən, səbəb öz nəticəsinin kamil sifətlərinə malik olmalıdır. Bir şeyə malik olmayan varlığın o şeyi bəxş etməsi mümkün deyildir. Odur ki, həyat və qüdrətə malik olmayan onları yarada bilməz.

Beləliklə, aydın olur ki, Allahın zatı ilə sifətlərinin ayrılığı barədə fərz oluna bilən bütün ehtimallar əsassızdır. Deməli, Allahın zatı ilə sifətləri vahid bəsit bir predmetə malikdir və bütün sifətlərin mənaları vahid bir vücuddan xəbər verir. Başqa sözlə desək, insan vahid, bəsit və qeyri məhdud bir vücuddan elm, qüdrət, həyat və s. kimi müxtəlif sifətləri dərk edir və onları zata isnad verir.

**Sifətlərin mənaca fərqliliyi**

Bura qədər sifətlərin Allahın zatı ilə xaricdə eyniliyini isbat etdik və aydınlaşdırdıq ki, Allahın zati sifətləri Onun zatından ayrı bir şey deyil və zatın bir hissəsi də ola bilməz. Onlar arasında eynilik və vəhdət hakimdir.

Sifətdə tövhidlə bağlı digər məsələ sifətlərin mənaca bir-birindən fərqlənməsidir ki, buraya qədər bu məsələnin isbatı üçün heç bir dəlil deməmişdik. Hər bir insan sifətlərin mənaları və onların leksik istifadəsi haqqında olan intuitiv dərki barədə düşünərsə, sifətlər arasında olan məna fərqliliyini müşahidə edə bilər. "Alim", "Qadir" "Mürid" və

bu kimi sifətlər haqqında düşündükdə bu məfhumların bir-biri ilə fərqli olmasını dərk edirik. Bu məsələnin bir dəlili də budur ki, hər bir kəs bu mənalara dəlalət edən sözlərin sinonim olmadığını bilir. Məsələn, hər hansı bir ərəb Allahı "Əlim", "Qədir" "Rəhim", "Ğəfur" və bu kimi adlarla çağırarkən bu sözlərin sinonim olmadığını və eyni bir mənanı təkrar etmədiyini dərk edir. Odur ki, Allahın sifətlərinin mənaca eyniliyi nəzəriyyəsini sözlərin leksik mənaları haqqında insanların ümumi baxışları rədd edir və düzgün fikir, sifətlərin məna cəhətdən müxtəlifliyi nəzəriyyəsidir.

**Sifətdə tövhid mövzusunun tarixi**

Allahın sifətləri ilə zatı arasında olan əlaqə məsələsində islam firqələri arasında müxtəlif nəzəriyyələr mövcuddur. Xülasə şəkildə onlara işarə edirik.

1. Sifətlərin zatla eyniliyi və mənaca fərqliliyi. Bu nəzəriyyə şiə kəlamçıları və bəzi mötəzililərin[7] fikri ilə uyğundur. Keçən bəhslərdə qeyd etdiyimiz kimi əqli dəlillər və imamların hədisləri bu məsələni təsdiq edir.

2. Sifətlərin zatdan ayrı olması və onların əzəliliyi.

Bu nəzəriyyə əşərilər tərəfindən qəbul edilmişdir. Bu fikrə əsasən, məxluqların sifətləri kimi, Allahın sifətləri də Onun zatından ayrı və fərqlidir. Yeganə fərq budur ki, Allah-taalanın sifətləri əzəlidir.[8]

Bu nəzəriyyəyə deyilən əsas tənqidlərdən biri budur ki, bu fikir bir neçə əzəli varlığın qəbul olunması ilə nəticələnir ki, bu da şirkdən başqa bir şey deyildir. Başqa sözlə desək, əşərilər Allahın zatından əlavə yeddi əzəli varlığa (Allahın yeddi əzəli sifətinə), yəni Allahın zatı ilə birlikdə səkkiz əzəli varlığa inanırlar. Halbuki tövhid prisipinə əsasən, yeganə əzəli varlıq Allahın zatıdır və Ondan başqa hər bir şey Onun məxluqudur.

Eləcə də əşərilərin nəzəriyyəsinin nəticəsi budur ki, Allah-taala mütləq kamil olmaq üçün zatından kənar və ayrı həqiqətlərə möhtac olsun ki, bu da Allahın mütləq ehtiyacsızlığı ilə ziddir.

3. Sifətlərin zatdan ayrı olması və onların sonradan yaradılması. Bu nəzəriyyə "kərramiyyə"[9] firqəsinə mənsubdur. Sifətdə tövhidin əqli dəlilləri bu nəzəriyyənin absurdluğunu sübut etmək üçün kifayət edər.

4. Zat sifətlərin əvəzedicisi və alternatividir. Bu nəzəriyyə bəzi mötəzililər, o cümlədən Əbu Əli, Əbu Haşim Cübbai və Übbad ibn Süleyman tərəfindən irəli

[7] Məsələn, Əbulhüzeyl Əmmar. Bu haqda bax; Sübhani, "Buhusun fil-miləli vən-nihəl", 2-ci cild, səh. 87.

[8] Bu nəzəriyyə haqda geniş məlumat toplamaq üçün bax: "Buhusun fil-miləli vən-nihəl", 2-ci cild, səh. 80-94. Əzəli dedikdə zamanca əzəlilik deyil, zati əzəlilik nəzərdə tutulur.

[9] Kərramiyyə" Əbu Abdullah Məhəmməd ibn Kərramın ardıcıllarıdır. Onlar Allahı cisim bilir və Onu öz yaratdıqlarına oxşadırlar (antropomorfizm).

sürülmüşdür.[10] Bu fikrə əsasən, Allah-taala elm, qüdrət və s. kimi kamal sifətlərinə malik deyil, lakin eyni zamanda zat bu sifətlərin funksiyasını yerinə yetirir. Məsələn, Allahın zatı elm adlı sifətə malik deyil, amma Onun gördüyü işlər elmli (şüurlu) varlıqların gördüyü işlər kimidir.

Bəlkə də bir qrup mötəzililərin bu nəzəriyyəyə yönəlməsinin səbəbi budur ki, bir tərəfdən sifətlərin zatdan ayrı olmasının tövhidlə düz gəlmədiyini görmüşlər, digər tərəfdən isə zatın sifətlərlə eyniliyi haqda dəqiq bir təsəvvürə malik olmadıqları üçün hər bir sifətin qeyri-zati olub, zata əlavə olunduğunu güman etmişlər.

Bu nəzəriyyənin tənqidində demək lazımdır ki, bu fikrə görə Allahın zatı elm, qüdrət və s. kimi kamal sifətlərinə malik olmayacaq. Bundan əlavə, "elm sifətinə malik olmayan zat elmli (şüurlu) şəkildə əməl edir" fikri aydın və konkret bir fikir deyildir.

**Sifətdə tövhid haqqında hədislər**

Öyrəndik ki, sifətdə tövhid xaricdə Allahın sifətlərinin bir-biri ilə və Onun zatı ilə eyniliyi, zehində isə məna baxımından bir-birindən fərqliliyi deməkdir. Bu səbəbdən Allahın sifətləri Onun zatı kimi əzəli, əbədi, sonsuzdur və zatla eynilik təşkil edir.

Həzrət Əli (ə) xütbələrinin birində çox zərif şəkildə sifətdə tövhidi bəyan edir. İmam (ə) cümləsinin əvvəlində Allahın sifətlərinin qeyri-məhdud olmasından danışır:

"O (Allah) ki, sifətləri üçün müəyyən bir hədd və ya vəsf yoxdur".[11]

Amma söhbətinin ardında tövhidin kamilliyi haqqında belə bəyan edir ki, insan hər növ sifəti Allahın zatından uzaq bilməli və O müqəddəs zatı vəsf etməkdən əl çəkməlidir:

"Tövhidin ən üstün dərəcəsi Ona ixlaslı olmaqdır, ixlasın ən üstün dərəcəsi isə sifətləri Allahdan inkar etməkdir. Çünki hər bir sifət özünün vəsf olunandan (zatdan) başqa bir şey olmasını bildirir. Hər bir vəsf olunan (zat) da özünün sifətdən başqa bir şey olmasını çatdırır".[12]

İlk baxışda belə nəzərə gələ bilər ki, xütbənin bu iki hissəsi bir-biri ilə ziddiyyət təşkil edir. Çünki birinci hissə Allahın sifətə malik olmasını bildirir, ikinci hissədə isə Allahı hər hansı şəkildə vəsf etmək yanlış bir iş hesab olunur. Amma daha dərin düşündükdə, xüsusilə Allahı vəsf etməyin düzgün olmamasının səbəbinə diqqət etdikdə heç bir ziddiyyətin olmadığı aydın olur. İmamın (ə) qəbul etmədiyi, zatdan ayrı olub ona isnad verilən (qeyri-zati) sifətlərdir. Çünki zatla fərqli olan belə sifətlərdir (Çünki hər bir sifət özünün vəsf olunandan başqa bir şey olmasını bildirir). Zatla eyni olan və zat kimi sonsuz olan sifətlərin isə olması mümkündür.

---

[10] Əşəri "Məqalatül-islamiyyin" kitabında bu nəzəriyyəni mötəzililərdən başqa xəvaric, mürciə və zeydiyyəyə də mənsub bilir, 1-ci cild, səh. 224.

[11] "Nəhcül-bəlağə", 1-ci xütbə.

[12] Yenə orada.

İmam Əli (ə) xütbənin ardında sifətlərin zatdan ayrı olma məsələsinin nəticələrini vurğulayır.

"Allahı vəsf edən şəxs (sifətləri) Ona tay tutmuş olar və (sifətləri) Ona tay tutan Onu iki hesab etmiş olar və Allahı iki hesab edən Onu hissələrə bölmüş olar və Allahı hissələrə bölən isə Onu tanımır". [13]

Həzrət Əlinin (ə) cümlələrindən belə başa düşülür ki, Allahı Onun zatından ayrı sifətlərlə vəsf etmək Onu sifətlərlə yanaşı qoymaqdır. Bu sifətləri əzəli bildikdə ən azı iki əzəli varlığa etiraf etmiş oluruq. Bu da çoxallahlılıqdan başqa bir şey deyil. Tövhidin dəlillərində qeyd etdiyimiz kimi çoxallahlılıq da öz növbəsində Allahın zatının tərkib hissələrindən təşkil olması ilə nəticələnir. Nəhayət, Allahı tərkib hissələrdən ibarət hesab edən şəxs, şübhəsiz, Onu tanımamışdır.

İmam Rzanın (ə) belə buyurduğu nəql edilir: "Allah əzəldən alim, qüdrətli, həyy (diri), səmi (eşidən) və bəsir (görən) olmuşdur" (Rəvayəti nəql edən şəxs deyir) İmama (ə) dedim: "Ey Allahın Rəsulunun oğlu! Bəziləri belə deyirlər: Allah əzəldən elm vasitəsilə alim, qüdrət vasitəsilə qadir, həyat vasitəsilə diri və s. olmuşdur. İmam (ə) buyurdu: Belə deyən və ona inanan şəxs Allahla yanaşı digər allahları da qəbul etmişdir və belə bir şəxs bizim vilayətdən bəhrələnməmişdir". Sonra buyurdu: "Allah əzəldən Öz zatında alim, qadir, həyy (diri), qədim, səmi (eşidən) və bəsirdir (görən). Allah-taala müşriklərin və Onu məxluqlara bənzədənlərin dediklərindən pak və münəzzəhdir".[14]

Hədisdən belə məlum olur ki, imam (ə) Allahın sifətlərinin əzəli olmasını qeyd etdikdən sonra, hədisin ravisi Allahı zatdan ayrı elm vasitəsilə alim, zatdan ayrı qüdrət vasitəsilə qadir və s. bilən insanların əqidəsi haqqında soruşur.

İmam (ə) cavabında belə bir əqidəni şirk və çoxallahlılıq hesab edir. Hədisdə qeyd olunan dəlildən belə məlum olur ki, zatdan ayrı əzəli sifətlərə inanmaq (əşərilərin nəzəriyyəsi) bir neçə əzəli varlığa inanmaqla və nəticə etibarilə çoxallahlılıqla nəticələnir. Sonda imam (ə) təkid edir ki, Allah-taala Öz zatında elm, qüdrət və s. sifətlərlə vəsf edilir. Yuxarıda hədisdən aldığımız nəticə düzgün olarsa, imam (ə) sifətlərin zatla eyni olmasını nəzərdə tutur, sifətləri zatdan ayrı hesab edənləri isə şirkə və antropomorfizmə düçar olmuş hesab edir.

**Terminlər**

Zati sifətlər

Qeyri-zati sifətlər

Sifətdə tövhid

Mənaca eynilik

Obyektiv eynilik

---

[13] Yenə orada.

[14] "Ət-tövhid, 11-ci bab, 3-cü hədis.

**Üçüncü fəslin xülasəsi**

1. Sifətdə tövhid bəhsində əsas sual bundan ibarətdir ki, Allahın kamal sifətləri obyektiv aləmdə, Allahın zatı ilə eynidir, yoxsa müstəqil və ayrı vücuda malikdir?

2. Eynilik iki qisimdir: mənaca eynilik və obyektiv eynilik. Mənaca eynilik məfhumlara aiddir və iki məfhumun zehində eyni mənaya malik olmasına deyilir. Obyektiv eynilik isə iki müxtəlif mənanın yeganə varlıqda mövcud olmasıdır.

3. Sifətdə tövhid üç prinsip üzərində qurulmuşdur:

a) Allahın zat və sifətləri məna baxımından fərqlidirlər;

b) Allahın zatı və sifətləri arasında obyektiv eynilik hakimdir;

c) Allahın sifətləri arasında da obyektiv eynilik hakimdir.

4. Bir mənada, Allahın zatının hissələrdən ibarət olmaması da sifətdə tövhidin bir qismi hesab edilir.

5. Müxtəlif əqli dəlillərlə sifətdə tövhidi isbat etmək olar.

6. Allahın sifətlərinin mənaları haqqında düşündükdə, onların məna baxımından bir-birindən fərqlənməsi açıq-aşkar aydın olur. Başqa sözlə desək Allahın sifətlərinin mənaca eyniliyi nəzəriyyəsini sözlərin leksik mənaları haqqında insanların ümumi baxışları rədd edir.

7. Əşərilərin fikrincə, Allahın zati sifətləri əzəlidir və Allahın zatından ayrıdır. Bu nəzəriyyə bir neçə əzəli varlığa inamla nəticələnir və bu səbəbdən şirk hesab olunur.

8. Mötəzililərin bir qrupu Allahın zatının heç bir sifətə malik olmadığına inanırlar. Onların fikrincə, Allahın zatı kamil sifətlərə malik olmasa da, bu sifətlərə malik olan bir varlıq kimi əməl edir. Bu nəzəriyyə Allahın zatının naqisliyi və kamilliklərə malik olmaması ilə nəticələnir.

9. Həzrət Əli (ə) Nəhcül-bəlağənin birinci xütbəsində "sifətdə tövhidi" bəyan etmişdir. İmamın (ə) buyurduğuna əsasən, Allahın sifətləri Onun zatından ayrı deyil və sifətləri ayrı hesab edənlər Allahı tanımamışlar.

10. İmam Rza (ə) da sifətlərin zatdan ayrı olma əqidəsini şirk və antropomorfizm hesab edir.

## Dördüncü fəsil

## Feildə tövhid (1)

### Giriş

İslam filosofları və kəlamçılarının fikrincə, Allah-taala kamal sifətlərinə malik olmaqdan əlavə, həm də təsir mənbəyidir. Bu səbəbdən, yaratmaq, ruzi vermək, məxluqların işlərinin tədbiri və idarəsi, əta etmək və s. kimi işlər Allahın feillərindən sayılır.[15] Digər tərəfdən varlıq aləmində bir çox müxtəlif hadisələr baş verir və ilk baxışda insana elə gəlir ki, bu hadisələrin səbəbi Allahın yaratdıqlarıdır. Kimyəvi elementlərdən tutmuş bitki, heyvan və insan kimi mürəkkəb orqanizmlərə qədər hər bir şey özünəməxsus təsirə malikdir. Bu qayda ilə, bütün varlıq aləmində baş verən hadisələr ilk baxışda, müxtəlif səbəblər tərəfindən yaradılan təsirlər və feillər kimi başa düşülür.

Lakin bu baxış islamın tövhid prinsipi ilə uyğun gəlmir. İslamın tövhid prinsipinə görə aləmdə yeganə həqiqi və müstəqil səbəb Allah-taaladır və Ondan başqa heç bir varlıq tam və müstəqil səbəb ola bilməz. Feildə tövhidin mənası bundan ibarətdir. Bu əqidəyə əsasən, Allah-taalanın nəinki yaratmaq, ruzi vermək və s. kimi işlərdə başqalarının köməyinə ehtiyacı yoxdur, hətta Ondan başqa, işlərində müstəqil olan bir varlıq yoxdur. Bütün varlıqlar yalnız Allahın istəyi ilə təsir gücünə malikdirlər. Beləliklə, feildə tövhid iki prinsipə olan etiqaddan ibarətdir:

1) Allah-taala işlərini yerinə yetirməkdə təkdir, heç bir şərik və köməkçisi yoxdur və ümumiyyətlə belə bir şərikin olması mümkün deyil.

2) Allahdan başqa heç bir varlıq öz işində müstəqil deyil. Aləmdə baş verən bütün feillər və işlər yalnız Allahın istəyi ilə baş verir.

Beləliklə, feildə tövhid bundan ibarətdir ki, aləmdə baş verən hər bir şey Allahın feilidir və məşhur "La hovlə və la qüvvətə illa billahil-əliyyil əzim" (Böyük və əzəmətli Allahın qüdrət və qüvvəsindən başqa heç bir qüdrət və qüvvə yoxdur) cümləsinin mənası da bundan ibarətdir.

### Feildə tövhidin insanın dünyagörüşündə rolu

Qeyd etdik ki, feildə tövhid bütün varlığı əhatə edir və insanda Allahla aləmin əlaqəsi barədə xüsusi baxış yaradır. Bu səbəbdən bu əqidəyə inanıb-inanmamaq insanın dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.

---

[15] Allahın feillərin həqiqəti dərin və çətin bir mövzudur. Bu haqda geniş şəkildə bəhs etmək bu kitabın mövzusundan xaricdir.

Feildə tövhid inancına malik bir şəxs hər yerdə Allahın iradəsinin və istəyinin hakim olduğunu qəlb gözü ilə müşahidə edir və Onu varlığın heç bir səhnəsindən təcrid edə bilmir. Belə bir şəxsin nəzərində aləmdə baş verən bütün dəyişiklərə, uzaq qalaktikalardan tutmuş ən kiçik zərrəciklərə qədər hər şeyin hərəkətinə Allahın iradəsi hökmranlıq edir.

Feildə tövhidə iman insanın dünyagörüşündə böyük əhəmiyyətə malik olmaqdan əlavə, onun əməl və rəftarında da böyük təsirə malikdir. Bu əqidənin insan əməlində təsiri haqqında əməli tövhid mövzusunda bəhs edəcəyik. Özünə və ətraf mühitə feildə tövhid əqidəsilə baxan insanlar həmişə Allaha təvəkkül edir, Ondan kömək diləyir, Onun istəyi olan hər bir işi mümkün hesab edirlər. Belə şəxslər daim Allahı çağırır və yalnız Ona ümid bəsləyirlər.

**Məxluq Xaliqin sayəsində təsir qüvvəsinə malikdir**

Feildə tövhid dəqiq mənada bundan ibarətdir ki, bütün feillər Allah feilidir və bütün təsirlər Ondandır. Bu mənanı düşünərkən bu kimi suallar meydana çıxır:

Feildə tövhidi qəbul etsək, bəs digər varlıqların feilləri və işləri necə izah olunacaq? Hər gün bu həqiqətin şahidiyik ki, ətrafımızda olan hər bir şey özünəməxsus təsirə malikdir: od istilik yaradır, maqnit dəmir parçasını özünə cəzb edir, bitki torpaqda olan maddələrdən qidalanır, heyvan qidalanmaq üçün daim o tərəf-bu tərəfə hərəkətdədir, nəhayət, insanın özü cürbəcür işlərə və hadisələrə səbəb olur. Bu feil və təsirləri necə Allaha isnad vermək olar? Mövcudlarda müşahidə etdiyimiz bu təsirləri onlardan inkar edə bilərikmi? Elə bir yol varmı ki, xaliqin feilini və təsirini məxluqun feili ilə uyğunlaşdırsın?

islam filosofları və kəlamçıları məsələni adətən iyerarxik təsir yolu ilə izah edirlər. Belə ki, hər hansı bir işin baş verməsində iki və ya daha artıq səbəbin təsiri olarsa, onların təsirləri arasındakı münasibət iki cür ola bilər:

**1. Yanaşı (üfüqi) təsir.** Bəzən bir işin yerinə yetirilməsində bir neçə səbəb şərikdir, belə ki, onların görülən işlə və bir-biri ilə əlaqəsi bərabər və oxşardır. Məsələn, bəzən bir neçə nəfər bir-birinin köməyi ilə ağır bir yükü bir yerdən başqa bir yerə aparırlar. Bu halda təsirə malik müxtəlif səbəblər yanaşı səbəblər adlanır.

**2. İyerarxik (şaquli) təsir.** Burada da bir işin baş verməsi üçün bir neçə səbəbin təsiri vardır, amma onlardan birinin təsiri digərinin təsirinə bağlıdır. Bu cür hallarda vasitəsiz və vasitəli səbəbiyyət məsələsi meydana çıxır. Vasitəsiz səbəb işin baş verməsində birbaşa təsirə malik olan səbəbdir, lakin bu səbəbin təsiri vasitəli səbəb adlanan digər bir səbəbin nəticəsi olur.

Bu iki növ təsirdən məlum olur ki, Allahın təsiri digər məxluqların təsiri ilə müqayisədə iyerarxik təsirdir. Məsələn, bir şəxs oturur və ya yol gedirsə, bu işin vasitəsiz səbəbi şəxsin özüdür. Lakin bu o demək deyildir ki, onun işi Allahın iradəsindən

xaricdir. Əksinə, Allahın iradəsi və istəyi budur ki, bu iş o şəxs tərəfindən yerinə yetirilsin, belə ki, Allahın istəyi olmasa, heç bir iş yarana bilməz.

Yanaşı və iyerarxik təsirlər arasında olan fərqi bildikdən sonra feildə tövhid məsələsi müəyyən qədər öz həllini tapsa da, etiraf etməliyik ki, feildə tövhidin dərinliklərinə varmaq elə də asan deyil. Burada iyerarxik səbəblərə misal vurmaqla feildə tövhid məsələsini dərindən anlamaq üçün zəmin yaratmağa çalışacağıq. Qeyd edəcəyimiz misallar məxluqlar aləminə aid olduğundan, təbiidir ki, Allahın təsirinin həqiqətini aşkar edə bilməz. Bununla belə, bu misallara, onlarda olan fərqlərə diqqət edilsə, insan fikrini bu həqiqətin dərkinə yaxınlaşdıra bilər.

Misallardan biri, insan ruhunun bədən üzvləri ilə əlaqəsidir. Yazmaq işini nəzərə alsaq, görərik ki, bu işin vasitəsiz səbəbi bizim əlimizdir. Amma məlumdur ki, əlimiz tam və müstəqil səbəb deyil. Əlimizin iş görməsi ruhumuza bağlıdır və ondan təsir alır. Beləliklə, yazmaq işini bir tərəfdən vasitəsiz səbəb sayılan əlimizə isnad vermək olar, digər tərəfdən isə əlimizin təsiri "mən" adlanan ruhun nəticəsidir. Çünki ruhumuz öz iradəsi və istəyi ilə əlimizi hərəkətə gətirir və bu vasitə ilə əldə olan qələmi işə salır.

Allahın təsiri və yaratdıqlarının təsiri ruhla bədən üzvlərinin arasında olan əlaqəyə bənzəyir. Hər hansı bir varlıqdan bir iş baş verdikdə, bu iş onun özünə isnad verilir. Amma bu o demək deyildir ki, həmin iş eynilə daha yüksək mərtəbədə Allaha isnad verilə bilməz.[16]

Deyilənlərdən məlum olur ki, tam və müstəqil təsiri Allah-taalaya məxsus bilməklə bəzi işləri Allahdan başqa səbəblərə isnad vermək arasında heç bir ziddiyyət yoxdur. Odur ki, hər hansı bir işi heç bir ziddiyyət olmadan, həm Allaha, həm də Onun yaratdıqlarına isnad vermək mümkündür. Quranın bəzi ayələri məxsus işləri Allaha isnad verir və eyni zamanda Allahdan başqa bir varlığın bu işdə təsirini də vurğulayır. Bura qədər bəyan etdiyimiz bəhslərdən aydın olur ki, bu ayələr arasında heç bir ziddiyyət yoxdur.

**Vasitələrin Allahın feillərində rolu**

Qeyd etdik ki, feildə tövhid təliminə əsasən, Allah-taala öz yaratdıqlarının köməyinə möhtac deyil. Burada belə bir sual ortaya çıxır ki, bəs nə üçün Allah-taala bəzi işlərini məxluqların vasitəsilə yerinə yetirir? Məsələn, yaratmaq Allahın işlərindən biridir. Lakin hər hansı bir ağacın yaranması üçün müxtəlif amillərin dəxaləti, o cümlədən günəş işığı, torpaq, su, hava və s. lazımdır, belə ki, bu amillər olmadan heç bir ağac mövcud ola bilməz.

Sualın cavabında qeyd etməliyik ki, Allahın işləri iki sahədə, başqa sözlə desək iki aləmdə baş verir:

---

[16] Bu misalın bizim mövzumuzla fərqini nəzərdən qaçırmaq olmaz. Bu misalda əlin şüuru və iradəsi yoxdur, halbuki bizim mövzumuzda insan şüurlu və iradəlidir.

**1. Fövqəltəbii aləm.** Bu aləmdə maddə (materiya) olmadığı üçün Allahın feilləri xüsusi şərait və müqəddimələrə bağlı deyil. Allahın iradəsi ilə Onun işi vücuda gəlir. Beləliklə, mücərrəd (qeyri-maddi) bir varlığın yaradılması heç bir şeyin dəxalətilə şərtlənmir.

**2. Təbiət aləmi.** Təbiət aləmində isə maddə olduğu üçün onun quruluşu qeyri-maddi aləmdən tamamilə fərqlidir. Bu fərqlərdən biri budur ki, maddi aləmdə Allahın istəyinin həyata keçməsi adətən bu aləmə hakim olan özünəməxsus qanunlara əsaslanır. Bu aləmin xassələrindən biri budur ki, maddi bir şey ona zəmin və şərait olmadan mövcud ola bilməz. Əlbəttə, unutmamalıyıq ki, bu zəmin və şərait, sadəcə maddi aləmdə Allahın feilinin qəbul olunması üçün hazırlıq yaradır və onun Allahın feilində heç bir dəxaləti yoxdur. Başqa sözlə desək, şəraitin zəruriliyi maddi əşyaların qabiliyyətinin tamamlanması üçündür və bu şərait olmadan onların ilahi feyzi qəbul etməsi mümkün deyil.[17] Sualda qeyd olunan su, torpaq və s. kimi şeylər yalnız toxumda ağaca çevrilmək qabiliyyəti yaratmaq cəhətindən təsirə malikdir ki, bu təsir də qeyd etdiyimiz kimi, maddi aləmin xassələrindəndir. Tövhid baxışına əsasən, Allah-taala öz hikməti əsasında, maddi aləmi özünəməxsus xüsusiyyət və məhdudiyyətlərlə yaratmış və bu aləmdə Öz qanunlarına uyğun xüsusi bir nizam bərqərar etmişdir. Lakin maddi aləmə hakim olan bu qanunlar Allahın Özünü də məhdudlaşdırmır, əksinə, bu qanunlar olmadan da O hər bir zaman iradə edərək aləmdə Öz istəyini gerçəkləşdirməyə qadirdir.[18]

Deyilənlərdən aydın olur ki, Allah-taala öz hikməti əsasında bu aləmə bir sıra ümumi qanunlar hakim etmişdir, belə ki, bu qanunlar çərçivəsində Allahın feillərin gerçəkləşməsi xüsusi şərtlərə bağlıdır. Lakin bu qanunlar Allahın təsirini məhdudlaşdırmır və feildə tövhidlə zidd deyil, çünki bu qanunlar tam şəkildə Allahın iradəsinə tabedir.

### Feildə tövhid və insanın ixtiyarı

Feildə tövhid mövzusuna aid digər bir suallardan biri budur ki, bu əqidənin insanın ixtiyarı ilə nə kimi əlaqəsi var?

Feildə tövhid əqidəsinə əsasən, aləmdə baş verən hər iş Allaha isnad verilir. Bu səbəbdən insan kimi ixtiyarlı mövcudların işləri də Allaha isnad verilməlidir. Burada belə bir sual meydana çıxır ki, insanın işi Allahın işidirsə, ixtiyar məsələsi üçün yer qalırmı?

Feildə tövhidin insanın ixtiyarı ilə əlaqəsi mövzusu qədim zamanlardan müzakirə obyekti olmuşdur. Bu əlaqəni düzgün dərk etməmək müsəlman kəlamçıları arasında iki səhv fikrin yaranmasına səbəb olmuşdur. Bir tərəfdən, əşərilər feildə tövhidi insanın ixtiyarı ilə zidd hesab edərək inanırlar ki, insanın işlərini Allah yaradır və onların baş

---

[17] Filosofların fikrincə, səbəbin (Allah-taala) təsiri tamdır, amma qəbul edənin qabiliyyəti xüsusi şəraitə bağlıdır.

[18] Möcüzə bəhsində bu məsələni geniş formada araşdıracağıq.

verməsində insanın ixtiyarının heç bir dəxaləti yoxdur. Digər tərəfdən, mötəzililər belə hesab edirlər ki, feildə tövhid insanın ixtiyarı dairəsinə aid olmur və Allah-taala işləri bütünlüklə insanların özlərinə həvalə edib onların işinə dəxalət etmir.

Göründüyü kimi, həm əşərilərin cəbr (fatalizm) əqidəsi, həm də mötəzililərin təfviz (həvalə) əqidəsi Allahın feili ilə ixtiyarlı məxluqların feilləri arasındakı əlaqəni düzgün dərk etməməkdən irəli gəlir. Biz bu mövzunu geniş şəkildə "cəbr və ixtiyar" bəhsində araşdıracağıq. Burada yalnız bunu qeyd etmək istərdik ki, şiə kəlamçıları əhli-beytin (ə) yüksək təlimləri sayəsində feildə tövhid prinsipi ilə insanın ixtiyarı prinsipini məntiqi şəkildə bir-biri ilə uyğunlaşdırmışlar, belə ki, nə feildə tövhidin əhatə dairəsi məhdudlaşır, nə də insanın ixtiyarı da aradan gedir.

**Feildə tövhidin dəlili**

Feildə tövhidin mənasını açıqladıq və bu haqda olan sualları cavablandırdıq. İndi isə burada onu isbat etmək lazımdır. Allahın kamil sifətlərini dərindən düşünsək, eləcə də varlıq aləminin Allahla rabitəsini dərk etsək, feildə tövhidi isbat etmiş olarıq. Feildə tövhid, həqiqətdə, iki müddəadan ibarətdir:

1. Allah-taalanın öz feillərində şərikə və əməkdaşa möhtac olması qeyri-mümkündür;

2. Mümkün varlıqların heç biri müstəqil səbəb deyil, bütün feillər yuxarı mərtəbədə Allaha isnad edilir.

Birinci müddəanın isbatı üçün Allahın kamil sifətlərinə diqqət etsək kifayətdir. Keçən bəhslərdən aydın oldu ki, Allah-taala mütləq kamil və zəruri varlıq olduğu üçün hər növ nöqsandan və məhdudiyyətdən pakdır. Digər tərəfdən aydındır ki, Allahın digər varlıqlara ehtiyaclı olması Onun mütləq kamilliyi ilə ziddiyyət təşkil edir. Çünki ağıl hökm edir ki, işlərində digərinə ehtiyacı olan bir varlıq belə ehtiyacı olmayan varlıqdan naqisdir. Beləliklə, Allahın işlərində digər bir varlığın iştirakı və şərikliyi Allahın məhdudiyyəti ilə nəticələnir və bu nəticə, şübhəsiz, Allahın mütləq kamilliyi ilə ziddir.

İkinci müddəanın da isbatı üçün mümkün varlıqların zəruri varlıq ilə rabitəsinə diqqət etmək lazımdır:

a) Məlum olduğu kimi, Allah-taala ilk səbəbdir və digər bütün varlıqlar Onun nəticəsidir;

b) Səbəbiyyət qanununa əsasən, nəticə bütün varlığı ilə səbəbə bağlıdır və daha dəqiq desək, nəticə səbəbə bağlılığın özüdür;

c) Hər hansı bir varlığın feili, həqiqətdə, onun vücudundan qaynaqlanan təsirdir.

Bu müqəddimələrə əsasən, mümkün varlıqlar öz vücudlarında vacib varlığa bağlı olduqları kimi, feillərində və işlərində də Ona bağlıdırlar. Çünki onların feilləri vücudlarına tabedir. Nəticədə, mümkün varlıqlar mövcud olmalarında və işlərində zəruri varlığa möhtacdırlar.

Beləliklə, isbat oldu ki, əvvəla Allah-taala işlərində şərik və köməkçiyə möhtac deyil və ikincisi, Allahdan başqa heç bir varlıq işlərində müstəqil və ehtiyacsız deyil.

**Terminlər**

Feildə tövhid

İyerarxik təsir

Yanaşı təsir

Vasitəsiz səbəb

Vasitəli səbəb

**Dördüncü fəslin xülasəsi**

1. İslam əqidəsinə əsasən, feildə tövhid prinsipi iki müddəadan ibarətdir:

a) Allahın öz işlərində hər hansı şərikə ehtiyaclı olması qeyri-mümkündür;

b) Ondan başqa heç bir varlıq işlərində müstəqil deyil və aləmdə baş verən hər bir iş, hadisə və dəyişikliklər Allahın iradəsi çərçivəsində baş verir.

2. Feildə tövhid insanlarda xüsusi dünyagörüşü formalaşdırmaqdan əlavə, onların əməllərində də böyük təsir buraxır və onların bütün rəftarlarına tövhid prinsipinin hakim olmasına səbəb olur.

3. Feildə tövhid digər varlıqların təsirini, yaxud səbəbiyyət qanununu inkar etmək demək deyil. Bu baxış sadəcə olaraq, digər varlıqların müstəqil təsirə malik olmasını rədd edir və onların feillərinin Allahın feili ilə yanaşı yox, iyerarxik olduğunu vurğulayır. Beləliklə, bütün varlıqların feilləri bir mərtəbədə onların özlərinə isnad verilir, yüksək mərtəbədə isə bütün işlər Allaha isnad verilir.

4. Təbiət aləmində Allahın feillərinin baş verməsi bir sıra şərtlərin reallaşmasına bağlıdır. Bu şərtlər Allahın səbəbliyində heç bir təsirə malik deyildir və sadəcə, təbiət aləmində Allahın feilini qəbul etməyə hazırlıq yaradır. Beləliklə, təbiətdə mövcud qanunlar Allahın iradəsini məhdud edə bilməz, əksinə onlar özləri Allahın qüdrətinin hakimiyyəti altındadır.

5. Feildə tövhidi bir sıra əqli dəlillərlə isbat etmək mümkündür. O cümlədən: Allahın mütləq ehtiyacsızlığı Onun heç bir şərik və köməkçiyə möhtac olmamasını tələb edir. Mümkün varlıqların Allaha bağlılığı göstərir ki, onların vücudları kimi işləri də Allaha bağlı və Ondan asılıdır.

**Beşinci fəsil**

**Feildə tövhid (2)**

**Giriş**

Keçən bəhsdə aydın oldu ki, Allah-taala zat cəhətindən tək olduğu kimi, feillərində də tək və şəriksizdir. Allahın feilləri "yaratmaq", "ruzi vermək", "hidayət etmək" və s. kimi ümumi anlayışlar əsasında qruplaşdırıldığı kimi, onlarla simmetrik olaraq feildə tövhidi də "xaliqiyyətdə (yaratmaqda) tövhid", "ruzi verməkdə tövhid", "hidayətdə tövhid" və s. şaxələrə bölmək olar. Feildə tövhidin bütün şaxələrinin bəhs edilməli və araşdırılmalı olmasına baxmayaraq, bu şaxələrdən bəziləri xüsusi əhəmiyyətə malikdir və onlara ayələrdə, hədislərdə, eləcə də kəlam kitablarında xüsusi diqqət yetirilmişdir. Biz burada feildə tövhidin ən əsas şaxələrinin bəzilərini qısa şəkildə araşdıracağıq.

**Xaliqiyyətdə tövhid (təkxaliqlilik)**

Feildə tövhidin qisimlərindən biri xaliqiyyətdə tövhiddir. Xaliqiyyətdə tövhid o deməkdir ki, yeganə həqiqi xaliq Allah-taaladır, bütün varlıq aləmini O yaratmışdır və digər varlıqların yaratması özlərindən deyil, Allahın iradəsinə və istəyinə tabedir.[19]

Mümkün varlıqların zəruri varlıqla olan əlaqəsinə diqqət etməklə xaliqiyyətdə tövhid məsələsi aydın olur. Bütün mümkün varlıqlar ya vasitəsiz, ya da vasitə ilə Allahın yaratdıqlarıdır. Varlıq aləmində yalnız bir səbəb mövcuddur ki, digər bütün varlıqlar Onun nəticəsidir, elə buna görə də məhz bir yaradan mövcuddur və digər bütün varlıqlar Onun məxluqlarıdır.

Şübhəsiz ki, feildə tövhid mövzusunda qeyd etdiyimiz kimi, xaliqiyyətdə tövhid bir sıra məxluqların bəzi şeyləri yaratması ilə zidd deyil. Çünki onların yaratması Allah-taalanın yaratması ilə iyerarxik olduğu üçün Allahın yaratmasının təzahürü sayılır, Allahın istəyi çərçivəsində, Onun icazəsi ilə baş verir və heç bir müstəqilliyə malik deyildir. Xaliqiyyətdə tövhid də məhz müstəqil formada olan xaliqiyyət sifətini digər varlıqlardan inkar etmək deməkdir.

[19] Bəzi kəlam kitablarında feildə tövhiddən bəhs etməyib onun əvəzinə xaliqiyyətdə tövhidi geniş mənada araşdırmışlar. Lakin bizə elə gəlir ki, kəlami terminologiyaya görə xaliqiyyət (yaratma) Allahın feillərindən yalnız biri sayıldığı üçün, digər tərəfdən isə "hidayət", "bağışlamaq", "mərhəmət" və s. kimi Allahın bir çox feillərini xaliqiyyət məfhumuna müncər etmək mümkün olmadığı üçün feildə tövhidi xaliqiyyətdə tövhidin alternativi hesab etmək doğru deyildir. Buna görə də feildə tövhid xaliqiyyətdə tövhidə nisbətən daha geniş mənaya malikdir. Beləliklə, xaliqiyyətdə tövhid haqda bəhs etməklə yanaşı feildə tövhid mövzusunu da araşdırmaq lazımdır. Bax: "əl-İlahiyyat əla hudəl-kitabi vəs-sunnə", 2-ci cild, səh. 42-77.

**Rübubiyyətdə tövhid**

Feildə tövhidin qisimlərindən biri də rübubiyyətdə tövhiddir. Hər şeydən öncə "rəbb" sözünün mənasına diqqət etmək lazımdır.

Bəzən "rəbb" sözü "mürəbbi"[20] kimi mənalandırılır. "Rəbb" sözü məzmun etibarilə "mürəbbi" sözü ilə yaxın olsa da, bu iki söz tamamilə eyni məna daşımır.[21] Dildə işlənmə baxımından "Rəbb" sözü çox vaxt bir kəsin və ya bir şeyin işlərində istədiyi vaxt dəxalət edib, onu istədiyi kimi idarə edən ixtiyar sahibinə deyilir.

"Rəbb" sözünün bu mənasına diqqət edərkən aydın olur ki, "rübubiyyət" həqiqi maliklikdən yaranan və ona bağlı olan bir xüsusiyyətdir. Çünki hər hansı bir varlıq digər varlığın həqiqi maliki olmazsa, müstəqil və mütləq şəkildə onun işlərinə dəxalət edib, istədiyi kimi onu idarə edə bilməz.[22] Beləliklə, rəbb, mülkiyyətində olanın işlərini idarə edən, onu özbaşına buraxmayıb, daima onun işlərinə nəzarət edən malikə deyilir.

"Rəbb" sözünün bu mənasına görə "rübubiyyətdə tövhid" o deməkdir ki, bütün varlıqların həqiqi maliki olan Allahdan başqa aləmdəki varlıqların işlərini heç bir şərikə və köməkçiyə, yaxud kiminsə icazəsinə ehtiyacı olmadan idarə edən bir varlıq yoxdur. Əgər hansısa məxluq məhdud bir sahədə başqa bir varlığın işlərini idarə edərsə, şübhəsiz, onun bu işi məhz Allahın icazəsinə, iradəsinə və istəyinə bağlıdır.

**Rübubiyyətdə tövhidin isbatı**

Rübubiyyətdə tövhidin mənası məlum olduqdan sonra onun əqli dəlillərindən ikisini əziz oxuculara təqdim edirik:

Birinci dəlil: Rübubiyyət həqiqi malikə məxsus olan xüsusiyyətdir.[23] Hər hansı bir varlıq digər bir mövcudun həqiqi maliki olmazsa, müstəqil və mütləq şəkildə onun işlərini idarə edə bilməz. Digər tərəfdən, həqiqi maliklik xaliqə məxsus olan

---

[20] yetişdirən, tərbiyələndirən, bəsləyən

[21] Morfoloji cəhətdən "Rəbb" sözünün kökü qoşahərfli feil sayılan "rəbəbə" sözüdür. Halbuki "mürəbbi" sözünün kökü naqis feil sayılan "rəbəyə" sözüdür. Əlbəttə, etimoloji baxımdan hər iki söz eyni kökdən alınmışdır. Çünki bu iki söz üç kök hərfindən ikisində müştərəkdir və onların məna yaxınlığı da bundan irəli gəlir.

[22] Əllamə Təbatəbai "Fatihə" surəsinin təfsirində "əl-Həmdu lillahi Rəbbil-aləmin" ayəsindəki "rəbb" kəlməsinin mənası haqda buyurur: "Rəbb elə bir malikə deyilir ki, mülkündə və ixtiyarında olanın işlərini idarə edir. Bu səbəbdən "rəbb" sözünün məzmununda maliklik mənası özünü göstərir." Əllamə Təbatəbai mövzunun davamında məcazi və həqiqi malikliyin fərqini bəyan edir və bildirir ki, Allahın malikliyi həqiqi maliklikdir.

[23] Malik iki cür olur: məcazi malik və həqiqi malik. Məcazi malik odur ki, şərti ictimai normalar əsasında öz mülkiyyətindən istifadə hüququna malik olur. Həqiqi malikin mülkiyyəti isə bütün vücudu ilə öz malikinə bağlıdır və özü heç bir müstəqilliyə malik deyildir. Bu mənada Allah bütün məxluqlarının malikdir.

xüsusiyyətdir. Çünki məxluqun varlığı və bütün xüsusiyyətləri xaliqin əlindədir. Deməli, rübubiyyət xaliqə məxsus olan xüsusiyyətdir. Varlığın yeganə xaliqi Allah olduğu üçün aləmin şəriksiz Rəbbi də məhz Odur. Heç bir varlıq müstəqil, yəni Allahın rübubiyyətindən asılı olmayan rübubiyyətə malik deyil.

İkinci dəlil: Qeyd etdik ki, rübubiyyət hər hansı bir şeyin işlərini idarə etmək və nizamlamaqdır. Bu baxımdan, bir neçə müstəqil (iyerarxik olmayan) rəbbin var olması o deməkdir ki, hər birinin dəxaləti və təsiri nəticəsində özünəməxsus sistemlər meydana gəlsin. Digər tərəfdən, danılmaz faktdır ki, varlıq aləminə vahid bir nizam hakimdir və aləmin işləri harmonik baş verir.

Beləliklə, aləmin idarə sisteminin vəhdəti və onun tərkib hissələri arasındakı harmoniya aləmi idarə edənin və həqiqi rəbbin təkliyinə sübutdur.

**Feildə tövhid Quranda və hədislərdə**

Qeyd olunduğu kimi feildə şirk, xüsusilə rübubiyyətdə şirk, "nəzəri şirkin" digər qisimləri ilə müqayisədə müxtəlif millətlər arasında daha geniş yayılmışdır. Bu səbəbdən, Quran feildə tövhid məsələsinə daha çox təkid etməsi təbiidir. Hədislərdə də feildə tövhidin müxtəlif şaxələrinə işarə olunmuşdur. Burada Quran ayələrinə və bəzi hədislərə işarə edirik.

**Xaliqiyyətdə tövhid haqqında ayələr**

Bütün şeylərin Allah tərəfindən yaradılması prinsipi Quranın müxtəlif ayələrində bəyan edilmişdir.

قُلِ اللّهُ خَالِقُ كُلِّ شَيْءٍ وَهُوَ الْوَاحِدُ الْقَهَّارُ

"Söylə: Allah hər şeyin xaliqidir. Vahid və qəhhar Odur". ("Rəd": 16)

اللَّهُ خَالِقُ كُلِّ شَيْءٍ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ وَكِيلٌ

"Allah hər şeyin xaliqidir. O, hər şeyə vəkildir!" ("Zümər": 62)

ذَلِكُمُ اللَّهُ رَبُّكُمْ خَالِقُ كُلِّ شَيْءٍ لَّا إِلَهَ إِلَّا هُوَ

"Bu sizin Rəbbiniz, hər şeyin xaliqi olan Allahdır. Ondan başqa heç bir tanrı yoxdur!" ("Mumin": 62)

Ayələrdə Allah-taala hər şeyin xaliqi kimi tanıtdırılır. "Şey" sözünün geniş məna daşımasını nəzərə alarkən aydın olur ki, bu ayələr Allahın xaliqliyinin əhatə dairəsinin sonsuzluğunu, yəni bütün varlıqların Allahın məxluqları olduğunu bəyan edir. Bu həqiqət bəzi ayələrdə ritorik sual cümlələri[24] ilə bəyan edilir.

هَلْ مِنْ خَالِقٍ غَيْرُ اللَّهِ يَرْزُقُكُم مِّنَ السَّمَاء

"Allahdan başqa ayrı bir yaradan vardır ki, sizə göydən və yerdən ruzi versin?"

---

[24] Cavab almaq məqsədilə deyil, təsdiq və ya inkar fikri daha emosional şəkildə ifadə etmək üçün işlədilən sual cümlələrinə ritorik sual cümlələri deyilir. (Red.)

("Fatir": 3)

Bu ayə ritorik sual şəklində soruşur: Allahdan başqa yaradan varmı? Quran ayələrinə əsasən, bu sualın cavabı mənfidir; yeganə yaradan yalnız Allahdır.

Bir sözlə, Allahın xaliqliyinin hər şeyə şamil olması prinsipi Quranın qəti və inkaredilməz əsaslarındandır və "xaliqiyyətdə tövhid" də elə bu deməkdir.[25]

Qurani-kərimin işarə etdiyi digər əsas bir məsələ budur ki, islam meydana çıxan zaman ümumiyyətlə ərəbistan müşrikləri Allahı yeganə yaradan bilirdilər. Onların əsas problemləri "rübubiyyətdə şirk" məsələsi idi.

Ənkəbut surəsində buyurulur:

وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ لَيَقُولُنَّ اللَّهُ فَأَنَّى يُؤْفَكُونَ

"Həqiqətən, əgər (Məkkə müşriklərindən): "Göyləri və yeri kim yaratmış, günəşi və ayı kim ram etmişdir?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyə cavab verəcəklər. Elə isə onlar niyə haqdan döndərilirlər? (Ənkəbut: 61)

Quranın digər ayələrində[26] də işlənən bu ibarə bunu göstərir ki, ərəb müşrikləri, istər öz fitrətlərinə əsasən, istərsə də keçmiş peyğəmbərlərin təlimləri nəticəsində, ibadət etdikləri bütləri aləmin xaliqi hesab etmir, əksinə Allahı bütün varlığın xaliqi bilirdilər.[27] Onlar xaliqiyyətlə idarəetmə arasındakı əlaqəni düzgün anlaya bilməmiş və bu həqiqəti başa düşməmişlər ki, əgər bütün varlıqların yaradanı yeganə Allahdırsa, deməli, yeganə həqiqi idarə edən də Allahdır və idarəetməni xaliqlikdən ayırmaq doğru deyil. Quran xaliqiyyətdə tövhid prinsipini vurğulamaqla yanaşı digər mövcudların xaliqiyyətinin Allahın xaliqiyyətinin iyerarxiyasında və Onun istəyi və iradəsi çərçivəsində olduğunu gözəl bir üslubla bəyan edir. Məsələn, İsa peyğəmbərin (ə) möcüzələri haqqında buyurulur:

وَإِذْ تَخْلُقُ مِنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ بِإِذْنِي فَتَنفُخُ فِيهَا فَتَكُونُ طَيْرًا بِإِذْنِي

"Mənim iznimlə palçıqdan quş şəklində bir şey yaradıb, ona üfürdün, o da Mənim iznimlə quş oldu". ("Maidə": 110)

Bu ayə Allahın İsa peyğəmbərə (ə) olan vəhyini bəyan edir. Ayədə İsa peyğəmbərin (ə) möcüzələrindən birinə işarə olunmuşdur. O, palçıqdan quş düzəldir, sonra ona üfürür və nəhayət, cansız cisim canlı və həqiqi quşa çevrilirdi. Göründüyü kimi, ayədə "biizni" (mənim iznimlə) sözü iki dəfə təkrar edilmişdir və bu sözün təkrarlanması bunu vurğulayır ki, palçıqdan quşun yaranması hadisəsi İsaya (ə) isnad verilsə də o, yaratmaqda müstəqil deyil və bu işi Allahın izni və iradəsi sayəsində yerinə yetirmişdir.

---

[25] Əlbəttə, cəbr əqidəsinin tərəfdarları bu ayələrə istinad etməklə Allahı insanın bütün əməllərinin xaliqi bilir və belə güman edirlər ki, Allahın xaliqiyyətinin insanın əməllərinə də şamil olması cəbr əqidəsinə sübutdur. "Cəbr və ixtiyar" mövzusunda bu müddəanı araşdıracağıq.

[26] "Loğman": 25; "Zümər": 38; "Zuxruf": 9.

[27] Ayənin bu mənada təfsiri bu prinsipə əsaslanır ki, Quranda "göylər və yer" ifadəsi məcazi məna daşıyır və bütün varlıq aləminə şamil olur.

Beləliklə, Quran incəliklə bəyan edir ki, Allah-taalanın öz hikməti əsasında yaratmaq sifətini öz yaratdıqlarına bəxş etməsi mümkün olsa da, onların yaratması Allahın yaratması ilə yanaşı deyil. Bu səbəbdən "xaliqiyyətdə tövhidlə" heç bir ziddiyyəti yoxdur.

**Rübubiyyətdə tövhid Quranda**

Keçən bəhslərdə qeyd etdik ki, rübubiyyətdə tövhidin mənası budur ki, varlıq aləminin həqiqi idarəçisi və nizamlayıcısı yalnız Allah-taaladır. Digər varlıqların nəyisə idarə etməsi yalnız Allahın rübubiyyətinin sayəsində həyata keçir. Bunun əksi isə "rübubiyyətdə şirk" əqidəsidir. Rübubiyyətdə şirk Allahdan başqasını müstəqil şəkildə aləmin müəyyən bir hissəsinin idarəçisi və nizamlayıcısı bilməkdir.

Rübubiyyətdə şirk geniş yayıldığına görə Quran rübubiyyətdə tövhid prinsipinə daha çox əhəmiyyət vermişdir.

**Quranda rübubiyyətdə tövhidə verilən əhəmiyyət**

Müqəddəs Quran rübubiyyətdə tövhidə təkid edərək Allah-taalanı bütün varlıqların Rəbbi olaraq tanıtdırır. Quranda dəfələrlə Allah haqqında təkrar olunan Rəbbul-aləmin[28] (aləmlərin Rəbbi) sifəti bunu göstərir ki, maddi və qeyri-maddi bütün varlıqlar – cisimlər, bitkilər, heyvanlar və insanlar Allah tərəfindən idarə olunur.

Allah-taala peyğəmbərinə (s) əmr edir ki, Onu göylərin və yerin Rəbbi kimi tanıtdırsın.

قُلْ مَن رَّبُّ السَّمَاوَاتِ وَالأَرْضِ قُلِ اللّهُ

"Söylə: Göylərin və yerin Rəbbi kimdir? Söylə: Allah". ("Rəd": 16)

Şübhəsiz, Allahın rübubiyyəti göylərə və yerə məxsus deyil, bütün varlığı əhatə edir.

قُلْ أَغَيْرَ اللّهِ أَبْغِي رَبًّا وَهُوَ رَبُّ كُلِّ شَيْءٍ

"De: Allahdan başqa Rəbb axtarımmı? Halbuki hər şeyin Rəbbi Odur". (Ənam: 164)

Bəzən təkid edilir ki, yeganə Allah bütün insanların Rəbbi və idarə edənidir və heç bir insan Onun idarə dairəsindən xaric deyil.

أَتَدْعُونَ بَعْلًا وَتَذَرُونَ أَحْسَنَ الْخَالِقِينَ وَاللَّهَ رَبَّكُمْ وَرَبَّ آبَائِكُمُ الْأَوَّلِينَ

"Yaradanların ən yaxşısını qoyub Bələ (Bəl adlı bütə) ibadət edirsiniz? Həm sizin Rəbbiniz, həm də (sizdən) əvvəlki atalarınızın Rəbbi olan Allahımı tərk edirsiniz?" (Saffat: 125-126 ci ayələr)

Göründüyü kimi, Quranın məntiqinə əsasən, digər varlıqların müstəqil formada rübubiyyətinə və idarəçiliyinə zərrə qədər də yer qalmır.

[28] Quranda "rəbb" sözü müxtəlif formalarda təqribən min dəfə Allahın sifəti kimi işlənmişdir ki, bu da "rəbb" sifətinin əhəmiyyətini göstərir.

**Peyğəmbərlərin rübubiyyətdə tövhidə gətirdikləri dəlillər**

Rübubiyyətdə şirk əqidəsi daha çox yayıldığı üçün peyğəmbərlər müşriklərlə mübahisələrində rübubiyyətdə tövhid məsələsini təkidlə vurğulamış və isbat etmişlər. Quran Yusifin (ə) onunla zindanda bir yerdə olan iki nəfəri tövhidə çağıraraq belə dediyini nəql edir:

أَأَرْبَابٌ مُّتَفَرِّقُونَ خَيْرٌ أَمِ اللّهُ الْوَاحِدُ الْقَهَّارُ

"Ayrı-ayrı rəblər yaxşıdır, yoxsa qəhhar (qalib) və tək Allah". ("Yusif": 39)

Quran tövhid qəhrəmanı İbrahim peyğəmbərdən (ə) bir çox dəlillər nəql edir ki, onların ən əsası "rübubiyyətdə tövhid" haqqındadır. Quranda İbrahim peyğəmbərin (ə) kafir padşahla (hədislərdə bu padşahın adının Nəmrud olduğu qeyd edilmişdir) söhbəti belə nəql olunur:

أَلَمْ تَرَ إِلَى الَّذِي حَآجَّ إِبْرَاهِيمَ فِي رِبِّهِ أَنْ آتَاهُ اللّهُ الْمُلْكَ إِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّيَ الَّذِي يُحْيِي وَيُمِيتُ قَالَ أَنَا أُحْيِي وَأُمِيتُ قَالَ إِبْرَاهِيمُ فَإِنَّ اللّهَ يَأْتِي بِالشَّمْسِ مِنَ الْمَشْرِقِ فَأْتِ بِهَا مِنَ الْمَغْرِبِ فَبُهِتَ الَّذِي كَفَرَ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

"Allahın verdiyi hökmranlıq üzündən (azğınlaşaraq) İbrahim ilə Rəbbi barəsində mübahisə aparan şəxsi görmədinmi? İbrahim: "Mənim tanrım həm dirildir, həm də öldürür", – dediyi zaman, o: "Mən də həm dirildir, həm də öldürürəm", – demişdi. İbrahim ona: "Allah Günəşi şərqdən çıxarır, bacarırsansa, sən onu qərbdən çıxar!" – dedikdə, o kafir donub qalmışdı. Həqiqətən, Allah zülmkarları hidayət etməz!" ("Bəqərə": 258)

Söhbətdən məlum olur ki, Nəmrud, Allahı rəblərin rəbbi (baş rəbb) bilirmiş. Bununla belə, digər rəblərə də inanır və özünün də rəbb olmasını deyirdi. İbrahim peyğəmbər (ə) Nəmrudun aləmdə heç bir idarəçilik qüdrətinə malik olmamasını isbat etmək üçün Allahın rübubiyyətinin xüsusiyyətlərindən birinə işarə edir və deyir: Mənim Rəbbim yaratdıqlarını dirildib öldürməklə aləmi idarə edir. Şübhəsiz, İbrahim peyğəmbər (ə) bu iki xüsusiyyətə işarə edərkən onların həqiqi mənasını nəzərdə tutur. Lakin Nəmrud hiyləgərliyə əl atır və fərman verir ki, zindanda olanların birini azad edib, digərini öldürsünlər. Bununla utanmadan iddia edir ki, o da öldürür və dirildir.

Nəmrud burada sofistikaya əl atır. Lakin görünür, İbrahim peyğəmbərin (ə) onun sofistikasını ifşa etməsi üçün zəmin olmamışdır. Odur ki, rübubiyyətin elə bir xüsusiyyətinə işarə edir ki, onda heç bir fikir sofistikaya zəmin olmasın.

Beləliklə, İbrahim peyğəmbər (ə) günəşi idarə etmə məsələsinə toxunur və deyir: Allah-taala günəşi şərqdən çıxarır. Əgər sən rəbsənsə günəşi qərbdən çıxarmağa qadir olmalısan. Nəmrud pərt olur və İbrahim peyğəmbərin (ə) dəlili qarşısında cavabsız qalır.

İbrahim peyğəmbərin (ə) dəlili bundan ibarətdir ki, Allahdan başqa bir rəbb olarsa, o, aləmin quruluşunda dəxalət edib, onu öz iradəsinə uyğun dəyişməyə qadir olmalıdır. Lakin yalançı rəblərdən heç biri belə bir qüdrətə malik deyil.

Qurani-kərim İbrahim peyğəmbərin (ə) göy cisimlərinin rəbb olmasına inanan insanlar qarşısında gətirdiyi dəlilə işarə edir. İbrahim peyğəmbər (ə) müşriklərin

diqqətini cəlb etmək üçün zahirdə özünü onlarla həmfikir göstərir və sonra möhkəm bir sübutla onları əqidələrinin batil olmasından xəbərdar edir:

فَلَمَّا جَنَّ عَلَيْهِ اللَّيْلُ رَأَى كَوْكَبًا قَالَ هَذَا رَبِّي فَلَمَّا أَفَلَ قَالَ لا أُحِبُّ الآفِلِينَ فَلَمَّا رَأَى الْقَمَرَ بَازِغًا قَالَ هَذَا رَبِّي فَلَمَّا أَفَلَ قَالَ لَئِن لَّمْ يَهْدِنِي رَبِّي لأَكُونَنَّ مِنَ الْقَوْمِ الضَّالِّينَ فَلَمَّا رَأَى الشَّمْسَ بَازِغَةً قَالَ هَذَا رَبِّي هَذَا أَكْبَرُ فَلَمَّا أَفَلَتْ قَالَ يَا قَوْمِ إِنِّي بَرِيءٌ مِّمَّا تُشْرِكُونَ إِنِّي وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَاوَاتِ وَالأَرْضَ حَنِيفًا وَمَا أَنَاْ مِنَ الْمُشْرِكِينَ

"Gecə qaranlığı (onu) bürüdükdə o, bir ulduz görüb: "Bu mənim Rəbbimdir!" dedi. Ulduz batdıqda isə: "Mən batanları sevmirəm", – söylədi.

Sonra doğan ayı görüb: "Bu mənim Rəbbimdir!" – dedi. Ay batdıqda isə: "Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən zəlalətə düşənlərdən olardım", - söylədi.

Daha sonra doğan günəşi görüb: "Bu mənim Rəbbimdir, bu, daha böyükdür!" – dedi. Günəş batdıqda isə dedi: "Ey qövmüm, mən, həqiqətən, sizin Allaha şərik qoşduqlarınızdan uzağam!

Mən, həqiqətən, batildən haqqa tapınaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm!" ("Ənam": 76-79)

Ayələrin məzmununa diqqət etməklə bir sıra maraqlı məsələlər aydın olur. Məsələn, "batanları sevmirəm" cümləsindən iki əsas məsələ başa düşülür:

1) Qurub edən və batan bir mövcud rəbb ola bilməz. Çünki rübubiyyət rəblə onun idarə etdiyi varlıq arasında davamlı ontoloji əlaqədən ibarətdir. Beləliklə, bu əlaqə bir an olsun belə qırıla bilməz və rəbbin, idarə etdiyi varlığa əhatəsi aradan gedə bilməz. Həqiqi rübubiyyətdə əlaqə kəsilərsə, idarə olunanın varlığı öz nizamından çıxar və fəsada uğrayar.

2) İbrahim peyğəmbər (ə) ulduzların rübubiyyətini birbaşa inkar etmək əvəzinə "Mən batanları sevmirəm" deyir. Bu cümlə məhəbbətin rübubiyyət və üluhiyyətlə dərin əlaqəsini bəyan edir. Sanki İbrahim peyğəmbər (ə) bununla bildirmək istəyir ki, yalnız allahlığa layiq olan həqiqi rəbb insanın məhəbbətini özünə cəzb edə bilər. Bu səbəbdən həqiqi rübubiyyət həmişə davamlı məhəbbətlə bir-birindən ayrılmazdır. Deməli, insanın qəlbini özünə cəzb edə bilməyən varlıq rəbb ola bilməz və ibadətə layiq deyildir.

**Rübubiyyətdə tövhidin isbatı**

Tövhid prinsipi (ən azından onun bəzi qisimləri) fitri bir məsələdir. Amma tövhidin fitri olması ona dəlil gətirməklə ziddiyyət təşkil etmir. Quranda tövhidə dəlil ola biləcək bir sıra ayələr vardır. Ənbiya surəsinin 22-ci ayəsi bu ayələrdən biridir.

لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللَّهُ لَفَسَدَتَا فَسُبْحَانَ اللَّهِ رَبِّ الْعَرْشِ عَمَّا يَصِفُونَ

"Əgər yerdə və göydə Allahdan başqa allahlar olsaydı ikisi də (yer və göy) məhv olardı. Ərşin sahibi olan Allah müşriklərin Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır!" ("Ənbiya": 22)

Alimlər arasında, bu ayənin tövhidin hansı qisminə işarə olunması haqda fikir ixtilafı mövcuddur. Bəziləri bu qənaətdədir ki, ayə üluhiyyətdə tövhidi (təkilahlılığı) isbat edir. Çünki ayədə çoxilahlılıq fərzi inkar edilir. Digər bir fikrə əsasən, ayə rübubiyyətdə tövhidi isbat edir. Digər bir qrupun nəzərincə isə, ayə "qarşılıqlı maneçilik" dəlilinə işarədir.

Qeyd etmək lazımdır ki, tövhidin qisimləri arasında, eləcə də "ilah" və "rəbb" anlayışları arasında üzvi əlaqə olduğu üçün yuxarıdakı fikir ixtilafları nəticə etibarı ilə fərqlənmir. Əlbəttə, biz ayədə gətirilən dəlili rübubiyyətdə tövhidlə daha uyğun bildiyimiz üçün ikinci fikri dəstəkləyirik.

Ayədən başa düşünülən dəlilin xülasəsi belədir: Aləmdə birdən artıq rəbb olarsa, aləmin nizamı pozular və dağlar. Amma göründüyü kimi, aləmdə nizam-intizam və uyğunluq hakimdir. Deməli, aləmin yalnız bir rəbbi var.

Dəlilin izahı belədir: Aləmdə iki müstəqil rəbbin olması iki müstəqil sistemin olması deməkdir. Yəni fərz etdiyimiz iki rəbdən hər biri digərinin izni olmadan aləmdə dəxalət edib onun işlərini idarə edə bilməlidir. Bu halda aləmə iki müstəqil sistem hakim olacaq və rəblərdən hər biri öz istəyi və iradəsi ilə əməl edəcəkdir ki, bu da aləmin dağılması ilə nəticələnəcəkdir. Başqa sözlə desək, idarə edənin çox olması idarə üsulunun müxtəlifliyi ilə nəticələnməlidir. İdarə üsulunun müxtəlifliyi isə aləmin komponentləri arasındakı ahəngdarlıq və harmoniya ilə ziddir.

Beləliklə, aləmin nizam-intizami, ona sabit qanunların və vahid sistemin hakim olması onu idarə edənin vahid olmasını göstərir. Rübubiyyətdə tövhid də elə bundan ibarətdir.

Hişam ibn Həkəm İmam Sadiqdən (ə) soruşdu: "Allahın təkliyinin dəlili nədir?" İmam (ə) buyurdu: "Aləmə hakim olan nizamın vəhdəti və xilqətin kamil olması Allahın təkliyinə dəlalət edir, necə ki, Allah-taala buyurur: "Göydə və yerdə Allahdan başqa allahlar olsaydı, göy və yer məhv olardı".[29]

Digər bir hədisdə İmam Sadiq (ə) kafir bir şəxsin cavabında buyurdu: "Yaranışın nizamlı olması, gecə-gündüzün, ulduzların, günəşlə ayın hərəkəti və düzgün tədbirlə idarə olunması yeganə idarə edənin varlığından xəbər verir".

**Xaliqin izni ilə məxluqun idarəçiliyi**

Keçən bəhslərdə qeyd etdik ki, feildə tövhid məxluqların təsirini tam inkar etmək demək deyil. Feildə tövhidin mənası budur ki, hər bir varlığın feili Allahın feilinin iyerarxiyasında olub, Onun izni ilə baş verir. Bu səbəbdən, müqəddəs Quran bəzən idarə etmə xüsusiyyətini digər varlıqlara, o cümlədən mələklərə isnad verir.

فَالْمُدَبِّرَاتِ أَمْرًا

[29] "Ət-tövhid", 36-cı bab, 2-ci hədis.

“(And olsun) Dünyanın işlərini idarə edənlərə (mələklərə)” (“Naziat”: 5).

Məlumdur ki, bu cür idarə etmə müstəqil və Allahın idarə etməsi ilə yanaşı yox, iyerarxikdir.

Qurani-kərim Allahın rübubiyyətinin müxtəlif sahələrini də Onun yaratdıqlarına isnad verir və eyni zamanda bunların hamısını ilahi tədbirdən qaynaqlanmasını vurğulayır. Məsələn, ruzi vermək Allahın işlərindən sayılır.

وَمَا مِن دَآبَّةٍ فِي الأَرْضِ إِلاَّ عَلَى اللّهِ رِزْقُهَا

“Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisi Allahın öhdəsinə olmasın”. (“Hud”: 6)

Digər tərəfdən, anaların ruzisi ataların öhdəsində bir vəzifə kimi qeyd edilmişdir.

وَعلَى الْمَوْلُودِ لَهُ رِزْقُهُنَّ وَكِسْوَتُهُنَّ بِالْمَعْرُوفِ

“Anaların ruzi və geyimi yaxşı bir şəkildə uşağın sahibinin (atanın) öhdəsinədir”. (“Bəqərə”: 233)

**Terminlər**

Xaliqiyyətdə tövhid

Rübubiyyətdə tövhid

**Beşinci fəslin xülasəsi**

1. Feildə tövhid - “xaliqiyyətdə tövhid”, “rübubiyyətdə tövhid”, “hidayətdə tövhid” və s. kimi şaxələrə bölünür.

2. Xaliqiyyətdə tövhid yalnız Allahın həqiqi yaradan olduğuna inanmaqdır. Digər varlıqların yaratması Allahın yaratması sayəsindədir və Onun iradəsinə tabedir.

3. Allahın varlığın zəruri, digər mövcudların varlığı isə mümkün olduğu üçün bütün varlıqlar ya vasitə ilə, ya da vasitəsiz olaraq Allahın məxluqudur.

4. Rübubiyyətdə tövhid – yalnız Allahın aləmin həqiqi idarə edəni olmasına, Onun heç bir varlığın icazəsinə ehtiyacı olmadan aləmdə dəxalət edib, onu idarə etməsinə, digər varlıqların isə öz işlərini və ya başqalarının işlərini idarə etmək üçün Allahın izninə möhtac olmasına və Onun iradəsi sayəsində əməl etməsinə inanmaqdır.

5. Həqiqi rübubiyyət malik və xaliqin xüsusiyyətlərindəndir. Allah-taala yeganə xaliq olduğuna görə yeganə rəbb də Odur. Buna görə də, xaliqiyyətdə tövhidə əsaslanmaqla rübubiyyətdə tövhidi isbat etmək olar.

6. Rübubiyyətdə tövhidin əqli dəlillərindən biri aləmə hakim olan vahid sistemə əsaslanır. Şübhəsiz, bütün aləmə vahid və harmonik bir sistem hakimdir. Bu vahid və harmonik bir sistem onu idarə edənin təkliyinə dəlalət edir. Odur ki, aləmin idarə sisteminin vəhdəti rəbb və idarə edənin təkliyinə dəlildir.

7. Quranın müxtəlif ayələrində Allahın xaliqliyinə və hər bir şeyi yaratmasına təkid edilir. Xaliqiyyətdə tövhid elə bu deməkdir.

8. Quran birmənalı şəkildə bildirir ki, müşriklər xaliqiyyətdə tövhidə etiraf edirmişlər. Onların əsas problemi rübubiyyətdə tövhid olmuşdur.

9. Quran bəzən yaratmağı Allahdan başqasına da isnad verir və təkid edir ki, digər varlıqların yaratması Allahın izni və iradəsi sayəsindədir. Məsələn, İsa peyğəmbərin (ə) palçıqdan quş yaratma möcüzəsi Allahın izni sayəsində olmuşdur.

10. Rübubiyyətdə tövhidin isbatı peyğəmbərlərin müxaliflərlə mübahisələrinin əsas mövzusu olmuşdur. İbrahim peyğəmbər (ə) özünü rəbb hesab edən Nəmrudla və eləcə də göy cisimlərinə ibadət edənlərlə mübahisə etmişdir.

11. "Yerdə və göydə Allahdan başqa allahlar olsaydı ikisi də (yer və göy) məhv olardı" ayəsi aləmdə mövcud olan vahid nizama əsaslanmaqla rübubiyyətdə tövhidi isbat edir. Bəzi hədislərdə də aləmə hakim olan vahid nizam rəbbin təkliyinə sübut kimi göstərilir.

**Altıncı fəsil**

**Hakimiyyətdə tövhid (təkhakimlilik)**

**Üluhiyyətdə tövhid (təkilahlılıq)**

Hakimiyyətdə tövhid

Feildə tövhidin qisimlərindən biri də hakimiyyətdə, yəni qanunvericilikdə və qanunların icrasında tövhiddir. Bu tövhidi rübubiyyətdə tövhidin şaxələrindən hesab etmək olar. Məlum olduğu kimi insanın özü ilə başqaları arasındakı əlaqələri tənzimləmək üçün xüsusi qayda-qanunlara ehtiyacı vardır. Qanun qoymaq isə qanunvericiyə aid səlahiyyətdir.

Qanunvericilikdə tövhid – insanların həyatını tənzimləməkdə yalnız Allahı qanunvericiliyə layiq bilmək, Ondan başqa heç kəsin müstəqil və Onunla yanaşı şəkildə qanunvericilik hüququna malik olmamasına inanmaqdır. Buna görə də, qanun təyin etmək birbaşa olaraq Allah-taalaya aid məsələlərdəndir. Başqalarının qanunvericiliyi isə Allahın qanunlarına zidd olmazsa, etibarlı sayıla bilər.

Digər tərəfdən, icra hakimiyyəti, yəni insanların canına, malına hökmranlıq və cəmiyyətin idarəçiliyi də Allaha aid işlərdəndir. Müstəqil və həqiqi hakim məhz Allah-taaladır. Digərlərinin hakimiyyəti yalnız Allahın izni ilə etibarlı sayılır.

Beləliklə, tövhid düşüncəsinə əsasən, hakimiyyət, yəni qanunvericilik və qanunların icrası məhz Allaha məxsusdur. Allahdan başqası onunla yanaşı olaraq belə bir səlahiyyətə malik ola bilməz. Əlbəttə, qanunvericilikdə tövhid prinsipi insanların cəmiyyətin dəyişkən cəhətləri ilə bağlı olan sahələrində özləri üçün lazımi qanunlar təyin etmək hüququnu inkar etmir. Bu sahədə olan qanunvericilik şəriətin sabit və ümumi qanunları ilə uyğun olarsa, etibarlı sayılır.[30]

Digər tərəfdən, cəmiyyətdə hakimiyyətin reallaşması üçün cəmiyyətdəki fərdlərlə yaxından ünsiyyətdə və qarşılıqlı əlaqədə olmaq zəruridir. Bu səbəbdən, Allahın hikməti tələb edir ki, bir sıra şəxslər öz üstün xüsusiyyətlərinə görə Allahın icazəsi ilə hakimiyyəti ələ alıb, cəmiyyətin işlərini Allahın qanunlarının icrası əsasında tənzimləyə və idarə edə bilsinlər.

**Hakimiyyətdə tövhidin əqli dəlili**

Tövhidin bu qismini isbat etmək üçün aşağıdakı dəlillərə istinad etmək olar:

1. Şübhəsiz ki, cəmiyyətdə qanunvericilik və qanunların icrası insanların yaşayışını idarə etmək və nizamlamaq deməkdir. Keçən bəhslərdə qeyd olunduğu kimi

[30] Bu haqda ikinci cilddə "İslamın son din olması" mövzusunda geniş bəhs edəcəyik.

rübubiyyətdə tövhidə əsasən, aləmin həqiqi idarə edəni Allah-taaladır. Bu səbəbdən insanların idarəçiliyi də, istər qanunvericilik baxımından, istərsə də qanunların icrası baxımından məhz Allah-taalanın haqqıdır. Digərlərinin rübubiyyəti olmadığı üçün müstəqil şəkildə qanunvericilik və qanunların icrası hüququna malik deyillər.

2. Qanunvericilik həmişə insanların hüququnu məhdudlaşdırmaqla və bir növ məcburiliklə nəticələnir. Qanunların icrası da insanların işlərinə dəxalət etmədən, onların can və mallarına hakim olmadan reallaşa bilməz. Bu səbəbdən, qanunvericilik və qanunların icrası başqalarına həqiqi vilayəti və başçılığı olana aiddir. Həqiqi vilayət isə yalnız başçının öz tabeçiliyindəkilərin həqiqi maliki olduqda mümkün ola bilər. Məlum olduğu kimi varlığın yeganə həqiqi maliki Allah-taaladır və heç bir insan öz-özlüyündə başqasının maliki ola bilməz.

3. Yalnız o şəxsin qanunvericilik hüququ ola bilər ki, insanların mənafeyini ən yaxşı şəkildə nəzərə alsın. Belə bir şəxs isə insanın həqiqətini və onu səadətə çatdıran yolları tam şəkildə tanımalıdır. Şübhəsiz, belə bir dəqiq məlumat yalnız sonsuz elmə malik olan Allah-taalada təsəvvür oluna bilər. Heç bir varlıq insanı onun yaradanı kimi tanıya bilməz. Beləliklə, insanlara göstəriş olaraq qanun qoya bilən yeganə varlıq Allahdır. Əlbəttə, bu məsələ Allahın insanlara öz ictimai münasibətlərini tənzimləmək üçün cəmiyyətdə lazımi qanunlar qoymaq haqqını verməsi ilə ziddiyyət təşkil etmir. Lakin insanlar tərəfindən qoyulan qanunlar, şübhəsiz ki, dini qanunlarla uyğun olmalıdır.

**Quran nöqteyi-nəzərindən hakimiyyətdə tövhid**

İndi isə görək, Quran və hədislərin bu tövhid haqda mövqeyi nədir? Biz bu mövzunu əsasən "hökm" və "vilayət" sözlərinin işləndiyi ayələrdə araşdıracağıq.

"Hökm" sözü etimoloji baxımdan nəyəsə mane olmaq və qarşısını almaq mənasına olmuş, sonra isə "qanunvericilik", "mühakimə" və "cəmiyyətin işlərinə başçılıq" mənalarında işlənmişdir. Bəlkə də bu sözün belə müxtəlif mənalarda işlənməsinin səbəbi budur ki, qeyd etdiyimiz mənaların hər birində "mane olmaq" xüsusiyyəti özünü göstərir (məsələn, hakim mühakimə zamanı öz qəti hökmü ilə qanun pozuntularının qarşısını alır).

Beləliklə, hökm sözü geniş mənaya malikdir və mətnin kontekstindən asılı olaraq qeyd etdiyimiz mənaların hər hansı birində işlənə bilər. Vilayət sözündən alınan vəli sözü isə başçı və dost mənasında işlənir.

Quranın bəzi ayələrində "hökm" yalnız Allaha isnad verilir:

إِنِ الْحُكْمُ إِلاَّ لِلّهِ

"Allahın hökmündən başqa hökm yoxdur". ("Yusif": 40)

كُلُّ شَيْءٍ هَالِكٌ إِلَّا وَجْهَهُ لَهُ الْحُكْمُ وَإِلَيْهِ تُرْجَعُونَ

"Onun zatından başqa hər şey məhv olandır. Onundur hökm və hamı Ona qaytarılacaqdır". ("Qəsəs": 88)

Göründüyü kimi, hər iki ayə hökmün yalnız Allaha məxsus olduğunu çatdırır. Bu mətləb birinci ayədə inkar cümlədəki istisna vasitəsilə (yəni Allahın hökmü istisna olmaqla heç bir hökm yoxdur), ikinci ayədə isə xəbərin ("Onundur" sözünün) mübtədadan ("hökm" sözündən) qabaq gəlməsi[31] ilə, eləcə də hökm sözünün qeydsiz-şərtsiz olması ilə bəyan edilmişdir.

Maidə surəsinin bir neçə ayəsi də Quranda bu mövzu ilə bağlı olan ayələrdəndır. Quran bu surənin 44, 45 və 47-ci ayələrində əhli-kitabın Tövrat və İncildə mövcud olan ilahi hökmlərə tabe olmasının vacibliyini təkidlə bəyan etdikdən sonra Allahın hökmlərinə zidd hökm edənləri "kafir", "zalım" və "fasiq" hesab edir.

وَمَن لَّمْ يَحْكُم بِمَا أَنزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الْكَافِرُونَ

"Hər kəs Allahın nazil etdiyi ayələrlə uyğun olaraq hökm etməsə, kafirdir".[32] ("Maidə": 44)

Bəzi ayələrdə də vilayət və başçılıq haqqı Allaha məxsus hüquqlardan sayılır. Şura surəsində buyurulur:

أَمِ اتَّخَذُوا مِن دُونِهِ أَوْلِيَاء فَاللَّهُ هُوَ الْوَلِيُّ

"Yoxsa onlar özlərinə Allahdan başqa başçılar seşdilər. Başçı (ixtiyar sahibi) ancaq Odur". ("Şura": 9)

"Başçı ancaq Odur" cümləsi həqiqi vilayətin Allaha məxsus olmasını bəyan edir. Əlbəttə, tövhidin digər qisimləri kimi hakimiyyətdə tövhid də bəzi insanların Allahın öz seçilmiş bəndələrini hakim və başçı etməsi və hakimiyyət postunu onlara verməsi ilə ziddiyyət təşkil etmir. Məsələn, Quran bu məqamın Davud peyğəmbərin üzərinə qoyulması haqda buyurur:

يَا دَاوُودُ إِنَّا جَعَلْنَاكَ خَلِيفَةً فِي الْأَرْضِ فَاحْكُم بَيْنَ النَّاسِ بِالْحَقِّ وَلَا تَتَّبِعِ الْهَوَى فَيُضِلَّكَ عَن سَبِيلِ اللَّهِ

"Ey Davud, biz səni yer üzündə xəlifə etdik, insanlar arasında haqla hökm et və nəfsani istəklərə uyma ki, səni Allah yolundan sapdırar". ("Sad": 26)

Bir sözlə, tövhid düşüncəsinə görə hakimiyyət və vilayət Allah-taalanın səlahiyyətlərindəndir. Lakin bir tərəfdən cəmiyyətin idarəçiliyi və qanunların icrası insanlarla maddi əlaqələrin yaranmasına bağlı olduğuna görə, digər tərəfdən belə bir əlaqə Allah üçün mümkün olmadığına görə həmişə insanların özlərindən bir qrup dövlət

---

[31] Ərəb dilində bir qayda olaraq, xəbər mübtədadan sonra gəlir. Müəyyənlikdə olan ümumi isim mübtəda olduqda və xəbər mübtədadan qabağa keçdikdə isə məntiqi vurğu xəbərin üzərinə düşür, bu da nəcitə etibarı ilə mübtədanın məzmununun xəbərə məxsus olduğunu çatdırır. Odur ki, "***Onundur*** hökm" cümləsi "Hökm ***yalnız*** Onundur" mənasını ifadə edir. (red.)

[32] 45 və 47-ci ayələrdə "zalım" və "fasiq" sözlərindən istifadə edilmişdir. Təfsir alimləri bu şəxslərin "kafir", "zalım" və "fasiq" kimi tanıtdırılmaları haqda müxtəlif versiyalar söyləmişlər. Bəlkə də ayədə haqqında danışılan şəxslər Allahın hökmlərinin dəyərini rədd edib, Onun hökmlərini gizlətdikləri və Onun ayələrinə küfr etdikləri cəhətdən kafir sayılırlar, bilərəkdən özlərinə və başqalarına zülm etdiklərinə görə zalım sayılırlar, Allaha bəndəlik yolundan çıxdıqlarına görə isə fasiq adlanırlar.

qurmaq vəzifəsini öz üzərinə götürməlidir. Amma onların hakimiyyətinin legitimliyi (qanuniliyi) Allahın vilayətindən qaynaqlanır və haqqın yolundan çıxmamaqla şərtləndirilir. Necə ki, Davud (ə) insanlar arasında haqq əsasında hökm etməyə məmur olmuşdu.

**Üluhiyyətdə tövhid**

Sifətdə tövhid mövzusunda qeyd olundu ki, bu etiqadi prinsipin mənalarından biri də budur ki, Allah-taala hər bir sifətində yeganədir və tayı bərabəri yoxdur. Eləcə də qeyd olundu ki, bu yeganəlik iki cür ola bilər:

1) Allah özünün bəzi sifətlərində elə təkdir ki, həmin sifətlər qətiyyən Ondan başqasına isnad verilə bilməz.

2) Allahın bəzi sifətləri isə başqa varlıqlarda vardır, lakin bu fərqlə ki, bu sifətlər Onda mütləq və sonsuz, başqa varlıqlarda isə məhdud və sonludur.

Allahın heç bir vəchlə başqa varlıqlara isnad verilə bilməyən əsas sifətlərindən biri "üluhiyyət" sifətidir. "İlah" sözü morfoloji baxımdan "fial" vəznindədir və bu vəzndə olan sözlər bəzi hallarda məchul feildən alınan feli sifət mənasını ifadə edir ("yazılan" mənasını bildirən "kitab" sözü kimi). "İlah" sözünün hansı kökdən alınması haqda fikir ayrılığı vardır.[33] Amma bir məşhur fikrə əsasən, "ilah" sözü "məbud" mənasınadır və ibadət olunan, yaxud ibadətə layiq varlığa deyilir. (Bəzilərinin fikrincə, "ilah" sözü "allah"[34] mənasınadır). İlah sözünün mənasını nəzərə almaqla üluhiyyətdə tövhidə belə tərif vermək olar: üluhiyyətdə tövhid yalnız Allah-taalanın həqiqi məbud və ibadətə layiq olmasına inanmaqdır. Gələcək bəhslərimizdə qeyd edəcəyik ki, tövhidin bu qismi xüsusi əhəmiyyətə malikdir və müşriklərin əsas müxalifətçiliyi bu etiqadi prinsiplə idi. Quran, müşriklərin "xaliqiyyətdə tövhid" inanclarını təsdiq edir və buyurur:

وَ لَئِنْ سَأَلْتَهُمْ مَنْ خَلَقَ السَّماواتِ وَ الْأَرْضَ لَيَقُولُنَّ اللَّه

"Həqiqətən, əgər sən (müşriklərdən): "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyə cavab verəcəklər".[35]

Müşriklər tövhidin başqa qisimlərində, o cümlədən "üluhiyyətdə tövhid" əqidəsində sapqınlığa düçar olmuşdular. Bu səbəbdən Quran, bu növ tövhidə böyük əhəmiyyətlə yanaşır və bu yolla təkcə o zamanın ərəb müşrikləri arasında deyil, hətta bütün tarix boyu müşriklər arasında yayılmış böyük azğınlığın qarşısını alır. Buna əsasən, islamın tövhid şüarının əsasını xüsusi olaraq üluhiyyətdə tövhid prinsipi təşkil edir və "La ilahə

---

[33] Bəziləri bu sözü "ibadət etmək" mənasını daşıyan" "ələhə" kökündən, bəziləri isə "valeh olmaq" mənasını verən "vələhə" kökündən hesab edirlər.

[34] Kiçik hərflə yazılan "allah" sözü ümumi isim kimi başa düşülməlidir. (red.)

[35] Eləcə də "Zuxruf": 87.

illəllah", "La ilahə illa Huvə" və "La ilahə illa Ənə" kimi cümlələr aşkar şəkildə Allahdan başqa hər bir həqiqi məbudu inkar edir.

**Nə üçün bir məbud**

Üluhiyyətdə tövhidin mənası açıqlandıqdan sonra belə bir sual ortaya çıxır ki, nə üçün üluhiyyət məqamı Allah-taalaya məxsusdur və başqaları bu məqama layiq deyildir.

Bu sualı cavablandırmazdan öncə digər bir sual qarşıya çıxır: ümumiyyətlə insan, hansı bir varlığı özünə ilah və məbud seçə bilər?

"Üluhiyyətin" mənasına diqqət etməklə sonuncu sualın cavabında belə demək olar ki, bu məqama hər cəhətdən kamil olan və hər bir nöqsan, zəiflik və məhdudluqdan uzaq olan varlıq layiqdir. Elə bir varlıq ki, bütün aləmə, o cümlədən insana varlıq bağışlayır, onun təkamülünə şərait yaradır, onu həqiqi səadət yoluna hidayət edir. Elə bir varlıq ki, insanların ixtiyar sahibidir və bütün aləmin işləri Onun qüdrət əlindədir.

Şübhəsiz, qeyd olunan sifətlər Allaha məxsus sifətlərdir. Zatda tövhid prinsipinə görə tək, misilsiz və bənzərsiz varlıq yalnız Allah-taaladır. Bu səbəbdən Allah sonsuz kamil sifətlərinə görə, üluhiyyət məqamına layiqdir. Belə bir Allah tək olduğuna görə, aləmdə həqiqi məbud da təkdir.

**Nəzəri tövhidin qisimləri arasında olan üzvi əlaqə**

Keçən bəhslərdə nəzəri tövhidin ən əsas qisimlərini araşdırarkən onların hər birinin tərifini dedikdən sonra onun əqli dəlillərinə işarə etdik. Bu qisimlərin mənalarına diqqət etdikdə onların arasındakı sıx əlaqənin şahidi oluruq. Zəruri varlığın tək və hər bir tərkibdən uzaq olduğunu (zatda tövhid) bildikdən sonra aydın olur ki, belə bir müqəddəs zatın kamal sifətləri Ondan ayrı ola bilməz, əksinə bu sifətlər zatla eyniyyət təşkil edir (sifətdə tövhid) və nəhayət, nəticə alırıq ki, belə bir müqəddəs varlıq Öz feilində də başqasına möhtac ola bilməz, əksinə başqaları öz feil və təsirlərində Ona möhtacdır (feildə tövhid).

Feildə tövhidin müxtəlif qisimləri arasında da üzvi əlaqə vardır. Çünki yaratmaq (xaliqiyyət), malik olmaq, idarə etmək (rübubiyyət) və ibadətə layiq (üluhiyyət) kimi sifətlərin mənalarına diqqət edərkən məlum olur ki, bu sifətlərin predmetləri bir-birindən ayrı ola bilməz, əksinə hamısı bir-biri ilə bağlı və sıx əlaqədədir.

Bu məsələdən əldə etdiyimiz əhəmiyyətli nəticə bundan ibarətdir ki, islamda tövhid təlimi tam harmonik bir sistemdir. Belə ki, onun bütün komponentləri bir-biri ilə uyğun və ahəngdardır. Buna görə də komponentləri aralarında üzvi əlaqə olan belə bir ahəngdar sistemin hər hansı bir komponentini inkar etmək ziddiyyətlə nəticələnir.

**Terminlər**

Hakimiyyətdə tövhid

Üluhiyyətdə tövhid

**Altıncı fəslin xülasəsi**

1. Feildə tövhidin qisimlərindən biri də hakimiyyətdə tövhiddir. Hakimiyyətdə tövhid yalnız Allah-taalanı cəmiyyətin başçılığına və qanunvericiliyə layiq bilməkdir. Başqalarının qanunvericiliyi və başçılığı isə yalnız Allahın icazəsi ilə etibarlı sayıla bilər.

2. "Qanunvericilik və hakimiyyətdə tövhidi" üç dəlillə isbat etmək olar:

a) Allahın təkvini rübubiyyəti;

b) Allahın öz məxluqlarına olan həqiqi malikliyi;

c) Allahın insanların mənafeyinə olan mütləq elmi.

3. Tövhidin qisimlərindən biri də üluhiyyətdə tövhiddir. Üluhiyyətdə tövhidə əsasən, ibadətə layiq yeganə varlıq Allah-taaladır. Tövhidin şüarı olan "La ilahə illəllah" cümləsi aşkar şəkildə üluhiyyətdə tövhidə təkid edir.

4. Tək olan Allah bütün kamil sifətlərə malik olduğu və hər nöqsandan uzaq olduğu üçün yeganə layiqli məbud Allah-taaladır və digər varlıqlar naqis, zəif və ehtiyaclı olduqları üçün ibadət olunmağa layiq deyillər.

5. Nəzəri tövhidin müxtəlif qisimləri bir-birilə tam ahəngdardır və onlar arasında sıx əlaqədə vardır. Belə ki, onların bəzisini qəbul edib digərini inkar etmək mümkün deyil.

**Yeddinci fəsil**

**Əməli tövhid (1)**

**Düşüncə və əməl sahəsində tövhidin yeri**

İnsanın əqidə və düşüncələrinin onun əməl və rəftarında təsiri, başqa sözlə desək, insanın təfəkkürünün onun əməllərini formalaşdırması qanunu hamı tərəfindən aksiom olaraq qəbul olunan prinsiplərdəndir.[36]

Bizim inanclarımızdan hər biri, xüsusilə iman dərəcəsinə çatdıqda, özünəməxsus stimullar və istəklər yaradır və bu stimullar da xüsusi əməllərin formalaşmasına zəmin yaradır.

Digər tərəfdən, nəzəri tövhid, Allah və Onun aləmlə, insanla rabitəsi haqqında xüsusi baxışlar sistemidir. İslamın tövhid məktəbində tərbiyə almış hər bir insan Allahın zatını tək bilir, Onun aləmlərin yeganə yaradanı və rəbbi olmasına inanır və Onun, varlığın hər bir yerində hazır olmasına ediqad bəsləyir.

Şübhəsiz ki, "əqidənin əməldə təsiri" prinsipinə əsasən, belə bir insanın tövhid inancı onun stimullarında, niyyətlərində və əməllərində təsir göstərərək, onlara tövhid ruhu bağışlayır ki, bu da əməli tövhid adlanır. Beləliklə, "əməli tövhid" tövhid inancının insan əməllərindəki həyat bəxş edən şirin meyvəsidir.[37]

Belə bir insan tövhid əqidəsinin nəticələrinə sıx bağlı olarsa, təkcə yeganə Allaha ibadət edər, yalnız Ondan kömək diləyər, ancaq Ona təvəkkül edər, təkcə Onun əmrlərinə tabe olar və hər bir işi yalnız Onun razılığını qazanmaq üçün yerinə yetirər...

Şəhid Mütəhhəri nəzəri və əməli tövhidin fərqi və onların əlaqəsi haqda gözəl açıqlama verir. O nəzəri tövhidin qisimlərini izah etdikdən sonra belə deyir:

"Qeyd etdiyimiz qisimlər nəzəri tövhiddir və bilik, idrak xarakteri daşıyır, ibadətdə tövhid isə əməli tövhiddir və inkişaf prosesidir. Nəzəri tövhid həqiqi düşüncə, əməli tövhid isə həqiqi hərəkətdir nəzəri tövhid, kamilliyi görmək, əməli tövhid isə bu kamilliyə nail olmaq istiqamətində hərəkət etməkdir. Nəzəri tövhid Allahın yeganəliyini dərk etmək, əməli tövhid isə insanın vahidləşməsidir. Nəzəri tövhid baxışdır, əməli tövhid isə səfərdir".[38]

**Nəzəri tövhidin dəyəri**

---

[36] Bu təsir qarşılıqlıdır. Amma mövzumuza uyğun olaraq əqidələrin əməllərə təsirindən söhbət açırıq.

[37] Əməl dedikdə təkcə zahiri əməllər deyil, məhəbbət, təvəkkül və s. kimi daxili əməllər də nəzərdə tutulur.

[38] Mürtəza Mütəhhərinin əsərlərinin külliyatı, 2-ci cild, səh. 101.

Qeyd olundu ki, nəzəri tövhidlə əməli tövhid arasında sıx əlaqə mövcuddur. Bəlkə də güman oluna bilər ki, nəzəri tövhid sadəcə əməli tövhidə nail olmaq üçün zəruridir və öz-özlüyündə dəyərə malik deyil. Nəzəri tövhid haqqında olan bu cür anlayış düzgündürmü?

İslamın insanın kamilliyi haqqındakı baxışına əsasən, bu sualın cavabı mənfidir. İslamın insan haqqındakı təlimlərinə görə, insan həm nəzər sahəsində, həm də əməl sahəsində xüsusi kamilliklərə nail olmağa qadirdir və bu iki sahənin hər biri öz-özlüyündə dəyərlidir. Məsələn, həqiqətəuyğun və düzgün əqidə - xüsusilə insanın həmin məsələni bilmədiyi vəziyyəti ilə müqayisə olunduqda - nəzəri idrak qüvvəsi üçün bir növ kamillik sayılır. Odur ki, islamın dərin tövhid təlimini dərk etmək onun əməli təsirini nəzərə almadan da öz-özlüyündə dəyərlidir və idrak sahəsində insanın kamilliyinin əsas hissəsini təmin edir.

**Əməli tövhidin geniş sahəsi**

Əməli tövhidin mənasını və insanların daxili və xarici rəftarlarının həddən artıq müxtəlifliyini nəzərə alarkən əməli tövhidin nə qədər geniş sahəyə malik olmasının şahidi oluruq. Adətən, kəlami və etiqadi bəhslərdə əməli tövhidin ən əsas sahələrinə toxunmaqla kifayətlənirlər. Biz əməli tövhidin bəzi əsas sahələrinə işarə etməyə çalışacağıq.

**İbadətdə tövhid**

Şübhəsiz ki, əməli tövhidin ən əsas təzahürü ibadətdə tövhiddir.[39] Nəzəri tövhidin qisimləri yeganə varlığı tanımaqla bağlıdırsa, əməli tövhid də yeganə varlığa sitayişdən ibarətdir - o yeganə varlıq ki, ibadətə layiq olan təkcə Odur. Deməli, əməli tövhid yeganə Allaha ibadət etməkdir. Əgər: "Peyğəmbərin (s) besətinin son hədəfi ibadətdə tövhiddir”. - desək, yanılmamışıq.

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ

“Biz hər ümmətə: Allaha ibadət edin, tağutdan çəkinin! – deyə peyğəmbər göndərdik”. (“Nəhl”: 36)

Üstün varlığa ibadət insanların fitri istəyi olduğu üçün ilahi dinlərin əsas hədəfi sitayişə layiq olanı tapmaqda kömək etmək və bu fitri istəyin sapqınlığının qarşısını almaqdır.

**İbadət nədir?**

İbadətin və sitayişin ilkin mənası hamı üçün məlum olsa da, islam tarixində, ibadətdə tövhidin həddi-hüdudu haqda bir çox ixtilaflar yarandığı üçün (Gələcək bəhslərdə bu

[39] Bəzi alimlər ibadətdə tövhidi, böyük əhəmiyyətə malik olmasına görə, əməli tövhidlə eyni hesab edirlər. Bax: Mürtəza Mütəhhərinin əsərlərinin külliyatı, 2-ci cild.

haqda söhbət edəcəyik) ibadətin mənasını təhlil etməklə ibadətdə tövhidə daha dəqiq tərif vermək münasib olardı.

Bəzi ərəb dili lüğətlərinə görə ibadət sözü təzim (mütilik, özünü kiçiltmə) mənasını daşıyır.[40] Buna əsasən, ibadət insanın özünü digər bir varlıq (məbud) qarşısında kiçik, xar xar və zəlil göstərməsidir. Fikrimizcə, bu məna dindəki ibadət termininin mənasından genişdir. Şübhəsiz, ibadət sözünün mənasında təzim ünsürü vardır, amma hər bir təzim ibadət sayılmır.

Bu iddianın dəlillərindən biri budur ki, hər bir insan ümumi əxlaq normalarına əsasən, boynunda haqqı olan insanların qarşısında özünü kiçik sayır. Məsələn, şagirdin müəllim qarşısında, övladın valideyn qarşısında mütilik göstərib təzim etməsi etik normalardandır. Bütün ağıl sahibləri və vicdanları oyaq insanlar bu həqiqətin düzgünlüyünü təsdiqləyirlər.

Quran da ata və ananın qarşısında müti olmağa əmr edir.

وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ وَقُل رَّبِّ ارْحَمْهُمَا كَمَا رَبَّيَانِي صَغِيرًا

"Onların qarşısında mehribanlıqla baş əy və söylə: Ey mənim Allahım, onlar məni körpəlikdə böyütdükləri kimi, Sən də onlara rəhm et". ("İsra": 24)

Buna görə də, təkcə təzim ibadət sayılarsa, bu, o deməkdir ki, həm ağıl insanı Allahdan başqasına ibadət etməyə çağırır, həm də Quran ibadətdə şirkə dəvət edir. Başqa sözlə desək, bu tərifə əsasən, təkallahlıların əksəriyyətini təkallahlı hesab etməməli və valideynə hörmət bəsləyən bütün insanları müşrik saymalıyıq.

Bəzi dilçilər ibadətin dar məna daşıdığını qeyd etmişlər. Onların fikrincə, ibadət təzimin ən son dərəcəsinə deyilir. Bu məna birinci məna ilə nisbətdə daha kiçik dairəni əhatə etsə də, ibadətin mahiyyətini tam çatdırmır. Başqasına səcdə etmək bu iddiaya dəlil sayıla bilər. Səcdə təzimin ən son dərəcəsinin bariz nümunələrindən olsa da, Allah-taala Quranda mələkləri Adəm qarşısında səcdə etməyə əmr etmişdir.

وَإِذْ قُلْنَا لِلْمَلاَئِكَةِ اسْجُدُواْ لآدَمَ فَسَجَدُواْ إِلاَّ إِبْلِيسَ

"Biz mələklərə: "Adəmə səcdə edin! – dedikdə, İblisdən başqa hamısı səcdə etdi". ("Bəqərə": 34)

Eləcə də Yusifin (ə) əhvalatında qardaşları, hətta Yaqub (ə) və həyat yoldaşı Yusifin (ə) qarşısında səcdə etdilər:

وَرَفَعَ أَبَوَيْهِ عَلَى الْعَرْشِ وَخَرُّواْ لَهُ سُجَّدًا

"Ata-anasını taxtın üzərinə qaldırdı və hamı onun qarşısında səcdəyə düşdü". ("Yusif": 100)

Beləliklə, təzimin ən son dərəcəsi ibadət sayılarsa, deməli, Quran mələkləri ibadətdə şirkə əmr etmişdir, eləcə də Yusifin (ə) ailəsi, o cümlədən atası Yaqub (ə) müşriklərin cərgəsinə daxildir.

---

[40] İbn Mənzur, "Lisanül-ərəb".

Nəticədə məlum olur ki, qeyd olunan mənalar həqiqi ibadət anlayışından daha geniş məna daşıyır. Bu səbəbdən, ibadətin mənasına qeyd və şərtlər artırmaqla həqiqi bir tərif bəyan etməliyik.[41]

İbadət sözünün işləndiyi yerlərə diqqət etdikdə məlum olur ki, ibadət elə şəkildə olan təzimə deyilir ki, insan, qarşısında kiçildiyi varlığı aləmin yaradanı bilsin və ya ən azı bütün aləmin, yaxud aləmin bir hissəsinin idarə edəni hesab etsin və onun müstəqil şəkildə (başqasının izni olmadan) öldürmək, diriltmək, günahları bağışlamaq, ruzi vermək və s. kimi allahlıq məqamına aid işlər görə bilməsinə etiqadı olsun, bütün bunlara görə də onun üluhiyyətə layiq olmasına inansın.

Başqa sözlə, əgər insan allahlıq sifətlərinə layiq bildiyi bir varlığın qarşısında bəndəçilik edərsə, ibadət sayılar. Amma insanın digər bir varlığın qarşısında özünü kiçiltməsi belə bir əqidədən qaynaqlanmazsa, ibadət sayılmaz. İslamın böyük mütəfəkkirləri ibadəti bu cür mənalandırmışlar. İmam Xomeyni "Kəşfül-əsrar" kitabında bu nəzəriyyəni qəbul etmişdir:

İbadət hər hansı bir varlığa allah olduğuna görə sitayiş etməkdir - istər böyük allah adı ilə, istərsə də kiçik allah adı ilə.[42]

### Müsəlmanlar arasında "ibadətdə tövhid" əqidəsi

İbadətdə tövhid islamın inkaredilməz əsaslarındandır və Quran dəfələrlə bu həqiqəti birmənalı şəkildə vurğulamışdır. Bu səbəbdən islam firqələri bu əqidədə həmfikirdirlər və sifətdə və feildə tövhid əqidəsində əşərilərlə mötəzililər arasında mövcud olan ixtilafdan bu əqidədə heç bir əsər-əlamət yoxdur.

Lakin burada başqa bir fikir ayrılığı vardır, o da ibadətin nə olduğunu müəyyənləşdirmək, bununla da ibadətdə tövhidlə ibadətdə şirkin (təkməbudluluqla çoxməbudluluğun) sərhəddini təyin etməkdir.

Bəzi məzhəblər ibadətin mahiyyətini düzgün təhlil etməmək nəticəsində ibadətə elə geniş bir tərif vermişlər ki, müsəlmanlar tərəfindən caiz, hətta müstəhəb və bəyənilən sayılan işləri haram və şirk hesab edirlər. Onların tövhid mövzusunda fikirləri Quran ayələri ilə və erkən islamın aydın prinsipləri ilə zidd olmaqdan əlavə, həm də islamı insanlara çirkin şəkildə tanıtdırır. İrticaçı düşüncədən qaynaqlanan bu nəzəriyyə heç bir pak fitrətli insan tərəfindən qəbul edilmir.

---

[41] Məntiq elminin tərif bölümündə deyilir: Düzgün tərifin şərtlərindən biri tərif edənin tərif olunanla mütənasib, yəni həcmcə bərabər olmasıdır.

[42] "Kəşfül-əsrar", səh. 29. Əllamə Təbatəbai "Həmd" surəsinin təfsirində mütiliyi ibadətin mənasının nəticələrindən hesab edir. İbadətin tərifində belə deyir: "İbadət - bəndənin özünü Rəbbinin mülkiyyəti bilməsidir."

Onların fikrincə, məsələn, peyğəmbərimizə (s), eləcə də digər övliyalara təvəssül, onlardan şəfaət istəmək və qəbirlərinə təzim etmək şirkdir. Onların fikrincə, bu cür əməl edən şəxslər müsəlmanlıqdan çıxır və onların canı, malı başqalarına halaldır.

İbadətin mənası haqda keçən bəhslərdə geniş şəkildə apardığımız araşdırmanı nəzərə almaqla bu məzhəblərin əqidəsinin puç olması açıqlanır. Məsələnin əsl mahiyyəti budur ki, peyğəmbərlərə, övliyalara təvəssül etmək və onlardan kömək diləmək iki şəkildə ola bilər:

1. İnsan təvəssül etdiyi, kömək istədiyi və Allah dərgahında şəfaətçi bildiyi şəxsin bu işlərdə müstəqil olmasına və heç kəsdən asılı olmamasına etiqad bəsləyərək bu işləri yerinə yetirir.

Şübhəsiz ki, həmin şəxs Allahın məxluqunu rübubiyyət məqamına qaldırdığı üçün bu iş ibadətdə şirk sayılır.

2. İnsan kömək istədiyi şəxsin Allahın bəndəsi və bütün işlərdə Ona bağlı olmasını bilir, lakin onun Allah dərgahında böyük məqam sahibi olduğuna və buna görə də Allahın izni ilə şəfaət etməsinə və ya bir sıra hacətləri qəbul etməsinə inandığı üçün ondan kömək istəyir.

İbadətin dəqiq mənasına diqqət etdikdə aydın olur ki, bu cür əqidə və əməllər Allahdan başqasına ibadət etmək deyil, əksinə elə Allaha ibadətdir.

Beləliklə, mələklərin Adəmin (ə) qarşısında[43], Yaqubun (ə) Yusifin (ə) qarşısında[44] səcdə etməsi, eləcə də müsəlmanların peyğəmbərə (s) təvəssül etmələri, peyğəmbərin (s) məzarını təzimlə ziyarət etmələri, peyğəmbəri (s) Allahın dərgahında şəfaətçi bilmələri və s. kimi təzimlə yerinə yetirilən işlərdə şirk əqidəsi olmadığı üçün ibadətdə tövhidlə heç bir ziddiyyəti yoxdur. Eləcə də əksinə, bütpərəstlərin - göy cisimlərindən tutmuş heyvanlar, bitkilər və öz əllərilə düzəltdikləri bütlərə qədər - bütün yalançı məbudlara ibadətləri o məbudların allah olmasına olan etiqaddan qaynaqlandığına görə ibadətdə tövhidlə ziddinə idi və şirk sayılırdı.

**Üluhiyyətdə tövhidin ibadətdə tövhidlə əlaqəsi**

İlk baxışda bu iki əqidənin məzmunca oxşarlığından güman oluna bilər ki, tövhidin bu iki şaxəsi bir-birindən fərqli deyil. Amma bir az diqqət etməklə onların fərqi aydın olur. Qeyd etdiyimiz kimi, üluhiyyətdə tövhid nəzəri tövhidin qisimlərindəndir, ibadətdə tövhid isə əməli tövhiddən sayılır. Üluhiyyətdə tövhid insanın əqidəsinə və düşüncəsinə aid olduğu halda, ibadətdə tövhid onun əməlinə aiddir. Üluhiyyətdə tövhid fikir baxımdan yeganə Allahdan başqa heç bir varlığı ibadətə layiq bilməmək və aləmdə yalnız Allah-taalanın yeganə həqiqi məbud olmasına inanmaqdır. İbadətdə tövhid isə

[43] "Bəqərə": 34
[44] "Yusuf": 100

Allahdan başqasına ibadət etməmək, yalnız Onun dərgahında baş əyib bəndəçilik etməkdir.

Əlbəttə, əqidə və əməlin əlaqəsi, eləcə də əməli tövhidin və ibadətin dəqiq mənası barədə verilən izahdan bu iki sahənin bir-biri ilə yaxın əlaqəsi məlum olur. Çünki üluhiyyətdə tövhid insanı yeganə Allaha ibadətə sövq edən ən əsas əqidədir və bu əqidə əməllə yanaşı olmazsa, ibadət anlayışı da sözün əsl mənasında reallaşmaz.

**Əməli tövhid haqqında ayələr və hədislər**

Quran əməli tövhid məsələsinə böyük əhəmiyyət verir. Qeyd etdiyimiz kimi, əməli tövhid geniş sahəyə malikdir. Əməli tövhidin əsas qisimlərindən biri ibadətdə tövhiddir. İbadətdə tövhidin əhəmiyyəti o qədərdir ki, onun bəzi aşkar və gizli dərəcələrində şirkə düçür olmaq müsəlmanlıqdan çıxmaqla nəticələnir. İndi isə Quranın ibadətdə tövhid haqqında dediklərinə nəzər salaq.

Yalnız yeganə Allaha ibadət edib, digər varlıqlara ibadətdən saqınmaq peyğəmbərlərin dəvətinin əsas hissəsini təşkil edirdi.

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ

"Biz hər ümmətə: Allaha ibadət edin, tağutdan çəkinin! – deyə peyğəmbər göndərdik". ("Nəhl" surəsi 36)

Bu ayəyə əsasən, bütün peyğəmbərlər insanları yeganə Allaha ibadətə dəvət edir və onları tağuta ibadətdən saqındırırdılar.

Bəzi ayələrə əsasən, Allah-taala bəndələrindən əhd almışdır ki, Ondan başqasına ibadət etməsinlər və yalnız Ona ibadət etsinlər.

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ وَأَنْ اعْبُدُونِي هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

"Ey Adəm övladı! Məgər Mən sizdən əhd almadımmı ki, Şeytana ibadət etməyin, çünki o sizin aşkar düşməninizdir?! Və mənə ibadət edin ki, doğru yol budur". ("Yasin": 60-61)

İnsanlardan alınan əhdin harada olması haqda təfsir alimləri arasında fikir ayrılığı vardır. Alimlərdən bəziləri bu əhdi "zərr aləminə" aid edirlər. İkinci qrup isə peyğəmbərlərin tövhidə dəvətini həmin əhd hesab edir. Digər bir qrupun fikrincə isə, əhd dedikdə, Adəm (ə) yer üzünə enərkən Allahın əhd şəklində ona və övladlarına etdiyi tövsiyələr nəzərdə tutulur.[45]

Hər halda Quran ayələrinə əsasən, Allah-taala bəndələrindən yalnız Özünə ibadət etmək üçün əhd almışdır və doğru yol tək Allaha ibadət etməkdən ibarətdir.

Əlbəttə, aydındır ki, ayələrdə şeytana ibadət dedikdə, şeytana rüku və səcdə etmək kimi bir sıra ayinlər yox, onun istəklərinə və iradəsinə tabe olmaq nəzərdə tutulur. Gələn

---

45 "Əraf": 27; "Yasin": 22; "Taha": 117.

dərslərdə qeyd edəcəyik ki, Quran və hədislərdə bəzən ibadət dedikdə, onun geniş mənası nəzərdə tutulur. Bu mənaya əsasən, günaha, Allahın əmrindən çıxmağa və Onunla müxalifətçiliyə dəvət edən hər hansı bir kəsə itaət də bir növ ibadət sayılır.

Kitab əhli və ibadətdə tövhid

Yuxarıdakı ayələr Allahın bütün insanlardan ibadətdə tövhidə əhd almasını bəyan etsə də, bəzi Quran ayələri xüsusi olaraq kitab əhlinin də (yəhudilər və xristianlar) öz peyğəmbərləri tərəfindən tək Allaha ibadətə dəvət olunduqlarını, lakin onlardan bəzilərinin tövhid yolundan çıxıb Allahdan başqasına üz tutduqlarını təkidlə bildirir. Məsələn, "Bəyyinə" surəsində buyurulur:

وَمَا أُمِرُوا إِلَّا لِيَعْبُدُوا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ حُنَفَاء وَيُقِيمُوا الصَّلَاةَ وَيُؤْتُوا الزَّكَاةَ وَذَلِكَ دِينُ الْقَيِّمَةِ

“Halbuki onlara əmr edilmişdir ki, Allaha – dini yalnız Ona məxsus edərək, batildən haqqa dönərək – ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!” (“Bəyyinə”: 5)

Ayədən belə məlum olur ki, kitab əhli üçün ilahi çağırışın ən əsas ünsürü ibadətdə tövhid, Allaha xalis ibadət və bu yolda hər cür sapqınlıqdan uzaqlaşmaqdır. “Budur doğru, düzgün din” cümləsindən də məlum olur ki, bütün dini təlimlərin kökünü Allaha xalis bəndəçilik və ibadətdə şirkdən uzaqlaşmaq təşkil edir.

İbadətdə tövhidlə rübubiyyətdə tövhidin əlaqəsi

Şübhəsiz, insanın məbudu özünəməxsus kamilliklərə və xüsusiyyətlərə malik olmalıdır. Bəlkə də məbudun əsas xüsusiyyətlərindən biri onun “rübubiyyəti” sifətidir. Yəni ancaq insanların ixtiyar sahibi olan və onları idarə edən varlığın ibadətə ləyaqəti vardır. Bu səbəbdən, ibadətdə tövhidin dəlillərindən biri rübubiyyətdə tövhiddir. Belə ki, aləmin yeganə həqiqi idarə edəni Allahdırsa, şübhəsiz, məhz ibadətə layiq də təkcə Odur.

Quran da bu tövhidin bu iki qismi arasındakı əlaqəni təsdiq edir. Məsələn, İsa (ə) insanları ibadətdə tövhidə dəvət edəndə belə dedi:

وَإِنَّ اللَّهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

“Həqiqətən, Allah mənim də, sizin də Rəbbinizdir. Buna görə də yalnız Ona ibadət edin. Bu, doğru yoldur!” (“Məryəm”: 36)

Göründüyü kimi, İsa (ə) ibadətdə tövhidi rübubiyyətdə tövhiddən nəticə alır. İsa (ə) sanki belə demək istəyir ki, Allahın rübubiyyəti hər şeyi əhatə etdiyi üçün və Onunla yanaşı heç bir rəbb olmadığı üçün ibadətə layiq yalnız Odur.

**İbadətdə şirkin gizli forması**

İbadətdə şirkin gizli dərəcələri də vardır. Hətta bir çox dindarlar da gizli şirkə düçar olurlar. Quran da bu məsələni təsdiqləmişdir.

وَمَا يُؤْمِنُ أَكْثَرُهُمْ بِاللّهِ إِلاَّ وَهُم مُّشْرِكُونَ

“Onların əksəriyyəti ancaq şərik qoşaraq Allaha inanarlar”. (“Yusif”: 106)

Ayədən məlum olduğu kimi insanlardan bir çoxu bir tərəfdən iman əhli və digər tərəfdən isə müşrikdirlər. Bu səbəbdən, çox ehtimal ki, ayədə aşkar şirk nəzərdə tutulmur. Çünki aşkar şirk, qətiyyən Allaha iman xüsusiyyəti ilə bir yerə sığa bilməz. Odur ki, ayə gizli şirkə, xüsusilə ibadətdə şirkin gizli dərəcələrinə işarə edir.

**Terminlər**

İbadətdə tövhid

İbadət

**Yeddinci fəslin xülasəsi**

1. Nəzəri tövhid, yəni zat, sifət və feil cəhətindən Allahın təkliyinə etiqad insanın əməllərində böyük təsir qoymaqla onlara tövhid ruhu bağışlayır. Əməli tövhid isə nəzəri tövhidin insanın stimullarında və rəftarlarındakı təsirinin nəticəsidir.
2. Nəzəri tövhid əməli tövhidin çiçəklənməsinə səbəb olmaqla yanaşı elm və idrak baxımından da insan üçün kamillik sayılır.
3. Əməli tövhidin ən mühüm qisimlərindən biri olan ibadətdə tövhid yalnız yeganə Allaha ibadət etmək və başqa varlıqlara ibadətdən çəkinmək deməkdir.
4. İbadət – insanın, üluhiyyət məqamına layiq və allahlıq sifətlərinə malik bildiyi bir varlığın qarşısında təzim etməsi və özünü kiçiltməsidir.
5. Müsəlmanlar ibadətdə tövhid əqidəsində həmfikir olsalar da, bəzən ibadətin tərifində və nəticə etibarilə bu və ya digər bir əməlin ibadət olub-olmasında onlar arsında fikir ayrılıqları olur. Məsələn, bəzi məzhəblər Allahın övliyalarına təvəssülü, onlardan şəfaət istəməyi, peyğəmbərlərin və saleh insanların qəbirlərini hörmətlə ziyarət etməyi ibadət sayır və onlara əməl edənləri müşrik bilirlər. Halbuki bu cür işlər Allahın məxluqlarının rübubiyyət və ülulhiyyətinə etiqaddan qaynaqlanmazsa, nəinki ibadətdə tövhidlə zidd deyil, hətta bəyənilən bir iş olar.
6. Ülulhiyyətdə tövhidlə ibadətdə tövhid arasında üzvi əlaqə vardır. Çünki əgər insan yalnız yeganə Allahı ibadətə layiq bilərsə, əməldə də təkcə Ona ibadət edər.

**Səkkizinci fəsil**

**Əməli tövhid (2)**

Keçən bəhslərdə əməli tövhidin əsas qismi sayılan ibadətdə tövhidi araşdırdıq. İndi isə əməli tövhidin digər qisimlərini araşdırırıq.

**İstianətdə tövhid**

İstianət "kömək istəmək", "kömək diləmək" mənasınadır. İstianətdə tövhid bütün işlərdə yalnız Allahdan kömək istəmək və təkcə Ona ehtiyac əlini uzatmaqdır. İstianətdə tövhidin əhəmiyyətini dərk etmək üçün təkcə bunu bilmək kifayətdir ki, Quranda ibadətdə tövhidlə yanaşı bəyan olunmuşdur və müsəlmanlar bütün namazlarında ona təkid etməlidirlər.

إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ

"Yalnız sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik". ("Fatihə": 5)

Burada belə bir sual meydana çıxır ki, istianətdə tövhidin nəzəri əsası varmı? Başqa sözlə, hansı əsasla məhz yeganə Allahdan kömək diləməliyik? Fikrimizcə, nəzəri tövhidin müxtəlif şaxələri, xüsusilə feildə tövhid istianətdə tövhidin elmi əsası sayıla bilər.

Ağıl hökm edir ki, feildə tövhidə inanan və aləmdə hər bir təsirin, dəyişikliyin yalnız Allahın iradəsi ilə baş verdiyini və Allahdan başqa heç bir varlığın, öz işlərində müstəqil olmadığını bilən şəxsin vəzifəsi yalnız Allahdan kömək diləməkdir. Çünki ixtiyar sahibi, mütləq malik, rəqibsiz hakim məhz Allah-taaladır. Bu səbəbdən, istianətdə tövhid Allahın bütün aləmə olan əhatəsinin və hər yerdə olan təsirinin məntiqi nəticəsidir.

Qeyd etmək lazımdır ki, Allahın məxluqlarının Allahdan müstəqil olmadığına etiqad bəsləmək şərtilə onlardan kömək istəmək istianətdə tövhidlə zidd deyil. Təsəvvür oluna bilər ki, istianətdə tövhidə görə, Allahdan başqasından hər növ kömək istəmək şirk sayılır. Amma bu təsəvvür tamamilə əsassızdır və sadəcə gümandır. Şübhəsiz, Allahdan qeyrisindən hacət istəmək və onu bu işdə Allahın izninə möhtac bilməmək istianətdə tövhidlə ziddir. Amma hər hansı bir məxluqdan xüsusi bir sahədə kömək istəməyin və məxluqun bu işdə Allahın iradəsi və icazəsi ilə əsaslandırmağın şübhəsiz ki, əməli tövhidlə heç bir ziddiyyəti yoxdur. Beləliklə, sağalmaq üçün həkimə müraciət edib dərmanlardan istifadə edən xəstə, onların təsirini və faydasını Allahın icazəsinə bağlı bilsə, bunun istianətdə tövhidlə heç bir ziddiyyəti yoxdur. Eləcə də peyğəmbərə (s), məsum imamlara (ə) və övliyalara təvəssül əgər vasitə xarakteri daşıyarsa, tamamilə bəyənilir və islam bunu təsdiq edir. Biz bu əqidədəyik ki, Allahın övliyaları Allah

dərgahında böyük məqam sahibi olduqlarına görə, həm Allahdan istəməklə, həm də Allah tərəfindən aldıqları qüdrət sayəsində, bəzi ehtiyaclarımızı təmin edə bilirlər. Şübhəsiz, bütün bunlar Allahın izni və icazəsi ilə yerinə yetirilir.

Buna görə də, istər təbiət aləmində *(məsələn, dərmandan istifadə etmək)*, istərsə də fövqəltəbii aləmdə *(məsələn, peyğəmbərlərin və övliyaların ruhlarından kömək istəmək)* məxluqlardan kömək istəmək onların müstəqil qüdrətinə inanmadan olarsa və nəticə etibarilə Allahdan kömək diləmək sayılarsa, istianətdə tövhidlə heç bir ziddiyyət təşkil etmir.

**İtaətdə tövhid**

Əməli tövhidin digər bir qismi itaətdə tövhiddir. İtaətdə tövhid yalnız Allahın göstərişlərinə itaətkar və müti olmaqdır. Allahdan başqasına itaət Allaha itaətlə yanaşı olmamalıdır.

İtaətdə tövhidin dəlili hakimiyyətdə tövhiddir. Allahdan başqa heç kəsi qanun qoymağa və hökm verməyə layiq bilməyən şəxs əməldə də yalnız Allahın fərmanına təslim olar və yalnız Onun göstərişlərinə əməl edər. Qeyd etmək lazımdır ki, başqasına itaət ancaq Allahın əmri ilə və Ona olan itaətin iyerarxiyasında olmalıdır. Şübhəsiz, belə bir itaət, itaətdə tövhidlə zidd deyil, əksinə belə yerlərdə itaətsizlik günahdır və bəyənilməzdir. Bu səbəbdən, məsum rəhbərlərə mütləq şəkildə itaət etməyin özü elə tövhiddir və Allah da bu işə əmr etmişdir.

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

“Ey iman gətirənlər, Allaha, rəsuluna və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin”. (“Nisa”: 59)

مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ

“Peyğəmbərə itaət edən, şübhəsiz ki, Allaha itaət etmiş olur”. (“Nisa”: 80)

Həmçinin övladın valideynə itaəti Allahın hökmlərinə qarşı olmazsa, caiz və hətta vacibdir və itaətdə tövhidlə heç bir ziddiyyəti yoxdur.

**Məhəbbətdə tövhid (təkməhbubluluq)**

Əməli tövhidin qisimləri arasında məhəbbətdə tövhid xüsusi əhəmiyyətə malikdir. Məhəbbət hər kəsin duya bildiyi daxili bir hiss olduğu üçün ona məntiqi tərif verməyə ehtiyac yoxdur. Məhəbbətdə tövhid - insanın yalnız Allahı öz yeganə həqiqi məhbubu bilməsi və Allaha olan məhəbbətlə yanaşı başqa bir varlığa qəlbində yer verməməsidir. Əlbəttə, burada da insan digər mövcudlara Allahın əzəmətinin və gözəlliyinin nişanəsi olaraq məhəbbət bəsləyərsə, heç də məhəbbətdə tövhidlə zidd deyil, çünki bunun özü də əslində Allahı sevməkdir.

Burada belə bir sual meydana çıxır ki, necə ola bilər ki, insan öz həqiqi məhəbbətini yeganə məhbuba həsr etsin və Ondan (eləcə də Onun əzəmətinin və gözəlliyinin nişanəsi

olan varlıqlardan) başqa bir məhbub seçməsin? Məhəbbətdə tövhidin dəlilini tapıb bu suala cavab vermək üçün başqalarına məhəbbət bəsləməyin səbəblərini araşdırmaq lazımdır.

Doğrusu, insanda Allaha qarşı məhəbbətin yaranmasının və artmasının müxtəlif səbəbləri var. Burada bu haqda geniş araşdırmağa imkan yoxdur.[46] Amma fikrimizcə, ən ülvi və müqəddəs məhəbbət odur ki, aşiqin, məşuqun kamallarına və gözəlliklərinə olan dərkindən qaynaqlansın. Məsələn, bəzən insan yüksək elmi, əxlaqi keyfiyyətlərə malik olan bir şəxsi heç vaxt onu görmədiyi və onunla heç bir əlaqəsi olmadığı halda ona hörmət bəsləyir və ona bağlanır. Şübhəsiz, bu məhəbbətin və bağlılığın səbəbi o şəxsin üstünlükləri və fəzilətləridir.

Hər halda, ən üstün məhəbbət məhbubun kamilliyindən qaynaqlanan məhəbbətdir. Bu səbəbdən, əsil məhəbbət də sonsuz Allaha məxsusdur. Çünki Allah-taala nəinki bütün sonsuz kamilliklərə malikdir, hətta yaratdıqlarında olan kamilliklər də məhz Onun gözəlliyinin və kamilliyinin şüasıdır. Beləliklə, insan Allahdan başqasına olan məhəbbətini qəlbindən çıxarmalı və qəlbini ancaq Allahın məhəbbətinə həsr etməlidir.

Əlbəttə, güman oluna bilər ki, eşq və məhəbbət ən azından bəzi yerlərdə insanın öz ixtiyarında deyildir. Odur ki, burada insana nəyisə sevməyi və ya sevməməyi göstəriş vermək mənasızdır.

Bu suala cavab vermək üçün diqqət etmək lazımdır ki, ülvi məhəbbətin amili elm və idrakdır. Buna görə də, insan bir tərəfdən Allahın kamal sifətlərini düşünməklə, digər tərəfdən isə mövcudların məhdudiyyətini özünə təlqin etməklə, məhəbbətdə tövhidin bir sıra dərəcələrinə nail olmaq üçün zəmin yarada bilər. Səmavi dinlər də elə bu üslubdan istifadə etmişdir.

**Təvəkküldə tövhid**

Əməli tövhidin qisimlərindən biri olan təvəkküldə tövhid insanın yalnız Allahı özünə dayaq bilməsi, təkcə Onun sonsuz qüdrətinə ümid bağlaması və Onun qarşısında digər heç bir varlığa arxalanmamasıdır.

Təvəkküldə tövhidin mənasına diqqət etməklə aydın olur ki, Allahdan başqa heç kəsin insana arxa və dayaq olmağa ləyaqəti yoxdur. Çünki islam nöqteyi-nəzərindən bütün varlıqların həqiqi maliki yalnız Allah-taaladır. Onun iradəsi hər yeri əhatə etmiş və qüdrəti bütün varlıqlara kölgə salmışdır. Heç bir varlığın qüdrət və iradəsi Ona qalib gələ bilməz. Beləliklə, islamın tövhid inancları, xüsusilə feildə tövhid əqidəsi təvəkküldə tövhidə dəlildir.

[46] Ümumiyyətlə məhəbbətin bəzi qisimləri Allahın məqamına layiq deyil. Ürək yanğısı və rəhmlikdən yaranan məhəbbəti buna misal göstərmək olar. Bəzən insanın bir kəsə ürəyi yanır və bu cəhətdən ona bağlanır. Şübhəsiz, belə bir məhəbbət mütləq Qəni Allaha aid edilə bilməz.

Bir məsələni də nəzərdən qaçırmaq olmaz ki, Allaha təvəkkül heç də tənbəllik və məsuliyyətsizlik demək deyil. Əksinə, təvəkkül edən insan imkan və şəraitdən bəhrələnməklə müəyyən hədəf uğrunda çalışmalı və eyni halda inanmalıdır ki, səbəblər səbəbi yalnız Allahdır və hər bir şey Onun qüdrəti sayəsində ərsəyə gəlir. Hər hansı bir işdə Allahın istəyi olarsa, o iş çətin, hətta inanılmaz olsa da, gerçəkləşəcəkdir. Bu səbəbdən, təvəkkül məsuliyyətdən boyun qaçırmaq və rahatlıq axtarmaq deyil, əksinə Allahın iradəsini hakim bilməklə məsuliyyət hiss etmək və hədəf uğrunda çalışmaqdır.

Burada əməli tövhidin qisimləri haqda olan mövzumuzu tamamlayırıq. Sonda bu məsələni araşdırırıq ki, tövhid geniş mənada (özünün müxtəlif qisimləri ilə) insanın fitrəti ilə uyğundurmu?

**İnsanın tövhid fitrəti**

Allahın təkliyinə olan etiqadı insanın fitri idraklarından hesab etmək olarmı? İnsanın tövhidə, həmçinin tövhidin onun stimullarına, hisslərinə və əməllərinə hakim olmasına meyli fitridirmi? Yoxsa insanın fitrəti tövhidə qarşı neytraldır və yalnız təlim-tərbiyə yolu ilə onu tövhidlə tanış etmək olar?

Bizim fikrimizcə, həm nəzəri, həm də əməli tövhid insanın fitrətilə yoğurulmuşdur və insan fitrətən tövhidlə biganə deyil. Bu iddianı həm əqli, həm də nəqli yollarla sübut etmək olar və bir çox nəqli bir çox şahidlər də bunu təsdiqləyir.

İnsanın Allaha olan idrak tərzinə diqqət etməklə nəzəri tövhidin fitri olmasını sübut etmək olar. Allaha olan fitri idrak bəhsində qeyd etdiyimiz kimi, hər bir insan qəlbində öz yaradanını vasitəsiz elmlə (intuisiya ilə) dərk edir. Bu elm insanın Allahın varlığına olan vasitəli elmi üçün əsas ola bilər. Bu intuitiv idrak Allahın varlığını isbat edən dəlil və sübutlar vasitəsilə yaranan elmin əksinə olaraq, ümumi yox, şəxsi idrakdır. Şəxsi idrak o deməkdir ki, dərk edən (subyekt) dərk olunanın (obyektin) şəxsən özü ilə qarşı-qarşıyadır və burada ümumi anlayışların heç bir rolu yoxdur.

Beləliklə, Allaha olan fitri idrakın bir mənasına görə insanlar Allahı vasitəsiz və şəxsi idrakla dərk edirlər. Digər tərəfdən, şəxsi idrakda subyekt obyektin şəxsən özünü dərk edir. Buna görə də, Allaha olan şəxsi idrak bunu tələb edir ki, insan ***Tək Allahı*** tanısın. Çünki onun idrak obyekti ümumi anlayış deyildir ki, çoxlu fərdlərə aid ola bilsin. Beləliklə, Allaha idrakın fitri olması sübut olmaqla nəzəri tövhidin fitri olması da sübuta yetir.[47]

Həmçinin əməli tövhidin fitri olmasını da xüsusi şəraitdə insana baş verən təcrübələr vasitəsilə sübut etmək olar. Bəşərin müxtəlif zaman və məkanlardakı təcrübəsi bunu göstərir ki, böhran vəziyyətində, yəni insan özünü ölümün bir neçə addımlığında görüb bütün təbiət aləmindən ümidi kəsildikdə yeganə varlığa tərəf üz tutur, təzimlə Onun

---

[47] Qeyd etmək lazımdır ki, bu dəlil birbaşa olaraq nəzəri tövhidin bəzi qisimlərini (o cümlədən tövhidi-vahidini) isbat edir.

qüdrəti qarşısında baş əyərək bütün varlığı ilə yeganə sığınacağa pənah aparır, ürəyini məhz ona bağlayıb ancaq Ondan kömək diləyir. Bu təcrübə inkar edilməz ümumiliyi və təkrarı ilə göstərir ki, hər bir insan fitrətən yeganə məbuda ibadətə, yalnız Ondan kömək diləməyə və yalnız Onun sonsuz qüdrətinə təvəkkül etməyə meyillidir və bu da əməli tövhidin müxtəlif şəkildə təzahürlərindən başqa bir şey deyildir.

"Quran və hədis nöqteyi-nəzərindən tövhidin əsasları" mövzusunda tövhidin fitri olmasına nəqli dəlillərə işarə edəcəyik.

**İtaətdə tövhid haqda ayələr**

Bir sıra Quran ayələrində itaətdə tövhidə işarə olunmuşdur. Əraf surəsində buyurulur:

اتَّبِعُواْ مَا أُنزِلَ إِلَيْكُم مِّن رَّبِّكُمْ وَلاَ تَتَّبِعُواْ مِن دُونِهِ أَوْلِيَاء قَلِيلاً مَّا تَذَكَّرُونَ

"Rəbbinizdən sizə nazil olana itaət edin və Ondan başqa tanrılara tabe olmayın". ("Əraf": 3)

Ayə hər şeydən öncə hamını Allahın nazil etdiklərinə mütləq tabeçiliyə dəvət edir, sonra isə buyurur ki, Allahdan başqasını başçı bilmək və Ondan başqasına itaət etmək olmaz. Aydındır ki, ayədəki bu təsdiq və inkarın nəticəsi itaətdə tövhiddən ibarətdir. Bəzi ayələrdə də Allah-taala kitab əhlini alimlərinə kor-korana və dəlilsiz itaətə görə məzəmmət edir:

اتَّخَذُواْ أَحْبَارَهُمْ وَرُهْبَانَهُمْ أَرْبَابًا مِّن دُونِ اللّهِ وَالْمَسِيحَ ابْنَ مَرْيَمَ وَمَا أُمِرُواْ إِلاَّ لِيَعْبُدُواْ إِلَهًا وَاحِدًا لاَّ إِلَهَ إِلاَّ هُوَ سُبْحَانَهُ عَمَّا يُشْرِكُونَ

"Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrı seçdilər. Halbuki onlar ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa heç bir tanrı yoxdur. Allah pak və müqəddəsdir. Ona şərik qoşulan bütlərlə heç bir əlaqəsi yoxdur!" ("Tövbə": 31)

Ayədən məlum olur ki, kitab əhlindən bir qrupu öz alimlərinin göstərişlərinə mütləq şəkildə və onların Allahın hökmləri ilə uyğun gəlib-gəlməməsini nəzərə almadan itaət edib, bununla da onların qanunvericilikdə rübubiyyətini qəbul edirmişlər. Bu səbəbdən də Quran onları "tanrı" adlandırır. Diqqəti cəlb edən əsas məsələ budur ki, ayənin ardında qeyd olunur ki, onlara Allahdan başqasına ibadət etməyə icazə verilməmişdir. Əlbəttə, kitab əhli rəsmi şəkildə alimlərə ibadət etmədikləri üçün burada ibadətin geniş mənası nəzərdə tutulmalıdır, yəni hər hansı bir şəxsə kor-koranə və dəlilsiz tabe olmaq.

Beləliklə, ayədən məlum olur ki, Allahı nəzərə almadan Allahdan başqasına itaət etməyə icazə verilməmişdir. Bu məsələ nəinki itaətdə tövhidlə ziddir, hətta ibadətdə şirklə də nəticələnir.

Ayədən çıxardığımız bu nəticə bəzi hədislərdə də öz əksini tapmışdır. İmam Sadiq (ə) qeyd olunan ayənin təfsirində buyurur: "And olsun Allaha ki, onlar (öz rəhbərləri üçün) oruc tutmadılar və namaz qılmadılar. Rəhbərləri onlar üçün haramı halal və halalı

haram edirdi, onlar da itaət edirdilər. Bu səbəbdən özləri də bilmədən onlara sitayiş edirdilər".[48]

Qurandan aydın olan digər bir məsələ budur ki, itaətdə tövhid Allahın icazə verdiyi insanlara tabe olmaqla zidd deyil. Çünki bu cür insanlara itaət etmək əslində Allaha itaət etməkdir. Bunun bariz nümunəsi peyğəmbərlərdir. Quran insanları bir tərəfdən peyğəmbərlərə itaət etməyə dəvət edir, digər tərəfdən isə bu itaətin Allahın icazəsi ilə olmasını açıqlayır.

وَمَا أَرْسَلْنَا مِن رَّسُولٍ إِلاَّ لِيُطَاعَ بِإِذْنِ اللّهِ

"Hər elçini göndərdik ki, ancaq Allahın iznilə onlara itaət edilsin". ("Nisa": 64)

Elə bu səbəbdən də müxtəlif ayələrdə peyğəmbərə (s) itaətin zəruriliyi (bəzi ayələrdə əmr sahiblərinə də itaətin zəruriliyi) Allaha itaətlə yanaşı qeyd edilmişdir.

وَأَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ

"Allaha itaət edin və Onun peyğəmbərinə itaət edin". ("Maidə": 92)

قُلْ أَطِيعُواْ اللّهَ وَالرَّسُولَ فإِن تَوَلَّوْاْ فَإِنَّ اللّهَ لاَ يُحِبُّ الْكَافِرِينَ

"De ki: Allaha və rəsuluna itaət edin. Əgər üz çevirsələr (bilsinlər ki), həqiqətən, Allah kafirləri sevməz". ("Ali-İmran", 32)

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

"Ey iman gətirənlər, Allaha, rəsuluna və öz içərinizdən olan əmr sahiblərinizə itaət edin". ("Nisa": 59)

Beləliklə, göstərişləri Allahın hökmləri ilə uyğun olmayan bir şəxsə tabe olmaq və bu göstərişlərin dinin qanunları ilə zidd olub-olmadığını ölçmədən onlara itaət etmək itaətdə şirk hesab edilir.

Bu həqiqət bəzi hədislərdə çox gözəl şəkildə bəyan edilmişdir. Əziz peyğəmbərimiz (s) buyurdu: "Günah işlərdə başqasına itaət etmək olmaz. Ancaq yaxşı işlərdə başqasına itaət etmək olar".[49]

Əmirəlmöminin Əli (ə) buyurur: "Xaliqə qarşı günah sayılan işdə məxluqa itaət etmək olmaz".[50]

İmam Sadiq (ə) buyurur: "Günah etməkdə başqasına tabe olan şəxs, şübhəsiz, o şəxsə ibadət etmiş olur".[51]

Göründüyü kimi sonuncu hədisdə imam (ə) ibadətin geniş mənasına işarə etmişdir. Bu mənaya əsasən, günaha dəvət edən insanlara itaət etmək onlara ibadət etmək sayılır.

---

[48] "Peyami-Quran", 3-cü cild, səh. 388; "Məcməül-bəyan"dan iqtibas edilmişdir", 8-ci cild, səh. 23; "Təfsiri-bürhan", 2-ci cild, səh. 120-121.

[49] "Səhihi-Müslim", 3-cü cild, səh. 1469.

[50] "Nəhcül-bəlağə", 165.

[51] Şeyx Hürr Amili, "Vəsailüş-şiə", 18-ci cild, səh. 91, 8-ci hədis.

**Terminlər**
İstianətdə tövhid
Məhəbbətdə tövhid
Təvəkküldə tövhid
İtaətdə tövhid

**Səkkizinci fəslin xülasəsi**

1. İstianətdə tövhid əməli tövhidin qisimlərindəndir. İstianətdə tövhid odur ki, insan yalnız Allahdan kömək istəməlidir. Tövhidin digər şaxələrini, xüsusilə feildə tövhidi təhlil edərkən aydın olur ki, köməyə çağırılmağa layiq olan yeganə varlıq Allah-taaladır.
2. İstianətdə tövhid, Allahın məxluqlarından, xüsusilə peyğəmbərlər və övliyalardan kömək istəməklə zidd deyil. Əlbəttə, bu şərtlə ki, onları yalnız vasitəçi bilək və ancaq Allahın iznilə bizə kömək etməyə qadir olmalarına inanaq.
3. Əməli tövhidin digər bir qismi olan itaətdə tövhid yalnız Allahın qarşısında təslim olmaq və təkcə Onun göstərişlərinə tabe olmaq deməkdir. İtaətdə tövhidin nəzəri əsası hakimiyyətdə tövhiddir. İtaətdə tövhid Allahın icazəsi ilə itaəti vacib olan kəslərə tabe olmaqla ziddiyyət təşkil etmir.
4. Məhəbbətdə tövhid də əməli tövhidin qisimlərindəndir. Məhəbbətdə tövhid o deməkdir ki, insanın yeganə həqiqi məhbubu Allah-taala olmalıdır və Allahla yanaşı digərinə ürək bağlamaq və məhəbbət bəsləmək olmaz. Amma Allahın əzəmət və gözəlliyinin nişanələri kimi başqalarını da sevməyin heç bir eybi yoxdur.
5. Məhəbbətdə tövhidin nəzəri əsası Allah-taalanın sonsuz kamilliyidir. Çünki əsl məhəbbət məhbubun kamilliyinə olan dərkdən qaynaqlanır. Buna görə də, Allah mütləq kamil olduğu üçün sevilməyə layiq də təkcə Odur.
6. Feildə tövhidə və xüsusilə rübubiyyətdə tövhidə görə insan yalnız Allaha arxalanmalı və Ona ümid bağlamalıdır. Təvəkküldə tövhid elə bu deməkdir. Təvəkküldə tövhid çalışıb zəhmət çəkməyi istisna etmir, bu şərtlə ki, səbəbləri Allahın iradəsinin vasitələri hesab edək və onlara müstəqil şəkildə baxmayaq.
7. Allahı axtarma hissindən əlavə, nəzəri və əməli tövhid də fitridir. Nəzəri tövhidin fitri olmasını insanın Allaha olan şəxsi idrakı ilə (vasitəsiz elmlə) sübut etmək olar. Digər tərəfdən, insanların təcrübələrindəki qəti nümunələr bunu göstərir ki, əməli tövhid də öz müxtəlif qisimlərilə fitridir.
8. Quran və hədislər də əməli tövhidin müxtəlif qisimlərini təsdiq edir və insanları tövhid əsasında yaşamağa dəvət edir.

## Doqquzuncu fəsil

## Quran və hədis nöqteyi-nəzərindən tövhidin əsasları

Quran tövhid prinsipini bəyan edərkən onu müxtəlif dəlillərlə əsaslandırır. Bəzi ayələrə görə Allahı tanımaq fitri olduğu kimi Yeganə Allaha ibadət də fitridir. Belə ki, Allaha ibadət insanın təbiəti ilə yoğurulmuşdur. Bundan əlavə Quranda elə ayələr vardır ki, onların məzmununu tövhidə əqli dəlil hesab etmək olar. Burada həmin ayələrdən bəzisini əziz oxucuların diqqətinə çatdırmaq istərdik.

### Quran, fitrət və tövhid

Allahı fitri yolla tanıma mövzusunda qeyd etdik ki, bir çox insanların fitri baxışları və meyilləri dünyaya hədsiz dərəcədə bağlanmaq, şübhələrlə qarşılaşmaq və s. kimi amillər nəticəsində zəifləyərək öz lazımi təsirini itirir. Belə olduqda, yalnız böhran vəziyyəti insanı qəflət yuxusundan ayıldıb fitri baxışlarına və meyillərinə yönəldə bilər.

Qurani-kərim tövhidin fitri olması haqda bəyan edir ki, hər bir insan böhran şəraitində və özünü çətinliklərin ağuşunda gördükdə, ümidini bütün adi səbəblərdən kəsir və yalnız vücudunun dərinliklərindən gələn tövhid sədasını eşidir. Bu səda onu yeganə pənahgah və köməkçi olan vahid xaliqə tərəf çağırır. Bu haqda olan bəzi ayələri nəzərdən keçirək:

قُلْ أَرَأَيْتُكُم إِنْ أَتَاكُمْ عَذَابُ اللّهِ أَوْ أَتَتْكُمُ السَّاعَةُ أَغَيْرَ اللّهِ تَدْعُونَ إِن كُنتُمْ صَادِقِينَ بَلْ إِيَّاهُ تَدْعُونَ فَيَكْشِفُ مَا تَدْعُونَ إِلَيْهِ إِنْ شَاء وَتَنسَوْنَ مَا تُشْرِكُونَ

"De ki, əgər Allahın əzabı ensə, ya da qiyamət gəlib çatsa, əgər doğru deyirsinizsə, deyin görüm, yenə də Allahdan başqasını çağırarsınızmı? (Yox) Ancaq Onu çağırarsınız. Əgər istəsə, yalvardığınız bəlanı aradan qaldırar, siz də Ona qoşduğunuz şəriki unudarsınız". ("Ənam": 40-41)

فَإِذَا رَكِبُوا فِي الْفُلْكِ دَعَوُا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ إِذَا هُمْ يُشْرِكُونَ

"Gəmiyə mindikləri zaman dini (ibadəti) yalnız Allaha məxsus edərək (ixlasla) Onu çağırarlar. Allah onları sağ-salamat quruya çıxaran kimi, yenə də (Ona) şərik qoşarlar". ("Ənkəbut": 65)

Quran bu kimi ayələrdə[52] insanların gözü qarşısında bəzi anları canlandıraraq bəyan edir ki, hadisələrin burulğanında pərdələr kənara çəkilir və insan öz həqiqi fitrəti ilə yalnız vahid xaliqə tərəf üz döndərib yalançı məbudlardan uzaqlaşır. Əlbəttə, Quranın

[52] "Rum": 33; "Ənam": 63 və 64; "Nəhl": 53 və 54.

dediyi bu həqiqəti təsdiq etmək üçün heç də böhranlı anları yaşamaq vacib deyildir, əksinə o vəziyyəti təsəvvür etmək də bu iddianın təsdiqi üçün kifayətdir.

وَإِذَا مَسَّ النَّاسَ ضُرٌّ دَعَوْا رَبَّهُم مُّنِيبِينَ إِلَيْهِ ثُمَّ إِذَا أَذَاقَهُم مِّنْهُ رَحْمَةً إِذَا فَرِيقٌ مِّنْهُم بِرَبِّهِمْ يُشْرِكُونَ

"İnsanlara zərər toxunanda Rəbbinə tərəf dönüb Onu çağırarlar. Sonra (Allah) Öz mərhəmətindən onlara daddıran kimi içərilərindən bir hissəsi Rəbbinə şərik qoşar". ("Rum": 33)

Ayədən belə bir maraqlı məsələ də aydın olur ki, bəzi insanlar bu böhranlı hadisələr zamanı şirkdən uzaqlaşıb yeganə Allahı çağırsalar da, çətinliklərdən xilas olduqdan sonra yenidən zülmət pərdələri gözlərinin önünü tutur və şirkə yönəlirlər. Qeyd etmək lazımdır ki, bu məsələ hamıya deyil, yalnız bir qisim insanlara aiddir.[53]

Hər halda, ayələrdən belə məlum olur ki, tövhid fitri bir şeydir, sadəcə bəzi vaxtlar maddi aləmə bağlılıq onun qarşısını alır.

Qeyd etdiyimiz ayələrdən əlavə Əraf surəsinin 172 və 173-cü ayələri də fitri tövhid haqqındadır. Allahı tanıma mövzusunda qeyd etdik ki, bu iki ayə Allahı tanımanın fitri olmasına işarədir. Burada isə demək istədiyimiz məsələ budur ki, bu iki ayə hətta tövhidin də fitri olmasını bəyan edir. Çünki bu ayələrdən məlum olduğu kimi, hər bir insan öz Rəbbini şəxsi idrakla dərk edir, şübhəsiz ki, belə bir idrak şirklə və çoxallahlılıqla ziddir. Daha dəqiq desək, ayədəki əhdin məzmunu təkcə bu deyil ki, varlıq aləmində rəbb var, əksinə, insanlar öz Rəbbini yeganə Allah olaraq tanıdılar. Ayədə digər bir varlığın rübubiyyətindən söz açılmadığı üçün bu qarşılaşmanın və əhdin nəticəsi Allahın təkiliyini etiraf etməkdir. Odur ki, İmam Baqir (ə) bu ayənin təfsirində buyurdu:

"Allah-taala Özünü onlara tanıtdırdı və göstərdi, yoxsa heç kim öz Rəbbini tanımazdı".[54]

### Fitri tövhid haqda hədislər

Tövhidin fitri olması məsələsi Qurandan əlavə, əhli-beytin (ə) hədislərində də öz əksini tapmışdır. Məsələn, Hişam ibn Salim İmam Sadiqdən (ə) "Rum" surəsinin 30-cu ayəsindəki fitrət sözünün mənasını soruşduqda imam (ə) cavabında buyurdu: Tövhid[55].

Bu hədis aşkar şəkildə bəyan edir ki, tövhid və yeganə Allaha ibadət insanın fitrətində qoyulmuşdur. Digər bir hədisdə İmam (ə) buyurur: "Allah-taala bütün insanları tövhid fitrəti ilə yaratdı.

---

[53] Ayədə "fəriqun minhum" (onlardan bir dəstə) ibarəsi insanların hamısının deyil, bir qisminin şirkə qayıtmasını çatdırır.

[54] "Üsuli-kafi", 2-ci cild, "İman və küfr", "Fitrətin tövhid əsasında yaranması", 4-cü hədis.

[55] "Ət-Tövhid", 53-cü bab, 1-ci hədis, Şeyx Səduq bu babda 10 hədis nəql etmişdir ki, onların hamısı tövhidin fitri olmasına dəlalət edir.

**Tövhidin isbatı üçün Quranın əqli dəlilləri**

Qeyd etdiyimiz kimi Quranın bəzi ayələri tövhidə dəlildir. Biz bu dəlilləri bir neçə hissədə bəyan edirik.

**1. Varlıq aləminin ahəngdarlığı tövhidə dəlildir:**

Bir sıra Quran ayələri aləmin vahid nizam-intizam ilə tövhidi sübut edir. Biz rübubiyyətdə tövhid bəhsində qeyd etdik ki, "Ənbiya" surəsinin 22-ci ayəsi aləmin fəsada uğramamasını tövhidə dəlil hesab edir. Digər bir ayə də bu mənanı bəyan edir.

مَا اتَّخَذَ اللَّهُ مِن وَلَدٍ وَمَا كَانَ مَعَهُ مِنْ إِلَٰهٍ إِذًا لَّذَهَبَ كُلُّ إِلَٰهٍ بِمَا خَلَقَ وَلَعَلَا بَعْضُهُمْ عَلَىٰ بَعْضٍ سُبْحَانَ اللَّهِ عَمَّا يَصِفُونَ

"Allah heç bir övlad götürməmişdir. Onunla yanaşı heç bir tanrı da yoxdur. Əgər belə olsaydı, hər bir tanrı öz yaratdıqlarını bir yana çəkərdi və bir-birinə üstün gəlməyə çalışardılar. Allah Onu vəsf etdiklərindən daha pakdır". ("Muminun": 91)

Ayədən belə məlum olur ki, bir neçə allah olsaydı, iki dəlilə görə aləmin nizamında xələl yaranardı. Bir tərəfdən fərz edilmiş allahlardan hər biri özlərinin yaratdıqlarını ayırıb müstəqil şəkildə onları idarə edərdi. Digər tərəfdən isə fərz edilmiş allahlardan hər biri öz hakimiyyətinin əhatəsini genişləndirmək üçün digər allahlara hakim olmağa və onlara üstün gəlməyə çalışardı. Belə bir halda, şübhəsiz, aləmin nizamından heç bir əsər-əlamət qalmayacaqdı. Halbuki aşkar şəkildə görürük ki, yaranışa sabit qanunlar və vahid nizam hakimdir və bu da tövhidə əyani sübutdur.

**2. Feyz və hidayət dəlili:**

Keçən bəhslərdə qeyd olunduğu kimi bütün peyğəmbərlər və səmavi kitablar tövhidə dəvət etmişlər. Quran çox gözəl bir tərzdə bu tarixi həqiqətdən tövhidin isbatı üçün istifadə etmişdir. Quranın dəlili belədir: Əgər qüdrət, hikmət və s. sifətlərə malik olan çoxlu allahlar mövcud olsaydı, onlardan hər biri özünü insanlara tanıtdırmaq üçün peyğəmbərlər göndərərdi. Halbuki, tarix boyu göndərilmiş peyğəmbərlər insanları yeganə Allaha dəvət etmişlər. Peyğəmbərliyi sübuta yetən peyğəmbərlərdən heç biri insanları başqa bir allaha tərəf çağırmamışlar. Bu səbəbdən məlum olur ki, yeganə Allahdan başqa bir allah mövcud deyil.

İndi isə qeyd etdiyimiz dəlili ehtiva edən ayələri nəzərdən keçirək:

وَاسْأَلْ مَنْ أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رُّسُلِنَا أَجَعَلْنَا مِن دُونِ الرَّحْمَٰنِ آلِهَةً يُعْبَدُونَ

Səndən öncə göndərdiyimiz peyğəmbərlərdən soruş: "Biz Rəhmandan başqa ibadət olunası tanrılarmı müəyyən etmişik?!" ("Zuxruf": 45)

Ayədə peyğəmbərə (s) deyilir ki, keçmiş peyğəmbərlərdən soruşsun: Onlar insanlara Rəhman Allahdan başqa digər məbudlarmı tanıtdırmışlar? Şübhəsiz, bu sualın cavabı mənfidir. Ayə şirk əhli ilə mübahisə məqamında olduğu üçün bunu çatdırmaq istəyir ki, bütün peyğəmbərlər insanları yeganə Allaha dəvət etdiklərinə görə başqa bir Allahın olması təsəvvür oluna bilməz.

Əlbəttə, təfsir alimləri arasında peyğəmbərin (s) məmur olduğu işin dəqiq mahiyyəti haqda fikir ayrılığı vardır. Bəzi alimlər bu fikirdədirlər ki, peyğəmbərə (s) öz zamanında

yaşayan ümmətlərdən soruşmaq əmr olunub. Digər bir ehtimala görə, ayə ümmətlərin səmavi kitablarına müraciət etməyi nəzərdə tutur. Bəzi hədislərə əsasən isə ayənin mənası merac gecəsində peyğəmbərin (s) keçmiş peyğəmbərlərlə mənəvi əlaqəsindən ibarətdir.

Hər halda, ayə müşriklərə bunu çatdırmaq istəyir ki, bütün peyğəmbərlər bütövlükdə və yekdil şəkildə insanları yeganə Allaha doğru çağırmışlar.

"Əhqaf" surəsində buyurulur:

قُلْ أَرَأَيْتُم مَّا تَدْعُونَ مِن دُونِ اللَّهِ أَرُونِي مَاذَا خَلَقُوا مِنَ الْأَرْضِ أَمْ لَهُمْ شِرْكٌ فِي السَّمَاوَاتِ اِئْتُونِي بِكِتَابٍ مِّن قَبْلِ هَذَا أَوْ أَثَارَةٍ مِّنْ عِلْمٍ إِن كُنتُمْ صَادِقِينَ

"Mənə bir xəbər verin görüm, sizin Allahdan başqa ibadət etdikləriniz yer üzündə nə yaratmışlar?! Yoxsa onların göylərdə (Allahla) bir şərikliyi var?! Əgər doğru deyirsinizsə, mənə Qurandan əvvəl (nazil olmuş) bir kitab, yaxud keçmişlərdən qalmış elm gətirin!" ("Əhqaf": 4)

Ayədən məlum olduğu kimi "mənə bir kitab gətirin" cümləsi bu həqiqəti bəyan edir ki, səmavi kitabların heç birində şirkə dəlalət edən mətləb yoxdur. Bu o deməkdir ki, bütün keçmiş peyğəmbərlər tövhid məsələsində həmfikirdirlər. Odur ki, bu müqəddiməyə başqa bir müqəddiməni, yəni "Əgər çoxlu allahlar olsaydı, insanları bu allahlara dəvət edən kitablar və peyğəmbərlər olmalı idi" cümləsini artırmaqla sübut tamamlanır.

Qeyd etmək lazımdır ki, ayənin əvvəli tövhidə başqa bir dəlil bəyan edir. Bu dəlilin xülasəsi belədir ki, çoxlu allahlar olsaydı, aləmin (göylərin və yerin) yaranışında onlardan hər birinin özlərinə məxsus payı olardı. Çünki ağıl hökm edir ki, yaranışda rolu olmayan bir varlıq üluhiyyət və ibadət məqamına layiq ola bilməz. Başqa sözlə, yaratmayan bir varlıq allah ola bilməz. Digər tərəfdən, hətta müşriklərin özləri də etiraf edirdilər ki, onların Allaha şərik qoşduqları varlıqların yaranışda heç bir rolu yoxdur. Buna görə də isbat olur ki, onların şirk əqidəsi tamamilə məntiqsizdir. Bəzən birinci dəlili "hidayət dəlili" və ikincini isə "feyz dəlili" adlandırırlar.

"Hidayət və feyz dəlili" bəzi hədislərdə də dəqiq və səlis bəyanla qeyd edilmişdir. Həzrət Əli (ə) İmam Həsənə (ə) vəsiyyətinin bir hissəsində buyurur: "Ey oğlum bil ki, Rəbbinin şəriki olsaydı, onun da peyğəmbərləri gələrdi, onun da hakimiyyətinin nişanələrini görərdin, feillərini və sifətlərini tanıyardın. Amma Rəbbin, Özünü tək adlandırdığı kimi, doğrudan da tək Allahdır".[56]

İmamın (ə) bəyanından məlum olduğu kimi, "onun peyğəmbərləri gələrdi" cümləsi hidayət dəlilinə, "onun hakimiyyətinin nişanələrini görərdin" cümləsi isə feyz dəlilinə işarədir.

[56] "Nəhcül-bəlağə", 31-ci məktub.

İmamın (ə) cümləsini daha artıq izah etmək üçün belə demək olar: Allahın rübubiyyəti tələb edir ki, həm Onun xaliqliyinin və idarəçiliyinin nişanələri hamının gözü önündə olsun (təkvini rübubiyyət), həm də insanları hidayət etmək üçün peyğəmbərlər göndərsin (təşrii rübubiyyət). Əks təqdirdə həqiqi rəbb ola bilməz. Odur ki, əgər yaranışın bir neçə rəbbi olsaydı, həm onlara dəvət edən peyğəmbərlərin şahidi olardıq, həm də onların idarə və tədbirlərinin əlamətlərini görərdik. Halbuki həqiqət bunun əksinədir. Beləliklə, məlum olur ki, aləmlərin rəbbi təkdir.

**Doqquzuncu fəslin xülasəsi**

1. Quran tövhidi fitri hesab edir. Bəzi Quran ayələri tövhidə əqli dəlil sayıla bilər.

2. Bir sıra Quran ayələrinə əsasən, insanlar böhran vəziyyətinə düşdükdə, onların fitrəti qəflətdən ayılır və bu zaman yalnız yeganə Allahı çağırırlar. Əhli-beytin (ə) hədislərində də tövhidin fitri olmasına təkid edilmişdir.

3. Quran varlıq aləminin vahid nizama malik olmasını Allahın təkliyinə sübut hesab edir. Çünki bir neçə Allah olarsa, hər biri yaranışın bir hissəsini idarə edər və hakimiyyətini genişləndirmək üçün digər Allahlara qələbə çalmaq istəyər. Belə bir şəraitdə yaranışın nizamı fəsada uğrayar.

4. Quran ayələrinə əsasən, bütün peyğəmbərlərin insanları yeganə Allaha dəvət etmələri Allahın təkliyinə sübutdur. Çünki çoxlu allahlar olsaydı, hər biri insanların hidayəti üçün peyğəmbərlər göndərərdi. Bu dəlili "feyz və hidayət dəlili" adlandırırlar.

5. Əmirəlmöminin Əli (ə) İmam Həsənə (ə) vəsiyyətində bütün peyğəmbərlərin insanları tək Allaha doğru çağırmalarını tövhidə dəlil hesab edir.

**Onuncu fəsil**

**Tövhid və şirk (1)**

Tövhid və şirk antonim anlayışlardır. Tövhid təkallahlılığa, şirk isə çoxallahlılığa inanmaqdır. Bu səbəbdən şirk mövzusu kəlam elmində iki cəhətdən labüddür:

1. Şirk dini və kəlami bir anlayışdır. Bu səbəbdən şirkin digər dini anlayışlarla əlaqəsini dəqiq şəkildə bəyan etmək kəlam elminin vəzifələrindən sayılır.

2. Tövhid və şirk anlayışları bir-birinə zidd olduğu üçün şirkin qisimlərini araşdırmaq tövhidlə bağlı məsələləri daha yaxşı qavramağa kömək edir. Ümumiyyətlə hər hansı bir şeyin tanımağın yollarından biri onun ziddini tanımaqdır. Bu səbəbdən deyilir ki, "hər şey öz ziddi ilə tanınır".

**Şirkin qismləri**

Tövhid və şirk bir-birinə zidd olduğuna görə tövhidin qisimləri ilə simmetrik olaraq şirk də müxtəlif qisimlərə bölünür. Burda şirkin əsas qisimlərinə işarə edəcəyik.

1. Zatda şirk. Zatda tövhidin əksinə olaraq zatda şirk Allahın zatını mürəkkəb bilmək, yaxud iki və ya bir neçə allaha inanmaqdır. Odur ki, zatda şirkin iki mənası vardır.

a) Allahın zatının hissələrdən tərkib olmasına etiqad;

b) bir neçə allaha etiqad.

Birinci mənaya əsasən, Allahın zatını mürəkkəb bilmək şirklə nəticələnir. Əqli tərkibin mənası dəqiq olduğu üçün bu növ tərkibin Allaha aid edilməsi insanlar arasında az yayılmışdır. Allahın zatının xarici hissələrdən mürəkkəb olmasına etiqad isə tarix boyu çox yayılmışdır. "Şirkin amilləri" mövzusunda işarə edəcəyik ki, materializm təfəkkürü düşüncələrə hakim olduğu üçün insanlar Allahı maddi bilir və Onun, bədən üzvlərinə malik olduğunu hesab edirlər. Bu əqidə zatda şirkin növlərindəndir. Beləliklə, Allahın zatını cisim hesab edən mücəssimə adlı firqə zatda şirkin birinci mənasına görə müşrik sayılır.

Zatda şirkin ikinci mənasına görə isə bir neçə tanrıya etiqad zatda şirkdir. Qeyd etmək lazımdır ki, çoxlu məbudlara etiqad həmişə zatda şirk sayılmır. Bir çox hallarda müxtəlif mövcudlara ibadət edirlər, amma bununla belə onları yeganə xaliqin məxluqu hesab edirlər. Ancaq ona görə ibadət edirlər ki, onları yeganə xaliqin yanında şəfaətçi bilir və ya onları Allahın övladları, ixtiyar sahibləri və aləmin bir hissəsinin idarəçiləri hesab edirlər. Belə bir əqidə sahibi rübubiyyətdə şirkə mübtəla olsa da, bu əqidənin zatda şirklə heç bir əlaqəsi yoxdur. Odur ki, zatda şirkin ikinci mənası hər biri allahlıq sifətlərinə malik olub, biri digərlərindən üstün olmayan bir və ya bir neçə müstəqil

yaradana inanmaqdır. Bu mənanı fəlsəfi terminlə belə bəyan edə bilərik ki, şirkdə zatın ikinci mənası, heç biri digərinin məxluqu olmayan bir neçə zəruri varlığa və ya zatən qəni olan bir neçə varlığa inanmaqdır.

Verilən izahlardan aydın olur ki, bu mənada zatda şirk millətlər və qövmlər arasında yayılmamışdır. Şirk əqidələrinin bir çoxu şirkin digər qisimlərinə aiddir.

2. Sifətdə şirk. Sifətdə şirk Allahın sifətlərinin Onun zatından ayrı və müstəqil bir vücuda malik olmasına inanmaqdır. Sifətdə şirkin mənası dəqiq olduğu üçün o da zatda şirkin bəzi qisimləri kimi insanlar arasında yayılmamışdır. Bu məsələ yalnız filosoflar və kəlamçılar arasında müzakirə obyekti olmuşdur.

Sifətdə tövhid mövzusunda dediyimiz kimi əşərilər zat və sifətlərin ayrı olduğunu müdafiə edirlər və Allahın, zatdan və bir-birindən ayrı olan yeddi zati sifətinin əzəli olduğuna inanırlar. Buna görə də əşərilərin sifətdə şirkə düçar olduqlarını demək olar. Əlbəttə gələcəkdə qeyd edəcəyik ki, bu növ şirk birbaşa olaraq zatda şirklə nəticələnməsə, şəxsin islamdan çıxmasına səbəb olmaz.

3. Feildə şirk. Bu növ şirk feildə tövhidin əksidir. Feildə şirk də müxtəlif qisimlərə, o cümlədən xaliqiyyətdə şirk, rübubiyyətdə şirk, hakimiyyətdə şirkə bölünür.

Xaliqiyyətdə şirk biri digərinin iradəsinə və qüdrətinə məğlub olmayan bir-birindən ayrı və müstəqil olan iki və ya daha artıq xaliqə etiqad bəsləməkdir. Xaliqiyyətdə şirkin bariz nümunələrindən biri xeyir və şər xaliqlərini bir-birindən ayırmaqdır. Bu əqidəyə əsasən, Allah-taala yalnız yaxşı şeyləri yaradır. Şəri və pis şeyləri yaradan isə məsələn, şeytan və ya əhrimən adlı bədxah bir mövcuddur ki, müstəqil şəkildə şəri yaradır və xeyir allahı şər allahının işlərində heç bir müdaxilə etmir.

Bu etiqad manilikdə və zərdüştlükdə çox yayılmışdır. Bu dinlərin ardıcılları aşkar şəkildə müstəqil xaliqə inanır və bu səbəbdən xaliqiyyətdə tövhidi inkar edirlər. Tövhid mövzusunda deyildiyi kimi, islam xaliqiyyətdə tövhidi müdafiə edir və Allahdan savayı müstəqil xaliqlərin varlığını inkar edir.

Feildə şirkin digər bir qismi rübubiyyətdə şirkdir. Bu növ şirk tarix boyu müxtəlif qövmlər və millətlər arasında yayılmışdır. Bu əqidəyə malik olan millətləri araşdırmaqla məlum olur ki, onlar öz allahlarının müstəqil rəbb və tanrı olmalarına inanırdılar. Məsələn, onların inancına əsasən, yağış, külək, bitkilərin böyüməsi və bu kimi təbii hadisələrin hər birinin özünəməxsus allahı var və allahlardan hər biri öz dairəsində ixtiyar sahibidir.

Qanunvericilikdə şirk isə Allahdan savayı digər bir mənbəni müstəqil olaraq qanunvericilikdə dəxalət etməsi və göstərişlərinin Allahın hökmlərilə yanaşı icra edilməsidir. Çox güman ki, bu növ şirk bəzi təkallahlı dinlərin ardıcılları arasında meydana gələn ixtilaflar nəticəsində yaranmışdır. Bizim fikrimizcə, xristianların katolik

adlanan bu firqəsi qanunvericilikdə şirkə mübtəladırlar. Çünki papanı ali hakim, müstəqil qanunverici və günahsız hesab edirlər.[57]

Feildə şirkin qisimlərindən üluhiyyətdə şirk və ibadətdə şirki qeyd etmək olar. Üluhiyyətdə şirk müxtəlif şeyləri ibadətə layiq bilməkdir. İbadətdə şirk isə müxtəlif şeylərə ibadət etməkdir. Bu iki növ şirk bir çox hallarda bir-biri ilə yanaşı olur. Çünki bir neçə varlığı ibadətə layiq bilən şəxs əməldə də öz əqidəsinə bağlı olsa, onların hamısına ibadət edəcəkdir. Bu da ibadətdə şirk deməkdir. Bu iki şirk bəzən rübubiyyətdə şirklə də yanaşı olur. Çünki üluhiyyətdə şirkin əsaslarından biri rübubiyyətdə şirkdir. Aləmdə iki və ya daha artıq rəbbin olmasına əqidə bağlayan şəxs şübhəsiz ki, onların hamısını ibadətə layiq bilir.

Üluhiyyətdə və ibadətdə şirk müşriklər arasında yayılıb müxtəlif formalarda təzahür etmişdir. Bir dəstə öz əllərilə daş, taxta və bu kimi şeylərdən heykəllər və təsvirlər düzəldir, onları gözə görsənməz məbudların simvolu hesab edir və onların qarşısında baş əyirdilər. Eləcə də qurbanlıq və digər ayinlər yerinə yetirməklə onlara ibadət edirdilər. Digər bir qrup günəş və ay kimi səmavi cisimlərə onların zahiri əzəmətlərinə görə ibadət edirdilər. Nəhayət, digər bir qrup təbii varlıqları və bəzi heyvanları təqdis edir və onların fövqəltəbii gücə malik olmalarına inandıqları üçün ibadətə layiq bilirdilər.

**Şirkin aşkar və gizli dərəcələri**

Nəzərdən qaçırmamalıyıq ki, şirkin, xüsusilə əməli şirkin müxtəlif dərəcələri vardır ki, aşkar və gizli olmaq baxımından hamısı eyni səviyyədə deyildir. Məsələn, ibadətdə şirkin aşkar dərəcəsi Allahdan başqasını üluhiyyət məqamına layiq bilib onun üçün rüku, səcdə, qurbanlıq və s. kimi ayinləri yerinə yetirməkdir. Bu, ibadətdə şirkin ən aşkar dərəcəsi sayılır. Bu növ şirk digər müxtəlif dərəcələri də əhatə edir. İslam təfəkküründə dünyapərəstlik, sərvətpərəstlik, şöhrətpərəstlik və s. ibadətdə şirk və Allahdan başqasına ibadətin bir növü sayılır. Özünü qeyd-şərtsiz nəfsin istəklərinə qul edən kəs, həqiqətdə öz nəfsinə ibadət etmiş olur. Quran bu həqiqəti çox gözəl şəkildə bəyan edir:

أَرَأَيْتَ مَنِ اتَّخَذَ إِلَٰهَهُ هَوَاهُ أَفَأَنتَ تَكُونُ عَلَيْهِ وَكِيلًا

“Nəfsini özünə tanrı edəni gördünmü?” (“Furqan”: 43 və “Casiyə”: 23)

Quran məntiqinə əsasən, öz nəfsani istəkləri qarşısında qul olan kəs faktiki olaraq, öz nəfsini məbud hesab etmiş olur. Şübhəsiz, ibadətdə şirkin bu dərəcəsi elə də aşkar deyil. Bu səbəbdən gizli şirk adlanır. Şirkin bu dərəcəsi hamının müşrik kimi tanıdığı şəxslərə məxsus deyil, əksinə müsəlman və möminlərin bir çoxu bu növ şirkə düçardırlar.

Gizli şirk əməli şirkin digər növlərində də müşahidə olunur. Təbii səbəblərə arxalanan və onları çətinliklərin həllində müstəqil hesab edən şəxs, həqiqətdə, Allahdan başqasına təvəkkül etmiş olur. Bu səbəbdən təvəkküldə şirk adlanır. Tağutlara baş əyib

[57] “Tövbə” surəsinin 31-ci ayəsi xristianları öz alimlərini rübubiyyət məqamına qaldırdıqlarına görə pisləyir, “İtaətdə tövhid” mövzusunda bu məsələyə işarə etdik.

onların göstərişlərinə qeydsiz-şərtsiz əməl etmək itaətdə şirkdir. Eləcə də ürəklərində Allahın sevmədiyi şəxsləri sevmək məhəbbətdə şirk sayılır.

Beləliklə, şirkin müxtəlif dərəcələri vardır. Onlardan bir qismi aşkar, digər bir qismi isə gizlidir. Bir çox insanlar, hətta bəzi müsəlmanlar və möminlər də şirkin gizli dərəcələrinə düçardırlar.

**Tövhidin minimum həddi**

Sual oluna bilər ki, şirkin gizli dərəcələri şəxsin müsəlmanlığı ilə uyğun gəlirmi və belə bir şirkə mübtəla olan şəxsi müsəlman hesab etmək olarmı?

Bu suala cavab vermək üçün tövhidin minimum həddi mövzusu müzakirə olunur. Mövzunun hədəfi budur ki, tövhidin hansı qismi və hansı dərəcəsi müsəlman olmaq üçün zəruridir ki, hər hansı bir şəxsdə olmasa, həmin şəxs müsəlmanlıqdan çıxmış hesab olunar?

Gizli şirk haqda verilən izahdan məlum oldu ki, tövhidin bütün dərəcələri müsəlmanlıq üçün zəruri deyil. İndi isə zəruri və qeyri-zəruri dərəcələrin sərhədini diqqətlə araşdırmaq lazımdır. Bir sıra dəlil və sübutlara əsasən, belə nəticəyə gəlmək olar ki, hər hansı bir şəxsin müsəlman sayılması üçün nəzəri tövhidin bu qisimləri zəruridir: zatda tövhid, xaliqiyyətdə tövhid, rübubiyyətdə tövhid, qanunvericilikdə tövhid və üluhiyyətdə tövhid.

Qeyd etdiyimiz qisimlərin bir-biri ilə üzvi bağlılığına nəzər salmaqla bu müddəa daha da aydın olur. Keçən bəhslərdə deyildiyi kimi son dörd qisim arasında üzvi bağlılıq vardır. Digər tərəfdən isə Allahın təkliyinə (zatda tövhidə) inanmadan digər dörd qismə etiqad bəsləmək mümkün deyil.[58]

Beləliklə, nəzəri tövhidin minimum həddi qeyd etdiyimiz qisimləri qəbul etməyə bağlıdır və tövhid şüarı, yəni "la ilahə illəllah" cümləsi bu qisimlərin hamısını özündə toplayır. Bu şüarın zahirindən üluhiyyətdə tövhid başa düşülsə də, üluhiyyətdə tövhid, tövhidin digər qisimləri ilə bağlı olduğuna görə bu cümlə insanın islama gəlməsi üçün minimum həddi ifadə edən şüar sayılır. Nəticədə nəzəri tövhidin minimum həddi Allahın zatını yeganə və şəriksiz bilmək, Ondan savayı heç bir mövcudu zəruri varlıq, yaradan, aləmi idarə edən və ibadətə layiq bilməmək, eləcə də Allahın icazəsi olmadan heç bir varlığın hakimiyyət haqqı olmamasına inanmaqdır.

---

[58] Tövhidin qisimlərinin bir-biri ilə bağlılığı bu mənaya deyildir ki, onlardan birini qəbul edən hökmən digər qisimləri də qəbul edəcək. Çünki keçən bəhslərdən məlum oldu ki, xaliqiyyətdə tövhidi qəbul edən bir kəsin rübubiyyətdə şirkə düçar olması mümkündür. Əksinə qisimlər arasında bağlılıq bu mənayadır ki, bu qisimlərdən hər biri barəsində təəssübdən kənar və insafla düşünülərsə, onların bir-birinə bağlılığı aşkar aydın olar. Bu səbəbdən, Quran tövhidin bəzi qisimlərini sübut edərkən müşrikləri öz əqidələrinin nəticələrində düşünməyə çağıraraq onların diqqətini bu məsələyə cəlb edir ki, aləmin xaliqi təkdirsə, şübhəsiz, onun rəbbi və idarə edəni də tək olmalıdır.

Əməldə tövhidin isə minimum həddi ibadətdə tövhiddir. Əlbəttə, ibadətdə şirkin gizli dərəcələri, o cümlədən nəfsə ibadət və sərvətə ibadət, ibadət edənin müsəlmanlıqdan çıxmağa səbəb olmur. Müsəlmanlığın minimum həddi ilə zidd olan, ibadətdə şirkin aşkar dərəcəsidir. İnsan rəsmi və aşkar şəkildə bir sıra ayinlər yerinə yetirməklə Allahdan başqasına ibadət edərsə, ibadətdə aşkar şirkə düçar olmuş sayılır.

Bir şəxsdə tövhidin minimum həddi olarsa, müsəlman sayılacaq və müsəlmana aid hökmlər onun üçün icra ediləcəkdir. Bundan sonra təkamül istiqamətində addım atan kəs istianətdə tövhid, məhəbbətdə tövhid və s. kimi, tövhidin digər dərəcələrinə və mərhələlərinə də nail olub, tədricən öz vücudunu gizli şirkin növlərindən də təmizləyə bilər.

Qeyd etmək lazımdır ki, tövhidin bəzi zəruri qisimlərini itirmək əbədi zəlalətə yuvarlanmaq üçün kifayətdir və bu halda tövhidin digər qismlərinə etiqad bəsləmək o demək deyildir ki, insan səadətin bir hissəsindən məhrum olsa da, başqa bir hissəsinə nail ola bilər. Bunun bariz nümunəsi şeytandır. Ayə və rəvayətlərə[59] əsasən, şeytan zatda, xaliqiyyətdə, rübubiyyətdə və üluhiyyətdə tövhidə inanırdı və uzun illər Allaha ibadət etmişdi. Lakin Adəmin (ə) qarşısında səcdə əmrinə itaət etməməklə lənətlənir və qanunvericilikdə tövhidi qəbul etməməklə öz məqamından süqut edib ilk cəhənnəm əhli olur.

**Terminlər**

Şirk
Zatda şirk
Sifətdə şirk
Feildə şirk
Xaliqiyyətdə şirk
Rübubiyyətdə şirk
Aşkar şirk
Gizli şirk

**Onuncu fəslin xülasəsi**

1. Şirk də tövhid kimi dində mövcud olan anlayışdır və onu izah etmək kəlam elminin vəzifəsidir. Bundan əlavə, şirk və tövhid zidd anlayışlar olduğu üçün şirk və onun hökmlərini araşdırmaq tövhid məsələsini daha dərindən başa düşməyə kömək edir.

2. Zatda tövhidin ziddi olan zatda şirk Allahın zatının mürəkkəb olmasına inanmaq və ya bir neçə Allahın varlığına inanmaq deməkdir.

---

[59] "Əraf": 11-18; "Hicr": 39 və "Sad": 73-83. Geniş məlumat üçün bax: "Maarifi-Quran", 1-3-cü cild, səh. 55-66.

3. Sifətdə tövhidin ziddi olan sifətdə şirk Allahın sifətlərini Onun zatından ayrı hesab edib sifətlərə müstəqil bir varlıq kimi baxmaqdır.

4. Feildə şirk də müxtəlif qisimlərə, o cümlədən xaliqiyyətdə şirk, rübubiyyətdə şirk, hakimiyyətdə şirkə bölünür.

5. Üluhiyyətdə şirk və ibadətdə şirk geniş yayılmış şirklərdəndir. Bütpərəstik, səmavi cisimlərə və təbii əşyalara sitayiş etmək ibadətdə şirkin növlərindəndir.

6. İbadətdə şirkin aşkar və gizli dərəcələri vardır. Gizli şirk insanın əməllərində baş verir. Dünyapərəstlik, sərvətpərəstlik, nəfspərəstlik və s. ibadətdə gizli şirkin nümunələridir.

7. Tövhidin minimum həddi hər hansı bir şəxsin müsəlmanların cərgəsinə daxil olması üçün zəruri sayılan qisimlərdir.

## On birinci fəsil

## Tövhid və şirk (2)

### Tövhid və şirkin tarixi

Tövhid və şirklə bağlı mühüm suallardan biri də budur ki, insanlar tarixin başlanğıcında ilk öncə tövhid əhli olub sonradan şirkə meyillənmişlər, yoxsa tarixin hərəkət istiqaməti əksinə olmuş və fikirlər kamilləşdikcə tövhidə tərəf istiqamətlənmişlər? Bu sual qarşısında müxtəlif fikirlər mövcuddur. Bir qrup tövhidi şirkdən öncə hesab edir, digər bir qrup isə şirkin daha qədim tarixə malik olduğunu deyirlər.

Bu suala cavab vermək üçün məsələyə ən azından iki cür yanaşmaq olar:

1. Tarixi faktlara əsaslanan tarixi metodla;

2. Dini mənbələrə əsaslanan kəlami metodla.

Şübhəsiz, bu mövzunu tarixi baxımdan araşdırmaq bizim mövzumuzdan xaricdir. Bu məsələ dinlərin tarixi mövzusunda araşdırılmalıdır. Amma kəlam elmi baxımından deməliyik ki, islam birinci fikri qəbul edir və tövhidi tarixdə şirkdən öncə hesab edir. Bu nəzəriyyəyə əsasən, bəşəriyyətin tarixi tövhidlə başlamışdır. Lakin zaman keçdikcə fikri və əməli sapqınlıq olaraq şirkə yönəlmə insanlar arasında geniş yayılmağa başlamışdır.

Bu müddəanın əsas dəlillərindən biri budur ki, islam təlimlərinə əsasən, insanlığa aid bütün xüsusiyyətlərə malik olan ilk varlıq, yəni Adəm peyğəmbər özü tövhid carçısı olmuşdur. Beləliklə, tövhid düşüncəsi ilk insanla bərabər meydana çıxmışdır. Lakin sonralar bir sıra psixoloji və sosioloji amillər nəticəsində bəzi insanlar tövhiddən azıb şirkə üz çevirmişlər. O zamandan başlayaraq tövhid və şirk bir-biri ilə yanaşı hərəkət etmişdir. Tarix boyu şirklə mübarizə aparmaq və müşriklərə öz azğınlıqlarını başa salmaq üçün müəyyən zaman fasilələri ilə Allah tərəfindən peyğəmbərlər göndərilmişdir. Nəhayət, islam sonuncu din olaraq, istər nəzər sahəsində, istərsə də əməl sahəsində tövhidin həqiqətini və incəliklərini insanlara çatdırmışdır. Bu, islamda və dini mənbələrdə (Quran və hədislər) tövhid və şirkin tarixinin qısa təsviri idi.

Digər tərəfdən tövhidin fitri olması da, tarixdə tövhidin şirkdən öncə olmasına dəlildir. Bu prinsipə əsasən, ilk insanların müşrik olması və sonralar get-gedə insanların düşüncəsi kamilləşdikcə tövhidin arasında yayılması haqqındakı müddəa əsassızdır. Çünki fitri bir təfəkkürün, yaxud istəyin ibtidai insanlar arasında, yaxud ən azı bəzi insanlarda özünü büruzə verməməsi mümkün deyil. Buna görə, tövhidin fitri olması da tövhid əqidəsinin bəşər tarixində əvvəldən olmasını və sonrakı dövrlərə məxsus olmamasını tələb edir.

Tövhid və şirkin tarixi ilə bağlı müzakirə olunan digər bir məsələ də budur ki, arxeoloqların tədqiqatları ibtidai cəmiyyətlər arasında tövhid əqidəsindən çox şirk əqidəsinin və adət-ənənəsinin yayılmasını göstərir. Daş bütlər, insanların öz əllərilə düzəltdikləri allahların heykəlləri, ilk bütpərəstliyin nümunələri olan təsvirlərin üzə

çıxarılması keçmiş millətlər arasında şirk əqidəsinin yayılmasından xəbər verir. Bunun əksinə olaraq, tövhidin yayılmasını əks etdirən nümunələr çox azdır. Beləliklə, nəticə almaq olmazmı ki, ibtidai insanlar müşrik olmuşlar və çox az hallarda tövhid əqidəsinə rast gəlmək olar?

Bu suala cavab vermək üçün inkaredilməz bir reallığa diqqət etmək lazımdır ki, müşriklə təkallahlının yaşayışı arasındakı əsas fərqlərindən biri onların maddi və hissi təzahürləridir. Şirk çox vaxt maddi allahlara ibadət etmək şəklində özünü göstərdiyi üçün allahların təsviri, daş və ağacdan düzəlmiş bütlər, böyük və kiçik bütgədələr və s. kimi maddi iz buraxır. Təkallahlı insanın yaşayışında isə maddi izlər və təzahürlər çox azdır. İnsan yeganə Allaha heç bir maddi simvol olmadan ibadət edə bilər. Bu səbəbdən qazıntılar nəticəsində şirk əqidəsini göstərən bir çox nişanələrin tapılması ibtidai insanlar arasında tövhid əqidəsinin olmamasına və ya yayılmamasına sübut ola bilməz.

Əlbəttə, dini dəlillərdən belə nəticə almaq olar ki, bütün bəşəriyyət tarixini nəzərə alsaq, üluhiyyətdə şirk əhlinin sayı tövhid əhlinin sayından çox olmuşdur. Peyğəmbərlərin göndərildiyi cəmiyyətlərdə insanlarının düşmən mövqe tutmaları bunu göstərir ki, peyğəmbərlərin təlimləri bir çox insanlarda təsir etməmişdir. Onlar puç bəhanələr və müxtəlif amillərlə şirki tövhiddən üstün tutmuşlar.

Quran bir tərəfdən bütün peyğəmbərləri tövhid carçısı tanıtdırır:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ

“Biz hər ümmətə: “Allaha ibadət edin! – deyə peyğəmbər göndərmişik”. (“Nəhl”: 36)

Digər tərəfdən isə elan edir ki, bütün peyğəmbərlər öz ümmətləri tərəfindən istehza edilmişlər.

وَمَا يَأْتِيهِم مِّن رَّسُولٍ إِلاَّ كَانُواْ بِهِ يَسْتَهْزِؤُونَ

“Onlara elə bir peyğəmbər gəlmədi ki, ona istehza etməsinlər”.[60] (“Hicr”: 11)

Hər halda, Quranın bəzi ayələrindən aydın olur ki, müşriklərin sayı təkallahlıların sayından çox olmuşdur. Lakin bu, heç də tarixdə şirkin tövhiddən öncə olması demək deyildir, əksinə tövhidin fitri olması ilə də uyğundur.

**İnsanların şirkə yönəlmələrinin amilləri**

Qeyd etdik ki, tövhid insanın fitrətində qoyulmuşdur və bəşəriyyətin tarixi də tövhidlə başlayır. Burada belə bir sual meydana çıxır ki, hansı səbəblər insanları fitrətindən uzaqlaşdırıb, onları şirk və bütpərəstlik çirkabına yuvarlamışdır?

Bu sualın cavabında insanın şirkə yönəlmənin bəzi əsas amillərinə işarə edirik:

1. İnsan iki cəhətli bir varlıqdır. Maddi cəhətdən əlavə, ruhi və mənəvi cəhətə də malikdir. Buna baxmayaraq, insan dünyaya gələndən özünü maddi aləmdə görür. Daima təbiət aləmində olmaq bir çox insanların maddi əşya ilə üns tutmasına və fövqəltəbii

[60] İnsanların peyğəmbərlərlə davranışı haqda “Nübüvvət” mövzusunda danışılacaq.

aləmdən qafil olmasına səbəb olur. Maddi aləmlə doğmalaşdıqca maddi məbuda meyil də artır və güclənir.

Beləliklə, hissi yolla əlaqə saxlanılası bir məbuda ibadət etmək istəyi bir sıra insanların öz məbudlarının simvolu olaraq bütlər düzəltməsinə, zaman keçdikcə öz əlləri ilə düzəltdikləri bütləri əsl məbud kimi qəbul edib, onlara ibadət etməyə səbəb olmuşdur. Başqa sözlə desək, insanın ibadətə fitri meyli onda belə bir istəyin yaranmasına səbəb olmuşdur ki, onun hisslə dərk olunan məbudu olsun və ona ibadət etsin.

2. Şirkə yönəlmənin digər bir amili maddi əşyaların müxtəlifliyidir. Hər bir insan dünyaya göz açdıqda öz ətraf mühitində müxtəlif əşyalarla, o cümlədən dağlar, dənizlər, ulduzlar, bitkilər, heyvanlar və bu kimi şeylərlə rastlaşır, bəzən də onlar arasında gedən mübarizənin şahidi olur. Bir sıra insanlar bu müxtəlifliklə qarşılaşdıqda güman etmişlər ki, bu müxtəlif əşyaların hərəsinin öz yaradanı vardır. Elə bu güman da şirk əqidəsinin ilk addımı oldu. Məsələn, bir qrup insanlar belə güman edirdilər ki, yağışın allahı ilə küləyin allahı fərqlidir. Eləcə də bu iki allah dənizlərin allahından ayrıdır. Xeyir qüvvələrin allahını şər qüvvələrin allahından ayırmaq da elə bu tərzi-təfəkkürdən qaynaqlanmışdır. Bəzən maddi əşyalar; və varlıqları allahlıq məqamına yüksəldirdilər. Misal olaraq, bir çox qədim şirk əqidələrində göy, yer, günəş, ay və bu kimi maddi əşyaları müstəqil allah qəbul edirdilər.

3. Şirkə yönəlmənin digər bir amili də insanların maddi varlıqların mahiyyətindən və onlar arasındakı əlaqədən xəbərsizliyi və nadanlığıdır. Bu amilin aşkar nümunəsini qədim xalqların bəzi göy cisimlərinə olan əqidəsində müşahidə etmək olar. Onlar elmin inkişaf etmədiyi bir zamanda bilirdilər ki, bəzi göy cisimləri bir sıra hadisələrin baş verməsində böyük təsirə malikdir və bu yolla onların yaşayışında böyük rol oynayır. Məsələn, görürdülər ki, günəşin işığı bitkilərin həyatında təsirlidir və o, bunun üçün lazım olan istiliyi təmin edir. Lakin bu əşyaların qarşılıqlı əlaqəsindən və eləcə də göy cisimlərinin mahiyyətindən xəbərdar olmadıqlarına görə onlarda tədricən belə bir fikir formalaşdı ki, göy cisimləri yerdəki əşyaların rəbbidir və öz ixtiyarları ilə onların işlərində müdaxilə edir. Buna görə də onların qüdrətindən kömək almaq üçün onlara ibadət etdilər və lazım gəldikdə onlara qurbanlar nisar etdilər.

4. Şirkə yönəlmənin digər bir amili insanın, özü ilə Allahı arasındakı əlaqə barəsində düzgün nəticə almamasıdır. İnsanlar öz fitrətləri ilə dərk edirdilər ki, həqiqi məbud maddi çərçivədən uzaq olan müqəddəs və ülvi bir varlıq olmalıdır. Bu da bir qrup insanların düşüncəsində belə bir təfəkkürün formalaşmasına səbəb oldu ki, Allah maddi deyildirsə, deməli Onunla heç bir şəxsi əlaqə də qurmaq olmaz. Digər tərəfdən, insanlar öz Allahları ilə əlaqə saxlayıb ehtiyaclarını Ondan diləmək, günah etdikdə Onun qəzəbini razılığa çevirmək istəyirdilər. Lakin Allahla birbaşa əlaqə yaratmağın mümkün olmadığını güman etdikdə bəzi varlıqları özləri ilə Allah arasında vasitəçi kimi qəbul

etmək qərarına gəldilər. Bu vasitəçilərlə rabitə saxlamaq və onlara dua etmək vaxt keçdikcə ibadətə çevrildi, buna görə də insanlarla Allah arasında vasitə rolunu oynayan tanrılara ibadət yayılmağa başladı.

5. Şirkin, daha çox ictimai xarakter daşıyan bir amili də zalım hakimlərin şirki dəstəkləməsidir. Şübhəsiz, şirkin cəmiyyətdə yayılması istbidadçı qüvvələrin xalqa hakim olmasına və onların hədəflərinin gerçəkləşməsinə çox kömək edir. Digər tərəfdən, əgər insanların fərdi və ictimai rəftarlarında dərin təsiri olan tövhid təlimləri cəmiyyətdə yayılsa, hegemonlar və zalımlar ciddi təhlükə ilə qarşılaşarlar. Həqiqi tövhid əhli hakimiyyəti, rübubiyyəti, qanunvericiliyi yeganə Allaha və Onun seçdiyi insanlara məxsus bilir. Bu cür əqidəyə malik insan heç bir zaman tağut qarşısında baş əymir və onun qeyri-qanuni göstərişlərinə əməl etmir. Elə buna görə də, peyğəmbərlərin şüarında tövhidə çağırışdan sonra, tağutdan çəkinmək əsas yer tutur.

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ

"Biz hər ümmətə: Allaha ibadət edin və tağutdan çəkinin! – deyə peyğəmbər göndərdik". ("Nəhl": 36)

Beləliklə, heç də təəccüblü deyil ki, cəmiyyətdə qeyri-ilahi düşüncələri yaymaq məqsədi güdən hegemonlar və zalım hakimlər şirkin yayılmasına çalışır, hətta şəraitin münasib olduğunu gördükdə allahlıq iddiası edib rəiyyəti öz bəndələri hesab edirlər. Onların planları tarix boyu peyğəmbərlərin və ardıcıllarının müxalifəti ilə qarşılansa da, bəzi insanların ruhi zəiflikləri nəticəsində çox vaxt həyata keçmişdir.[61] İndi isə şirkin təsirinə az da olsa işarə edək.

**Şirk və günah**

Şirkin bəşər həyatının müxtəlif sahələrində təsiri çox geniş bir mövzudur. Burada bir məsələni xatırlatmağı lazım bilirik və o da bundan ibarətdir ki, insanın bütün günahlarının mənşəyi sonda şirkə qayıdır. Günah - Allahın razılığı olmayan bir işdə Allahdan başqasının əmrinə itaət etməkdir. Bu varlıq şeytan, nəfsani istəklər və ya başqalarını günaha yuvarladan zalım insanlar ola bilər. Bu səbəbdən, günahın həqiqəti Allahın əmrindən boyun qaçırmaq və başqasına tabe olmaqdır. Beləliklə, bütün günahlar itaətdə şirkdən qaynaqlanır. İtaətdə tövhidə möhkəm əqidə bağlayan şəxs isə yalnız Allahın əmrinə və Onun izn verdiyi şəxslərə itaət edir. Belə bir şəxs Allahdan başqasına itaət etmir və şübhəsiz, günahdan uzaqdır və Allahın əmrindən boyun qaçırmır.

---

[61] Quran bir çox yerlərdə zalım hakimlərin tərəfdarlarını müşrik hesab edir. Bunun bariz nümunəsi Firon və onun Musa (ə) ilə müxalifətidir.

Beləliklə, tövhidin əhatə dairəsinə diqqət etməklə aydın olar ki, bütün günahların mənşəyi şirkdir. Xalis tövhid isə əksinə olaraq, insana günahı tərk etməkdə kömək edir və onu Allahdan başqasına tabe olmaqdan çəkindirir.[62]

**On birinci fəslin xülasəsi**

1. Kəlami nöqteyi-nəzərdən bəşəriyyətin tarixi tövhidlə başlamış, amma tədricən şirk fikri və əməli sapqınlıq olaraq insanlar arasında geniş yayılmağa başlamışdır. İlk insanın peyğəmbər olması, həmçinin tövhidin fitri olması bu iddianın sübutuna kifayətdir.

2. Şirkin əksinə olaraq tövhidin bəşər həyatında heç bir maddi təzahürü olmadığı üçün tarixi tədqiqatlar şirkin çox yayılmasından xəbər verir.

3. İnsanın təbiət aləmi ilə üns tutması şirkə yönəlmənin amillərindən biridir. Çünki insanı maddi allaha ibadətə sövq edir.

4. Təbii və maddi əşyaların müxtəlifliyinin də insanların şirkə yönəlməsində rolu vardır. Bəzi insanlar bu müxtəlifliyi gördükdə güman edirdilər ki, bu əşyalardan hər birinin özünəməxsus yaradanı və idarə edəni var. Buna görə də bir neçə yaradana və tanrıya inanırdılar.

5. Maddi əşyaların qarşılıqlı əlaqəsindən xəbərsiz olmamaq da şirkin amillərindəndir. Keçmiş xalqlar göy cisimlərindən və onların yerdəki əşyalarla əlaqəsindən məlumatsızlıq nəticəsində göy cisimlərinin rübubiyyətinə və üluhiyyətinə inanırdılar.

6. İnsanın, Allahla əlaqəsi haqda səhv anlayışı da şirkin amillərindən biridir. Bəzi insanlar səhv olaraq özlərini Allahla birbaşa rabitə yaratmağa layiq bilmirdilər. Bu səbəbdən, bəzi varlıqları şəfaətçi edirdilər, sonra isə tədricən onları allahlıq məqamına yüksəltməyə başladılar.

7. Şirkin cəmiyyətdə yayılması qüdrət sahiblərinin və zalımların hədəfini təmin edir. Buna görə də zülmkar hakimlər və fitnə-fəsad başçıları tarix boyu insanlar arasında şirkin yayılmasını dəstəkləmişlər.

8. Günahın mahiyyəti Allahın əmrindən boyun qaçırmaq və şeytana, nəfsin istəklərinə və zülmkar insanlara tabe olmaqdır. Odur ki, bütün günahların mənşəyi şirkdir.

[62] Əllamə Təbatəbai küfrün əsasını da şirkdə görür. Onun fikrincə, Allahın varlığını və aləmin yaradanını inkar edən kafir şəxs həqiqətdə müşrikdir. Çünki bir tərəfdən maddəni aləmin idarəçisi bilir, digər tərəfdən isə pak fitrətinə əsasən Allaha da inanır. Bu səbəbdən fitrətin hökmünə əsasən kafir şəxs də xaliqiyyətdə və rübubiyyətdə şirkə mübtəladır. (“əl-Mizan”, “İsra” surəsi, 23-cü ayənin təfsiri)

**On ikinci fəsil**

**Şirk Quran və hədislərdə**

Quran tövhidlə yanaşı şirkdən də bəhs etmiş və müxtəlif ibarələrlə onun puçluğunu sübuta yetirmişdir. Quran və hədislərdə şirkin amilləri, təsirləri, müşriklərin xüsusiyyətləri və onların aqibəti də araşdırılmışdır. Bu, geniş bir bəhs olduğu üçün bu haqda bir neçə məqama işarə etməklə kifayətlənirik.

**1. Şirkin mütləq inkarı**

Bəzi ayələr Allah üçün hər hansı bir şərikin olmasını aşkar şəkildə inkar edir.

قُلْ إِنَّ صَلاَتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلّهِ رَبِّ الْعَالَمِينَ لاَ شَرِيكَ لَهُ وَبِذَلِكَ أُمِرْتُ وَأَنَاْ أَوَّلُ الْمُسْلِمِينَ

"De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən ilk müsəlmanam!" ("Ənam": 162 və 163)

Bu ayələrə əsasən, peyğəmbərə (s) əmr olunur ki, bəndəlikdə tam ixlasını bildirdikdən sonra Allahın heç bir şəriki olmamasını elan etsin. "La şərikə ləhu" (Onun şəriki yoxdur) cümləsi qeydsiz-şərtsiz olduğu üçün hər növ şərikə şamil olur. Beləliklə, bu ayə müxtəlif növdə şirkləri inkar edir (zatda şirk, feildə şirk, ibadətdə şirk və s.). Həqiqətən, Allahın heç bir cəhətdən şəriki və tayı-bərabəri yoxdur.

Bəzi ayələrdə də hakimiyyət cəhətindən Allahın şəriki olmamasına təkid edilmişdir.

وَقُلِ الْحَمْدُ لِلّهِ الَّذِي لَمْ يَتَّخِذْ وَلَدًا وَلَم يَكُن لَّهُ شَرِيكٌ فِي الْمُلْكِ

"De ki, Özünə heç bir övlad götürməyən, səltənətində heç bir şəriki olmayan Allaha həmd olsun!" ("İsra": 111)

**2. Şirk - əsassız əqidə**

Quran ayələrinə əsasən, şirkin heç bir məntiqi əsası yoxdur. Bu məsələ müxtəlif ayələrdə bəyan edilmişdir. "Ali-İmran" surəsində buyurulur:

سَنُلْقِي فِي قُلُوبِ الَّذِينَ كَفَرُواْ الرُّعْبَ بِمَا أَشْرَكُواْ بِاللّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ سُلْطَانًا

"Tezliklə kafirlərin ürəyinə qorxu salacağıq. Çünki haqqında heç bir dəlil göndərilməmiş bir şeyi Allaha şərik qoşdular". ("Ali-İmran": 151)

وَيَعْبُدُونَ مِن دُونِ اللَّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ سُلْطَانًا

"Allahı qoyub elə bir şeyə ibadət edirlər ki, (Allah ona ibadət edilməsi haqda) heç bir dəlil nazil etməmişdir". ("Həcc": 71)

Quran müxtəlif ayələrdə[63] bu həqiqəti vurğulayır ki, şirk əqidəli yaşayışın heç bir məntiqi əsası yoxdur. Burada belə bir sual meydana çıxır ki, bəs nə üçün tarix boyu bir

[63] "Muminun": 177; "Yusif": 40; "Nəcm": 23; "Əraf": 33.

çox insanlar şirkə üz tutmuşlar? “Quran nöqteyi-nəzərindən şirkin amilləri” bəhsində bu sualın cavabını verəcəyik.

**3. Şirk - bağışlanılmaz günah**

Quranın bəzi ayələrinə əsasən, şirk bağışlanılmaz yeganə günahdır. Nisa surəsində buyurulur:

إِنَّ اللّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء وَمَن يُشْرِكْ بِاللّهِ فَقَدِ افْتَرَى إِثْمًا عَظِيمًا

“Şübhəsiz, Allah Özünə şərik qoşanları bağışlamaz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlayar. Allaha şərik qoşan şəxs, əlbəttə, böyük günah etmiş olur”. (“Nisa”: 48)

Göründüyü kimi, şirkin çirkinliyi o qədərdir ki, digər günahlar, hətta nə qədər böyük günah olsa da, Quran şirki onlardan ayırır, belə ki, bütün günahlar tərəzinin bir gözünə, şirk isə o biri gözünə qoyularsa, şirk bütün günahlardan ağır olacaqdır.[64]

**4. Şirkin aqibəti**

Quran müşrikləri ayıltmaq və onları qorxutmaq üçün bəzən şirkin acınacaqlı aqibətinə işarə edir. Şirkin təsirlərindən biri də yaxşı əməllərin savabının və onların müsbət nəticələrinin puça çıxmasıdır. Odur ki, bir şəxs bütün ömrünü Allaha ibadətlə keçirsə və yaxşı işlərə sərf etsə, sonda bir an olsa belə, müşrik olarsa və dünyadan belə bir vəziyyətdə köçərsə, bütün əməlləri məhv olar. Quran bu haqda buyurur:

وَلَقَدْ أُوحِيَ إِلَيْكَ وَإِلَى الَّذِينَ مِنْ قَبْلِكَ لَئِنْ أَشْرَكْتَ لَيَحْبَطَنَّ عَمَلُكَ وَلَتَكُونَنَّ مِنَ الْخَاسِرِينَ

“Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: “Əgər şərik qoşsan, bütün əməlin puça çıxacaq və mütləq zərər çəkənlərdən olarsan!” (“Zümər”: 65)

Aydındır ki, ayə əslində peyğəmbərlərin ümmətlərinə müraciət edir. Lakin şirkin faciəli nəticələrini vurğulamaq üçün belə bəyan edir ki, hətta əgər peyğəmbərlər də şirk yolunu tutsalar, bütün zəhmətləri və yaxşı əməlləri puça çıxacaq, ziyandan başqa heç bir nəticəsi olmayacaq.

Digər bir ayədə bildirilir ki, müşriklərin aqibəti cəhənnəm odudur.

مَن يُشْرِكْ بِاللّهِ فَقَدْ حَرَّمَ اللّهُ عَلَيهِ الْجَنَّةَ وَمَأْوَاهُ النَّارُ وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَارٍ

“Hər kim Allaha şərik qoşarsa, Allah cənnəti ona haram edər və onun yeri oddur. Zalımların heç bir yardımçısı yoxdur”. (“Maidə”: 72)

**Quran nöqteyi-nəzərindən şirkin amilləri**

Qeyd etdik ki, tövhid bir tərəfdən bəşərin fitrəti ilə yaradılmışdır və digər tərəfdən isə müxtəlif əqli dəlillər də bu həqiqəti təsdiq edir. Sual olunur ki, nə üçün həmişə bəzi

---

[64] Təfsir alimlərindən bir qismi “Zümər” surəsinin 53-cü ayəsinə görə (Allah bütün günahları bağışlayır) bu qənaətdədirlər ki, Nisa surəsinin 48-ci ayəsində müşrik şəxsin tövbə etmədən digər səbəblər vasitəsilə, o cümlədən şəfaətlə bağışlanmayacağı nəzərdə tutulur. Amma digər günahlarının, tövbə olmasa belə, şəfaət vasitəsi ilə bağışlanması mümkündür.

insanlar tövhid yolundan azıb şirkə üz tutmuşlar? Quran bu əhəmiyyətli sualın cavabında şirkin amillərinə işarə edir ki, burada qısa şəkildə onlara işarə edirik.

**1. Mövhumata uymaq**

Yuxarıda qeyd etdik ki, Quran şirkin heç bir məntiqi əsası olmadığını bildirir. Bu səbəbdən, şirkə yönəlmə dəlildən deyil, puç gümandan qaynaqlanır. Bu nöqteyi-nəzərdən demək olar ki, Quranda şirkin amillərindən biri puç gümanlara uymaqdır. Öncə qeyd etdiyimiz ayələrdən əlavə aşağıdakı ayələr də bu həqiqəti göstərir.

أَلا إِنَّ لِلّهِ مَن فِي السَّمَاوَات وَمَن فِي الأَرْضِ وَمَا يَتَّبِعُ الَّذِينَ يَدْعُونَ مِن دُونِ اللّهِ شُرَكَاء إِن يَتَّبِعُونَ إِلاَّ الظَّنَّ وَإِنْ هُمْ إِلاَّ يَخْرُصُونَ

"Bilin ki, göylərdə və yerdə nə varsa hamısı Allahındır. Allahdan başqasına tapınanlar həqiqətdə Allaha qoşduqları şəriklərə tabe olmazlar. Onlar ancaq zənnə uyar və yalandan başqa bir şey deməzlər". ("Yunis": 66)

Bu ayə hər şeydən öncə Allahın mütləq hakimiyyətinə təkid edərək yerdə və göydə olan bütün varlıqların Allah-taalanın hakimiyyətinin əhatəsində olduğunu bəyan edir (bu əqidə bəzən müşriklər tərəfindən də qəbul edilir). Ayənin ardında bu məsələ vurğulanır ki, müşriklər həqiqətdə Allaha şərik qoşduqlarına itaət etmirlər (çünki Allahın şərik və tayı-bərabər yoxdur. Onların məbudları öz xülyalarının uydurduğu şeylərdir). Onlar yalnız öz gümanlarına uymuş və güman əsasında şirki seçmişlər. Beləliklə, Quranın məntiqinə əsasən, tövhiddən azıb şirkə yönəlmənin əsas mənşəyi xülyalara uymaqdır. Çünki şirk əqli və elmi əsasa söykənmir. Bu mətləb digər bir ayədə də bəyan edilmişdir.

وَمَا يَتَّبِعُ أَكْثَرُهُمْ إِلاَّ ظَنًّا إَنَّ الظَّنَّ لاَ يُغْنِي مِنَ الْحَقِّ شَيْئًا إِنَّ اللّهَ عَلَيمٌ بِمَا يَفْعَلُونَ

"Onların əksəriyyəti ancaq zənnə uyar, zənn isə əsla həqiqət ola bilməz. Şübhəsiz, Allah onların nələr etməkdə olduğunu biləndir!" ("Yunis": 36)

Öncəki ayələrdə bütpərəstlərin sapqınlığı qeyd olunduqdan sonra bu ayədə deyilir ki, müşriklərin yeganə dəlili puç xəyallardır. Digər bir ayədə belə bir həqiqət açıqlanır ki, müşriklərin puç xəyallara tabe olmaları onların nəfsani istəklərindən qaynaqlanır. Beləliklə, Quran nöqteyi-nəzərindən, bütpərəstlər həqiqətdə öz nəfs adlı bütlərinə ibadət edirlər, digər bütlər də məhz bu böyük bütün məhsuludur.

إِنْ هِيَ إِلَّا أَسْمَاء سَمَّيْتُمُوهَا أَنتُمْ وَآبَاؤُكُم مَّا أَنزَلَ اللَّهُ بِهَا مِن سُلْطَانٍ

"Bu bütlər sizin və atalarınızın (uydurub) qoyduğunuz adlardan başqa heç bir şey deyildir. Allah onlara (ibadət edilməsinə) dair heç bir dəlil göndərməmişdir". ("Nəcm": 23)

**2. Sensualizm[65] təfəkkürü və fövqəltəbii aləmdən qəflət**

Quran nöqteyi-nəzərindən insanların şirkə yönəlməsində əsas rol oynayan digər bir amil də budur ki, onlar maddi aləmə qapılıb qalaraq onunla üns tutur, nəhayət qeyri-

[65] İdrak üçün yalnız hissi qavrayışı, təcrübəni əsas qəbul etmək (Red.)

maddi aləmi tamamilə unudur, yaxud onu inkar edirlər. Quran bu əsas amilin bəyanında müşriklərin yersiz təvəqqelərinə işarə edir. Bu təvəqqelər, onların Allahı tanıma mövzusunda düşüncələrindən irəli gəlir. Müşriklər mələkləri görmək və hətta bəzən Allahı görməyi tələb edirmişlər. Quran bu haqda buyurur:

وَقَالَ الَّذِينَ لَا يَرْجُونَ لِقَاءنَا لَوْلَا أُنزِلَ عَلَيْنَا الْمَلَائِكَةُ أَوْ نَرَى رَبَّنَا لَقَدِ اسْتَكْبَرُوا فِي أَنفُسِهِمْ وَعَتَوْ عُتُوًّا كَبِيرًا

"Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər: "Bizə mələklər endirilməli, yaxud biz Rəbbimizi görməliyik". – dedilər. Həqiqətən, onlar özləri barəsində təkəbbürə qapıldılar və azğınlaşıb həddi çox aşdılar". ("Furqan": 21)

Şübhəsiz, bu cür yersiz tələblər materializm düşüncəsindən qaynaqlanır. Əlbəttə bu məsələ ərəb müşriklərinə məxsus deyildi. Hətta bu günümüzdə də bəzi sensualist alimlər təkəbbürcəsinə elan edirlər ki, biz Allahı labaratoriyalarda görmədiyimiz üçün ona iman gətirə bilmərik.

Bəzi ayələr də kitab əhlinin peyğəmbərimizdən (s) yersiz tələblərinə işarə edərək bildirir ki, yəhudulər Musadan (ə) bundan da artıq mənasız tələblər etmişlər.

يَسْأَلُكَ أَهْلُ الْكِتَابِ أَن تُنَزِّلَ عَلَيْهِمْ كِتَابًا مِّنَ السَّمَاء فَقَدْ سَأَلُواْ مُوسَى أَكْبَرَ مِن ذَلِكَ فَقَالُواْ أَرِنَا اللّهِ جَهْرَةً فَأَخَذَتْهُمُ الصَّاعِقَةُ بِظُلْمِهِمْ ثُمَّ اتَّخَذُواْ الْعِجْلَ مِن بَعْدِ مَا جَاءتْهُمُ الْبَيِّنَاتُ

"Kitab əhli sənin onlara göydən bir kitab endirməyini istəyirlər. Halbuki onlar (vaxtilə) Musadan bundan daha böyüyünü istəmiş və: "Bizə Allahı aşkar göstər!" – demişdilər... Sonra onlara açıq-aydın möcüzələr gəldiyi halda, buzova sitayiş etmişdilər". ("Nisa": 153).

Bəzi təfsir alimlərinin fikrincə, kitab əhli istəyirdi ki, onlar üçün göydən kitab nazil olsun, onu gözləri ilə görüb əllərilə hiss etsinlər. Başqa bir qrup təfsirçinin qənaətinə görə, onlar Quranın birbaşa nazil olmasını istəyirdilər. Hər halda, Quran onların cavabında buyurur ki, bu bəhanələr keçmiş zamanlarda da olmuşdur. Belə ki, bəni-İsrail Musadan (ə) Allahı onlara göstərməsini tələb edib Allahı öz maddi gözlərilə görmək istəyirdilər. Allahın maddi gözlə görünməsindən məyus olduqdan sonra bütlərə üz tutub bütpərəst oldular.

Firon da bu materializm düşüncəsindən istifadə edib Musanın (ə) dəvətini zərərsizləşdirmək üçün Hamana əmr edir ki, yüksəkliyindən Allahı görə biləcək uca bir qəsr inşa etsin.

وَقَالَ فِرْعَوْنُ يَا أَيُّهَا الْمَلَأُ مَا عَلِمْتُ لَكُم مِّنْ إِلَهٍ غَيْرِي فَأَوْقِدْ لِي يَا هَامَانُ عَلَى الطِّينِ فَاجْعَل لِّي صَرْحًا لَّعَلِّي أَطَّلِعُ إِلَى إِلَهِ مُوسَى وَإِنِّي لَأَظُنُّهُ مِنَ الْكَاذِبِينَ

"Firon dedi: "Ey əyanlar, mən sizə özümdən başqa bir allah tanımıram. Ey Haman, mənim üçün od qalayıb palçıqdan kərpic bişir və bir qəsr tikdir ki, bəlkə, Musanın tanrısını görə bildim. Hərçənd mən onu, həqiqətən, yalançı sayıram!" ("Qəsəs": 38)

Şübhəsiz, Fironun dediyi sözlərə özü inanmırdı. Çünki o yaxşı bilirdi ki, özü insanların Allahı ola bilməz və Musanın (ə) Allahı da səmada məskunlaşan maddi bir

varlıq deyil. Fironun dediyi bu sözlər o zamankı Misir cəmiyyətinə sensualist təfəkkürün hakim olmasından xəbər verir. Çünki Fironun bu sözünün insanlarda təsiri olmasaydı, şübhəsiz onu dilə gətirməzdi.

Quranın digər ayələri, ərəb müşriklərinin materialist əqidələrini geniş təfsilatla bəyan edir. İsra surəsində deyilir:

وَقَالُواْ لَن نُّؤْمِنَ لَكَ حَتَّى تَفْجُرَ لَنَا مِنَ الأَرْضِ يَنبُوعًا... أَوْ تَأْتِيَ بِاللّهِ وَالْمَلآئِكَةِ قَبِيلاً

"Dedilər: Bizə yerdən bir bulaq çıxarmayınca, yaxud Allahı və mələkləri açıq-aşkar qarşımıza gətirməyincə sənə iman gətirməyəcəyik". ("İsra": 90 və 92)

Ayənin məzmununa əsasən, müşriklər bəhanə üzündən münbit olmayan Məkkədə yerdən su çıxarmaq kimi əsassız tələblər edirdilər. Bu mənasız tələblərlə bərabər, peyğəmbərdən (s) Allah və mələkləri onlara göstərməsini də istəyirdilər. Sonuncu istək bunu göstərir ki, onlar Allahı və mələkləri cisim hesab edir, onları hisslə görə bilmələrini güman edirdilər.

Beləliklə, qeyd olunan ayələrin məcmusundan belə nəticə alırıq ki, sensualist təfəkkür şirkə meylin əsas amillərindən və peyğəmbərlərin tövhid çağırışına əsas maneələrdən biridir.

**3. Aldadıcı mənfəətlər**

İnsan mənfəət axtaran bir varlıqdır və öz fəaliyyətlərinin bir çoxunu mənfəət kəsb etmək niyyətilə yerinə yetirir. Lakin bir çox hallarda həqiqi mənfəəti düzgün təyin edə bilməyərək məlumatsızlıqdan ziyanı faydalı hesab edir. Quran nöqteyi-nəzərindən, şirkə yönəlmənin amillərindən biri də xəyali və yalançı mənfəətlər axtarmaqdır. Müxtəlif ayələrdə bəyan edilir ki, müşriklər aldadıcı mənfəətləri əldə etmək naminə şirki seçir və Allahdan başqasına ibadət edirdilər. Yalançı mənfəətlərin ən əsası aşağıdakılardan ibarətdir:

a) Allah yanında şəfaətçilik. Müşriklərin mənfəət güman etdikləri məsələlərdən biri bu idi ki, onların məbudları Allah yanında onlara şəfaətçidirlər. Quran bu haqda buyurur:

وَيَعْبُدُونَ مِن دُونِ اللّهِ مَا لاَ يَضُرُّهُمْ وَلاَ يَنفَعُهُمْ وَيَقُولُونَ هَؤُلاء شُفَعَاؤُنَا عِندَ اللّهِ قُلْ أَتُنَبِّئُونَ اللّهَ بِمَا لاَ يَعْلَمُ فِي السَّمَاوَاتِ وَلاَ فِي الأَرْضِ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يُشْرِكُونَ

Onlar Allahı qoyub özlərinə nə bir xeyir, nə də bir zərər verə bilən bütlərə ibadət edir və: "Bunlar Allah yanında bizdən ötrü şəfaət edənlərdir!" – deyirlər. De: "Allaha göylərdə və yerdə (Özünə şərik) bilmədiyi bir şeyimi xəbər verirsiniz? Allah Özünə şərik qoşulan bütlərdən uzaqdır və ucadır!" ("Yunis": 18)

Ayə əvvəlcə bütlərin hər hansı bir təsiri, xeyri və ziyanı olmasını inkar edir, sonra isə müşriklərin onları şəfaətçi bilmələrinə işarə edir və belə bir şeyin həqiqəti olmadığını bəyan edərək onların əqidəsini puça çıxarır.

b) Kömək istəmək. Hər bir insan öz dünyəvi həyatında müxtəlif çətinliklərlə qarşılaşır. Bəzi insanlar belə güman edirlər ki, Allahın yaratdıqlarından kömək və dəstək

ala bilərlər və bu səbəbdən onlara ibadət edirlər. Buna görə də Quran müşriklərin öz məbudlarından kömək diləmək ümidini, şirkə meylin amillərindən hesab edir. Yasin surəsində deyilir:

وَاتَّخَذُوا مِن دُونِ اللَّهِ آلِهَةً لَعَلَّهُمْ يُنصَرُونَ

"Yardım olunmaq ümidi ilə Allahdan başqa tanrılar seçirlər". ("Yasin": 74)

c) İzzət və başıucalıq. Müşriklərin öz məbudlarından gözlədikləri mənfəətlərdən biri də budur ki, bütlər (məbudlar) onların izzətinə və başıucalığına səbəb olsunlar. Quran bu haqda buyurur:

وَاتَّخَذُوا مِن دُونِ اللَّهِ آلِهَةً لِّيَكُونُوا لَهُمْ عِزًّا

"İzzətlərinə səbəb olsun deyə Allahdan başqa tanrılar seçdilər". ("Məryəm": 81)

**4. Nəfsani istəklər və şeytanın vəsvəsələri**

Şirkə yönəlmənin digər bir amili də nəfsani istəklərə və şeytanın vəsvəsələrinə qulaq asmaqdır. Musa (ə) Samiridən buzovu düzəldib insanları ona ibadət etməyə çağırmasından hədəfini soruşduqda, o, belə dedi:

قَالَ بَصُرْتُ بِمَا لَمْ يَبْصُرُوا بِهِ فَقَبَضْتُ قَبْضَةً مِّنْ أَثَرِ الرَّسُولِ فَنَبَذْتُهَا وَكَذَلِكَ سَوَّلَتْ لِي نَفْسِي

"Dedi: Mən onların görə bilmədiyi şeyi görürdüm. Mən rəsulun ayaq izindən bir ovuc götürüb, o heykələ saldım. Nəfsim məni belə aldatdı". ("Taha": 96)

Beləliklə, Samiri öz işini bəyan etdikdən sonra etiraf edir ki, nəfsinə itaət nəticəsində bütpərəstliyə üz tutmuşdur.

Digər tərəfdən, şanapipik Səba qövmünün bütpərəstliyi haqda Süleymana (ə) xəbər verdikdə belə deyir:

وَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ أَعْمَالَهُمْ فَصَدَّهُمْ عَنِ السَّبِيلِ فَهُمْ لَا يَهْتَدُونَ

"Şeytan əməllərini onlara gözəl göstərmiş, onları yoldan sapdırmışdır. Buna görə də haqq yolunu tapa bilmirlər". ("Nəml": 24)

**5. Başqalarını təqlid etmək**

Şirk və bütpərəstliyin amillərindən biri də ata-babaları kor-koranə təqlid etmək və ya üstün millətlərə nadancasına tabe olmaqdır. Bu amil o qədər əhəmiyyətlidir ki, müşriklər onu öz şirklərinin əsası kimi qeyd edirlər. Quran bu amilin təsirini müxtəlif ayələrdə qeyd etmişdir. "Zuxruf" surəsində bəyan edilir ki, müşriklər ata-babalarının dini vasitəsilə öz bütpərəstliklərini əsaslandırırlar:

بَلْ قَالُوا إِنَّا وَجَدْنَا آبَاءنَا عَلَى أُمَّةٍ وَإِنَّا عَلَى آثَارِهِم مُّهْتَدُونَ

Xeyr. Onlar: "Biz atalarımızı bir din üzərində (bütpərəstlikdə) gördük və biz də onların ardınca getdik!" – deyirlər. ("Zuxruf": 22)

Quran bu həqiqəti də bəyan edir ki, keçmişdəkiləri təqlid etmək peyğəmbər (s) zamanının müşriklərinə məxsus deyil, əksinə bütün qövmlər və millətlər arasında yayılmış ümumi bir məsələdir.

وَكَذَلِكَ مَا أَرْسَلْنَا مِن قَبْلِكَ فِي قَرْيَةٍ مِّن نَّذِيرٍ إِلَّا قَالَ مُتْرَفُوهَا إِنَّا وَجَدْنَا آبَاءنَا عَلَى أُمَّةٍ وَإِنَّا عَلَى آثَارِهِم مُّقْتَدُونَ

"Biz səndən əvvəl hər hansı bir məmləkətə (Allahın əzabı ilə) qorxudan bir peyğəmbər göndərdiksə, onun naz-nemət içində yaşayan böyükləri sadəcə olaraq: "Biz atalarımızı bir din üzərində gördük və biz də (təqlidlə) onların ardınca getməkdəyik!" – dedilər". ("Zuxruf": 23)

Bəzi ayələrdə İbrahim (ə),[66] Hud (ə),[67] Saleh (ə),[68] Nuh (ə)[69] və Musanın (ə) qövmləri kimi, xüsusi qövmlərin müşriklərinin təqlidindən söhbət açılır.

Beləliklə, Quran nöqteyi-nəzərindən keçmiş nəsillərin şirk əqidələri ilə üns tutub təəssübkeşliklə onların təfəkkürünə tabe olmaq şirkin cəmiyyətdə yayılmasının əsas səbəblərindən biridir.

Qeyd etmək lazımdır ki, Quranın digər ayələrində şirkin meydana gəlməsinin başqa amillərinə də işarə olunmuşdur. Amma ixtisarı nəzərə alıb onları qeyd etmirik.

**Quranın şirklə hərtərəfli mübarizəsi**

Hər hansı bir fenomenlə mübarizənin məntiqə uyğun yolu onun amilləri ilə mübarizədir. Bu səbəbdən, Quran şirkin amillərini bəyan edir və hər biri ilə ayrı-ayrılıqda mübarizə edir. Bu həqiqət Quran təlimlərinin dəqiq və əhatəli olmasına sübutdur.

Quran bir tərəfdən zənnin və gümanın yetərsizliyini vurğulayaraq insanı elmə və yəqinə dəvət edir, digər tərəfdən müxtəlif ayələrdə fövqəltəbii aləmin həqiqətlərini insanlara göstərib onları məhdud təbiət aləmindən sonsuz fövqəltəbii aləmə yönəltməyə və onları sensualist təfəkkürdən uzaqlaşdırmağa çalışır. Quran bir çox yerlərdə bütlərin acizliyinə və müşriklərin ibadətlərinin nəticəsiz olmasına təkid edərək aydın dəlillərlə bəyan edir ki, müşriklərin bütlərdən umduqları mənfəətlər real deyil.

Quran, həmçinin, kor-koranə təqlidin mənasız olmasına təkid edir və sübut edir ki, bu təqlidin heç bir məntiqi əsası yoxdur.

Beləliklə, Quran ayələri bir tərəfdən şirkin psixoloji və sosioloji amillərini əhatəli şəkildə təhlil edir, digər tərəfdən bu amillərlə əsaslı mübarizə aparır.

**On ikinci fəslin xülasəsi**

1. Quran Allahın hər hansı bir şərikinin olmasını inkar edir və şirkin bütün qisimlərini puç hesab edir.

2. Quran nöqteyi-nəzərindən şirk tam əsassız bir əqidədir və elə böyük bir günahdır ki, tövbəsiz bağışlanması mümkün deyildir.

---

[66] "Bəqərə: 169; "Maidə: 104.

[67] "Şuəra: 70-74.

[68] "Əraf: 70.

[69] "Hud: 62.

3. Quran bəyan edir ki, şirkin aqibəti əməllərin məhv olmasından və cəhənnəm atəşində əbədi qalmaqdan başqa bir şey deyildir.

4. Qurani-kərim şirkə yönəlmənin amillərindən geniş şəkildə söhbət açmışdır. Quran ayələrinə əsasən, xəyali və puç gümanlara uymaq, sensualist təfəkkür və fövqəltəbii aləmdən uzaqlaşmaq, həmçinin bütlərin Allah yanında şəfaətçi olmaları, onların köməyindən bəhrələnmək və s. kimi aldadıcı mənfəətlər axtarmaq da şirkin amillərindəndir. Quran nöqteyi-nəzərindən nəfsani istəklərə, şeytanın vəsvəsələrinə tabe olmağın, eləcə də kor-koranə təqlidin şirkə yönəlmədə böyük rolu vardır.

5. Qurani-kərim şirkin amillərini araşdırmaqla yanaşı, həm də onlarla əsaslı mübarizə aparır.

## Üçüncü bölüm
## Allahın sifətləri

**Birinci fəsil**

**Müqəddimə**

Buraya qədər Allahı tanıma mövzusunun iki fəslini araşdırdıq. Birinci fəsildə Allahın varlığı, fitri və əqli idrak, eləcə də Allahı tanımanın əsas yollarından söhbət açdıq. İkinci fəsildə Allahı tanıma mövzusunun əsası sayılan tövhid mövzusunu araşdırdıq. Hazırkı mövzuda isə Allahın sifətlərinə aid məsələləri araşdıracağıq.

Keçən bəhslərdə qeyd etdik ki, insan iki cür idrakla Allahı dərk edir:

1. Vasitəsiz elm. Bu elm zəruri varlıqla mümkün varlıq arasındakı səbəbiyyət əlaqəsindən, başqa sözlə insanın bütün varlığı ilə Allaha bağlılığından qaynaqlanır.

2. Vasitəli elm. Bu elm insanın nəzəri idrak qüvvəsi və zehindəki anlayışlar vasitəsilə meydana gəlir. Qeyd etmişdik ki, vasitəli elmlə Allahın zatını dərk etmək mümkün deyildir və onun idrak obyekti təkcə Allahın sifətləri və feilləridir. Bu səbəbdən, Allaha vasitəli elm, yalnız Allahın sifətləri və feilləri ilə bağlı olan anlayışlar vasitəsilə hasil olur. Beləliklə, Allahın sifətləri bəhsinin əhəmiyyətinə və onun Allahı tanımaqda rolunu başa düşmək olar. Çünki Allahın sifətlərinə olan dərkimiz nə qədər dərin və əhatəli olarsa, Allaha elmimiz də bir o qədər dəqiq və kamil olar.

Allahın varlığının sübutları mövzusunda zəruri varlıq sifətilə tanış olduq. Lakin bilmək lazımdır ki, Allah-taala bir çox sifətlərə malikdir. Allahı tanımaq üçün bu sifətləri tanımaq zəruridir. Buna görə də bir neçə sifəti tanımaqla kifayətlənmək olmaz.

Allahın sifətləri bəhsinin əhəmiyyətini çatdıran digər bir məsələ budur ki, bir çox dindarlar vahid xaliqə inansalar da, bu vahid xaliqin sifətləri barəsində onlar arasında fikir ayrılığı vardır. Bu fikir ayrılığı bəzən o qədər dərin olur ki, sanki onlardan hər biri müxtəlif allahlara ibadət edirlər. Məsələn, bəziləri Allahı bədən üzvlərinə malik hesab edir və Onun göylə yer arasında gedib-gəldiyini güman edirlər. Bəziləri isə Allahı bu cür sifətlərdən pak bilir. Bu iki növ fikir, şübhəsiz, ziddiyyətli və fərqli fikirlərdir. Eləcə də bəziləri Allahın qüdrətini məhdud və gələcək hadisələrdən xəbərsiz hesab edir. Digər bir qisim isə Allahın sonsuz qüdrətinə və sonsuz elminə inanır. Allah haqqında bu iki cür təfəkkür şübhəsiz ki, bir-birindən fərqlidir.

Beləliklə, dindarların Allahın sifətləri ilə bağlı böyük ixtilafını nəzərə alıb bu mövzunu araşdırmağı lazım bilirik. Ümid edirik ki, bu mövzunun araşdırılması daha düzgün və əhatəli nəzərin tapılmasına böyük təsir göstərəcəkdir.

**İsim, sifət və feil**

Allahı tanıma mövzusunda Allahın isimləri (adları), sifətləri və feilləri terminləri ilə çox rastlaşırıq. Diqqəti cəlb edən məsələ budur ki, bu terminlər müxtəlif elmlərdə bəzən fərqli mənalarda işlədilir və vahid bir mənaya malik deyil. Bəhs etdiyimiz mövzu kəlam

elmində olduğundan bizim üçün önəmli olan kəlam alimlərinin bu terminlərdən nəzərdə tutduqları mənadır. Kəlam kitablarında "Allahın sifətləri" termini geniş yayılmışdır. Bu termin bəzən "isim" termini ilə sinonim olaraq işlənir. Belə bir halda alim, qadir, həyy, mürid və s. Allahın sifətləri və isimləri cərgəsində yer tutur. Bəzən də bu iki termini bir-birindən fərqləndirib elm, qüdrət, həyat və s.-ni Allahın sifətlərindən, alim, qadir, həyy və s.-ni isə Allahın isimlərindən sayırlar.

Qeyd etmək lazımdır ki, burada başqa bir termin də vardır və bu terminə əsasən, isim dedikdə, xüsusi isim olaraq Allaha dəlalət edən sözlər nəzərdə tutulur, sifət dedikdə, isə Allahın vəsfləri nəzərdə tutulur. Bu terminə əsasən, Allahın isimlərinin sayı çox azdır və təkcə Allah kəlməsinə şamil olur, Allahın sifətləri isə çoxdur və Alim Həyy (diri), Mürid, Qadir və s. kimi sözlər Allahın sifətləri sayılır.

Hər halda, burada sifət dedikdə, Allaha aid edilən anlayışlar nəzərdə tutulur.

**Kəlam elmində Allahın sifətləri bəhsinin əhatə dairəsi**

Allahın sifətləri məsələsi əhəmiyyətli olduğu üçün kəlam kitablarında geniş şəkildə araşdırılır və bu məsələnin müxtəlif aspektləri vardır ki, bəzən dəqiq şəkildə bir-birindən fərqləndirilmədiyinə görə bəhsin çətinləşməsinə səbəb olur. Biz burada məsələnin müxtəlif cəhətlərini bir-birindən ayırmağa və beləliklə, onu nizamlı şəkildə əziz oxuculara təqdim etməyə çalışacağıq.

Allahın sifətləri mövzusunu iki mərhələdə araşdırmaq olar:

1. **Ümumi məsələlər.** Bu mərhələdə hər hansı bir xüsusi sifəti nəzərə almadan sifətlərin ümumi və oxşar xüsusiyyətləri araşdırılır. Bu bəhsləri *"Allahın sifətləri ilə bağlı ümumi məsələlər"* adlandırırlar.

2. **Xüsusi məsələlər.** Sifətlərin oxşar cəhətlərini araşdırdıqdan sonra hər bir sifətin o cümlədən elm, qüdrət, həyat və s. səciyyəvi xüsusiyyətləri araşdırılır.

Qeyd etmək lazımdır ki, hər iki mərhələdə qeyd olunan məsələlər aşağıdakı iki hissədə bəhs olunur:

1. **Sifətlərin isbatı.** Burada Allahda bir sıra sifətlərin olması isbat edilir. Bu bəhsdə ilk öncə Allahın ümumi şəkildə kamal sifətlərinə malik olması isbat edilir, sonra isə Allahın ayrı-ayrı sifətlərə malik olması təfərrüatı ilə sübuta yetirilir. Məsələn, sonuncu mərhələdə Allahın alim, qadir, həyy və bu kimi sifətlərə malik olması bir və ya bir neçə dəlillə isbat edilir.

2. **Sifətlərin mənasının və xüsusiyyətlərinin izahı.** Burada Allahın sifətlərinin mənası və həqiqəti açıqlanır, həmçinin Allahın sifətləri ilə məxluqların sifətlərini fərqlənirən cəhətlər izah olunur.

Burada münasib bilirik ki, Allahın sifətləri ilə bağlı məsələlərin bəhs olunacağı bölümlərə işarə edək, sonra isə mövzumuzu davam etdirək.

“Allahın sifətləri ilə bağlı ümumi məsələlər” adlanan birinci mərhələnin bəhsləri əsasən aşağıdakılardan ibarətdir.

1. Sifətlərin qisimləri. Burada kəlam alimlərinin Allahın sifətləri ilə bağlı bəhs etdikləri təsnifatdan danışılır və hər birinə aid olan terminlər açıqlanır.

2. Allahın sifətlərini tanımağın mümkünlüyü. Bu bölümdə Allahın sifətlərini tanımaq və onları dərk etməyin mümkün olub-olmaması və bu zəmində olan bir sıra kəlami nəzəriyyələr araşdırılır.

3. Sifətləri tanımağın yolu. Sifətləri tanımağın mümkünlüyü bəyan olunduqdan sonra bunun hansı gnoseoloji metodlarla həyata keçməsi haqda söhbət açılır.

4. Sifətlərin semantik izahı. Burada Allahla məxluqlar arasında müştərək olan sifətlərin Allaha isnad verilərkən hansı məna daşıdığı və Allahın sifətləri ilə məxluqların sifətləri arasındakı məna fərqi araşdırılır.

5. Kamal sifətlərinin ümumi şəkildə sübutu. Burada Allahın bütün kamal sifətlərinə malik olmasının ümumi şəkildə sübut edilir.

6. Zatın sifətlərlə obyektiv əlaqəsi. Burada bəyan edilir ki, Allahın sifətləri zatla eynidir və onlar arasında ontoloji fərq yoxdur. Bu bəhs adətən sifətdə tövhid adı ilə araşdırılır.

7. Allahın sifətlərinin təqlidi məsələ olması. Burada əsas sual bundan ibarətdir ki, Allahı vəsf edərkən ancaq nəqli metoddan istifadə etmək, yəni yalnız Quran və hədislərdə mövcud olan sifətlərlə kifayətlənmək lazımdır, yoxsa Allahı hər cür kamal sifətləri ilə vəsf etmək olar?

"Allahın sifətləri ilə bağlı xüsusi məsələlər" adlı ikinci mərhələdə isə bəzi əsas sifətlər aşağıdakı bölümlərdə bəhs ediləcək:

1. Sifətlərin mənasının geniş izahı;
2. Allahın hər bir sifətinə ayrıca dəlillər;
3. Sifətlər haqqında sualların araşdırılması.

İndi isə çalışacağıq ki, qeyd etdiyimiz bütün məsələləri xülasə də olsa araşdıraq.

**Allahın sifətlərinin təsnifi**

Kəlam elmində Allahın sifətlərini müxtəlif cəhətlərdən təsnif edir və hər bir qismə xüsusi ad verirlər. Bu səbəbdən digər mövzulara daxil olmazdan öncə bu qisimlərə işarə etməyi lazım bilirik.

1. Sübuti və səlbi sifətlər. Sübuti və səlbi sifətlər Allahın sifətləri mövzusunda əsas yer tutur. Sübuti sifətlər Allahın kamilliklərini əks etdirir və bir həqiqətin Allahın zatında olmasını çatdırır. Əksinə olaraq, səlbi sifətlər yoxluğa və naqisliyə dəlalət edən anlayışların Allahın zatından uzaq olmasını bəyan edir. Naqislik və çatışmazlıq özü də kamilliyin inkarı olduğu üçün səlbi sifətlər kamilliyin inkarının inkarı mənasınadır. Digər tərəfdən, inkarın inkarı isbatla bərabər olduğundan nəticə alırıq ki, səlbi sifətlər də

Allahın kamilliyinə dəlalət edir. Beləliklə, elm, qüdrət, iradə və həyat kimi sifətlər sübuti sifətlər, cisim olmamaq, hərəkət etməmək kimi anlayışlar isə səlbi sifətlər sayılır.

Deyilənlərdən aydın olur ki, səlbi sifətlər Allahın zatında nöqsan və qüsurun olması mənasına deyil, əksinə onlar da sübuti sifətlər kimi kamilliyə dəlalət edir. Çünki səlbi sifətlər Allahın məqamına layiq olmayan sifətləri Allaha isnad vermir. Məsələn, hər hansı bir varlığın hərəkət sifətinə malik olması onun naqisliyini çatdırır. Çünki hərəkət edən şeyin ilk öncə hansısa bir kamala malik olmamasına və sonradan hərəkət vasitəsilə həmin kamala çatmasına dəlalət edir. Şübhəsiz ki, bu, Allahın mütləq kamilliyi və zəruri varlıq olması ilə ziddir. Odur ki, belə bir anlayış Allahın zatından uzaqdır. Lakin bu inkar, yəni hərəkətin inkarı sonda kamilliyin isbatı ilə nəticələnir. Çünki nöqsanın inkarı kamalın isbatı deməkdir. Beləliklə, hərəkətdə olmamaq səlbi sifətlərdən sayılır.

Cismanilik, hərəkət, maddilik və bu kimi sifətlər Allahdan inkar edildiyi üçün bəzən belə hesab edirlər ki, cismanilik, hərəkət, maddilik və s. Allahın səlbi sifətlərindəndir. Amma bir az düşünsək bu fikrin dəqiq olmadığını başa düşərik. Çünki səlbi sifətlər də sübuti sifətlər kimi Allaha isnad verilir. Buna görə də əslində cisim olmamaq, hərəkətdə olmamaq, maddə olmamaq və bu kimi anlayışlar səlbi sifətlər sayılmalıdır. Beləliklə, səlbi sifətlər sifətlərin Allahdan inkarı mənasında deyil. Bu sifətlər, Allah-taaladan naqisliyin və acizliyin inkarı mənasını özündə əks etdirir. Bu iki məna arasında incə bir fərq vardır. Sual oluna bilər ki, səlbi sifətlər nəticə etibarilə kamil sifətlərin sübutu ilə nəticələnirsə, bəs nə üçün onları birbaşa olaraq sübuti sifət adı ilə bəyan etməyib naqislik bildirən hər hansı bir sifəti qeyd edib sonradan onu inkar etməklə qısa yolu uzaqlaşdırmışlar?

Sualın cavabı budur ki, şübhəsiz, hər bir səlbi sifətdə sübuti sifət də gizlənir. Lakin ümumi şəkildə insanların zehni səlbi sifətlərlə daha çox tanışdır və səlbi anlayışlar dildə daha çox işlənir. Məsələn, cismaniliyin inkarı mücərrədlik deməkdir. Lakin insanlar ümumiyyətlə "cisim olmamaq" anlayışı ilə daha çox tanışdırlar, onun ekvivalenti olan "mücərrədlik" anlayışı ilə tanış deyildirlər.

Səlbi sifətlərlə bağlı digər bir məsələ budur ki, bu sifətlər heç bir vasitə olmadan nöqsanları Allahdan uzaqlaşdırır. Elə bu səbəbdən də Allahla yaratdıqları arasında fərqi daha qabarıq şəkildə əks etdirir. Cisim olmamaq, məkansızlıq və zamansızlıq anlayışı Allahı cisim olan, məkanda və zamanda yerləşən varlıqlardan açıq-aşkar şəkildə fərqləndirir. Halbuki sübuti sifətlər belə bir fərqi aşkar dərəcədə göstərə bilmir.

2. Zati və feili sifətlər. Digər bir bölgüyə əsasən, Allahın sifətlərini zati və feli sifətlərə bölmək olar.

Allahın hər hansı bir kamal cəhətini nəzərə almaqla dərk olunan və Allaha isnad verilən sifətlərə zati sifətlər deyilir. Məsələn, Allahın kamal cəhətlərindən biri onun hər bir mümkün işə qadir olmasıdır. Zehin bu kamilliyi nəzərə alıb qüdrət anlayışını dərk edir və onu Allaha isnad verir. Feli sifət isə Allahın digər varlıqlarla rabitəsindən dərk

edilir. Məsələn, Allahla digər varlıqlar arasında icad əlaqəsi vardır, yəni Allah onları yaradır və yoxluqdan vücuda gətirir. Bu əlaqəni nəzərə alıb yaratmaq anlayışını dərk edir və Allahı Yaradan adlandırırıq.

Deyilənlərdən aydın olur ki, Allahı zati sifətlərlə vəsf etmək üçün Onun zatını nəzərə almaq kifayət edər və Onun zatından kənar bir şeyə ehtiyac duyulmur. Amma feli sifətlər üçün başqa bir şeyi də nəzərə almaq zəruridir.[70] Məsələn, əgər Allahı Yaradan sifətilə vəsf etmək istəsək, ilk öncə Allahın yaratdığı bir varlığı təsəvvür etməli və sonra Allahla bu mövcud arasında olan rabitəni nəzərə alıb yaratmaq sifətini Allaha isnad verməliyik.

Başqa sözlə desək, zati sifətlər Allahın zatından, feli sifətlər isə Allahın feilindən dərk edilir, belə ki, zatla onun feilini nəzərə almaqla bu sifət Ona edilir.

Qeyd etdiyimiz məsələlərdən məlum olur ki, elm, qüdrət və həyat s. zati sifətlər, xəlq, ruzi, mərhəmət, hidayət və s. isə feli sifətlərdir. Gələcək bəhslərdə deyəcəyik ki, elm, iradə və s. kimi bəzi sifətləri bir cəhətdən zati, digər cəhətdən isə feli sifət hesab etmək olar.

3. Mütləq və nisbi sifətlər. Mütləq sifətlər o anlayışlara deyilir ki, onların mənasında tamamlığa ehtiyac olmur. Nisbi sifətlərdə isə məna baxımından tamamlığa ehtiyac vardır. Məsələn, həyat (canlılıq) mütləq sifətdir. Elm (bilmək), qüdrət (bacarmaq) və iradə (istəmək) isə nisbi sifətlərdir. Çünki bunların hamısında tamamlığa ehtiyac vardır (nəyi bilmək, nəyi bacarmaq, nəyi istəmək).[71]

4. Zati və xəbəri sifətlər. Sifətlərin bu bölgüsü hədis əhlinə məxsusdur. Zati sifətlər Allah-taalanın zatının kamilliklərinə dəlalət edir, xəbəri sifətlər isə əksinə olaraq, dini mətnlərdə (Quran və hədislər) Allaha isnad verilən sifətlərə deyilir. Onların zahiri mənasından təcəssüm və antropomorfizm çıxır. Məsələn, bəzi Quran ayələrinin zahirindən belə çıxır ki, Allahın bədən üzvləri, üzü, əli və gözü vardır. Bu kimi sifətlər xəbəri sifətlərdir. Çünki onların zahiri mənasını qəbul etmək Allahın cisim olmasını qəbul etmək deməkdir.

**Terminlər**

Allahın sifətləri

Allahın adları

Sübuti sifətlər

Səlbi sifətlər

---

[70] Nəzərdə tutulan başqa şeyin nədən ibarət olması müxtəlif şəkildə bəyan etmişlər. Bir nəzərə görə başqa şey dedikdə Allahla xüsusi rabitədə olan varlıq (məsələn, Allahın məxluqu) nəzərdə tutulur. Digər bir nəzərə əsasən, başqa şey dedikdə Allahın feili nəzərdə tutulur. Çünki dəqiq nəzəriyyəyə görə bütün varlıqlar Allah-taalanın felidir.

[71] Burada digər terminlər də mövcuddur, amma kəlam elmində çox işlənmir. Məsələn, bir təsnifə görə Allahın sifətləri həqiqi (həyy, alim) və nisbi (xaliqiyyət, qadiriyyət) sifətlərə, həqiqi sifətlər də öz növbəsində xalis həqiqi sifətlər (həyy) və nisbətli həqiqi (alim və qadir) sifətlərə bölünür.

Zati sifətlər

Feli sifətlər

Mütləq sifətlər

Nisbi sifətlər

Xəbəri sifətlər

**Birinci fəslin xülasəsi**

1. İnsan Allahı iki cür idrakla dərk edir: vasitəli və vasitəsiz elmlə. İnsanın Allaha vasitəli elmi Allahın sifətlərini və feillərini əks etdirən anlayışlar vasitəsilə hasil olur. Bu səbəbdən, Allahın sifətləri və feilləri haqda olan elmimiz hər nə qədər dərin olarsa, Allaha vasitəli elmimiz də bir o qədər geniş və əhatəli olacaqdır.

2. Allahın sifətləri mövzusunda Allahın sifətləri və adları terminləri ilə qarşılaşırıq. Bu terminlər müxtəlif mənalarda işlənir. Kəlam alimləri Allaha isnad verilə biləcək anlayışları sifət adlandırır.

3. Kəlam elmində Allahın sifətləri mövzusu çox geniş bir mövzudur. Bu mövzunu iki sahəyə ayırmaq olar.

a) ümumi və oxşar məsələlər;

b) xüsusi məsələlər.

4. Allahın sifətləri iki qismə bölünür: sübuti və səlbi sifətlər. Sübuti sifətlər Allahın kamal cəhətlərini bəyan edir. Səlbi sifətlər isə Allahın zatının məhdudluq və nöqsandan uzaq olmasına dəlalət edir. Bu səbəbdən, səlbi sifətlər də Allahın kamilliyindən xəbər verir.

5. Hər səlbi sifətdə bir sübuti sifətin mənası vardır. Bununla belə, bəzən səlbi sifətlərdən istifadə etmək məqsədəuyğundur. Çünki insanlar ümumiyyətlə səlbi sifətlərlə daha çox tanışdırlar. Bundan əlavə, səlbi sifətlər Allahla yaratdıqları arasındakı fərqi açıq-aşkar şəkildə bəyan edir.

6. Allahın sifətlərini zati və feli sifətlərə də bölmək olar. Zati sifət Allahın kamilliklərini nəzərə almaqla Allah-taalanın zatından, feli sifət isə Allahın digər əşyalarla rabitəsindən dərk edilir.

7. Mütləq sifətlərin əksinə olaraq, nisbi sifətlər anlayışlardır ki, məna cəhətdən onların tamamlığa ehtiyacı vardır. Məsələn, elm (bilmək) nisbi sifətlərdəndir. Çünki bilmək anlayışının məna cəhətdən tamamlığa ehtiyacı vardır (nəyi bilmək).

**İkinci fəsil**

**Allahın sifətlərini tanımaq**

**Allahın sifətlərini tanımağın mümkünlüyü**

Allahın sifətləri mövzusunda diqqəti cəlb edən əsas məsələlərdən biri budur ki, Allahın sifətlərini tanımaq olarmı, yoxsa sifətlər də Allahın zatı kimi əlçatmazdır?

Bu sualın cavabında bir qrup ikinci nəzəriyyəni qəbul etmişdir. Onların fikrincə, insanın ağlı Allahın sifətlərinə yol tapa bilməz. Yalnız Quran və hədislərdə qeyd olunan sifətləri qəbul etməli, onların mənalarını dərk etmədən onlara iman gətirməliyik. Bu nəzəriyyəyə aqnostisizm[72] deyilir.

Aqnostiklərin əsas dəlillərindən biri budur ki, biz insanlar elm, qüdrət, iradə kimi sifətləri öz daxili aləmimizdən və eləcə də ətrafımızda olan mövcudların xüsusiyyətlərindən dərk edirik. Amma bu sifətləri Allaha aid etməyə haqqımız yoxdur. Çünki Allahın digər mövcudlarla heç bir oxşarlığı yoxdur. Allah-taala zəruri və mütləq varlıqdır, digər varlıqlar isə mümkün, naqis və məhdud varlıqlardır, odur ki, bu sifətlərin Allaha aid edilməsinə dəlil yoxdur. Yəni zehnimizdə olan ancaq mümkün varlıqlardan dərk edilən sifətlərdir, Allaha aid edilə biləcək başqa bir məfhuma da əlimiz çatmır. Buna görə də Allahın sifətləri barəsində susmalı, yalnız Quran və hədislərdə qeyd olunan sifətlərlə kifayətlənməliyik.

Bu nəzəriyyənin ardıcılları ifrat mövqe tutduqlarına görə insanın ağlını Allahın sifətlərini tanımaqda zəif hesab edirlər. Aqnostiklərin fikrincə, Allahın sifətləri haqqında ağlın maksimum dərki bundan ibarət ola bilər ki, nöqsanlı və məhdud sifətləri Allahdan uzaqlaşdırsın. Buna görə də, "Allah bilәndir", "Allah qadirdir" cümlələri "Allah cahil deyil" və "Allah aciz deyil" kimi başa düşülməlidir. Başqa sözlə desək, sübuti sifətlər Allahdan məhdudluğu və nöqsanı inkar etmək üçün bəyan edilir. Odur ki, ağıl heç bir sifəti Allaha aid edə bilməz və təbii ki, bu yolla Allahın zatına aid olan həqiqətlərə vara bilməz. Ağlın işi ancaq bundan ibarət ola bilər ki, hər növ məhdudluq və nöqsanı Allahdan uzaqlaşdırsın.

Qeyd etməliyik ki, aqnostiklər əqli dəlillərdən əlavə bir sıra Quran ayələrinə də istinad edirlər.

Aqnostisizmin əksinə olaraq bir çox müsəlman kəlamçılarının fikrincə, ağıl Allahın sübuti sifətlərinin mənalarına dərk edə bilər və Allahı sifətləri vasitəsilə tanıya bilər.

[72] Aqnostisizm insan ağlının məhdud olub, heç bir şeyi dərk edə bilmədiyini iddia edən fəlsəfi nəzəriyyəyə deyilir. Burada isə aqnostisizm dedikdə ancaq Allahın sifətlərini dərk etməyi qeyri-mümkün hesab edən əqidə nəzərdə tutulur. (red.)

Əlbəttə, bu qənaətdə olan fikir sahibləri iki dəstəyə bölünürlər. Birinci dəstə Allahın sifətlərilə Onun yaratdıqlarının sifətləri arasında heç bir əsaslı fərq görmür, həm Allaha, həm də Onun yaratdıqlarına isnad verilən sifətlərin eyni məna daşıyıdığına inanırlar. Onlar Allahı sifətlərində yaratdıqlarına oxşatdıqlarına görə antropomorfiklər adlanır. Antropomorfiklər bəzən Allahın cismi və bədən üzvləri olduğunu hesab edir və öz iddialarının təsdiqi üçün bəzi ayələrin zahirinə istinad edirlər.

İkinci dəstə isə bu qənaətdədir ki, Allahın sifətlərini tanımaq və onların mənasını bilmək olar. Lakin bu o demək deyildir ki, Allahın sifətləri digər varlıqlara aid edilən sifətlərlə eyni mənadadır. Bu nəzəriyyə aqnostisizm və antropomorfizm əqidələrini yanlış hesab edir, antropomorfizmə düçar olmadan da Allahın sifətlərini ağılla dərk etməyin mümkünlüyünü qəbul edir. Daha dəqiq desək, ikinci dəstənin fikrincə, Allah-taalanın bütün nöqsanlardan uzaq olması Onun sifətlərini ağıl vasitəsilə dərk etməyin mümkünlüyünü istisna etmir. Aqnostisiklər Allahı nöqsanlardan pak bilmək məqsədilə insanın Allahı dərk etməsini qeyri-mümkün hesab edirlər. Antropomorfiklər isə xaliqlə məxluq arasında olan fərqi nəzərə almadan, Allahı yaratdıqlarına oxşadırlar. Buna görə də, hər iki dəstə səhvə düçar olmuşdur. Beləliklə, düzgün əqidə bundan ibarətdir ki, hər bir insan Allahı sübuti sifətlər vasitəsilə tanıya bilər və Allahın zatını tanıya bilməsə də sifətlər vasitəsilə Onun bəzi xüsusiyyətlərindən xəbərdar ola bilər.

**Aqnostisizm və antropomorfizm nəzəriyyəsinin tənqidi**

Mövzumuzu davam etdirməzdən öncə lazım bilirik ki, aqnostisizm və antropomorfizm nəzəriyyələrinin tənqidinə işarə edək. Qeyd etdiyimiz kimi hər iki əqidənin sahibləri öz əqidələrinin sübutunda Quran ayələrinə istinad edirdilər. Bu ayələr haqqında "Quran Allahı necə vəsf edir?" adlı mövzuda söhbət edəcəyik. İndi isə bu iki nəzəriyyənin əqli əsaslarının zəif olmasını əziz oxuculara göstərmək istərdik.

Aydındır ki, əgər Allahın sifətləri mövzusunda bir tərəfdən ağılla və ümumi insanların düşüncə tərzi ilə uyğun olan, digər tərəfdən, Allahın nöqsanlardan pak olması nəzəriyyəsinə də heç bir zərbə vurmayan bir fikir irəli sürə bilsək, şübhəsiz, aqnostisizm əqidəsi istər-istəməz meydandan çıxacaq. Çünki aqnostisizm əqidəsinin əsası bundan ibarətdir ki, insanın zehni sifətlərin mənasını ilk öncə mümkün varlıqlardan (Allahın yaratdıqları) dərk edir, buna görə də bu sifətləri Allaha aid etmək Onun nöqsanlardan uzaq olması ilə ziddiyyət təşkil edir və antropomorfizmlə nəticələnir. Odur ki, belə bir əqidə ilə nəticələnməyən bir nəzəriyyə, yəni Allahın sifətlərini bəyan etməklə bərabər Allahı yaratdıqlarına oxşatmaqla məhdud etməyən bir nəzəriyyə irəli sürülərsə şübhəsiz ki, aqnostisizm əqidəsi meydandan çıxacaq. Gələn bəhslərdə belə bir nəzəriyyənin mövcudluğuna işarə edəcəyik. Bu nəzəriyyə ümumi şəkildə bundan ibarətdir ki, Allahın yaratdıqlarından dərk etdiyimiz sifətləri nöqsan və məhdudluq gətirən qeyd-şərtlərdən

təcrid edib Allaha isnad veririk. (Bu nəzəriyyənin təfsilatı "Allahın sifətlərinin mənaları" mövzusunda açıqlanacaq).

Bundan əlavə aqnostisizm əqidəsinin tənqidində bir çox digər dəlillər mövcuddur. Onlardan bəzilərini aşağıda qeyd edirik:

1. Qurani-kərim bir tərəfdən insanları ayələr barəsində düşünməyə çağırır. Digər tərəfdən müxtəlif ayələrdə Allahın sifətləri və adları bəyan edilmişdir. Aşağıdakı ayələrə diqqət edək:

هُوَ اللَّهُ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ الْمُؤْمِنُ الْمُهَيْمِنُ الْعَزِيزُ الْجَبَّارُ الْمُتَكَبِّرُ سُبْحَانَ اللَّهِ عَمَّا يُشْرِكُونَ هُوَ اللَّهُ الْخَالِقُ الْبَارِئُ الْمُصَوِّرُ لَهُ الْأَسْمَاءُ الْحُسْنَى يُسَبِّحُ لَهُ مَا فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ

"O Özündən başqa heç bir tanrı olmayan, gizlini də, aşkarı da bilən Allahdır. O rəhmlidir, mərhəmətlidir! O Özündən başqa heç bir tanrı olmayan, ixtiyar sahibi, müqəddəs olan, salamatlıq, əmin-amanlıq bəxş edən, (hər şeydən) göz-qulaq olub qoruyan, yenilməz qüdrət sahibi, məcbur etməyə qadir olan, böyük olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqları şəriklərdən ucadır. O, yaradan, yoxdan var edən, surət verən Allahdır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir!" ("Həşr": 22-24).

Doğrusu, bu kimi ayələr barəsində düşünmək onları oxuyub mənalarına dərk etmədən mümkündürmü? Əgər aqnostiklərin dediyi kimi, bu sifətlərdən heç bir məna başa düşmürüksə, onlar haqqında düşünmək göstərişi nə qədər düzgün olardı?

Beləliklə, Quranın Allahın sifətlərini təkrar-təkrar qeyd etməsi aqnostisizm əqidəsinin puç olmasına sübutdur.

2. İslam dininə görə, insanların yaranmasında və onlara şəriət göndərilməsində son hədəf onların Allaha ibadət etməklə kamilləşməsidir. "Biz cinləri və insanları ibadətdən başqa bir şey üçün yaratmadıq", "Hər bir ümmətə: "Allaha ibadət edin" deyə rəsul göndərdik". məzmunlu ayələr bu həqiqətdən xəbər verir. Məlumdur ki, həqiqəti və sifətləri heç bir yolla tanınmayan bir varlığa ibadət əbəs bir işdir. Belə bir varlıqla heç bir rabitə qurmaq və ona tərəf yaxınlaşmaq mümkün deyil. Məsələn, Allahın qüdrətini heç cür başa düşməsək, Ondan necə kömək istəyib və necə Ona təvəkkül edə bilərik?

Bir sözlə, Allahla əlaqə qurub Ona bəndəlik etməyin əsas şərtlərindən biri Onun kamil sifətlərinin mənasını dərk etməkdir. Unutmamalıyıq ki, yaranışın son hədəfi bu əlaqənin insan tərəfindən yaranması və bu istiqamətdə təkamüldən ibarətdir.

Beləliklə, aqnostisizm əqidəsi nə əqli, nə də nəqli dəlillərlə uyğun deyil. Qeyd etdiyimiz kimi, aqnostiklər Allahın nöqsanlardan paklığı əqidəsi ilə Onun sifətlərini dərk

etməyin mümkünlüyü əqidəsi arasında ortaq məxrəc tapmadıqları üçün bu əqidəyə yönəlmişlər.[73]

Antropomorfizm nəzəriyyəsinin absurdluğu isə daha aydındır. Antropomorfizm əqidəsi Allahın səlbi sifətləri ilə ziddir. Odur ki, səlbi sifətlərin sübutuna qeyd olunan dəlillər antropomorfizm əqidəsinin əsassız olmasına aşkar sübutdur. "Səlbi sifətlər" mövzusunda bu dəlillərdən bəzisinə işarə edəcəyik.

**Allahın sifətlərini dərk etmə yolları**

Qeyd etdik ki, insanın Allaha olan vasitəli idrakı sifətlər vasitəsilədir. İndi isə bu sifətləri tanıma yollarına işarə edəcəyik. Hansı yollarla Allahın sifətlərini tanıya bilərik?

**1. Əqli yollar**

Ağıl Allahın varlığını ("Allah var" cümləsini) təsdiq etdiyi kimi, Allahın sifətlərini tanımaqda da böyük qüdrətə malikdir. Ağıl, xüsusi qanun-qaydalardan istifadə etməklə, ilk öncə ümumi şəkildə Allahın kamal sifətlərini isbat edir, sonra isə ayrı-ayrılıqda hər bir sifəti Allaha layiq olan şəkildə Ona aid edir.

Allahın varlığını sübut edərkən aydın oldu ki, əqli dəlillərdən istifadə etməklə Allahı "zəruri varlıq" və "ilkin səbəb" adı ilə isbat etmək mümkündür. Amma ağlın işi bununla sona çatmır. Allahın birinci dərəcəli sifətləri (məsələn, zəruri varlıq sifəti) barəsində düşünməklə bu sifətlərdən başqa sifətləri nəticə alır. Məsələn, vücudun zəruriliyi barəsində düşünsək, belə bir vücudun mürəkkəb olmamasını da nəticə alarıq. Çünki hər mürəkkəb varlığın öz tərkib hissələrinə ehtiyacı var və ehtiyac zəruri varlıq olmaqla uyğun deyil. Beləliklə, ağıl birinci dərəcəli sifətləri təhlil etməklə ikinci dərəcəli sifətləri, yəni səlbi sifətləri, o cümlədən "tərkibin inkarını" isbat edir.[74]

Gələcək bəhslərdə Allahın bəzi sifətlərini geniş şəkildə araşdırdıqda bu üslubdan istifadə edəcəyik. Tövhidin qisimlərinin isbatında da bu üslubdan istifadə etmişik. Başqa sözlə desək, tövhidin əqli dəlillərindən sifətlərin sübutu üçün də istifadə etmək olar.

**2. Varlıq aləmini araşdırmaq**

Allahın sifətlərini tanıma yollarından biri varlıq aləminin xüsusiyyətlərini araşdırmaq və aləmdəki nizam haqqında dərindən düşünməkdir. Bu araşdırma insanı Allahın kamal sifətlərinə tərəf yönəldir. Məsələn, aləmin nizamı və hədəfi haqda düşündükdə Allahın "hikmət" və "elm" sifətlərini dərk edirik. Teleoloji dəlil digər bir cəhətdən "hikmət" sifətinin isbatı üçün istifadə edilir. Həmçinin mövcud nizamın

---

[73] Bəzi müasir alimlərin fikrincə, aqnostiklərinin əsas səhvi anlayışla predmet arasında fərq qoymamaqdan irəli gəlir. Allahın sifətlərinin predmetlərini dərk etmək insan düşüncəsinin qüdrətindən xaricdir. Halbuki bu sifətləri əks etdirən anlayışları dərk etmək mümkündür. Bax: "Maarifi-Quran", 1-3-cü cild, səh. 90-92.

[74] Nəsirəddin Tusi "Təcridül-etiqad" kitabında bu üslubdan istifadə etmiş və bir çox sübuti və səlbi sifətləri bu yolla isbat etmişdir. Bax: "Kəşfül-murad", səh. 314, 326.

vahidliyi haqda düşünməklə yaradanın təkliyini isbat edə bilərik. Bu da bu üslubun digər nümunələrindəndir.

Qeyd etmək lazımdır ki, bu üslub sonda əqli qanunlardan istifadə etməklə nəticə verir. Odur ki, əqli yoldan ayrı hesab oluna bilməz. Birinci metodda (əqli metod) sübutun bütün müqəddimələri əqli qanunlardan götürülürdü, ikinci metodda isə sübutun bəzi müqəddimələri varlıq aləmini müşahidə etməklə əldə edilir. Daha dəqiq desək, birinci üslubu əqli metod adlandırmaq o demək deyildir ki, ikinci üslubda əqli qanunlara heç ehtiyac yoxdur. Sadəcə, birinci üslubun əksinə olaraq, ikinci üslubda bəzi qeyri-əqli və ya təcrübi müqəddimələrdən də istifadə olunduğu nəzərdə tutulur.

İkinci metoda Quran və hədislərdə geniş şəkildə yer verildiyinə görə kəlamçıların diqqət mərkəzində olmuşdur.

**3. Qurana və mötəbər hədislərə müraciət etmək**

Allahın sifətləri bəhsində əqli dəlillərdən əlavə nəqli dəlillərə də istinad olunur. Allahın varlığını, həzrət Məhəmmədin (s) Allah tərəfindən göndərilməsini və Quranın mötəbərliyini qəbul etdikdən sonra[75] bir çox sifətləri vəhyə istinad etməklə sübut etmək olar.

Keçən bəhslərdə qeyd etdik ki, Quran və hədislər Allahı tanımaq sahəsində insanlara çox dərin və geniş bilgilər bəxş etmişdir. Bəşər ağlı bir çox hallarda bu həqiqətləri dərk edə bilmir və ya çox çətinliklə onların dərkinə nail olur. İslamın Allahın sifətləri və feilləri haqqındakı təlimləri əsrlər boyu filosoflar və kəlamçılar üçün mənbə olmuşdur. Hələ də insanların məhdud ağılları bu təlimlərin bəzi dərin qatlarına çata bilməmişdir.

**4. Qəlbi müşahidə**

Allahın sifətlərini tanımağın yollarından biri də qəlbi müşahidədir. İnsan ruhi və mənəvi kamillik nəticəsində Allahın camal və calalını qəlb gözü ilə görüb, Onun kamal sifətlərinin təzahürünü müşahidə edir.

Hamı üçün mümkün olan əvvəlki üç metoddan fərqli olaraq, Allahın adlarını və sifətlərini qəlb gözü ilə müşahidə etmək üçün xüsusi ruhi hazırlıq lazımdır. Bu hazırlıq isə yalnız yüksək təqva və iman sayəsində əldə edilə bilər. Odur ki, bu metod bəzi insanlara məxsusdur. Əvvəlki üç metod isə hamıya aiddir və onlara yiyələnmək böyük zəhmət tələb etmir.

**Allah-taala bütün kamal sifətlərinə malikdir**

Qeyd etdik ki, ağıl Allahın sifətlərini təfsilatı ilə isbat etməzdən öncə Allahın bütün kamal sifətlərinə malik olmasını təsdiq edir. Yəni Allahın birinci dərəcəli sifətlərinə, o cümlədən Onun zəruri varlıq və ilkin səbəb olmasına istinad etməklə digər bütün kamal sifətlərini sübut etmək olar. Bu sifətlər nöqsanlardan pak və qeyri-məhdud şəkildə Allaha

---

[75] Bu sifətlərdən biri "siqd" (doğruluq) sifətidir. Çünki Allah-taalanın kəlamı doğru olmazsa, Quranın həqiqət olmasına yəqin etmək olmaz.

isnad verilir. Burada iki əqli dəlilə işarə edəcəyik. Bu dəlillər fəlsəfədə sübut olunmuş qanunlara söykənir. Bu fəlsəfi qanunlar qeyd edəcəyimiz dəlillərin müqəddiməsində istifadə edilmişdir.

Birinci dəlil:

a) Elm, qüdrət, iradə, həyat və bu kimi sifətlər kamal sifətləri sayılır. Çünki ağıl hökm edir ki, elm nadanlıqla müqayisədə kamaldır və əksinə, nadanlıq elmlə müqayisədə nöqsandır.

b) Varlıq var olduğu cəhətdən bu sifətlərə malik ola bilər. Başqa sözlə desək, mövcud olmaq xüsusiyyəti ilə qeyd etdiyimiz sifətlərə malik olmaq arasında heç bir ziddiyyət yoxdur. Bəzi mövcudların bu kamal sifətlərindən məhrum olmaları onların mövcud olmalarına görə deyil. Kamal sifətlərindən məhrum olmağın digər amilləri var. Məsələn, maddilik bu məhrumluğun əsas amillərindən biridir. Hər halda, mövcudlarda kamalların olması bunu göstərir ki, varlıqlar var olduğu cəhətdən bu sifətlərə malik ola bilər.

c) Allah-taala mütləq varlıqdır və heç bir hüdudla məhdudlaşmamışdır (mahiyyəti yoxdur). Buna görə də, Allahda varlıqdan başqa bir xüsusiyyət olmadığı üçün kamal sifətlərinə malik olması mümkün bir işdir.[76]

ç) Fəlsəfi qanuna əsasən, zəruri varlıq üçün mümkün olan hər bir xüsusiyyətin Allahda olması zəruridir. Beləliklə, kamal sifətlərinin zəruri varlıqda olması zəruridir. Çünki yuxarıda qeyd etdik ki, bu sifətləri zəruri varlıqda olması mümkündür, deməli, Allah-taalanın kamilliklərə malik olması zəruridir.

Göründüyü kimi bu dəlildə Allahın “zəruri varlıq” xüsusiyyətini təhlil etməklə Onda bütün kamilliklərin olması isbat olunur.[77]

İkinci dəlil. Bu dəlil “ilkin səbəb” sifətinə əsaslanır.

a) Allah-taala bütün varlıqların səbəbidir və bütün varlıqlar Onun nəticəsidir.

b) Səbəbiyyətlə bağlı əsas fəlsəfi qanunlardan biri budur ki, səbəb nəticənin kamilliklərinə daha üstün dərəcədə malik olmalıdır, yəni nəticədə olan kamillik üstün dərəcədə səbəbində olmalıdır.

c) Odur ki, Allah-taala aləmin ilkin səbəbi olduğu üçün digər varlıqlarda olan kamilliklərə daha üstün dərəcədə malikdir.

ç) Digər varlıqlarda elm, qüdrət, həyat və bu kimi sifətlər var olduğu üçün bu sifətlərin üstün dərəcəsi Allahda vardır. Nəticədə, Allah-taala bütün kamilliklərə daha üstün dərəcədə malikdir.

---

[76] Xatırlamalıyıq ki, mümkünlük dedikdə xüsusi mümkünlük deyil, ümumi mümkünlük nəzərdə tutulur. Məntiq elmində deyildiyi kimi ümumi mümkünlük zəruriliklə tam uyğundur. Beləliklə, kamal sifətlərinin Allah üçün mümkün olması dedikdə, heç də zəruriliyi inkar etmiş olmuruq.

[77] Geniş məlumat üçün bax: Lahici, “Sərmayeyi-iman”, səh. 49 və 50.

Beləliklə, Allah-taala bütün varlıqların ilkin səbəbidir. Səbəbiyyət qanunu əsasında Allah-taalanın bütün kamilliklərə malik olması sübut olur.

**Allahın sifətlərinin semantik izahı**

Allahın sifətləri ilə bağlı ən əhəmiyyətli məsələlərdən biri sübuti sifətlərin mənalarının təfsiridir. Sual olunur ki, "Allah biləndir" və "Allah qadirdir" cümlələrində işlənən "alim" və "qadir" sözləri hansı mənanı daşıyır? Daha dəqiq desək, Allahın elminin, qüdrətinin və s. dəqiq mənası nədir? Bu sözlər ümumi insanlar haqda istifadə olunan elm və qüdrət mənasınadır, yoxsa başqa mənaya malikdir? Hər halda, bu sualın cavabı çətindir. Birinci cavabı seçsək, antropomorfizmə düçar olar və Allahı yaratdıqları ilə eyni səviyyədə hesab etmiş olarıq. Halbuki Allah hər bir oxşarlıqdan uzaqdır. İkinci cavabı seçdikdə isə vəzifəmiz çətinləşir. Çünki bu surətdə məsələni filoloji, qnoseoloji və ontoloji qanunlarla uyğun olaraq izah etməliyik. Başqa sözlə desək, Allahın sifətlərindən başa düşdüyümüz mənalar bir tərəfdən filoloji üslubların, digər tərəfdən isə insanların ümumi düşüncəsi ilə zidd olmamalıdır və bundan əlavə fəlsəfi və kəlami qanunlar tərəfindən də təsdiqlənməlidir.

Keçən bəhslərdə qeyd etdik ki, bir qrup alimlər sübuti sifətləri layiqincə təfsir edə bilməmiş, nəticədə antropomorfizm əqidəsinə düçar olmasınlar deyə, Allahı tanımaqda ağlı zəif və qüdrətsiz hesab etmişlər. Burada araşdırmalıyıq ki, görəsən doğrudan da, Allahın sifətlərinin əqli təfsiri mümkün deyildir? Bu sual tarix boyu kəlamçıların diqqət mərkəzində olmuş və bu sahədə müxtəlif nəzəriyyələr meydana gəlmişdir. Biz burada müsəlman filosof və kəlamçılarının yalnız bir nəzəriyyəsinə oxucuların diqqətini cəlb edirik.

Bu nəzəriyyənin xülasəsi bundan ibarətdir ki, elm, qüdrət, həyat və bu kimi sifətləri hər şeydən öncə özümüzdə və ya ətrafımızda olan digər varlıqlarda müşahidə edirik. Bunu da dərk edirik ki, bu sifətlər vücudun kamilliyinin əlamətidir, belə ki, nadanlıq, zəiflik və bu kimi sifətlərlə müqayisədə kamillik sayılırlar. Belə bir vəziyyətdə, biz hər şeydən öncə bu kamal sifətlərinin mənaları haqda dərindən düşünməli və məhdudluq gətirən qeyd-şərtləri üzə çıxarmalıyıq. Sonrakı mərhələdə bu qeyd-şərtləri mənalardan ayırmalı, daha dəqiq desək, mənaların məhdudluğuna səbəb olan qeyd-şərtlərdən təcrid etməliyik. Bu zaman istədiyimiz nəticəyə nail ola bilərik - bir tərəfdən vücudun kamilliyini sübut etmiş oluruq, digər tərəfdən isə sifətlərdə hər bir nöqsan və məhdudluğu aradan qaldırmış oluruq.

Məsələn, özümüzdə və digər insanlarda elm anlayışı[78] ilə tanış oluruq. Lakin bizdə olan elm bir çox qeyd-şərtlərin çərçivəsindədir. Bir tərəfdən hadisdir, yəni əzəldən

[78] "Allahın elmi" mövzusunda deyəcəyik ki, filosofların nəzərinə əsasən, elm dərk olunan varlığın dərk edənin yanında hazır olmasından ibarətdir.

mövcud olmamışdır, digər tərəfdən isə yox ola bilər. Bunlardan əlavə biz elm əldə etmək üçün müxtəlif vasitələrə ehtiyaclıyıq və səhv olmaq ehtimalı da vardır.

Qeyd etdiyimiz qeyd və şərtlər (sonradan vücuda gəlmə, yox ola bilmə, vasitələrə ehtiyaclı olma, səhvə düçar olma və s.) bizdə olan elmin məhdud olmasının amilləridir. Beləliklə, yuxarıda qeyd etdiyimiz kimi, elm anlayışını hər şeydən öncə qeyd-şərtlərdən təcrid etməli, sonra bu sifəti Allahın elminə işarə olaraq istifadə etməliyik.

Beləliklə, kamal sifətlərini həm ağla uyğun, həm də Allahın məqamına layiq şəkildə Allah-taalaya aid edə bilərik.

**Allahın adlarının və sifətlərinin təqlidi olması**[79]

Bir qrup kəlamçıların fikrincə, Allahı vəsf edərkən, yalnız Qurana və mötəbər hədislərə müraciət etməliyik. Belə ki, ancaq Quranda və mötəbər hədislərdə qeyd olunan adlar və sifətlərlə kifayətlənməli, başqa adlar və sifətlərdən istifadə etməməliyik. Bu nəzəriyyənin əsası bundan ibarətdir ki, Allahı yalnız Özünün icazə verdiyi şəkildə vəsf etməliyik və ağıl müstəqil formada bu məsələlərə dəxalət edə bilməz.

Digər bir qrup isə əksinə olaraq, bu qənaətdədir ki, Allahın adları və sifətləri təqlidi yox, əqli məsələdir. Bu səbəbdən, mənasında nöqsan və məhdudluq olmayan sifətləri - hətta Quran və hədislərdə qeyd olunmasa belə - Allaha aid edə bilərik.

"Allahın sifətlərinin mənaları" mövzusunda qeyd etdiyimiz kimi, ağıl əgər sifətləri hər cür nöqsan və məhdudluqdan təcrid edə bilərsə, Allah-taalanı vəsf edə bilər. Odur ki, Allahın sifətlərinin təqlidi olmasına heç bir əqli dəlil yoxdur. Allahın sifətlərinin təqlidi olmasına inanan şəxslər əqli dəlillərə istinad etmirlər. Onların əsas dəlilləri Quran ayələridir:

وَلِلّهِ الأَسْمَاء الْحُسْنَى فَادْعُوهُ بِهَا وَذَرُواْ الَّذِينَ يُلْحِدُونَ فِي أَسْمَآئِهِ سَيُجْزَوْنَ مَا كَانُواْ يَعْمَلُونَ

"Ən gözəl adlar Allahındır, o adlar ilə də Onu çağırın. Onun adları barəsində küfr edənləri tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar!" ("Əraf": 180)

Belə nəticə alırlar ki, ayədə "Onun adları barəsində küfr edənlər" dedikdə, Allahı ayənin əvvəlində qeyd olunan "gözəl adlar"la yox, başqa adlarla çağıranlar nəzərdə tutulur. Allahı gözəl adlardan başqa adlarla çağıranlar məzəmmət olunduqlarına görə, sifətlərin təqlidi olması sübut olunur.[80]

Bundan əlavə, hədislərdə də Quranda olmayan adlarla Allahı vəsf etmək qadağan edilmişdir. İman Kazim (ə) buyurdu:

---

[79] "Allahın adları və sifətlərinin təqlidi olması" o deməkdir ki, "Allahın adları və sifətləri" bəhsində məsələyə rasionalistcəsinə deyil, ortodoksal (təəbbudi) şəkildə yanaşmaq və Allahın dini mətnlərdə qeyd olunan sifətlərini bir doqma olaraq qəbul etmək lazımdır. (Red.)

[80] Əllamə Təbatəbai bu təfsiri qəbul etmir. Bax: "əl-Mizan", 8-ci cild, səh. 375.

"Həqiqətən, Allah çox yüksək, böyük və əzəmətlidir və Onun sifətlərinin dərinliyinə çatmaq olmaz. Beləliklə, Özünü vəsf etdiyi kimi Onu vəsf edin və başqa şeydən çəkinin".[81]

Alimlərin fikrincə, sifətlərin təqlidi olması qəti bir nəzəriyyə olmasa da, bu məsələdə ehtiyat etmək məqsədəuyğundur. Yəni Quran və hədislərdə qeyd olunmayan sifətlərlə Allah-taalanı vəsf etməyək.

**Terminlər**

Aqnostisizm

Antropomorfizm

Sifətlərin təqlidi olması

**İkinci fəslin xülasəsi**

1. Bəziləri Allahın sübuti sifətlərini dərk etməyin mümkün olmadığına inanırlar. Bu əqidəyə aqnostisizm deyilir. Onların fikrincə, bizim yeganə vəzifəmiz Quran və hədislərdə bəyan olunan sifətlərə iman gətirməkdir.

2. Digər bir qrup antropomorfizm əqidəsinin tərəfdarıdır. Onların fikrincə, ağıl Allahın sifətlərini tanımağa qadirdir. Lakin Allahın sifətləri ilə yaratdıqlarının sifətləri arasında heç bir fərq görmürlər.

3. Aqnostisizmin puç olmasına bir çox dəlillər vardır. O cümlədən:

a) Quran insanları Allahın sifətləri ilə bağlı ayələr barəsində dərindən düşünməyə çağırır;

b) Həqiqi ibadət məbudu tanımağa bağlıdır;

c) İslam nöqteyi-nəzərindən Allahı dərk etmək insanın kamilliklərindən biridir. Bu idrakı vasitəsiz elmə məxsus bilməyin isə heç bir əsası yoxdur.

4. Antropomorfizm Allahın səlbi sifətləri ilə uyğun deyil, elə buna görə də əsassızdır.

5. Allahın sifətlərini müxtəlif yollarla tanımaq olar. Ağıl Allahın birinci dərəcəli sifətlərini təhlil etməklə ikinci dərəcəli sifətləri tanıya bilər. Varlıq aləmini müşahidə etmək də Allahın sifətlərini tanımağın bir yoludur. Bundan əlavə, bu haqda olan Quran ayələrini və mötəbər hədisləri araşdırmaq Allahın sifətlərini daha dərindən tanımağa zəmin yaradır. İrfan əhli isə qəlbi müşahidə vasitəsilə Allahın camal və calal sifətlərinə çatırlar.

6. Müxtəlif dəlillərlə sübut etmək olar ki, Allah-taala bütün kamilliklərə malikdir. Kamal sifətləri sonsuz və qeyri-məhdud formada Allaha aid edilə bilər.

[81] Şeyx Kuleyni, "Əl-kafi", 1-ci cild, səh. 102. Şeyx Kuleyni "Allahı vəsf etməyin caiz olmaması" mövzusunda bu sahədə bir çox hədislər rəvayət etmişdir.

7. Aqnostisizm və antropomorfizmə düçar olmamaq və Allahın sifətlərini məntiqi şəkildə izah etmək üçün Allahla yaratdıqları arasında müştərək olan sifətləri məhdudiyyətlərdən və qeyd-şərtlərdən təcrid edib Allah-taalaya aid etməliyik.

8. Quran ayələrində Allahın sifətlərinin təqlidi olmasına tutarlı dəlil yoxdur. Lakin bəzi hədislər bu məsələni vurğulamış və təkid etmişlər. Odur ki, Allahı Quran və hədislərdə qeyd olunmayan sifətlərlə vəsf etməsək, daha yaxşı olar.

**Üçüncü fəsil**

**Quran Allahı necə vəsf edir**

Qeyd etdiyimiz kimi bəşər Allahın zatına yol tapa bilməz. Allahı tanımağın yeganə ümumi yolu Onun adlarını və sifətlərini tanımaqdır. Bu səbəbdən, Quranın əsas hədəflərindən biri insanın Allaha olan dərkini dəqiqləşdirmək və dərinləşdirməkdir. Bu haqda müxtəlif ayələrdə söhbət edilmişdir. Yüzlərlə ayə birbaşa Allahın sifətlərindən söz açmış və ya ən azı Allahın adlarını sadalamışdır. Bəzi ayələrdən də Allahın vəsfi haqqında ümumi qanunları çıxarmaq olar.

Bununla belə unutmamalıyıq ki, Allahı Onun sifətləri vasitəsilə tanımaq çox çətin bir məsələdir və bu yolu diqqətlə və ehtiyatla keçmək lazımdır. Çünki diqqətli olmasaq, antropomorfizmə düçar olar və ya özümüzü Quran təlimlərindən məhrum etmiş olarıq. Bu problemin həllinə kömək edən məsələlərdən biri Allahın sifətləri haqda olan "möhkəm" ayələrə istinad etməkdir. Möhkəm ayələrin köməyi ilə "mütəşabih" ayələri də (Allahı digər məxluqlar kimi vəsf edən ayələri) təfsir etmək olar.

Burada Allahı vəsf etmək və bəşərin Allahın sifətlərini tanıması haqqında Quranın ümumi nəzəri ilə qısa şəkildə tanış olacaq, xüsusi sifətləri bəyan edən ayələri də ayrıca fəsillərdə qeyd edəcəyik.

**Nə antropomorfizm, nə də aqnostisizm**

Quran bu həqiqətə təkid edir ki, Allahın zatını dərk etmək və Onu qavramaq mümkün deyil.

يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يُحِيطُونَ بِهِ عِلْمًا

"Allah onların keçmişini də, gələcəyini də bilir. Onların elmi isə Onu əhatə edib qavraya bilməz![82] ("Taha": 110)

Digər tərəfdən bir çox ayələrin məzmununa əsasən, Allahın digər mövcudlarla heç bir oxşarlığı yoxdur və Onun tayı-bərabəri təsəvvür oluna bilməz. Bu möhkəm ayələr antropomorfizm əqidəsini puça çıxarır.

لَيْسَ كَمِثْلِهِ شَيْءٌ وَهُوَ السَّمِيعُ البَصِيرُ

"Heç nə Ona tay (oxşar) ola bilməz, O eşidən və görəndir". ("Şura": 11)

---

[82] "Onu əhatə edib qavraya bilməz." cümləsindəki "Onu" sözü ilə Allah nəzərdə tutulursa, bu haqda bu ayədən dəlil kimi istifadə etmək olar (yəni Allahı əhatə edib qavraya bilməz). Amma əgər "Onu" dedikdə günahkarların keçmişi və gələcəyi nəzərdə tutularsa, bizim mövzu ilə heç bir əlaqəsi olmayacaqdır (yəni keçmişi və gələcəyi əhatə edib qavraya bilməz).

Tövhid bəhsində bu ayəni "zatda tövhid" üçün dəlil gətirdik. Lakin qeyd etmək lazımdır ki, bu ayə Allahın zatının bənzərsiz olduğunu bəyan etməklə yanaşı, Allahın sifətlərinin də bənzərsiz olduğunu bəyan edir. Beləliklə, ayənin məzmununa görə Allahın həm zatının, həm də calal və camal sifətlərinin oxşarı və tayı-bərabəri yoxdur və təsəvvür oluna bilməz. "İxlas" surəsinin son ayəsi də bu məzmunu çatdırır.

Qurani-kərim antropomorfizmin əsassızlığını bəyan edərkən Allahın zat və sifət cəhətdən digər varlıqlarla oxşarlığını ümumi şəkildə rədd edən ayələrdən əlavə müxtəlif ayələrdə Allahın, ölməzlik, məkansızlıq və s. kimi səlbi sifətləri haqda da söhbət açmışdır ki, səlbi sifətlər bəhsində onların bəzilərinə işarə edəcəyik.

Quran, Allahı antropomorfiklərin təsəvvür etdiklərindən üstün bilir. Bir çox ayələrdə müşriklərin Allah haqqında puç düşüncələrini nəql etdikdən sonra bəyan edir ki, onlar Allahı layiqincə vəsf etmirlər:

وَجَعَلُواْ لِلّهِ شُرَكَاء الْجِنَّ وَخَلَقَهُمْ وَخَرَقُواْ لَهُ بَنِينَ وَبَنَاتٍ بِغَيْرِ عِلْمٍ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يَصِفُونَ

"Cinləri (Allah) yaratdığı halda, (müşriklər) onları Allaha şərik qoşdular və gümana düşüb Onun üçün oğullar və qızlar uydurub düzəltdilər. Allah isə onların Ona aid etdikləri sifətlərdən pak və üstündür".[83] ("Ənam": 100)

مَا قَدَرُوا اللَّهَ حَقَّ قَدْرِهِ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ

"Allahın qədrini layiqincə bilmədilər. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir!"[84] ("Həcc": 74)

Bu ayələrlə rastlaşdıqda güman oluna bilər ki, Allahı heç bir yolla tanımaq olmaz və aqnostisizm əqidəsini qəbul etmək məcburiyyətindəyik. Lakin belə bir güman doğru deyildir. Digər ayələri dərindən araşdırdıqda nəticə alırıq ki, Quran Allahı yaratdıqlarının sifətlərindən uzaq bilməklə yanaşı, Allahı tanımağın mümkün olduğunu da təsdiq edir. Allahın adlarını və sifətlərini bəyan edən bir çox ayələr buna əyani sübutdur. Quran insanları öz ayələri haqda dərindən düşünməyə çağırırsa[85], deməli, Allahın adlarının bir çox ayələrdə təkrar-təkrar qeyd olunması onların mənasını dərk etmədən sadəcə tilavət qəsdi ilə oxumaq üçün deyil.[86]

Beləliklə, Quran Allahı vəsf etməklə bağlı həm antropomorfizmi, həm də aqnostisizmi rədd edib orta bir yol seçir. Bir tərəfdən Allahın camal və calal sifətlərini insanlara tanıtdırır, digər tərəfdən isə Allahın zat və sifət cəhətdən misilsiz olmasına təkid etməklə xatırladır ki, Allah-taalanı digər varlıqlara oxşar şəkildə vəsf etmək olmaz. Sifətləri məhdudluq bildirən qeyd-şərtlərdən təmizləməli və Allaha layiq şəkildə istifadə

---

83 "Ənbiya": 22"; "Möminun": 91; "Zuxruf": 82.

84 "Ənam" surəsinin 91-ci və "Zümər" surəsinin 52-ci ayələri də bu məzmundadır.

85 "Nisa surəsi", 82; "Muhəmməd": 24; "Sad": 29.

86 Bunun nümunəsini "Həşr" surəsinin 22 və 23-cü ayələrində və eləcə də "Hədid" surəsinin 1-6-cı ayələrində görmək olar.

etməliyik. Qeyd etmək lazımdır ki, antropomorfizm əqidəsini inkar edən ayələr aqnostisizm əqidəsini tənqid edən ayələrə nisbətən çoxdur. Bəlkə də bunun səbəbi tarix boyu antropomorfilərin daha çox olmasıdır.

**Allahın sifətləri haqda hədislər**

Bizə çatan hədislər də Allahın vəsfi haqqında Quranın yolunu davam etdirmişlər. Taha surəsinin 110-cu ayəsinin təfsiri barədə həzrət Əlidən (ə) nəql olunan bir hədisdə deyilir: "Məxluqların elmi Allahı əhatə edə bilməz. Çünki O, qəlblərin gözünə pərdə salmışdır. Heç bir fəhm bu pərdəni götürüb Onu dərk edə bilməz və heç bir qəlb Onu hədd-hüdud vasitəsilə isbat etmir. Elə isə Allahı, O Özünü vəsf etdiyi kimi vəsf et. Necə ki, buyurur: Heç bir şey Onun misli ola bilməz, eşidən və görən Odur".[87]

İmam (ə) cümləsinin əvvəlində bəyan edir ki, heç bir varlıq öz elmi ilə Allahın zatını əhatə edə bilməz. "Qəlblərə salınan pərdə" ifadəsi bəlkə də bunu çatdırır ki, məxluqların dərki məhdud olduğu üçün Allahın sonsuz və qeyri-məhdud zatını əhatə edə bilmirlər. İmam (ə) cümləsinin ardında belə buyurur ki, Allahı, O Özünü vəsf etdiyi kimi vəsf etmək lazımdır. Bu haqda "Allahın sifətlərinin təqlidi olması" mövzusunda bəhs etdik.

Antropomorfizm əqidəsinin tənqidi məsələsi də müxtəlif hədislərdə öz əksini tapır. Məsələn, "Əşbah" xütbəsində belə oxuyuruq: "Yalan deyirlər Səni başqaları ilə bərabər tutanlar! Onlar Səni öz bütlərinə bənzətdilər və məxluqların libasını öz xəyalları ilə Sənə geyindirdilər. Öz gümanlarında cisim kimi Sənin də bədən üzvlərinə malik olduğuna inandılar. Onlardan hər biri öz zövqünə və fikrinə əsasən, məxluqlar kimi Sənin üçün də müxtəlif daxili qüvvələr nəzərdə tutdular".[88]

Beləliklə, Quranın antropomorfizm və aqnostisizmin tənqidində işlətdiyi üslub hədislərdə də öz əksini tapır. Həzrət Əlinin (ə) aşağıdakı kəlamı da bu iddiaya əyani sübutdur:

"Ağılları Öz sifətlərinin keyfiyyətinə agah etmədi və onları lazımı qədər dərkdən də məhrum etmədi".[89]

Bunlardan əlavə peyğəmbər (s) və əhli-beytdən (ə) Allahı tanıma mövzusunda nəql olunan hədislərdə də Allahın sifətləri haqda dəyərli və qiymətli həqiqətlər bəyan edilmişdir. Bu da onu göstərir ki, insanlar Allahın sifətləri vasitəsilə Onu müəyyən qədər tanıya bilərlər.

---

[87] Əl-Həvizi, "Nurus-səqəleyn" təfsiri, 3-cü cild, səh. 394; 117-ci hədis. Bu hədisdən belə məlum olur ki, ayədə ("Taha": 110) qeyd olunan "bihi" əvəzliyi Allaha işarədir.

[88] "Nəhcül-bəlağə", 91-ci xütbə.

[89] Yenə orada, 49-cu xütbə

**Üçüncü fəslin xülasəsi**

1. Quran birmənalı şəkildə bildirir ki, Allahın zatını tanımaq mümkün deyil: "Onların elmi Onu əhatə edə bilməz".[90]

2. Quran nöqteyi-nəzərindən antropomorfizm əqidəsi əsassızdır. Bəzi ayələr Allahın maxluqlarla oxşarlığını inkar edir, bəzi ayələr isə Allahın, ölməzlik, zamansızlıq, məkansızlıq və s. kimi səlbi sifətlərini bəyan etməklə Allahın digər varlıqlarla əsaslı fərqini vurğulayır.

3. Quran nöqteyi-nəzərindən aqnostisizm əqidəsi də səhvdir. Bir çox ayələrdə Allahın adlarından və sifətlərindən söz açılır. Digər tərəfdən isə Quran insanları ayələr haqda düşünməyə çağırır. Deməli, Allahın sifətlərinin mənasını müəyyən qədər dərk etmək mümkündür.

4. Əhli-beytin hədisləri də antropomorfizm və aqnostisizm əqidələrini əsassız hesab edir. Hədislər Allahı digər varlıqlara aid olan sifətlərdən pak bilməklə yanaşı, Allahın sifətlərini dərk etməyi mümkün hesab edir.

[90] Taha: 110

**Dördüncü fəsil**

**Allahın elmi**

Allahın sübuti sifətlərindən biri elm sifətidir. İslam əqidəsinə əsasən, Allah-taala hər şeydən xəbərdardır. Elm həm Allahın zati sifətlərindən, həm də feli sifətlərindəndir. Başqa sözlə desək, Allahın elminin müxtəlif dərəcələri vardır ki, bəziləri zati və bəziləri isə feli sifət hesab olunur.

**Elmin mənası**

Bir qayda olaraq, elmin mənasını aydın hesab edirlər. Çünki hər bir insan onu öz daxilində duyur. Bizlərdən hər biri həyatda dəfələrlə bir şey haqqında əvvəl xəbərsiz olduğumuzu və sonradan daxili aləmimizdə buna zidd bir halın yaranmasını təcrübə etmişik. Bu hala elm deyilir.

Unutmamalıyıq ki, biz insanların elmində məhdudluq və nöqsanlar vardır. Şübhəsiz ki, bu cür elmi Allaha aid etmək olmaz. Çünki Allahın elmi nöqsanlardan pakdır. Elmimizin bir çox hissəsi daxili və xarici vasitələrlə hasil olur. Məsələn, biz maddi şeylərin dərki üçün bədən üzvlərindən (göz, qulaq və s.), bəzən də maddi vasitələrdən istifadə edirik. Bütün elmləri deyə bilməsək də, ən azı onların çoxu hadisdir, yəni öncə olmamış, sonradan vücuda gəlmişdir. Elə buna görə də, yoxluğa məruz qalır. Bundan əlavə, bizim elmlərimizin məcmusu da bir məcmu kimi naqis və məhduddur. Bildiklərimiz bilmədiklərimizə nisbətən çox azdır.

Amma Allahın elmi bütün bu nöqsanlardan uzaqdır. Allahın elmi mütləq, qeyri-məhdud, əzəli və əbədidir, heç bir vasitəyə möhtac deyil, insanlardakı kimi passiv deyil və xaricdən təsirlənmir.

**Vasitəli və vasitəsiz elm**

Keçən bəhslərdə qeyd etmişdik ki, ənənvi bir təsnifə əsasən, bilik iki qismə bölünür: vasitəli və vasitəsiz. Vasitəsiz bilikdə idrak obyekti əşyaların özüdür. Vasitəli bilikdə isə idrak obyekti əşyaların özü yox, onların zehni təsvirləridir. Özümüzə, eləcə də qorxu, qəzəb, sevgi və s. kimi daxili xüsusiyyətlərimizə olan dərkimiz vasitəsiz bilikdir. Hisslə dərk etdiklərimiz və ümumi anlayışlar isə vasitəli elmdir.

Biliyin bu iki qismini nəzərə alıb ona belə tərif vermək olar: "Bilik obyektin (dərk olunanın) subyektdə (dərk edəndə) hazır olmasıdır". Bu tərifin hər iki qismi ehtiva etməsi bundan irəli gəlir ki, vasitəli bilikdə əşyaların zehni təsviri, vasitəsiz bilikdə isə əşyaların özü subyektdə hazırdır. Lakin hər iki halda obyekt subyektdə hazırdır və buna görə də, subyekt idrak cəhətindən obyekti əhatə etmiş olur.

Bu tərifdə heç bir məhdudluq və qeyd-şərt olmadığı üçün Allahın elmi haqqında da bu tərifdən istifadə edə bilərik. Beləliklə, Allahın elmi dedikdə bunu başa düşürük ki, bütün əşyalar Allahda hazırdır. "Hazırdır" dedikdə, həm Allahın Özünə, həm də yaratdıqlarına olan elmi nəzərdə tutulur. Bir sıra islam filosoflarının və kəlamçılarının fikrincə, Allahın elmi ancaq vasitəsiz elmdir. Onların dəlilləri budur ki, vasitəli elm zehni təsvirlər vasitəsilə hasil olur və buna görə də subyekt, zehni təsvirlərə qarşı passiv (təsirlənən) münasibətdə olur. Halbuki, Allah-taalanın təsir qəbul etməsi mümkün deyildir.

**Allahın elminin qisimləri**

Allahın elminin mənası aydın olduqdan sonra bu elmin növlərinə işarə edirik.[91] Allahın elmini ilk öncə iki qismə bölmək olar: Özünə olan elm və başqalarına olan elm. Özünə olan elm dedikdə, Allahın Öz zatına elmi, başqalarına olan elm dedikdə, isə başqa varlıqlara olan elmi nəzərdə tutulur. Aydındır ki, başqa varlıqlar Allahın məxluqlarıdır. Odur ki, ikinci qismin özünü iki qismə bölmək olar: Allahın digər varlıqları yaratmazdan öncə onlara olan elmi və digər varlıqları yaratdıqdan sonra onlara olan elmi. Beləliklə, üç qisim meydana gəlir.

1. Özünə olan elm;
2. varlıqları yaratmazdan öncə onlara olan elm;
3. varlıqları yaratdıqdan sonra onlara olan elm.

Bu qisimlərin hər birini ayrı-ayrılıqda araşdırmalıyıq.

**Allahın Özünə olan elmi**

Elmin tərifinə əsasən, Allahın Özünə olan elmi Onun zatının Özündə hazır olması deməkdir (Özündən ayrı deyil) və Allahın Öz zatına olan dərkinin dəlili də elə Onun zatının Özündə hazır olmasıdır.[92] Bu elmi isbat etməzdən öncə qeyd etməliyik ki, Allahın digər sifətlərində olduğu kimi, Onun Öz zatına olan elminin həqiqəti insanlar üçün məchuldur. Yalnız bu həqiqətə işarə edən anlayışlar vasitəsilə uzaqdan-uzağa olan bir tanışlıq əldə edə bilərik.

**Allahın Özünə olan elminə dəlil**

Allahın kamal sifətlərini ümumi şəkildə isbat edən dəlillər çoxdur. Burada təkcə Allahın Öz zatına olan elminin dəlilinə işarə etmək istərdik. Əlbəttə, bu dəlil də fəlsəfədə araşdırılması lazım olan bəzi fəlsəfi qanunlara söykənir.

---

[91] Hesab edirik ki, Allahın elmi haqqında əhatəli təsəvvür yaranması üçün filosofların fikirlərinə işarə etmək faydalı olardı. Odur ki, buradakı bəhslər daha çox fəlsəfi daşıyır.

[92] Bəzi kəlamçıların fikrincə, Allahın Öz zatına olan elmi vasitəli elmdir. "Süyuri", "İrşadüt-talibin", səh. 20.

Bu dəlil iki əsas müqəddimədən ibarətdir:

a) Hər bir mücərrəd[93] varlıq öz yanında hazırdır və bu səbəbdən özünü dərk edir. Bu müqəddimə fəlsəfədə isbat olunur. Bu qanuna əsasən, maddi varlıqlar tərkib hissələrindən ibarət olduğuna və dəyişikliyə məruz qaldığına görə özləri üçün hazır ola bilmirlər. Deməli, maddi varlıqlar özlərini dərk edə bilmirlər. Mücərrəd varlıqlar isə maddi olmadıqlarına görə həm özləri üçün, həm də digər mücərrəd varlıqlar üçün hazırdırlar. Dərkin amili də elə hazır olmaqdır, buna görə də nəticə alırıq ki, hər bir mücərrəd varlıq özünü dərk edir.

b) Allah-taala mücərrəd varlıqdır və maddədə olan məhdudiyyətlərin heç biri Onda yoxdur. Bu məsələ səlbi sifətlər mövzusunda (cisim deyil və maddi deyil) isbat ediləcək. Bu iki müqəddiməyə əsasən, nəticə alırıq ki, Allah-taalanın Öz zatına elmi var. Çünki O, mücərrəd varlıqdır və hər bir mücərrəd varlıq özünü dərk edir.

**Məxluqlara xilqətdən öncəki elm**

Burada Allahın elminin ikinci qismini araşdırırıq. Demək olar ki, bu qisimdə nəyin nəzərdə tutulduğu kifayət qədər aydındır. Bununla belə, filosoflar və kəlamçılar belə bir sualla qarşılaşırlar ki, Allahın bu elmi icmal şəklindədir, yoxsa hər şeyi təfsilatı ilə bilir?

İcmal şəklində elm dedikdə, Allah-taala əşyanı yaratmazdan öncə onlara vahid və bəsit elmlə xəbərdar olması, hər birindən ayrı-ayrılıqda xəbərdar olmaması nəzərdə tutulur. Buna nümunə olaraq, alimlərin elmini misal göstərmək olar. Məsələn, riyaziyyatçının riyazi qanunlara elmi bəsit və icmal şəklindədir. Eyni halda onun bu elmin bütün qanunlarından xəbərdar olmasını da inkar etmək olmaz. Lakin hər hansı bir məsələni həll etməyincə, elmi icmal formada qalır. Amma Allahın bütün əşyaya onları icad etməzdən öncə təfsilatı ilə elmi dedikdə, Allah-taalanın hər bir şeydən ayrı-ayrılıqda xəbərdar olması nəzərdə tutulur.

Hər halda yuxarıda qeyd etdiyimiz sualın cavabı bu kitabın həcmindən kənardır və geniş bəhs tələb edir. Bu səbəbdən bu haqda bəhs etmirik və məxluqlara xilqətdən öncəki elmi iki dəlillə isbat edirik.

1) Bu dəlil belə bir fəlsəfi qanuna əsaslanır ki, hər hansı bir şeyin tam səbəbindən xəbərdar olmaq o şeydən (nəticədən) xəbərdar olmaq deməkdir.[94] Beləliklə, tam səbəb məlum olan zaman onun nəticəsi (və ya nəticələri) də məlum olacaqdır.

Bu dəlilin ikinci müqəddiməsi budur ki, Allah-taala bütün varlıqların tam səbəbidir. Dəlilin başqa bir müqəddiməsi isə budur ki, keçən bəhsdə isbat etdiyimiz kimi, Allahın Özünə elmi var.

---

[93] Burada mücərrəd anlayışı qnoseoloji kateqoriya olan abstrakt mənasında deyil, ontoloji kateqoriya olan qeyri-maddi mənasında başa düşülməlidir. (red.)

[94] İbrahim Dinani, "Qəvaide-kulliye-fəlsəfi dər fəlsəfeye-islami, 3-cü cild, səh. 345-351.

Qeyd etdiyimiz üç müqəddiməyə (1- Allahın Özünə elmi var; 2-Allah bütün varlıqların tam səbəbidir; 3-Tam səbəbdən xəbərdar olmaq onu nəticəsindən xəbərdar olmaq deməkdir), eləcə də "Allahın Özünə elmi və digər varlıqlara səbəbliyi əzəldən mövcud olmuşdur" prinsipinə əsasən, isbat olur ki, Allah-taala əzəldən və varlıqları yaratmazdan öncə Özünə olan elmi vasitəsilə bütün varlıqlardan xəbərdardır.

2) Bu dəlil birinci dəlillə müqayisədə daha çox kəlami xarakter daşıyır. Allahın varlığını sübut edərkən qeyd etdiyimiz teleoloji dəlilə daha yaxındır.[95]

Ətrafımızda olan aləmdə düşünməklə nəticə alırıq ki, varlıq aləmi bütün tərkib hissələrilə heyranedici nizam-intizam əsasında qurulmuş və vahid hədəfə doğru hərəkətdədir. Digər tərəfdən, bütün varlıqlar Allah-taalanın məxluqudur. Nəticənin vücudu səbəbin vücudundan xəbər verdiyi kimi, onun xüsusiyyətləri də səbəbin xüsusiyyətlərindən xəbər verir.

Beləliklə, varlıq aləminin nizamlı və hədəfli olması bunu çatdırır ki, Allah onu yaratmazdan öncə bütün şeylərdən, xüsusiyyətlərdən və onlar arasındakı rabitələrdən xəbərdar olmuşdur. Çünki ağıl hökm edir ki, nizamlı və hədəfli məcmunu yaradan varlığın elmsiz şəkildə belə bir aləmi yaratması mümkün deyildir.

Kəlamçıların bir çoxu Allahın məxluqlara xilqətdən öncəki elmini isbat etmək üçün bu dəlilə istinad etmişlər. Məsələn, Nəsirəddin Tusi "Təcridül-etiqad" kitabında belə deyir: "Aləmdə mövcud olan mükəmməllik və hikmət Allahın elminə sübutdur".

**Məxluqlara xilqətdən sonrakı elm**

Allahın elminin üçüncü qismi Allahın mövcudatı yaratdıqdan sonra onlara təfsilatı ilə olan elmidir. Bu elmin isbatı üçün aşağıdakı dəlili qeyd edirik.

a) Allah-taala ilkin səbəbdir və digər varlıqlar Onun nəticəsidir.

b) Fəlsəfədə deyildiyi kimi nəticənin varlığı səbəbə bağlılıqdan ibarətdir və nəticə öz vücudunda müstəqil deyil.

c) Nəticənin səbəbə bağlılığının mənası budur ki, nəticə öz səbəbinin yanında hazırdır. Çünki əgər nəticə səbəbin yanında hazır olmazsa, bu, nəticənin vücudda müstəqil olması deməkdir. Halbuki ikinci müqəddiməyə əsasən, bu mümkün deyil. Qeyd etdiyimiz kimi elm obyektin subyektdə hazır olmasıdır. Buna görə də səbəb öz nəticəsindən xəbərdardır.

Beləliklə, Allah bütün varlıqlardan xəbərdardır. Çünki onların hamısı Allahın nəticəsidir və hər bir nəticə öz səbəbi üçün məlumdur.

---

[95] Bu iki dəlilin fərqi bundan ibarətdir ki, teleoloji dəlil elmli və hikmətli yaradanı isbat edir. Bu dəlildə isə aləmin məxluq və Allahın xaliq olması postulat kimi götürülür və onun əsasında Allahın elm sifəti sübut olunur.

**Zati və feli elm**

Qeyd etmişdik ki, Allahın bəzi elmləri zati, bəzi elmləri isə feli sifətdir. Allahın elminin üç qismini bəyan etdikdən sonra onlardan hansının zati sifət və ya feli sifət olduqlarını müəyyən etmək lazımdır.

Allahın elminin qismlərinə diqqət etdikdə aydın olur ki, birinci və ikinci qisim zati sifət, üçüncü qisim isə feli sifətdir.

**Allahın hər bir şeyə ayrı-ayrılıqda elmi**

Allahın elmi haqda əsas məsələlərdən biri budur ki, görəsən Allah-taala xüsusi əşyalardan və hadisələrdən xəbərdardır, yoxsa Onun elmi ancaq ümumi şəkildədir? Daha dəqiq desək, konkret bir zaman və məkanda yerləşən müəyyən bir əşya və ya şəxs, həmçinin konkret bir zaman və məkanda baş verən müəyyən bir hadisə fərdi şəkildə Allaha məlumdurmu? Xilqətdən sonrakı elm barəsində deyilənlərə diqqət etməklə aydın olur ki, cavab müsbətdir. Lakin bəzi kəlamçılar Allahın elminin xüsusi və fərdi şəkildə olmasını inkar edir və inanırlar ki, Allah-taala xüsusi və fərdi məsələlərdən onların mahiyyətləri və ümumi anlayışları vasitəsilə xəbərdar olur. Onlar öz müddəalarını isbat etmək üçün müxtəlif dəlillərə istinad edirlər. Onlardan bəzilərini bəyan edirik:

1. Xüsusi hadisələrin və əşyaların daimi olaraq dəyişməsi.

Allahın xüsusi hadisələrə və əşyalara elmini inkar edənlərin dəlillərindən biri xüsusi əşyaların daimi şəkildə dəyişməsidir. Beləliklə, əgər Allah-taala xüsusi əşyalardan xəbərdar olarsa, onların dəyişməsi ilə Allahın elmi də dəyişəcəkdir. Çünki elmlə məlum (idrak obyekti) arasında uyğunluq olmalıdır. Bu da nəticə etibarilə Allahın zatının dəyişkənliyə məruz qalması deməkdir. Halbuki, Allahın zatı hər növ dəyişkənlikdən uzaqdır. Odur ki, Allah-taalanın xüsusi hadisələrdən və əşyalardan xəbərdar olması mümkün deyildir.

Bəlkə də, bu nəzəriyyənin tərəfdarları güman etmişlər ki, Allah xüsusi əşyalardan xəbərdar olarsa, Onun elmi vasitəli elm olar, başqa sözlə, zehni təsvirlər vasitəsilə olar. Buna görə də, xüsusi əşyalar dəyişərsə, onların zehni təsvirləri də dəyişəcək və nəticədə Allahın zatı da dəyişikliyə məruz qalacaqdır.

Amma qeyd etdiyimiz kimi, Allahın elmi vasitəsiz elmdir. Bu səbəbdən, Allahın xüsusi əşyalara olan elmi onların Allahda hazır olmaları deməkdir. Əlbəttə, bu halda da xüsusi əşyaların dəyişməsi elmin dəyişməsi ilə nəticələnir. Lakin bu elmin dəyişməsi Allahın zatının dəyişməsinə səbəb deyil. Çünki bu elm Allahın feilinə aiddir və feli sifətlərdən sayılır. Ümumiyyətlə feli sifətlərin xüsusiyyətlərindən biri budur ki, məxluqların (bir mənaya görə bunlar da Allahın feilidir) dəyişməsilə bu sifətlər də dəyişir. Amma bu dəyişmənin Allahın zatında heç bir təsiri yoxdur.

Beləliklə, Allahın xüsusi əşyalara elmi onların Allahda hazır olması deməkdir. Xüsusi əşyaların dəyişməsinə gəldikdə isə bu dəyişmə Allahın feilinə aiddir, bu da Allahın zatının sabitliyi ilə heç bir ziddiyyət təşkil etmir.

2. Xüsusi əşyalara elm hiss orqanları vasitəsilə yaranır.

Allahın xüsusi əşyalara elmini inkar edənlərin digər dəlili bundan ibarətdir ki, bu cür elmdə hiss orqanlarına ehtiyac vardır. Halbuki, Allahın hiss orqanlarına ehtiyaclı olması mümkün deyildir.

Bu dəlilə cavab olaraq qeyd etmək lazımdır ki, hiss orqanlarından istifadə etmək xüsusi əşyalardan xəbərdar olmaq üçün zəruri şərt deyil. Sadəcə, bu cür elmin təbiət aləmində yaşayan insanlar üçün hasil olması hiss orqanları vasitəsilə həyata keçir. Amma fövqəltəbii varlıq olan və elmi də vasitəsiz elm olub, bütün varlıq aləmin əhatə edən Allah-taala, şübhəsiz, bu ehtiyacdan uzaqdır.

**Allahın elmi və insan ixtiyarı**

Digər sifətlərdə olduğu kimi, Allahın elminin xüsusiyyətlərindən biri onun mütləq olması, yəni bütün hadisələri, keçmişi, hazırı və gələcəyi əhatə etməsidir. Odur ki, Allah-taala gələcəkdə baş verən bütün hadisələri, o cümlədən insanların gələcəkdə nə iş görəcəklərini əzəldən bilir. Tarix boyu belə bir irad irəli sürülmüşdür ki, Allahın insanların işlərini əvvəlcədən bilməsi ilə onların ixtiyarlı olması arasında ziddiyyət vardır.

Biz bu iradı və onun cavabını "cəbr və ixtiyar" bəhsində geniş şəkildə araşdıracağıq.

**Quran nöqteyi-nəzərindən Allahın elmi**

Qurani-kərimin bir çox ayələri Allahın elmindən söz açmışdır. Quranda "elm" kökündən alınan feillərdən əlavə, "əlim" (çox bilən) sözü və onunla eyniköklü sifətlər, eləcə də "səmi" (eşidən) və "bəsir" (görən) sözləri dəfələrlə Allah-taalanın sifəti kimi Quranda işlənmişdir. Bəzi ayələrdə daha xüsusi sifətlərin, o cümlədən "alimul-ğeyb" (qeybi bilən) və "əllamül-ğuyub" (qeybləri bilən) və s.-nin şahidi oluruq. Qısa şəkildə olsa da, bu ayələrin hamısını araşdırmaq üçün ayrıca bir kitab yazmaq lazımdır. Burada Quranın ancaq bəzi nəzərlərinə işarə etməklə kifayətlənirik.

**Allahın elminin isbatı**

Qurani-kərim elm sifətini isbat etmək üçün demək olar ki, əsasən Allahın kamal sifətlərini isbat edən ayələrlə kifayətlənir. Hərçənd, bəzi ayələrdən ayrıca olaraq Allahın elmini isbat edən dəlillər də çıxarmaq olar. Məsələn, "Mulk" surəsində buyurulur:

أَلَا يَعْلَمُ مَنْ خَلَقَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ

"Məgər yaradan bilməzmi?! Halbuki O, incəliyinə qədər biləndir, xəbərdardır". ("Mulk": 14).

Bu ayə ritorik sual cümləsi şəklində soruşur: Yaradan Allahın bilməməsi mümkündürmü? Buna görə Quranın bəyanına əsasən, yaratmaqla yaradılanlara olan elm arasında sıx əlaqə vardır və hər hansı bir şeyi yaradan onu yaratmazdan öncə onun xüsusiyyətlərinə agah olmalıdır. Allahın yaratması daimi olduğu üçün ayə həm

yaranışdan öncəki, həm də sonrakı elmi isbat edir və bəyan edir ki, Allah-taala bütün zamanlarda Öz yaratdığı olan bütün varlıqlara agahdır.

**Allah-taalanın sonsuz və mütləq elmi**

Qurani-kərim Allahı elm sifətilə vəsf etməklə bərabər Onun elminin sonsuz olmasını da vurğulayır. Sonsuz və mütləq elm təlimi Allahın sifətləri ilə bağlı əsas həqiqətlərdən biri olub insanın Allaha olan dərkinin təkmilləşməsində böyük rol oynamaqla yanaşı, həm də dəyərli tərbiyəvi təsirlərə də malikdir. Allahın bütün şeylərdən xəbərdar olmasına inam təvəkkül ruhunun güclənməsində dərin təsir bağışlayır. Eləcə də Allahın insanların gizli və aşkar əməllərindən və hətta niyyətlərindən xəbərdar olmasına etiqad insanın günahlardan çəkinməsində təsirlidir.

Quran Allahın elminin sonsuz olmasını təkidlə bəyan edir:

وَاللّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

"Allah hər şeyi biləndir"[96] ("Bəqərə": 282; "Təğabun": 11)

Bəzi ayələr də Allahın xüsusi məsələlərə olan elmini vurğulayır. Bu ayələrin məcmusu Allahın elminin geniş dairəsindən xəbər verir.

يَعْلَمُ مَا يَلِجُ فِي الْأَرْضِ وَمَا يَخْرُجُ مِنْهَا وَمَا يَنزِلُ مِنَ السَّمَاء وَمَا يَعْرُجُ فِيهَا وَهُوَ مَعَكُمْ أَيْنَ مَا كُنتُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

"O, yerə girəni də, (yerdən) çıxanı da, göydən enəni də, (göyə) qalxanı da bilir. Siz harada olsanız, O sizinlədir. Allah sizin etdiklərinizi görəndir". ("Hədid": 4)

Ayədə istifadə olunan ibarələr çoxlu əşyalara aid olur[97] və Allahın geniş elminin bəzi təzahürlərini əks etdirir. "Harada olsanız, O sizinlədir" cümləsi bunu çatdırır ki, Allah daim insanlarla birgə olduğu üçün[98] onların əməllərindən xəbərdardır və onları görür, yəni insan bütün əməllərini Allahın hüzurunda yerinə yetirir.

Allahın insanların əməl və niyyətlərindən agah olması digər ayələrdə müxtəlif ifadələrlə bəyan edilmişdir.

قُلْ إِن تُخْفُواْ مَا فِي صُدُورِكُمْ أَوْ تُبْدُوهُ يَعْلَمْهُ اللّهُ وَيَعْلَمُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

"De: "Ürəklərinizdəkini gizli də saxlasanız, aşkara da çıxartsanız, Allah onu bilir. Çünki O, göylərdə və yerdə nə varsa, bilir. Allah hər şeyə qadirdir". [99] ("Ali-İmran", 29)

**Allahın qeybi bilməsi**

Bəzi ayələr Allahın qeybə və bəşərə açıqlanmayan həqiqətlərə elmindən söhbət açır:

---

[96] "Əhzab": 40 və "Fəth": 26.

[97] Bu ibarələr bitkilərə, yağış damlalarına, ağacların kökünə, mədən və xəzinələrə, yerin altında yaşayan heyvanlara, torpağın dərinliklərindən qaynayan çeşmələrə, yerə nazil olub göyə qalxan mələklərə, buludlara, quşlara, göydə hərəkətdə olan ulduzlara və yüzlərlə digər nümunələrə şamil olur.

[98] İnsanlarla birgə olmaq dedikdə zaman və məkan cəhətindən birgəlik nəzərdə tutulmur. Filosofların fikrincə, səbəb və nəticə arasında olan "qəyyumluq" anlayışı ilə həll oluna bilər.

[99] "Ənam: 3; "Tövbə: 78.

إِنَّ اللَّهَ عِندَهُ عِلْمُ السَّاعَةِ وَيُنَزِّلُ الْغَيْثَ وَيَعْلَمُ مَا فِي الْأَرْحَامِ وَمَا تَدْرِي نَفْسٌ مَّاذَا تَكْسِبُ غَدًا وَمَا تَدْرِي نَفْسٌ بِأَيِّ أَرْضٍ تَمُوتُ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

"Həqiqətən, qiyamətin qopacağı vaxtı ancaq Allah bilir. Yağışı göydən O yağdırır, bətnlərdə olanı O bilir. Heç kəs səhər nə kəsb edəcəyini və heç kəs harada öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, biləndir, xəbərdardır". ("Loğman "surəsi, 34)

Bu ayədə Allahın qeybi bilməsinin bəzi nümunələrinə işarə edilmişdir:

1. Qiyamətin vaxtı;
2. Yağışın nə zaman yağması;
3. Ana bətnində olan vücudun gələcək həyatı;
4. İnsanların gələcəyi və onların harada (və hansı zaman) dünyadan köçmələri.

Bəzi hədislərdə, bu elmlər qeybin açarları və Allaha məxsus elmləri kimi tanıtdırılmışdır.[100]

Qeyd etmək lazımdır ki, qeyb anlayışı nisbi anlayışdır və yalnız məhdud elmli varlıqlara aiddir. Yoxsa Allah-taala üçün hər bir şey aşkardır və Onun sonsuz elmi ilə müqayisədə heç bir şey gizli deyil. Beləliklə, Allahın qeybə elmi dedikdə, Onun insanlar (eləcə də digər məxluqlar) üçün məchul olan həqiqətlərdən xəbərdar olması nəzərdə tutulur.

**Allahın elmi haqda hədislər**

Allahın elmi məsələsi əhli-beytin (ə) hədislərində də öz əksini tapmışdır. Bəzi hədislərdə Allahın zati elmindən söz açılır. Həzrət Əli (ə) Allahın vəsfində buyurur: "(Allah-taala) heç bir şey olmayan zaman da bilən idi".[101]

Bəzi hədislərdə də Allahın yaratmazdan öncə və yaratdıqdan sonra olan elminə işarə olunmuşdur. İmam Sadiqdən (ə) nəql olunan hədisdə deyilir: "Rəbbimiz Allah-taala əzəldən var idi və elmi zatından ayrı bir şey deyildi, halbuki o zaman heç bir şey yaranmamışdı... Əşyaları yaratdıqdan sonra onlara elmi də meydana gəldi".[102]

Bir çox hədislərdə Allahın elminin sonsuz olmasına işarə olunmuşdur. Həzrət Əli (ə) Allahın sonsuz elmi haqda buyurur: "Allah-taala dağlardakı və çöllərdəki heyvanların nərəsindən, bəndələrin xəlvətdə etdikləri günahlardan, dəryaların dərinliklərindəki balıqların hərəkətindən və güclü küləklərin təsiri ilə yaranan dalğalardan xəbərdardır".[103]

---

[100] Bu hədislər, hədis əsaslı təfsirlərdə qeyd edilmişdir. Bax: "əd-Dürrül-mənsur", 5-ci cild, s. 169; "Nurus-səqəleyn", 4-cü cild, s. 218, "Bürhan təfsiri."

[101] "Nəhcül-bəlağə", 152-ci xütbə.

[102] "Üsuli-kafi", 1-ci cild, səh. 107.

[103] "Nəhcül-bəlağə", 198-ci xütbə.

Həmçinin, İmam Sadiq (ə) "Allaha Onun elmi qədər şükürlər olsun" deyən şəxsin cavabında buyurdu: "Elə demə, çünki Allahın elminin sonu yoxdur".[104]

**Allahın xüsusi və ümumi elmi**

Bəzi hədislər Allahın elmini iki qismə bölür:

1. Allaha məxsus olan xüsusi elm;

2. Allahla üstün məxluqları (peyğəmbərlər, imamlar və mələklər) arasında müştərək olan ümumi elm.

İmam Baqir (ə) buyurmuşdur: "Allah-taalanın bildiyi elə şeylər var ki, Ondan başqa onu bilən yoxdur, amma elə şey də var ki, yaxın mələklər və mürsəl peyğəmbərlər onu bilir. Biz də ondan xəbərdarıq".[105]

Bir çox hədislərdə Allahın elminin təfərrüatından olan "səmi" (eşidən) və "bəsir" (görən) sifətlərindən də danışılmışdır. O cümlədən qeyd edilmişdir ki, Allahın eşidilənlərə və görünənlərə elmi hər hansı bir hiss üzvü ilə deyil. "(Allah-taala) eşidəndir, amma qulaq vasitəsilə yox, görəndir, amma gözlə yox".[106]

**Terminlər**

Elm

Vasitəsiz elm

Vasitəli elm

Xüsusi elm

Ümumi elm

**Dördüncü fəslin xülasəsi**

1. Bilik iki qismə bölünür: vasitəsiz və vasitəli. Vasitəli bilik zehni təsvirlər vasitəsilə hasil olur. Vasitəsiz bilikdə isə obyektin özü subyektin vücudunda hazır olur. Bu bilikdə zehni təsvirlərin heç bir rolu yoxdur.

2. Bilik - obyektin subyektdə hazır olmasına deyilir. Bu məna hər növ nöqsan və məhdudluqdan uzaq olduğu üçün onu Allahın elminə də aid etmək olar.

3. İslam filosoflarının və kəlamçılarının fikrincə Allahın elmi vasitəsiz elmdir. Çünki vasitəli elmdə subyekt zehnindəki təsvirlərə qarşı passiv münasibətdə olub, onlardan təsirlənir, bu da Allahda mümkün deyil.

4. Allahın elmi üç qisimdən ibarətdir:

---

[104] "Ət-tövhid", 10-cu bab, birinci hədis.

[105] Yenə orada, 10-cu bab, 15-ci hədis, "Xüsusi elm" və "ümumi elm" 10-cu babın 14-cü hədisində də qeyd edilmişdir.

[106] "Nəhcül-bəlağə", 152-ci xütbə.

1) Özünə olan elm; 2) məxluqlara xilqətdən öncəki elm; 3) məxluqlara xilqətdən sonrakı elm.

5. Allahın Özünə olan elminə dəlil:

Hər bir mücərrəd varlığın özünə elmi var və Allah da mücərrəddir. Deməli, Allahın Özünə elmi vardır.

6. Məxluqlara xilqətdən öncəki elmin dəlili:

Allah bütün əşyaların səbəbidir və səbəbdən xəbərdar olmaq nəticə yaranmazdan öncə ondan xəbərdar olmaq deməkdir.

Bundan əlavə aləmdə mövcud olan nizam-intizam bunu göstərir ki, aləmi yaradan yaratmazdan öncə hər bir şeyin xüsusiyyətlərindən xəbərdar olub.

7. Allahın bütün əşyalara onları yaratdıqdan sonra da elmi var. Çünki nəticə öz vücudunda səbəbə bağlı olduğu üçün öz səbəbinin yanında hazırdır. Hər bir şey də Allah-taalanın nəticəsi olduğundan Onda hazırdır. Elmin mənasına da nəzər saldıqda görürük ki, elm dərk olunanın (məlumun) dərk edəndə hazır olmasıdır.

8. Allah-taala əşyalardan ümumi şəkildə xəbərdar olmaqla yanaşı, həm də xüsusi şəkildə xəbərdardır. Amma xüsusi şəkildə xəbərdar olmaq üçün hiss üzvlərinə ehtiyaclı deyil, həmçinin xüsusi əşyaların dəyişməsi Allahın zatının dəyişməsinə səbəb olmur.

9. Quranın bir çox ayələri Allahın elmi haqda danışır. "Əlim", "Səmi", "Alimul-ğeyb", Əllamul-ğuyub" kimi sifətlər Quranda dəfələrlə təkrarlanmışdır.

10. Quran "Mülk" surəsinin 14-cü ayəsində Allahın xaliqliyi əsasında Onun bütün varlıqlara olan elmini isbat edir.

11. Quran Allahın elminin sonsuz olmasına, bəndələrin əməllərindən və niyyətlərindən agah olmasına təkid edir. Həmçinin Quran Allah-taalanın qeyb aləmindən xəbərdar olmasını da vurğulayır. Qeyb dedikdə, insanlar üçün məchul olan aləm nəzərdə tutulur.

12. Allahın əməllərdən və niyyətlərdən xəbərdar olmasına etiqadın böyük tərbiyəvi təsiri vardır.

13. Hədislərdə Allahın zati və sonsuz elminə, eləcə də xüsusi və ümumi elmə işarə olunmuşdur. Hədislərdə deyildiyi kimi, Allah eşidilənlərdən və görünənlərdən xəbərdar olmaq üçün hiss üzvlərinə ehtiyaclı deyil.

**Beşinci fəsil**

**Allahın qüdrəti**

Allahın sübuti və zati sifətlərindən biri qüdrət sifətidir. Bir çox Quran ayələri Allahı Qadir adlandırır. Qüdrət sifətinin məhdud formasını biz özümüzdə müşahidə edə bilərik. Bu səbəbdən, qüdrət və acizlik anlayışı bizim üçün aydındır. Buna baxmayaraq, məsələnin daha da aydın olması üçün qüdrət anlayışına elə tərif verməliyik ki, Allaha da aid olsun.

**Qüdrətin mənası**

İslam kəlamçıları qüdrətə müxtəlif təriflər vermişlər. Məşhur bir tərifə əsasən, qadir o şəxsə deyilir ki, hər hansı bir işi istəsə, yerinə yetirər, istəsə də, tərk edər. Deməli, işin yerinə yetirilməsi və tərk edilməsi işi görənin istəyindən asılı olarsa, o şəxs həmin işi görməyə qadir hesab olunur. Beləliklə, işi görən şəxs iradəsiz olarsa və işin yerinə yetirilməsi onun istəyindən asılı olmazsa, o şəxs qadir sayıla bilməz. Məsələn, deyə bilərik ki, od istilik yaratmağa və yandırmağa qadir deyil, çünki bu iş onun istəyindən irəli gəlmir. Deyə bilmərik ki, od istədiyi zaman yandırmağı tərk edə bilər. Bu tərifdən aşağıdakı mətləbləri başa düşmək olar:

a) Hər hansı bir işə qadir olmaq, o demək deyildir ki, hökmən o iş baş verməlidir, əksinə şəxs bir işə qadir olduğu halda onu tərk edə bilər. Bu halda şəxsin istəyi işin tərk olunmasıdır.

b) Qadir şəxs işi yerinə yetirməzdən öncə də qadir sayılır (Bəzilərinin fikrincə, iş görən yalnız iş görən zaman qüdrət sifətinə malikdir[1]). Həm qüdrətin tərifindən, həm də də öz daxili aləmimizdə müraciət etməklə bu müddəanın doğruluğu aydın olur. Çünki iki şərti hökmdən ibarət tərif hətta işi yerinə yetirməzdən öncə də qadir şəxsə aid olur. Digər tərəfdən, bir çox işləri yerinə yetirmədiyimiz halda onlara qadir olduğumuzu görürük.

c) Qüdrət obyekti həmişə iki zidd iş olur: yerinə yetirmək və tərk etmək. Daha dəqiq desək, qüdrət dedikdə, həm bir işi yerinə yetirməyi, həm də onu tərk etməyi bacarmaq nəzərdə tutulur. Bir qrup kəlamçılar isə əksinə olaraq, şəxs işi yerinə yetirən zaman onu qadir adlandırır, beləliklə, yalnız işin yerinə yetirilməsini qüdrət hesab edirlər.[2]

ç) Qadir və aciz anlayışları məntiq elminə əsasən, qismən zidd anlayışlar hesab olunurlar. Odur ki, cansız əşyalar nə qadir sayılır, nə də aciz.

---

[1] Bu fikir əşəriliyə aid edilir. "İrşadut-talibin", səh. 95.

[2] Bu fikir də əşəriliyə aid edilir. Yenə orada, səh. 96.

**Allahın qüdrətinin mənası**

Qüdrətin mənası açıqlandıqdan sonra Allahın qüdrətini mənalandırmağı lazım bilirik. Qüdrətin ümumi mənasını heç bir dəyişiklik aparmadan Allaha aid edə bilərikmi? Qeyd etdiyimiz tərifdə heç bir məhdudluq və nöqsan olmadığından Allah haqqında istifadə edə bilərik. Beləliklə, Allahın qadir olması bu mənayadır ki, hər hansı bir işin yerinə yetirilməsində istəyi olarsa, onu yerinə yetirəcək, istəyi olmadıqda isə onu tərk edəcəkdir.

Qeyd etmək lazımdır ki, biz öz qüdrətimiz haqda düşünəndə görürük ki, bir işi yerinə yetirməyimiz və ya tərk etməyimiz bir çox hallarda xarici amillərin təsiri ilə olur. Şübhəsiz, bu məna Allaha aid edilə bilməz. Çünki Allah-taalanın xaricdən təsirlənməsi ilə nəticələnər ki, bu da Onun zəruri və ehtiyacsız varlıq olması ilə ziddiyyət təşkil edir. Bəzi kəlamçılar Allahın işlərini xarici amillərin nəticəsi bilsələr də, düzgün nəzəriyyə budur ki, Allah-taala yaratdıqlarının əksinə olaraq, işlərini xarici amillərin təsiri nəticəsində yerinə yetirmir. Allahı hər hansı bir işi görməyə sövq edən Onun zatıdır və O, Öz zati istəyi əsasında iş görür.

**Allahın qüdrətinin isbatı**

Allahın qüdrətini müxtəlif dəlillərlə isbat etmək olar. Burada bir dəlillə kifayətlənirik.

Qüdrətin mənasına əsasən, Allahın qadir olmaması o zaman düzgün olar ki, bir işi istədikdə, o iş olmasın və əks təqdirdə hər hansı bir işi istəmədikdə, o iş yerinə yetirilsin. Elə isə sual olunur ki, Allahın istədiyi şeyin yaranmamasının səbəbi nədir? Bu sualın cavabında iki ehtimalla qarşılaşırıq:

**Birinci ehtimal.** İşin yaranmamasına səbəbi Allahın Özüdür. Bu ehtimal tamamilə əsassızdır. Çünki məntiqlə uyğun gəlmir ki, Allah-taala bir tərəfdən işin yaranmasını istəsin, digər tərəfdən isə Özü onun yaranmamasına səbəb olsun. Daha dəqiq desək, bu fərziyyə Allahın hikməti ilə uyğun deyil.

**İkinci ehtimal.** Digər bir varlıq Allahın istəyinə maneədir. Bu da əsassız bir ehtimaldır. Çünki isbat edildiyi kimi, Allah-taala yeganə zəruri varlıqdır. Aləmdə nə varsa, Onun məxluqudur, mümkün varlıqdır və işlərində Ona bağlıdır. Odur ki, müstəqil olmayan mümkün varlığın Allahın istəyinin qarşısında dayanıb Onun işlərinə mane olması qeyri-mümkündür.

Beləliklə, Allah-taalanın qüdrəti isbat olur. Çünki Allahın istəyi bir işdə olarsa, Onun istəyinin qarşısını alan heç bir maneə təsəvvür oluna bilməz.

**Allahın mütləq qüdrəti**

Kəlamçılar arasında mübahisəyə səbəb olan məsələlərdən biri Allahın qüdrətinin əhatə dairəsi ilə bağlıdır. Allahın qüdrəti sonsuz və mütləq olub hər bir şeyi əhatə edir, yoxsa məhduddur və bəzi şeylər Onun qüdrətindən xaricdir? Bu sualın cavabında

bəziləri birinci fikri qəbul edib Allahın qüdrətini sonsuz bilirlər. Allahı hər bir şeyə qadir bilən bir çox ayələr bu fikri təsdiq edir.

Bunun əksinə olan müxtəlif nəzəriyyələr də vardır ki, Allahın qüdrətini məhdud bilir, Onun bəzi işlərə qadir olmasını inkar edirlər.

Fikrimizcə, bu nəzəriyyələr arasında düzgün olan birinci fikirdir. Allahın qüdrəti Onun digər zati sifətləri kimi, sonsuz və mütləqdir. Bu fikrin əqli isbatı üçün sifətlərin sonsuz olmasına qeyd olunan ümumi dəlillərdən əlavə, Allahın qüdrətini isbat edən dəlillərdən də istifadə edə bilərik. Çünki hər hansı bir fərz olunan iş barəsində bunu demək mümkündür ki, əgər Allah o işin baş verməsini istəyərsə, heç bir şey onun yaranmasına mane ola bilməz.

Hər halda, ağıl Allahın sonsuz və mütləq qüdrətini təsdiq edir. Bu haqda gələn bəhslərdə nəqli dəlillərə də işarə edəcəyik. Bununla belə tarix boyu Allahın qüdrətinin ümumiliyi haqda müxtəlif suallar olmuşdur. Bəziləri bu suallara cavab tapa bilmədikləri üçün Allahın qüdrətinin məhdud olmasını qəbul etmişlər. Biz burada qısa da olsa, bu haqda olan sualları qeyd edib onları cavablandıracağıq.

**Allah-taala qeyri-mümkün işləri görməyə qadirdirmi?**

Allahın sonsuz qüdrəti haqda qədim zamanlardan ortaya atılan suallardan bəzilərində məsələ elə qoyulur ki, cavabda nəzərdə tutulan hər iki variant ilk baxışda problemlə üzləşir. Bu cür suallar müxtəlif bəyanlarla deyilsə də, hamısının əsasi birdir. Məşhur suallardan bəzilərini nəzərdən keçirək:

1. Allah-taala Özünə şərik yarada bilərmi? Bu sualın cavabı müsbət olarsa, Allahın şərikinin olmasını mümkün hesab etmiş oluruq, əgər cavab mənfi olarsa, Allahın qüdrətini məhdudlaşdırmış oluruq. Çünki istər-istəməz Allahın qüdrətindən xaric bir şeyin olmasını qəbul etmiş oluruq.

2. Allah-taala dünyanın və yumurtanın həcmini dəyişdirmədən dünyanı yumurtanın içərisində yerləşdirə bilərmi? Ağıl bu suala mənfi cavab verir. Buna görə də, Allahın qüdrəti qeyri-məhdud və sonsuz deyil və bəzi şeylər Allahın qüdrətindən xaricdir.

3. Bu sualların ən çətin forması budur ki, həm müsbət, həm də mənfi cavab Allahın sonsuz qüdrətinin inkarı ilə nəticələnir. Məsələn deyilir: Allah-taala elə bir daş yarada bilərmi ki, onu yerindən qaldıra bilməsin? Yaxud Allah-taala elə bir varlıq arada bilərmi ki, onu məhv edə bilməsin? Suallara diqqət etdikdə məlum olur ki, müsbət və ya mənfi cavab, hər iki tərəfdən Allahın qüdrətinin sonlu və məhdud olması ilə nəticələnir.

Bu sualların hamısı bir əsas üzərində qurulmuşdur. Buna görə, bir cavabla hamısını cavablandırmaq olar. Qeyd edəcəyimiz cavabın daha aydın olması üçün qeyri-mümkün işlərin müxtəlif qisimlərini araşdırmaq məqsədəuyğun olardı.

Qeyri-mümkün işlər üç qismə bölünür:

1. Zatən qeyri-mümkün. Özlüyündə və xarici bir amilin dəxaləti olmadan qeyri-mümkün olan işə zatən qeyri-mümkün deyilir. İki ziddin hasil olması və ya aradan getməsi bu növ qeyri-mümkünün bariz nümunələrindəndir.

2. Reallığı qeyri-mümkün. Bu növ işlər birbaşa olaraq zatən qeyri-mümkün sayılmır, lakin onların vücuda gəlməsi dolayı yolla zatən qeyri-mümkünlüyə gətirib çıxarır. Məsələn, səbəbsiz nəticənin vücuda gəlməsi reallığı qeyri-mümkün olan işlərdəndir. Çünki onun vücuda gəlməsi iki ziddin hasil olması ilə nəticələnir.[1] Qeyri-mümkünün bu iki qisminə (zatən qeyri-mümkün və reallığı qeyri-mümkün) əqlən qeyri-mümkün də deyilir.

3. Adətən qeyri-mümkün. Bu cür işlər təbiətdə tanınmış qanunlara görə qeyri-mümkün sayılır, lakin bu nə zatən qeyri-mümkün, nə də reallığı qeyri-mümkün olan işlərdəndir.

Qeyri-mümkün işlərin qisimlərini qeyd etdikdən sonra qətiyyətlə deyə bilərik ki, əqlən qeyri-mümkün işlərə Allahın qüdrəti aid olmur. Suallara diqqət etsək görərik ki, onların hamısı reallığı qeyri-mümkün işlərin bariz nümunələrindəndir. Məsələn, Allahın şəriki reallığı qeyri-mümkün olan işlərdəndir. Çünki iki zəruri varlığın mövcud olması iki ziddin hasil olması ilə, yəni onların həm zəruri varlıq olması, həm də zəruri varlıq olmaması ilə nəticələnir. Aləmin yumurtanın içərisində yerləşməsi də iki ziddin hasil olması ilə nəticələnir. Çünki belə bir fərzə əsasən, aləm böyük olmaqla yanaşı, həm də böyük olmamalıdır (yumurtanın içərisində yerləşdiyi üçün). Həmçinin, Allahın hərəkətə gətirə bilməyəcək daşın yaranması və ya məhv edə bilməyəcək bir varlığı yaranması iki ziddin hasil olması ilə nəticələnir.

Xatırlamalıyıq ki, zatən qeyri-mümkün və reallığı qeyri-mümkün işlərə Allahın qüdrətinin aid olmaması Onun sonsuz qüdrətinin məhdud olması demək deyildir. Çünki ümumiyyətlə, bu işlərin yaranmağa qabiliyyəti yoxdur, filosofların təbirincə desək, səbəb (Allah-taala) öz təsirini bağışlayır, lakin zatən qeyri-mümkün və reallığı qeyri-mümkün işlərin özündə yaranma qabiliyyəti yoxdur.

Məsələnin daha dəqiq məlum olması üçün ətrafımızda olan əşyalar haqda dərindən düşünməliyik (Əlbəttə, qeyd edəcəyimiz misalların Allahın qüdrəti ilə fərqi vardır, amma məsələni başa düşmək üçün oxşar cəhətlərdən istifadə edirik). Məsələn, fərz edin ki, bir usta gildən ən gözəl səhəng düzəltməyə qadirdir, amma səhəng düzəltmək üçün ona gil yerinə su veririk. Şübhəsiz, belə bir halda o, ən sadə səhəngi də düzəltməyə qadir olmaz. Məlumdur ki, bunu ustanın bacarıqsızlığı və ya təcrübəsizliyi ilə əlaqələndirmək olmaz. Çünki ümumiyyətlə suyun səhəng olma qabiliyyəti yoxdur.

---

[1] Çünki vahid bir şeyin eyni zamanda həm səbəbə möhtac olması, həm də möhtac olmaması ilə nəticələnir. Həm ehtiyaclı olmaq, həm də ehtiyaclı olmamaq iki ziddin hasil olması deməkdir.

Bizim mövzumuz da buna oxşar bir məsələdir. Nöqsan səbəbdə deyil, qəbul edəndədir. Quranda deyilir ki, "Allah-taala hər şeyə qadirdir". "Şey" anlayışı isə əqli qeyri-mümkünlərə aid olmur.

Beləliklə, suallarda qeyd olunan məsələlər əqli qeyri-mümkünlərdir. Odur ki, Allahın qüdrəti onlara aid olmur və bu da Allahın qüdrətində nöqsan hesab oluna bilməz.

Əlbəttə, möcüzə bəhsində deyəcəyik ki, Allahın qüdrəti adətən qeyri-mümkün işlərə aid olur. Əslində möcüzələr bu cür qeyri-mümkünlərin baş verməsi deməkdir.

**Pis işlərə Allahın qüdrəti**

Sonsuz qüdrətə aid olan məsələlərdən biri budur ki, Allah-taala pis iş görməyə qadirdimi? Bu sualın cavabında iki fikir vardır. Birinci fikrə əsasən, Allah-taala pis iş görməyə qadir deyil.[2] İkinci fikrə görə isə Allah-taala öz hikmətinə və digər kamal sifətlərinə görə heç vaxt pis iş görməsə də, bu o demək deyil ki, pis iş görməyə qadir deyil.

Məsələyə diqqətlə yanaşdıqda ikinci fikrin doğruluğu aydın olur. İlk öncə birinci fikrin dəlilini qeyd edib sonra onu tənqid edəcəyik.

Onların dəlili bundan ibarətdir ki, əgər Allah-taala pis işlərə qadir olsaydı, cahil və ya möhtac olardı. Lakin Allah-taala alim və qənidir, hər bir cahillik və ehtiyacdan uzaqdır. Bu səbəbdən Allah-taala pis işlərə qadir deyil.[3] Çünki Allahın pis işlərə qadir olması bu cür işlərin Allah tərəfindən mümkün olmasını çatdırır. Elə isə fərz edək ki, belə bir iş Allahdan baş vermişdir. Əgər O bu işin pisliyini bilmirsə, demək cahildir, amma əgər bilirsə, deməli ehtiyac üzündən bu işi yerinə yetirmişdir. Çünki Allahın hikməti pis işin tərk edilməsini tələb edir. Beləliklə, Allahın pis işlərə qadir olması ya cahillik və ya ehtiyacla nəticələnir. Hər iki nəticə puç olduğundan nəticəyə gətirib çıxaran amillər də puçdur.

Bu dəlilin cavabında deməliyik ki, qeyd etdiyimiz iki nəticə (cahillik və ehtiyac) pis işin "xarici aləmdə" hasil olmasının nəticələridir. Allahın pis işlərə qadir olması bu işləri yerinə yetirməsi demək deyil. Beləliklə, Allah-taala pis işlərə qadir olmaqla bərabər hikmət sifətinə əsasən, heç vaxt bu işləri görmür və nəticədə, cahillik və ehtiyacla da nəticələnmir. Başqa sözlə desək, Allah-taalanın hikmətinə əsasən, pis işin Allah tərəfindən xarici aləmdə hasil olması qeyri-mümkündür. Amma bu qeyri-mümkünlük Allahın bu cür işlərə qadir olması ilə heç bir ziddiyyət təşkil etmir.[4]

---

[2] Bu fikir Nəzzama aid edilir; "İrşadut-talibin", səh. 188; "Şərhül-babil-hadi-əşər", səh. 11.

[3] "Süyuri", "İrşadüt-talibin", səh. 188 və 189.

[4] İrad oluna bilər ki, Allahdan pis işin baş verməsinin qeyri-mümkün olması Allahın o işə qadir olmaması deməkdir, çünki qüdrət qeyri-mümkün işləri əhatə etmir. Cavab bundan ibarətdir ki, qüdrət sahəsinə daxil olmayanlar əqli qeyri-mümkünlərdir. Pis iş isə əqlən mümkündür və Allahın hikmətini nəzərə alarkən "müqayisəli qeyri-mümkün" hesab edilir.

**Allahın qüdrəti haqda ayələr və hədislər**

Qurani-kərim Allah-taalanı "qadir", "qədir" və "muqtədir" sifətlərilə vəsf edir və Onun qüdrətinin sonsuz olmasına təkid edir. Odur ki, "Allah hər bir şeyə qadirdir" cümləsi və ona oxşar cümlələr dəfələrlə Quranda təkrar edilmişdir. Bəzi ayələrdə elə cümlələrlə rastlaşırıq ki, onları Allahın qüdrətinin sonsuz olmasına dəlil olaraq qeyd etmək olar. Məsələn, "Talaq" surəsində belə oxuyuruq:

اللَّهُ الَّذِي خَلَقَ سَبْعَ سَمَاوَاتٍ وَمِنَ الْأَرْضِ مِثْلَهُنَّ يَتَنَزَّلُ الْأَمْرُ بَيْنَهُنَّ لِتَعْلَمُوا أَنَّ اللَّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ وَأَنَّ اللَّهَ قَدْ أَحَاطَ بِكُلِّ شَيْءٍ عِلْمًا

"Yeddi (qat) göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın hər şeyi elm ilə ehtiva etdiyini biləsiniz deyə, (Allahın) əmri onların arasında nazil olar". ("Talaq": 12)

Ayədə varlığın yaranışı və aləmin tədbiri, Allahın qüdrətinin sonsuz olmasına dəlil hesab edilmişdir. Digər bir ayədə bildirilir ki, göylərin və yerin yaranışı Allahın ölüləri diriltməyə qadir olmasından xəbər verir:

أَوَلَمْ يَرَوْا أَنَّ اللَّهَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَلَمْ يَعْيَ بِخَلْقِهِنَّ بِقَادِرٍ عَلَى أَنْ يُحْيِيَ الْمَوْتَى بَلَى إِنَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

"Məgər onlar göyləri və yeri yaratmış və onları yaratmaqdan yorulmamış Allahın ölüləri də diriltməyə qadir olduğunu görüb anlamırlarmı? Bəli, O, hər şeyə qadirdir". ("Əhqaf": 33)

Allahın qüdrətinin hər şeyə şamil olması mövzusunda hədislər də vardır. Məsələn, İmam Sadiqin (ə) hədisində belə oxuyuruq: "(Allah-taalanın) bütün yaratdığı şeylərə elm, qüdrət, əhatə, hakimiyyət cəhətdən əhatəsi var... Və bütün şeylər elm, qüdrət, hakimiyyət və əhatə cəhətdən Onun əhatəsində bərabərdir.[5]

**Hədislərin sonsuz qüdrət haqqında olan suallara cavabları**

Məsum imamlar öz mübahisələrində Allahın sonsuz qüdrətinə aid olan sualları gözəl cümlələrlə cavablandırmışlar. Bir şəxs Əlidən (ə) soruşdu: "Sənin Rəbbin dünyanı kiçiltmədən və yumurtanı böyütmədən dünyanı yumurtada yerləşdirə bilərmi?" İmam (ə) cavabında buyurdu: "Allah-taala aciz deyil. Amma sənin məndən soruşduğun şey olası deyil".[6] (Yəni belə bir şey mövcud olma qabiliyyətinə malik deyil).

İmamın (ə) cavabının xülasəsi budur ki, sual olunan məsələ qeyri-mümkündür. Bu qeyri-mümkünlük Allahın acizliyi mənasına deyil, əksinə "reallığı qeyri-mümkün" olduğuna görədir ki, yaranma qabiliyyətinə malik deyil.

**Terminlər**

Qüdrət

---

[5] "Ət-Tövhid", 9-cu bölüm, 15-ci hədis.

[6] Yenə orada, 9-cu hədis.

Zatən qeyri-mümkün
Reallığı qeyri-mümkün
Adətən qeyri-mümkün

**Beşinci fəslin xülasəsi**

1. Qadir odur ki, şəxs hər hansı bir işi istəsə, yerinə yetirər, istəsə də, tərk edər. Başqa sözlə desək, qadir olan şəxs işini öz istəyi ilə yerinə yetirir.

2. Qadir olmaq işin xarici aləmdə hasil olması demək deyil. Çünki şəxs qüdrəti olan işi tərk edə bilər. Qadir olan şəxsdə işi görməzdən öncə də qüdrət sifəti vardır.

3. Allah-taala qadirdir, yəni hər hansı bir işi istəsə, yerinə yetirər, tərk etmək istəsə də tərk edər. Allahın feili xaric amillərə tabe deyil.

4. Sonsuz qüdrətin dəlili: Allah-taala hər hansı bir işi istəyərsə, heç bir şey o işin baş verməsinə mane ola bilməz. Çünki bütün varlıqlar Allahın məxluqudur və bütün işlərində Ona bağlıdır.

5. Allahın qüdrəti sonsuz və qeyri-məhduddur. Onun sonsuz qüdrəti zatən qeyri-mümkün və reallığı qeyri-mümkünlərə aid deyil, çünki onların yaranma qabiliyyəti yoxdur, amma adətən qeyri-mümkün işlərə aid olur. Möcüzələr adətən qeyri-mümkün işlərin bariz nümunələrindəndir.

6. Allah-taala pis işlərə də qadirdir, lakin hikmətli olduğu üçün pis işlər görmür.

7. Qurani-kərim Allah-taalanı "Qadir", "Qədir" (qüdrətli) və "Müqtədir" (iqtidarlı) adlandırır. "Allah hər bir şeyə qadirdir" ayəsi Allahın sonsuz qüdrətini təsdiq edir.

8. Quran aləmin yaranışını və tədbirlə idarə olunmasını sonsuz qüdrətin nişanələrindən hesab edir.

9. Bəzi hədislər Allahın sonsuz qüdrətinə olan sualları cavablandırır. Bu hədislərə əsasən, bəzi işlərin Allahın qüdrətinə daxil olmamasının səbəbi onların qeyri-mümkün olmasıdır. Odur ki, Allahın qüdrətini məhdud edə bilməz.

**Altıncı fəsil**

**Həyat - əzəlilik - əbədilik**

**Həyat**

Allahın sifətlərindən biri də bütün kəlamçıların qəbul etdikləri həyat (canlı olmaq, diri olmaq) sifətidir. "Həyat" sözünün mənası, həmçinin bu sifətin sübuti və səlbi olması haqda kəlamçılar arasında fikir ayrılığı vardır. Məlum olduğu kimi, həyat sifəti Allahın yaratdıqlarına da, o cümlədən heyvanlar və insanlara da aid edilir. İlk öncə Allahın yaratdıqlarında olan həyatın mahiyyətini araşdırırıq, sonra Allahın canlı olmasının mənasını açıqlayacağıq.

**Maddi mövcudlarda həyat**

Canlı mövcudlara baxdıqda onlarda oxşar xüsusiyyətlərə rast gəlirik ki, bu oxşar xüsusiyyətlərə görə həyat sifətini onlara aid edirik. Kəlamçıların fikrincə, bu xüsusiyyətlər başqa iki əsas xüsusiyyətdən qaynaqlanır: "ixtiyarlı fəaliyyət (iş görmək)"[7] və "idrak" (şüur). Beləliklə, canlı varlıq - ixtiyarlı iş görən şüurlu varlığa deyilir. Odur ki, cisimlər həyat xüsusiyyətinə malik deyildir. Çünki onlarda (zahirdə) şüur və ixtiyarlı fəaliyyətdən əsər-əlamət yoxdur. Əlbəttə, qədim alimlər arasında bitkilərin canlı olması haqda fikir ayrılığı olub. Çünki bəzi bitkilərdə şüur və fəaliyyətin aşağı dərəcəsi ehtimal edilir. Hər halda, kəlamçıların həyat haqqında verdikləri izahdan belə başa düşülür ki, heyvanlar və insan canlı varlıqlar sayılır. Burada iki əsas məsələyə diqqət etmək lazımdır.

a) Heyvan və insan kimi təbii varlıqlarda olan həyat inkişaf, qidalanma, mayalanma, fiziki hərəkət və bu kimi xüsusiyyətlərlə yanaşı olur. Bunlar həyat xüsusiyyətinin əlamətlərindən sayılsa da, onları mütləq həyatın ayrılmaz xassələrindən hesab etmək olmaz. Güman olunmasın ki, həyat həmişə bu xassələrlə bir yerdə olmalıdır. Qeyd etdiyimiz xassələr təbii aləmdə mövcud olan həyatın xassələridir. Qeyri-maddi varlıqların canlı olması isə heç də onlarda bu xassələrin olması demək deyildir.

b) Həyat sifətinin "şüur" və "fəaliyyət" sifətlərilə bəyan edilməsi həyat sifətinin bu iki xüsusiyyətdən ibarət olması demək deyil. Əks təqdirdə, həyat sifəti şərti bir anlayış olacaqdır. Bu isə o deməkdir ki, obyektiv aləmdə şüur və fəaliyyətdən başqa həyat deyilən bir şey yoxdur. Həyat varlığın kamilliklərindəndir və bu sifətə malik olan kəsdə şüur, qüdrət və fəaliyyətin müəyyən dərəcəsi vardır. Beləliklə, həyatı şüur və fəaliyyət sifətlərilə tanıtdırmaq bir şeyi öz nəticələri ilə tanıtdırmaqdır.

---

[7] Fəaliyyətin mənşəyi qüdrət olduğu üçün bəzən "iş görmək" əvəzinə "qüdrət" sifətindən istifadə edirlər və buna görə də iki cür tərif verirlər: 1. Şüurlu qadir mövcuda canlı (diri) deyilir. 2. Şüurlu iş görən mövcuda canlı deyilir.

Həyatın ümumi mənası məlum olduqdan sonra Allahın diri olmasının mənası haqda söhbət etmək münasib olardı.

**Allahın diri olmasının mənası**

Qeyd etdiyimiz kimi islam kəlamçılar arasında Allahın həyat sifəti, eləcə də sübuti və ya səlbi olması haqda vahid fikir yoxdur. Əşərilər sübuti sifətləri zatdan ayrı bildiklərinə görə həyat sifətini zatdan ayrı hesab edirlər və bu nəzəriyyəyə görə zatdan ayrı olan həyat vasitəsilə elm və qüdrət sifətləri Allaha isnad verilir.

Sifətlərin xarici aləmdə zatdan ayrı olmasını inkar edənlər isə həyat sifətini səlbi şəkildə tərif edib demişlər ki, Allahın canlı olması o deməkdir ki, Onun qadir və alim olması qeyri-mümkün deyil.[8] Odur ki, həyat sifətini Allahın səlbi sifətlərindən hesab edirlər.[9]

Həyat sifətinin səlbi sifət olmasına bir sıra iradlar vardır.[10] Bundan əlavə qeyd etməliyik ki, bu sifət sübuti sifətlərdəndir və Allahın zatı ilə eynidir. Allahın canlı olması Allahın varlığının elə kamilliklərə malik olması deməkdir ki, bu kamilliklər nəticəsində elm, qüdrət və fəaliyyət xüsusiyyətlərinə malik olur. Şübhəsiz, Allahın həyat sifəti maddi varlıqlarda olan xassələrdən uzaqdır. Qeyd etdik ki, onlar mütləq həyatın xassələri deyil.

Həyat sifətinin zati sifət olmasını elm və qüdrət sifətlərinin zati sifətlər olmasından nəticə alırıq. Çünki bu sifətlərin həyat sifətilə sıx əlaqəsi vardır. Amma təbii varlıqlarda olan həyat sifəti zatdan ayrıdır.

**Allahın həyat sifətinə dəlil**

Allahın kamal sifətlərinə olan və həyat sifətini də şamil olan ümumi dəlillərdən əlavə, kəlamçılar həyat sifətinə xüsusi dəlil də qeyd etmişlər. İstinad edəcəyimiz ən qısa dəlil Allahın elm, qüdrət və fəaliyyət sifətlərilə əlaqədardır.

Qeyd etdiyimiz kimi, elm, qüdrət və fəaliyyət həyat sifətinin əlamətlərindəndir. Keçən bəhslərdə elm və qüdrət sifətlərini isbat etdiyimiz üçün həyat sifəti də isbat olur. Nəsirəddin Tusi qısa bir cümlə ilə deyir: "Hər bir qadir və şüurlu varlıq, şübhəsiz, diri və canlıdır".

**Quran və hədis nöqteyi-nəzərindən Allahın canlı olması**

Qurani-kərim ayələrdə Allahı "həyy" (diri) sifəti ilə vəsf edir.

اللّهُ لا إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ

"Allahddan başqa tanrı yoxdur. O, diri və qəyyumdur". ("Bəqərə": 255 və "Ali-İmran": 2)

---

8 "İrşadut-talibin", səh. 201.

9 Yenə orada, səh. 202; "Kəşfül-murad", səh. 313.

10 Fəxrəddin Razi həyat sifətinin səlbi olması fikrini tənqid etmişdir.

هُوَ الْحَيُّ لَا إِلَٰهَ إِلَّا هُوَ فَادْعُوهُ مُخْلِصِينَ لَهُ الدِّينَ

"Diri olan ancaq Odur. Ondan başqa heç bir tanrı yoxdur. Dini yalnız Allaha məxsus edərək Onu çağırın". ("Mumin": 65)

Ayələrdən belə məlum olur ki, diri və canlı olan yalnız Allah-taaladır və yalnız O həqiqi həyata malikdir. Həyatın aşağı dərəcələrinin digər varlıqlarda da olmasını inkar etmək olmaz və Quran da Allahı həyat bəxş edən (mühyi)[11] tanıtdırır. Buna görə də çox ehtimal ki, Quranın həyat sifətini təkcə Allaha məxsus bilməsi bu sifətin zati, əzəli, əbədi və dəyişməz olmasını çatdırır. Bu məsələ digər ayədə öz əksini tapmışdır.

وَتَوَكَّلْ عَلَى الْحَيِّ الَّذِي لَا يَمُوتُ

"O ölməz diriyə təvəkkül et". ("Furqan": 58)

Quran bu ayədə bildirir ki, Allah-taala fani olmayan həyata malikdir (çünki həyat sifəti Allahın zatından ayrı deyil). Bu səbəbdən, insan yalnız Allaha təvəkkül etməlidir. Çünki insan fani olmayan əbədi varlığa arxalanarsa, heç nədən qorxmaz.

Ayələrdən aydın olan digər bir məsələ "həyy" və "qəyyum" sifətilərinin həmişə bir yerdə işlənməsidir. Bu iki sifətin birləşməsi Allahın bütün kamal sifətlərini əhatə edir. Çünki "həyy" sifəti həyatdan əlavə, digər iki zati sifəti, yəni sonsuz elm və qüdrəti də özündə əks etdirir. "Qəyyum" sifəti isə (yəni digər varlıqların və onların xassələrinin yalnız Allaha bağlılığı) Allahın bütün feli sifətlərinin mənşəyidir. Bu səbəbdən, "ya Həyyu, ya Qəyyum" zikri bütün zikrləri özündə birləşdirir.

Həzrət Əli (ə) xütbələrinin birində buyurur ki, insan Allahın əzəmətindən ancaq Onun "həyat" və "qəyyumluq" sifətlərini tanıya bilər. "Biz sənin əzəmətinin həqiqətini dərk edə bilmərik. Yalnız bunu bilirik ki, sən Həyy və Qəyyumsan. Heç bir vaxt mürgüləməz və yuxuya getməz (və nəticədə yaratdıqlarından qafil olmazsan)".[12]

Bəzi hədislərdə həyat sifətinin mənasına və onun digər mövcudlarda olan həyatla fərqinə işarə olunmuşdur. Burada İmam Kazımın (ə) dərin mənalı hədisini xatırladırıq:

"Allah-taala Həyydir. Onun həyatı sonradan yaranmamışdır, sifətlərə sahib olan (müstəqil) varlığı yoxdur, heç bir keyfiyyətlə məhdud olmaz, məkanda yerləşməz və heç bir yerdə sakin olmaz. Allah Öz zatında həyydir".[13]

Şübhəsiz, imamın (ə) bu hədisində çoxlu dəqiq və incə mətləblər vardır. Bəlkə də ağıl tam şəkildə onları qavraya bilməz. Hədisin zahirindən başa düşülən, aşağıda qeyd edəcəyimiz bir neçə məsələdir:

a) Məxluqların əksinə olaraq, Allah-taalanın həyatı sonradan yaranmamışdır. Allahın zatı əzəli olduğu üçün zatla eyni olan həyat sifəti də əzəlidir.

---

[11] "Rum": 19; "Həcc": 66.

[12] "Nəhcül-bəlağə", 160-cı xütbə.

[13] Səduq, "Tövhid", 11-ci bölüm, 6-cı hədis.

b) Allahın həyat sifəti Onun zatından ayrı və müstəqil deyil. Çünki həyatın müstəqil varlığı olarsa, sifətləri olar (yəni müstəqil vücuda sifətləri aid etmək mümkündür). Buna görə "sifətlərə sahib olan varlığı yoxdur" cümləsi zati sifətlərin xarici aləmdə zatdan ayrı olmasını (əşərilərin əqidəsini) inkar edir.

c) Allahın həyat sifəti keyfiyyət kateqoriyasından deyil və elə bu səbəbdən də məhdud deyil. Çünki hər hansı bir keyfiyyət məhdudluğa səbəb olur. Həmçinin məkanla heç bir əlaqəsi yoxdur və məkanda yerləşmir.

ç) Beləliklə, məlum olur ki, Allahın həyat sifəti zati və əzəlidir. Odur ki, maddi və mücərrəd məxluqların həyat sifəti ilə heç bir oxşarlığı yoxdur.

**Allahın əzəli və əbədi olması**

Əzəli və əbədilik də Allahın digər sübuti və zati sifətlərindəndir. Bir çoxlarının fikrincə, Allahın əzəli varlıq olması o deməkdir ki, əzəldən olub və keçmişdə elə bir zaman olmayıb ki, olmasın. Digər tərəfdən, Allahın əbədi olması Onun gələcəkdə heç bir zaman Öz varlığını itirməməsi deməkdir.

Daha dəqiq desək, Allah-taala keçmişdə və gələcəkdə heç bir zaman yox olmamış və olmayacaqdır (bu iki sifətin dəqiq mənasını tezliklə açıqlayacağıq).

Qeyd etməliyik ki, əzəli və əbədi sifətləri ilə yanaşı "qədim" və "baqi" sifətlərindən də istifadə olunur. Kəlamçıların fikrincə, "sərmədi" sifəti əzəli və əbədi sifətlərinin tərkibidir və bu mənada sərmədi varlıq bütün zamanlarda - keçmiş, indiki və gələcək zamanlarda mövcud olan varlığa deyilir.

**Əzəli və əbədi sifətləri haqda iki təfsir**

Burada bu əhəmiyyətli məsələni vurğulamağı lazım bilirik ki, islam mütəfəkkirlərinin fikirlərinə nəzər saldıqda məlum olur ki, "əzəli" və "əbədi" sifətlərin təfsirində iki müxtəlif fikir mövcuddur. Birinci təfsirə əsasən, Allah-taala bütün zamanlarda mövcuddur. O, keçmişdə olub hal-hazırda var və gələcəkdə də olacaqdır. Bu təfsirə əsasən, Allah-taala zaman çərçivəsində olan bir varlıqdır. Amma ikinci təfsirə əsasən, Allah zamanın fövqündədir. Bununla belə həm zamana, həm də onda olan varlıqlara əhatəsi var. Bu təfsirə əsasən, Allahın həm keçmişdə, həm də gələcəkdə olması dəqiq olmayan bir sözdür.

Adi insanlar, hətta bir çox kəlamçılar birinci təfsiri qəbul edirlər. Amma düzgün nəzəriyyə ikinci təfsirdir. Çünki Allahın vücudunun mütləq olması o deməkdir ki, O heç bir qeyd-şərtlə hətta zamanla belə məhdudlaşmır. Ümumiyyətlə zaman maddi və hərəkətdə olan varlıqların xüsusiyyətindəndir. Allah isə maddilikdən və hərəkətdən uzaqdır.

Beləliklə, Allahın əzəli və əbədi olmasından danışılarkən diqqət etmək lazımdır ki, bu iki sifət Allahın zamanın fövqündə olmasını və zamanda olan bütün varlıqlara

əhatəsini çatdırır. Əlbəttə, nə qədər ki, biz maddi aləmdəyik və zaman çərçivəsindəyik, bizim üçün zamanın fövqündə olan varlığı dərk etmək çox çətin bir məsələdir.

**Allahın əzəli və əbədi olmasına dəlil**

Bu iki sifətin mənası məlum olduqdan sonra Allahda bu sifətlərin olmasının dəlillərini qeyd edirik. Bu məsələnin ən qısa dəlillərindən biri Allah-taalanın zəruri varlıq olmasına əsaslanır. Keçən bəhslərdən məlum oldu ki, Allah-taala zəruri varlıqdır. Yəni vücudun Ona aid edilməsi zəruri və inkarı isə qeyri-mümkündür. Bu səbəbdən, Allahın vücudunun zəruri olması bu mənayadır ki, heç bir fərzdə vücud Allah-taaladan inkar edilə bilməz. Bu isə o deməkdir ki, Allahın varlığından nə öncə, nə də sonra yoxluq ola biməz. Əzəli və əbədi sifətləri də bundan başqa bir mənanı ifadə etmir. Nəsirəddin Tusi qısa bir cümlə ilə bu dəlili işarə etmişdir: "Vücudun zəruriliyi onun sərmədi olmasına dəlildir".[14]

Bu dəlildən aydın olan digər bir məsələ bundan ibarətdir ki, əzəlilik və əbədilik bir-birindən ayrılmaz xüsusiyyətlərdir. Əzəli varlıq, şübhəsiz, əbədi də olmalıdır.

Kəlamçılar digər dəlillərə də istinad etmişlər. Bu dəlillərin hamısını qeyd etsək, mövzudan uzaqlaşarıq.[15]

**Allahın əzəli və əbədi olması ayələr və hədislər**

Qurani-kərimdə əzəli və əbədi sifətləri qeyd edilməmişdir. Amma bu iki sifət digər ibarələrlə ifadə edilmişdir. Məsələn, Quran Allahı əvvəl və axır adlandırır.

هُوَ الْأَوَّلُ وَالْآخِرُ وَالظَّاهِرُ وَالْبَاطِنُ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

"Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir!" ("Hədid": 3)

Təfsir alimləri əvvəl və axır sözlərinin təfsirində müxtəlif fikirlər qeyd etmişlər. Amma çox güman ki, bu iki sifət əzəli və əbədi sifətləri ilə eyni mənayadır. Bəzi hədislər də bunu təsdiq edir. Məsələn, həzrət Əli (ə) "Əşbah" xütbəsində buyurur: "(Allah-taala) elə bir əvvəldir ki, Ondan əvvəl bir şey olmaq üçün əvvəli yoxdur və elə bir axırdır ki, Ondan sonra bir şey olmağı üçün axırı yoxdur".[16]

Digər bir hədisdə İmam Sadiqdən (ə) rəvayət edilir: "O, başlanğıcdır, amma Ondan əvvəl bir şey yoxdur və heç bir başlanğıc Ondan öncəyə keçmir. O, sondur, amma sonu yoxdur.[17]

Qeyd olunan hədislərdən belə məlum olur ki, əvvəl və axır dedikdə, Allahın birinci və axırıncı varlıq olması nəzərdə tutulmur. Çünki bu məna əzəli və əbədi olmaqla heç də uyğun deyil və belə təsəvvür oluna bilər ki, Allah-taala hər bir mövcuddan öncə yaranıb

---

[14] "Kəşfül-murad", səh. 315.

[15] Əllamə Hilli, "Mənahicül-yəqin", səh. 179.

[16] "Nəhcül-bəlağə", 91-ci xütbə.

[17] "Üsuli-kafi", 1-ci cild, səh. 116, "Sifətlərin mənası" bölümü, 6-cı hədis.

və hər bir mövcuddan sonra fani olacaqdır. Əksinə, Allah-taalanın əzəli və əbədi olması o deməkdir ki, Onun üçün əvvəl və axır təsəvvür oluna bilməz, nə əvvəli var, nə də axırı. Eləcə də varlığı yoxluqdan sonra deyil və yoxluqla qurtarmır. Quranın bəzi ayələri də əbədilik sifətinə təkid etmişdir.

كُلُّ مَنْ عَلَيْهَا فَانٍ وَيَبْقَى وَجْهُ رَبِّكَ ذُو الْجَلَالِ وَالْإِكْرَامِ

“(Yer) üzündə olan hər kəs fanidir (ölümə məhkumdur). Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir”. (“ər-Rəhman”: 26-27)

كُلُّ شَيْءٍ هَالِكٌ إِلَّا وَجْهَهُ لَهُ الْحُكْمُ وَإِلَيْهِ تُرْجَعُونَ

“Allahdan başqa hər şey məhvə məhkumdur. Hökm Onundur. Siz (qiyamət günü) məhz Onun hüzuruna qaytarılacaqsınız!” (“Qəsəs”: 88)

Beləliklə, qeyd olunan ayələrin hər biri Allahın əbədiliyinə təkid edir.

**Terminlər**

Həyat

Allahın həyatı

Əzəlilik

Əbədilik

**Altıncı fəslin xülasəsi.**

1. Həyat vücudun kamilliklərindəndir. “İxtiyarlı fəaliyyət” və “idrak” sifətləri həyat sifətinin nəticələridir.

2. Heyvan və insan kimi maddi varlıqlardakı həyat həmişə qidalanma, inkişaf etmə, nəsil artımı və bu kimi xüsusiyyətlərlə yanaşı olur. Amma bu xüsusiyyətlər həyatın ayrılmaz xassələri deyil, yalnız maddi varlıqların həyatında özünü əks etdirir. Bu səbəbdən, qeyri-maddi varlıqlar həyat sifəti bu xüsusiyyətlərdən uzaqdır.

3. Elm, qüdrət və fəaliyyət sifətləri həyat sifətindən qaynaqlanır. Həyat Allahın zatı sifətlərindəndir.

4. Allahın kamal sifətlərinə olan ümumi dəlillərlə yanaşı, Allahın şüurlu olması və iş görməsi də onun həyat sifətinə (diri olmasına) dəlildir.

5. Qurani-kərimə görə Allah yeganə varlıqdır ki, həyatı zati, əzəli, əbədi və dəyişməzdir. Hədislərdə də Allahın həyat sifətinə təkid edilmişdir.

6. Allahın digər sübuti sifətlərindən əzəliyyət və əbədiyyət sifətləridir. Bu sifətlərə əsasən, Allah-taala zamanın fövqündə dayanır. Bu səbəbdən O, həmişə olub və həmişə olacaqdır.

7. Allah zəruri varlıq olduğu üçün vücudun Allahdan inkar edilməsi heç bir fərzdə mümkün deyil. Deməli, O, yoxdan yaranmamış və yox olmayacaqdır. Elə buna görə də, əzəli və əbədidir.

8. Quran Allah-taalanı əvvəl və axır sifətləri ilə tanıtdırır. Bu sifətlərlə Allahın əzəli və əbədi olması nəzərdə tutulur.

## Yeddinci fəsil
## Allahın iradəsi

Allahın sübuti sifətləri arasında iradə sifəti xüsusi əhəmiyyət daşıyır. Kəlamçılar Allahın bu sifəti barədə həmfikirdirlər. Amma bu sifətin mənasında və bəzi hökmlərində dərin fikir ayrılığı vardır. Bu mövzu ilə bağlı suallar aşağıdakılardan ibarətdir:

1. Allahın iradə sifətinin dəqiq tərifi nədir?
2. İradə Allahın zati sifətlərindəndir, yoxsa feli sifətlərindən?
3. Allahın iradə sifəti əzəlidir, yoxsa hadis?
4. İradə sifətinin ixtiyar və məşiyyət sifətləri ilə fərqi nədir?

Kəlamçılardan əlavə, islam filosofları da iradə sifətinin həqiqəti haqqında dəqiq və dərin məsələləri müzakirə etmişlər ki, onların burada araşdırılması bəhsin çətinləşməsinə səbəb olar. Biz bu kitabın səviyyəsinə uyğun olaraq iradə sifətini araşdırıb, yuxarıdakı sualları cavablandıracağıq.

### İnsan iradəsi

Biz insanlar ixtiyarlı şəkildə iş görmək istəyərkən daxilimizdə yaranan halı “iradə” adlandırırıq. Bu hal da digər ruhi hallar kimi insanın daxili aləminə aiddir və vasitəsiz elmlə dərk olunur. Lakin iradənin vasitəsiz elmlər dərk edilməsi onun anlayış (vasitəli elm) formasında izah edilməsini asanlaşdırmır. Buna görə də insanın iradəsinə müxtəlif təriflər vermişlər.

Bəzilərinin fikrincə, iradə işin faydalı olmasını təsdiq etməkdən ibarətdir. Biz hər hansı bir işi görməzdən öncə onun faydalı olmasına inanırıq. Bu inam işin yerinə yetirilməsinə olan idarəmizdir. Bəzən buna stimul da deyilir. Bu tərifə görə iradə insanı işə sövq edən stimuldan ibarətdir.

Digər bir qrup isə iradə ilə stimulu bir-birindən fərqləndirir və inanırlar ki, hər hansı bir işin faydalı olmasına inanmaq həmin işin yerinə yetirilməsinə iradə etmək demək deyildir. Burada da müxtəlif nəzəriyyələr vardır. Bir nəzəriyyəyə əsasən, hər hansı bir işin faydalı olmasına inandıqdan sonra insanın ruhunda o işə qarşı şövq yaranır və iradə elə bu şövqdən ibarətdir. Bəzən də belə deyilir ki, iradə hər hansı bir əməlin yerinə yetirilməsinə olan meyildir, iradənin əksi olan kərahət isə hər hansı bir əməlin tərkinə olan meyildir. Digər bir nəzəriyyəyə əsasən, iradə ilə şövq və meyil arasında fərq vardır. Bu nəzəriyyəyə görə iradə hər hansı bir əməlin faydalı olmasına inandıqdan sonra və onu yerinə yetirməzdən öncə yaranan ruhi bir haldır və səbəb olur ki, insan hər hansı bir əməlin yerinə yetirilməsini onu tərk etməkdən üstün tutsun.

Bütün bu nəzəriyyələrin dəlillərini nəql edib onları araşdırmaq bizim mövzumuzdan kənardır.[18] Burada əhəmiyyətə malik məsələ bundan ibarətdir ki, insana məxsus olan iradə sifətini məhdud və nöqsanlı cəhətlərdən ayırmadan Allaha aid edmək olmaz. İnsanın iradəsi hansı mənaya olursa olsun, insanın daxilində sonradan yaranan bir haldır. Şübhəsiz, bu məna heç bir vəchlə Allahın məqamına layiq deyil. Çünki Allahın zatı hər bir dəyişiklik və hadisələrə məruz qalmaqdan uzaqdır.

**Allahın iradəsi haqda kəlamçıların müxtəlif fikirləri**

Qeyd etdiyimiz kimi, Allahın iradəsi mövzusunda kəlamçılar və filosoflar fərqli fikirlərə malikdirlər. Burada bu fikirlərin bəzilərini qeyd edirik:

1. Allahın iradə sifətinin mənası budur ki, Allah-taala öz işlərini məcburiyyət və ikrahla yerinə yetirmir. Odur ki, Allahın iradəli olması Onun işlərindən məcburiyyət və ikrahın inkar edilməsidir.[19]

Bu tərifə əsasən, iradə sifəti səlbi sifətlərdəndir.

2. Allahın iradəsi Onun Öz qüdrətini və hakimiyyətini icra etməsi deməkdir.[20]

3. Allahın zati iradəsi Onu Öz zatına və kamallarına olan məhəbbətidir, feli iradəsi isə hansısa bir işin baş verməsinə olan razılığıdır.[21]

4. Allahın iradəsi onun mükəmməl yaranışa olan zati elmidir.

Bəzi kəlamçılar Allahın iradəsini zati sifətlərdən biri hesab edir və onu mükəmməl yaranışa olan zati elmlə eyni hesab edirlər. Bu elm aləmi yaradan səbəblər silsiləsində yer tutur.[22]

5. Allahın iradəsi Onun zati ixtiyarından ibarətdir. Allah-taala zatən ixtiyarlı və azaddır və Onun iradəsi də ixtiyarlı olmasından başqa bir şey deyildir. Allahın ixtiyarını "məcbur olmamaq" kimi təfsir etmək mümkün olsa da, bu təfsir iradə (zati ixtiyarla bərabər olan iradə) sifətinin səlbi sifət olması demək deyildir. Necə ki, elm sifətini "cahil olmamaq" kimi təfsir etmək heç də elmin səlbi sifət olması demək deyildir.[23]

---

[18] Məsələn, irad etmişlər ki, qarşısında iki stəkan su olan susuz şəxs onlardan birini seçir və seçdiyi suyu içməyi iradə edir. Halbuki, o hər iki stəkandakı suyun faydalı olmasını eyni səviyyədə bilir. Beləliklə, məlum olur ki, iradə işin faydalı olmasını bilməkdən fərqli bir şeydir. "Mənahicul-yəqin fi-üsulid-din", səh. 171 və "Əl-mətalibül-aliyə", 3-cü cild, səh. 177.

[19] Bu fikir Nəccara mənsubdur. "Kəşfül-murad", səh. 314 və "İrşadut-talibin", səh. 205.

[20] "Əl-Mühazirat (Ayətullah Xoyinin üsul dərsləri), 2-ci cild, səh. 36 və 72.

[21] "Amuzeşi əqaid", 1-ci cild, səh. 113.

[22] Sədrəddin Şirazi, "Əsfar", 6-cı cild, səh. 316.

[23] Cəfər Sübhani, "Muhaziratun fil-ilahiyyat", səh. 148.

**Zati və feli iradə**

Məsələnin aydın olması üçün hər şeydən öncə iradənin zati və ya feli sifət olmasını müəyyən etməliyik. Məsələnin əhəmiyyəti iradənin müxtəlif təriflərində özünü göstərir. Belə ki, bəzi təriflər (dördüncü tərif) zati iradəni, bəziləri (ikinci tərif) feli iradəni, digər bir qismi isə (üçüncü tərif) hər ikisini nəzərdə tutur. Bu səbəbdən tərifləri araşdırmazdan öncə iradənin zati və ya feli sifət olmasını müəyyənləşdirmək lazımdır.

Fikrimizcə, bu suala cavab vermək üçün zati və feli iradəni bir-birindən ayırıb hər birinə ayrıca tərif vermək lazımdır.

Bir çox islam kəlamçıları və filosofları zati iradəni Allahın mükəmməl yaranışa olan zati elmi ilə eyni hesab edirlər. Bu nəzəriyyəni sadə şəkildə belə bəyan etmək olar ki, Allah-taala aləm üçün mümkün olan ən mükəmməl vəziyyətdən xəbərdardır. Aləmin yaranmasının mənşəyi bu elmdir və zati iradə dedikdə, də elə bu elm nəzərdə tutulur. Amma bu nəzəriyyəyə bir sıra iradlar vardır. Biz iradənin mənasına diqqət etdikdə, eləcə də leksik baxımdan onu araşdırdıqda nəticə alırıq ki, iradə ilə elm arasında fərq vardır.[24] Digər tərəfdən bəzi hədislər də elmi məşiyyətdən ayırır.

Zati iradəni Allahın elmi ilə eyni bilmədikdə isə iradənin zati sifət olmasını izah etmək çətin olur. Amma əgər beşinci tərifi qəbul edib zati iradəni zati ixtiyar kimi mənalandırsaq, bir daha iradənin zati sifət olması nəzəriyyəsinə qayıtmaq olar. Bu mənaya əsasən, Allahın zatı heç bir varlığa məğlub olmur, işlərini ixtiyarla və məcburiyyətsiz yerinə yetirir.

Feli iradəyə gəldikdə isə onu məhəbbət və razılıq sifətlərilə eyniləşdirmək olar. Bu mənaya əsasən, Allahın iradəsi hər hansı bir işin meydana gəlməsinə olan məhəbbət (istək) və razılığından ibarətdir. Bu mənaya da irad etmək olar ki, daxili aləmimizə müraciət etməklə iradənin məhəbbət və razılıqdan başqa bir şey olmasını müşahidə edirik.

Digər bir ehtimal bundan ibarətdir ki, iradə sifəti Allah-taalanın feilindən, yəni mövcudları yaratmaq və icad etməsindən dərk olunur. Bu mənaya görə də iradə sifəti feli sifətdir. Yəni ağıl dərk edir ki, Allah-taala hər bir məxluqun varlığını xüsusi zaman və məkanda, eləcə də özünəməxsus xüsusiyyətlərlə bilmiş və istəmiş, onu Öz istəyi ilə, heç kəsin məcburiyyəti olmadan yaratmışdır. Beləliklə, Allah və digər varlıqlar arasında mövcud olan bu özünəməxsus rabitəni nəzərə aldıqda iradə sifəti dərk olunur.

Burada digər bir nəzəriyyə də mövcuddur. Bu nəzəriyyəyə əsasən, iradə sifəti (feli sifət kimi) Allahla səbəbləri tam olan iş arasındakı əlaqədən dərk olunur. Odur ki, səbəbi

---

[24] Əllamə Təbatəbai Allahın zati iradəsi ilə Onun mükəmməl yaranışa olan elminin eyniliyi nəzəriyyəsini bir çox yerlərdə tənqid etmişdir. Bax: "Əsfarın haşiyəsi", 6-cı cild, səh. 315, 3-cü haşiyə. Əllamə Təbatəbai, "Nihayətul-hikmət", 12-ci mərhələ, 13-cü fəsil.

tam olan işi Allahla rabitədə nəzərə aldıqda iradə sifətini dərk edib deyirik ki, "Allah-taala bu feli və işi iradə etmişdir".

**Allahın iradəsinin hadis və ya əzəli olması**

Allahın iradə sifətinin mənasını açıqladıqdan sonra bu sifətin hadis və ya əzəli olması barədə bəhs etmək münasib olardı. Kəlamçıların fikirlərinə nəzər saldıqda bu məsələdə dərin ixtilafın olduğu məlum olur. Əşərilərin fikrincə, iradə sübuti sifətdir, Allahın zatından ayrıdır və Onun zatı kimi əzəlidir.

Digər bir qrup, əksinə olaraq, iradənin hadis olmasına inanır, amma onun harada yaranması barədə müxtəlif nəzərlər irəli sürürlər.[25]

Zati və feli iradə bəhsində qeyd etdiklərimizə əsasən, belə demək olar ki, zati iradə Allahın zatından ayrı deyil, zatla eynidir. Odur ki, zat kimi iradə də əzəlidir. Amma feli iradə barəsində bəhs edərkən qeyd etdik ki, bu sifət Allahın Öz feilləri ilə olan rabitəsindən dərk olunur. Bu rabitənin bir tərəfi (feil) hadis olduğundan iradə də hadis hesab olunur. Əlbəttə, zati və feli sifətlərin fərqində qeyd etdik ki, feli sifət Allahın zatından dərk olunmadığı üçün iradəni hadis hesab etməyin heç bir iradı yoxdur. Çünki bu sifət feildən dərk olunur.

**İradə, məşiyyət və ixtiyarın fərqi**

Allah-taala iradə sifətindən əlavə "məşiyyət" və "ixtiyar" sifətlərinə malikdir. Burada belə bir sual meydana çıxır ki, bu iki sifət eyni mənanı daşıyır, yoxsa fərqli mənalara malikdirlər? Bəzi alimlərin təbirlərindən belə başa düşülür ki, iradə və məşiyyət eyni mənada işlənir. Amma bəzi kəlamçıların fikrincə, bu iki sifət arasında bir sıra fərqlər vardır. Məsələn, bəziləri iradəni "hər hansı bir əməlin məsləhətli olub-olmamasını bilmək", məşiyyəti isə "bu əməli yerinə yetirməyi və ya tərk etməyi istəmək" bilirlər. Bu istək işin məsləhətli olub-olmamasını bildikdən sonra yaranır.[26] Bəzən də belə deyilir ki, məşiyyət nəticənin mahiyyətinə və iradə isə onun vücuduna aiddir.[27]

İradənin bəzi mənalarına əsasən, iradə və ixtiyar arasında heç bir fərq yoxdur. Lakin digər bir nəzəriyyəyə görə, hər hansı bir iş elmə, məşiyyətə, iradəyə və qüdrətə arxalanarsa, işlə onu yerinə yetirən şəxs arasındakı əlaqədən "ixtiyar" məfhumu dərk edilir.

---

[25] Kərramilərin fikrincə, iradə sifəti Allahın zatında yaranır. Lakin Əbu Hişam Cübbai və bir qrup mötəzililərin qənaətinə görə, iradə sifəti məkansız yaranmışdır.

[26] Əbdürrəzzaq Lahici, "Sərmayeyi iman", səh. 48.

[27] "Əsfar", 6-cı cild, səh. 313, Hadi Səbzivarinin "Əsfara haşiyəsi."

**Allahın iradə sifətinin sübutu**

Allahın iradəsini və onun qisimlərini qeyd etdikdən sonra kəlamçıların bu sifət haqqında olan dəlillərinə işarə etmək məqsədəuyğun olardı.

Ən məşhur dəlillərdən biri belədir: Allahın bəzi işləri xüsusi zamanda baş verir. Məsələn, bəzi mövcudlar xüsusi zamanda yaradılır və təbii ki, yarandığı vaxtdan öncə yox idi. Digər tərəfdən, müəyyən bir iş xüsusi zamanda baş verirsə, deməli, onun həmin zamana məxsus olmasının, yəni nə tez, nə də gec baş verməsinin səbəbi vardır. Allahın qüdrət və elm sifətlərinə diqqət etməklə aydın olur ki, bu sifətlər qeyd etdiyimiz səbəb ola bilməzlər. Çünki qüdrətin bütün zamanlarla münasibəti eynidir. Demək olmaz ki, Allah-taala hər hansısa bir işi müəyyən bir zamanda etməyə qadirdir, amma digər zamanda qadir deyil. Elm sifəti haqda da bu sözləri demək olar. Beləliklə, qüdrət və elmdən başqa digər bir səbəb olmalıdır və bu səbəb də elə iradədən ibarətdir.

**Təkvini və təşrii iradə**

Bura qədər haqqında danışdığımız iradə Allahın təkvini iradəsinə aid idi. Kəlamçılar Allahda təşrii iradə adlanan başqa bir iradənin də olduğunu qeyd edirlər ki, onda iradə obyekti insanların işləridir. Təşrii iradə hər hansı bir işə aid olarsa, o iş vacib (və ya müstəhəb) olar. Təşrii ikrah hər hansı bir işə aid olarsa, o iş haram (və ya məkruh) olar. Beləliklə, Allahın təkvini iradəsi varlıqların və kainatın vücuda gəlməsinin mənşəyidir. Daha dəqiq desək, bu iradə Allah ilə yaratdıqlar arasında olan rabitədən dərk olunur. Təşrii iradə isə Allahla insanların ixtiyarlı işləri arasındakı rabitədən dərk olunur.

Bu iki iradənin digər bir fərqi də budur ki, təkvini iradədə Allahın istədiyi işin vücuda gəlməməsi qeyri-mümkündür. Halbuki təşrii iradədə bu belə deyil.

**Allahın iradə və məşiyyəti haqda ayələr və hədislər**

"İradə" sözü lüğətdə hər hansı bir şeyi axtarmaq üçün mülayim formada get-gəl etməyə deyilir. Bu sözün mənası üç ünsürdən ibarətdir: hər hansı bir şeyə qarşı həvəsli olub həmin şeyə nail olmaq ümidülə onu istəmək və onu özünün, yaxud başqasının yerinə yetirməsinə hökm etmək. Məşiyyət də lüğətdə iradə mənasınadır. Amma bəzi leksikoloqların qənaətinə görə, məşiyyət bir şeyi təsəvvür edib onu təsdiq etdikdən sonra yaranan meyil və şövqə deyilir. Bundan sonra niyyət (qərara gəlmək), daha sonra isə iradə yaranır.[28]

İradə və məşiyyət sifətləri Quranda feil formasında bir çox ayələrdə işlənmişdir.

Bəzi ayələdə bəyan edilir ki, Allahın təkvini iradə və məşiyyəti hər şeyi əhatə edir. Onun iradə etdiyi iş hər bir qeyd-şərtsiz baş verməlidir.

إِنَّمَا قَوْلُنَا لِشَيْءٍ إِذَا أَرَدْنَاهُ أَن نَّقُولَ لَهُ كُن فَيَكُونُ

[28] "Peyami-Quran, 4-cü cild, səh. 144 və 145.

“Biz iradə etdiyimiz hər şeyə “Var ol” - deyə hökm edərik, o da dərhal var olar”. (“Nəhl”: 40)[29]

Aydındır ki, “var ol” cümləsi dil ilə deyilən (səslərdən ibarət) cümlə deyil. Quran bununla başa salmaq istəyir ki, Allahın iradə etdiyi işin baş verməməsi bir an belə olsa, qeyri-mümkündür.

Bəzi ayələrdə məşiyyətin sonsuz əhatəsindən söhbət açılır.

يَخْلُقُ اللَّهُ مَا يَشَاء إِنَّ اللَّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

“Allah istədiyi şeyi yaradar, çünki Allah hər şeyə qadirdir”. (“Nur”: 45)

Quran bu həqiqəti də vurğulayır ki, heç bir varlıq Allahın təkvini iradəsi qarşısında dayanıb onun baş verməsinə mane ola bilməz. Bu da Allahın iradəsinin məhdud olmaması deməkdir.

قُلْ فَمَن يَمْلِكُ لَكُم مِّنَ اللَّهِ شَيْئًا إِنْ أَرَادَ بِكُمْ ضَرًّا أَوْ أَرَادَ بِكُمْ نَفْعًا بَلْ كَانَ اللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرًا

De: “Əgər Allah sizə bir zərər, yaxud bir xeyir vermək istəsə, bu işdə Allaha bir şeylə kim mane ola bilər?!” Bəli, Allah sizin nə etdiyinizdən xəbərdardır!. (“Fəth”: 11)

Əlbəttə, Allahın hikməti mövzusunda qeyd edəcəyik ki, pis və əbəs işlər Allahın iradə və məşiyyətinın əhatəsindən kənardır. Allah-taala yalnız məxluqların xeyrinə olan hikmətli işləri iradə edir.

Quranın digər bir sıra ayələri də Allahın təşrii iradəsinə işarə edir. Məsələn, “Bəqərə” surəsində buyurulur:

يُرِيدُ اللّهُ بِكُمُ الْيُسْرَ وَلاَ يُرِيدُ بِكُمُ الْعُسْرَ

“Allah sizə rahatlıq istəyir, çətinlik istəmir. (“Bəqərə”: 185)

Ayənin əvvəlində, Allah-taala orucluğun hökmünü bəyan edir, xəstələri və müsafirləri bu hökmdən istisna edir. Bundan sonra buyurur ki, Allahın təşrii iradəsi insanların çətinliyinə deyil, onların rahatlığına səbəb olan hökmlər vermək istəyir.

Həmçinin Qurani-kərim Maidə surəsində Allahın bəzi hökmlərini bəyan etdikdən sonra buyurur:

إِنَّ اللّهَ يَحْكُمُ مَا يُرِيدُ

“Həqiqətən, Allah istədiyini hökm edər”. (“Maidə”: 1)

Qurandan əlavə əhli-beytdən (ə) nəql olunan hədislərdə də Allahın iradəsi haqqında gözəl sözlər deyilmişdir. Maraqlıdır ki, bütün bu hədislər Allahın feli iradəsi haqqındadır. Bəzi hədislərdə iradənin zatdan kənar olub əzəli olması inkar edilmişdir. Məsələn, hədisi nəql edən şəxs imamdan (ə) soruşur: “Allah-taala əzəldən iradə etmişdirmi?” İmam (ə) cavabında buyurur: “İradə edən həmişə nəyisə iradə etməlidir. Allah-taala əzəldən alim və qadir olub, amma sonradan iradə etmişdir”.[30]

---

[29] “Yasin”: 82.

[30] “Üsuli-kafi”, 1-ci cild, səh. 109, “İradə” mövzusu, 1-ci hədis.

Göründüyü kimi, imam (ə) bu hədisdə Allahın feli iradəsinə işarə edərək buyurur ki, bu sifət əzəli ola bilməz. Bəlkə də imamın (ə) məqsədi budur ki, feli sifətlər (iradə kimi) Allahın məxluqları ilə rabitəsindən və ya daha dəqiq desək, Allahın feilindən dərk olunur. Beləliklə, Allahın feli hadisdirsə, Onun feli sifətləri də hadis olmalıdır və əzəli ola bilməz.

İmam Rzanın (ə) hədisində Allahın feli iradəsi bəyan edilir, eləcə də Allahın iradəsi ilə insanın iradəsinin fərqi açıqlanır.

"Məxluqların iradəsi qərara gəlmək və ondan sonra yaranan işlərdir. Allahın iradəsi isə yalnız yaratmaq mənasınadır. O, qərara gəlmir, əndişəli olmur və fikirləşmir. Bu sifətlər Ondan uzaqdır, çünki bütün bunlar məxluqların sifətlərindəndir. Deməli, Allahın iradəsi ancaq Onun felidir. Allah "Var ol!" – deyə buyurduqda söz deməyə, niyyət etməyə, fikirləşməyə ehtiyac olmadan dərhal var olur. Zatının maddi xüsusiyyəti olmadığı kimi, sözünün də heç bir maddi xüsusiyyəti yoxdur".[31]

Bəzi hədislərdə də Allahın məşiyyətin sonradan yaranması vurğulanmışdır. İmam Sadiqdən (ə) nəql olunan hədisdə belə buyurulur: "Allah məşiyyətin özünü yaratdı (digər məşiyyətə ehtiyacı olmadan) və əşyanı məşiyyətlə xəlq etdi".[32]

Hədisdə diqqəti cəlb edən digər əsas məsələ bundan ibarətdir ki, elm və məşiyyət bir-birindən fərqlidir. İmam Sadiq (ə) elmlə məşiyyətin (bilməklə istəməyin) eyni, yaxud başqa-başqa şey olması haqda soruşan şəxsə buyurur: "Elm (Allahın elmi) məşiyyət deyildir. Çünki "Əgər Allah filan işi istəsə, yerinə yetirəcəyəm" deyirsən, amma "Əgər Allah filan işi bilsə, yerinə yetirəcəyəm". demirsən, beləliklə, "Əgər Allah istəsə" cümləsi bunu çatdırır ki, indiyə qədər istəməmişdir. Amma əgər istəsə, istədiyi şey olacaqdır. Allahın elmi isə Onun məşiyyətindən öncə mövcud olmuşdur".[33]

**Terminlər**

İradə
Allahın iradəsi
Zati iradə
Feli iradə
Məşiyyət
İxtiyar
Təkvini iradə
Təşrii iradə

---

[31] Yenə orada, səh. 109 və 110, 3-cü hədis.

[32] Yenə orada, səh. 110, 4-cü hədis; bu bölümdə olan yeddinci hədisdə deyilir: "Məşiyyət sonradan yaranmışdır."

[33] Yenə orada, səh. 109, 2-ci hədis.

**Yeddinci fəslin xülasəsi**

1. Kəlamçılar "Allahın iradəsinə" müxtəlif təriflər vermişlər. Bəzilərinin fikrincə, Allahın iradəsi Onun Öz işlərini məcburiyyətsiz və ikrahsız yerinə yetirməsidir. Bəziləri, iradəni Allahın Öz qüdrətini və hakimiyyətini icra etməsi hesab edirlər. Digər bir qisim isə iradəni Allahın zati ixtiyarı ilə eyni bilir.

2. Allahın iradəsi iki cürdür: zati iradə və feli iradə. Allahın zati iradəsi əzəli, feli iradəsi isə hadisdir.

3. İradə sifətinə sübut: Allahın yaratmaq, ruzi vermək və s. kimi işləri məxsus zamanlarda baş verir. İşin baş verməsini müəyyən zamana məxsus edən səbəb olmalıdır. Bu səbəb elə Allahın iradəsidir.

4. Allah-taalanın təkvini iradədən əlavə təşrii iradəsi də vardır. İnsanların işləri təşrii iradənin dairəsinə daxildir. Bu iki iradənin fərqi budur ki, təkvini iradədə iradə obyektinin mövcud olması labüddür, amma təşrii iradədə bu labüdlük yoxdur.

5. Quran buyurur ki, Allah bir şeyi iradə etməklə o şey mövcud olar və Allahın iradəsi heç bir səbəbə məğlub olmaz. Hədislərdə də Allahın iradəsi ilə insanın iradəsinin fərqi açıqlanmışdır.

**Səkkizinci fəsil**
**Allahın kəlamı**
**Müqəddimə**

Sübuti və zati sifətlərdən sonra sübuti və feli sifətlərdən bəhs etmək məqsədəuyğun olardı.

Doğrusu, Allah-taalanın feli sifətlərinin sayı, hesabı yoxdur. Quranda müxtəlif feli sifətlərdən söhbət edilmişdir. Quranda işlənən Xaliq, Fatir, Malik, Hakim, Rəbb, Rəzzaq, Rəhman, Rəhim, Ğafir, Hadi, Vəkil, Nəsir, Qahir, Muhyi, Mumin, Cabbar, Şəkur və onlarla bu cür sifətlər Allahın feli sifətləridir. Feli sifətlərin çoxluğuna rəğmən, kəlamçılar bir neçə feli sifətdən bəhs etmişlər. Biz də kitabın həcmini nəzərə alıb bu metoddan istifadə edirik. Hərçənd fikrimizcə, bütün feli sifətləri araşdırmaq kəlam elminin vəzifələrindəndir.

**Allahın kəlamı**

Bütün kəlamçılar, islam firqələri, hətta bütün müsəlmanlar Allahın "mütəkəllim" (danışan) olmasında həmfikirdirlər. Hamı "kəlam" sifətini Allahın sifətlərindən hesab edir. Lakin bu mövzunun təfərrüatında firqələr arasında fikir ayrılığı vardır. Bu ixtilaf iki məsələilə bağlıdır:

1. Allahın kəlamının həqiqəti; 2. Allahın kəlamının hadis və ya əzəli olması. İslam tarixinin ilk yüzillikləri göstərir ki, müsəlmanların bu məsələlərdəki, xüsusilə Allahın kəlamının hadisliyi və əzəliliyi mövzusundakı ixtilafı böyük fitnələrə səbəb olmuşdur. Hətta bəzi dəstələr öz müxaliflərini kafir hesab edir və öldürürdülər.

Biz burada hər şeydən öncə Allahın kəlamının həqiqəti və onun hadis və əzəli olması haqda olan ən əsas fikirlərə nəzər salacağıq. Düzgün fikir aydın olduqdan sonra bu məsələni Quran və hədis nöqteyi-nəzərindən araşdıracağıq.

**Allahın kəlamının həqiqəti**

Allahın kəlamının həqiqəti barəsində müxtəlif fikirlər deyilmişdir. Onlardan əsaslarını aşağıda qeyd edirik:

1. Bəziləri Allahın kəlamını səs və hərflərdən ibarət hesab edirlər. Onların fikrincə, bu səslər və hərflər Allahın zatına söykənirlər. Bu fikrin sahibləri hətta Quranın cildini də əzəli hesab edirlər.[34]

2. Digər bir dəstə Allahın kəlamını Onun zatına söykənən səslər və hərflərdən hesab edir, amma onu hadis bilirlər.

---

[34] Bu fikir hənbəlilərə aid edilir.

3. Üçüncü fikrə əsasən, Allahın kəlamı səslər və hərflərdən ibarətdir, hadisdir və Allahın zatına söykənmir, əksinə Allahın məxluqudur. Mötəzililərə mənsub olan bu fikirdə, Allah-taalanın mütəkəllim olması Onun xarici aləmdə hərfləri və səsləri yaratması mənasına götürülür.[35]

4. Bəzi əşərilər Allahın kəlamının Onun zatına söykəndiyinə, Onun elm və iradəsindən fərqli olduğuna inanır və bunu "zehni kəlam" adlandırırlar. Onların fikrincə, zehni kəlam vahid məna daşıyır və onda hamıya tanış olan dil üslubları - əmr cümləsi, nəqli cümlə, xitab və s. kimi ünsürlər olmur. Başqa sözlə desək, zehni kəlam dedikdə, hərflərin və səslərin əks etdirdiyi məna nəzərdə tutulur. Bu mənaya əsasən, Allahın kəlam sifəti əzəlidir və zati sifətlərdəndir.

Yuxarıdakı fikirləri araşdırarkən deməliyik ki, ilk iki nəzəriyyə absurddur. Çünki maddi hərflərin və səslərin maddi olmayan Allahın zatına söykənməsi əsassız fikirdir. İstər hərf və səsləri əzəli hesab edək, istərsə də hadis (hərçənd, birinci fikrin yanlışlığı daha aydındır).

Əşərilərin fikrini də qəbul edə bilmərik. Bu fikrin əsas iradı bundan ibarətdir ki, zehni kəlamın elm və iradədən fərqli müstəqil bir həqiqət olmasını təsəvvür etmək olmur. Əşərilər də zehni kəlamdan danışarkən nəticə etibarilə onu elm və iradəyə müncər edirlər. Beləliklə, onu müstəqil və digər sifətlərdən fərqli hesab etmək olmaz.[36]

Beləliklə, düzgün fikir budur ki, Allahın mütəkəllim olması Onun hərfləri və səsləri yaratmasından ibarətdir. Bu yaratma bəzən ağac kimi maddi əşyalarda, bəzən mələk vasitəsilə və bəzən də digər formalarda özünü əks etdirir. Şiə kəlamçıları da bu məsələdə mötəzililərlə həmfikirdirlər. Əllamə Məclisi belə deyir:

"Şiələr inanırlar ki, Allahın kəlamı hadisdir, səslər və hərflərdən ibarətdir. Bu sifət Allahdan başqasına söykənir. Onların fikrincə, "Allah mütəkəllimdir" cümləsinin mənası hərfləri və səsləri cisimdə yaratmaqdır".[37]

Xatırlamalıyıq ki, Allahın danışması insanların danışmasından fərqli olaraq bədən üzvlərinə ehtiyaclı deyil. Çünki bədən üzvləri maddi aləmin xassələrindəndir və Allah-taala maddə və cismin xassələrindən uzaqdır. Beləliklə, Allahın kəlamı dedikdə, yazılmış sözlər və ya Allahın iradəsini əks etdirən eşidilən cümlələr nəzərdə tutularsa, şübhəsiz ki, hadisdir. Buna görə də, Allahın kəlamı digər varlıqlar kimi Allahın məxluqu və ya başqa

---

[35] Qazi Əbdülcabbar "Şərhül-üsulil-xəmsə" kitabında belə deyir: "Kəlam - ardıcıl hərflər və ayrı-ayrı səslərdən ibarətdir. Allah-taala məxluqlarda icad etdiyi nemətə görə münim (nemət verən), məxluqlarda icad etdiyi ruziyə görə raziq (ruzi verən) olduğu kimi, məxluqlarda icad etdiyi kəlama görə mütəkəllimdir (danışandır)". ("Şərhül-üsulil-xəmsə", səh. 528, "Mühaziratdi fil-ilahiyyat" kitabından iqtibas edilmişdir, səh. 154)

[36] Əşərilərin zehni kəlam üçün qeyd etdikləri dəlillər haqda geniş məlumat üçün bax: İbn Meysəm Bəhrani, "Qəvaidül-məram fi elmil-kəlam", səh. 93; "Mənahicül-yəqin", səh. 193; "Əl-mühazirat fil-İlahiyyat, səh. 158-162.

[37] "Biharul-ənvar", c. 4, səh. 150.

sözlə desək, feilidir. Amma əgər Allahın kəlamı dedikdə, Allahın danışması nəzərdə tutularsa, şübhəsiz, məqsəd yazılan və eşidilən sözlərin Allah tərəfindən yaradılmasıdır və Allah-taala bu işdə bədən üzvlərinə möhtac deyil. Biz bundan Allahın feli sifətlərindən biri olan kəlam sifətini dərk edirik.

**Bütün kainat Allahın kəlməsidir**

Bəzən Allahın kəlamı dedikdə, təkcə hərf və səslər deyil, daha geniş bir məna nəzərdə tutulur. Bu mənada, Allahın kəlamı bütün məxluqları əhatə edir. Hər bir varlıq Allahın təkcə feili və məxluqu deyil, həm də kəlməsidir. Burada belə bir sual qarşıya çıxa bilər ki, kəlmə ancaq yazıla və ya eşidilə bilən bir şey olduğu halda onu xarici aləmdə olan varlıqlara aid edə bilərikmi?

Sualı belə cavablandırmaq olar ki, kəlamın funksiyası danışanın zehnində olan mənaları çatdırmaqdır. Digər tərəfdən, hər bir mövcudun işi həmin mövcudun var olmasına dəlalət etməklə yanaşı, həm də onun xüsusiyyətlərinə dəlalət edir. Fərq yalnız bundadır ki, kəlamın dəlaləti insanlar tərəfindən təyin edilir (şərtidir), halbuki işin onu icra edən şəxsin xüsusiyyətlərinə dəlalət etməsi əqlidir (şərti deyil). Bu səbəbdən, kəlam sözünün mənasını genişləndirib onu Allahın işlərinə də aid edə bilərik. Çünki hər bir iş onu yerinə yetirənin xüsusiyyətlərinə, hədəf və niyyətinə dəlalət edir. Quran və hədislər də bunu təsdiq edir və xarici aləmdə olan bəzi varlıqları, Allahın nişanəsi olduqlarına görə "Allahın kəlməsi" adlandırır.

**Ləfzi, zehni və feli kəlam**

Qeyd etdiyimiz məsələlərdən nəticə ala bilərik ki, Allahın kəlamı üç ümumi mənada işlənir:

1. Ləfzi kəlam. Ləfzi kəlam dedikdə, Allahın xarici aləmdə hərf və səslər yaratması və bu yolla Öz məqsədini çatdırması nəzərdə tutulur.

2. Zehni kəlam. Bu növ kəlam Allahın zatına söykənir və elmdən, iradədən fərqlidir. Zehni kəlam ləfzi kəlam vasitəsilə ifadə olunur.

3. Feli kəlam. Feli kəlam dedikdə, Allahın məxluqları nəzərdə tutulur. Onlar Allahın feilləri olub Onun varlığından, eləcə də kamal xüsusiyyətlərindən xəbər verir.

Qeyd etdiyimiz üç mənadan birinci və üçüncüsü məqbuldur. İkinci mənanı isə təsəvvür etmək mümkün olmadığı üçün təsdiq etmək mümkün deyil. Çünki hər bir şeyin təsdiqi onu təsəvvürünə bağlıdır.

**Allahın kəlamının hadis və əzəli olması**

VIII əsrdə bəzi müsəlmanlar arasında belə bir məsələ gündəmə gəlmişdi ki, görəsən Allahın kəlamı olan Qurani-kərim hadisdir, yoxsa əzəli? Əhli-hədis, hənbəlilər və əşərilər Quranın məxluq olmayıb əzəldən olmasına təkid edirdilər. Əhməd ibn Hənbəl və Əbülhəsən Əşəri Quranın yaranmasına inananları kafir hesab edirdilər. Əksinə olaraq,

mötəzililər Quranın sonradan yaranmasına inanırdılar. Onlar bu məsələdə əşərilərlə müxalif idilər.

Allahın kəlamının əzəli olma nəzəriyyəsi həqiqətə uyğun deyil. Çünki əgər Allahın kəlamı dedikdə, hərf və səslər, yaxud xarici aləmdəki mövcudlar nəzərdə tutularsa, şübhəsiz ki, sonradan aranmışdır. Hətta əgər məqsəd danışmaq olsa belə, onun sonradan yaranmasına etiraf etməliyik. Çünki danışmaq Allahın feli sifətlərindəndir və bildiyimiz kimi, feli sifətlər hadisdir. Çünki feli sifətlərin mənşəyi Allahın feillərdir. Allahın kəlamının əzəli olmasına inananlar bir sıra zəif və əsassız dəlillərə istinad edirlər. Hazırkı mövzumuzun dairəsi onları araşdırmağa yol vermir.[38]

Beləliklə, imamların təsdiqlədiyi və şiə kəlamçılarının qəbul etdiyi kimi, düzgün nəzəriyyə Allahın kəlamının hadis olmasıdır[39].

**Allahın mütəkəllim (danışan) olmasına dəlil**

Allahın kəlamının həqiqətini bəyan etdikdən sonra Allahda bu sifətin olmasına dəlil gətirmək lazımdır. Burada kəlamçılar arasında məşhur olan dəlillərdən yalnız birinə işarə edirik:

Allahın qüdrəti mövzusunda qeyd etdik ki, Allahın qüdrəti hər bir mümkün işi əhatə edir. Şübhəsiz, yazılan və ya eşidilən kəlmələri yaratmaq da mümkün işdir. Beləliklə, hərf və kəlmələri yaratmağa (danışmağa) Allahın qüdrəti vardır.[40] Nəsirəddin Tusi bu dəlilin izahında belə deyir: "Allahın qüdrətinin ümumiliyi Onun mütəkəllim olmasına sübutdur".[41]

**Allahın kəlamı haqda ayə və hədislər**

Qurani-kərim "mütəkəllim" sözü sifət kimi işlənməmişdir. Amma bəzi ayələrdə feil şəklində istifadə edilmişdir:

وَكَلَّمَ اللّهُ مُوسَى تَكْلِيمًا

"Allah Musa ilə aşkar şəkildə danışdı". ("Nisa": 164)

Bundan əlavə Quranın üç yerində "kəlamullah" (Allahın kəlamı) və bir yerdə "kəlami" (mənim kəlamım) işlənmişdir.[42] Bəzi ayələrdə də "kəlimətu Rəbbikə" (Rəbbinin

---

38 Bu dəlillərin tənqidi üçün bax: "Muhaziratun fil-ilahiyyat, səh. 167-170.

39 Əbdürrəzzaq Lahicinin fikrincə, kəlam - söz və hərfləri icad edən qüdrətdir. Bu səbəbdən, onu əzəli sifət hesab edir. ("Sərmayeyi-iman", səh. 49). Lakin məsələ burasındadır ki, biz feli sifət sayılan kəlamdan bəhs edirik. Halbuki Əbdürrəzzaq Lahici verdiyi izahla kəlam sifətini qüdrət sifətinə müncər edərək öz əsl mənasından uzaqlaşdırır və buna görə də feli sifəti zati sifət edir. Bu halda, şübhəsiz ki, hadis (sonradan yaranan) ola bilməz.

40 Fikrimizcə, bu dəlil yalnız danışmağa qüdrəti isbat edir, amma Allahın faktiki olaraq danışan olmasını bu dəlildən nəticə almaq mümkün deyil.

41 "Kəşfül-murad", səh. 315.

42 "Bəqərə": 75; "Tövbə": 6; "Fəth": 15; "Əraf": 144.

kəlməsi) və “kəlimətullah” (Allahın kəlməsi) ibarətlərinin şahidi oluruq. Nəticə alırıq ki, Quran Allah-taalanın danışmaq xüsusiyyətini təsdiq edir.

Qurani-kərim bəzi ayələrdə Allahın ləfzi və eşidilən kəlamından söz açır:

فَلَمَّا أَتَاهَا نُودِي مِن شَاطِئِ الْوَادِي الْأَيْمَنِ فِي الْبُقْعَةِ الْمُبَارَكَةِ مِنَ الشَّجَرَةِ أَن يَا مُوسَى إِنِّي أَنَا اللَّهُ رَبُّ الْعَالَمِينَ

“(Musa) odun yanına gəlib çatdıqda vadinin sağ tərəfində olan bərəkətli yerdəki ağacdan belə bir nida gəldi: “Ya Musa! Aləmlərin Rəbbi olan Allah Mənəm!” (“Qəsəs”: 30)

Ayədən məlum olur ki, Allah-taala Musaya (ə) eşidilən sözlərlə xitab etmiş və onunla söhbət etmişdir. Bu ayə və ondan sonrakı ayələrin kontekstindən məlum olur ki, Musa (ə) o sözləri eşidirmiş. Digər bir ayə Allahın insanlarla üç cür danışmasından söhbət açır.

وَمَا كَانَ لِبَشَرٍ أَن يُكَلِّمَهُ اللَّهُ إِلَّا وَحْيًا أَوْ مِن وَرَاء حِجَابٍ أَوْ يُرْسِلَ رَسُولًا فَيُوحِيَ بِإِذْنِهِ مَا يَشَاء إِنَّهُ عَلِيٌّ حَكِيمٌ

“Allah bəşər övladı ilə ancaq vəhylə, yaxud pərdə arxasından danışar və ya bir elçi (mələk) göndərər ki, o da Allahın izni ilə Onun istədiyini vəhy edər. Həqiqətən, O ucadır, hikmət sahibidir”. (“Şura”: 51)

Ayənin məzmununa əsasən, üç növ vəhy aşağıdakılardan ibarətdir:

1. Vəhyin vasitəsiz göndərilməsi. Burada mənalar vəhy olunan şəxsə çatdırılır.

2. Vəhyin vəhy mələyi vasitəsilə göndərilməsi.

3. Pərdənin arxasından eşidilən səs yaratmaq.

Ləfzi kəlamdan əlavə Quranda Allahın məxluqları da “kəlmə” adlandırılmışdır. Bəzi ayələrdə İsa (ə) “kəlimətullah” (Allahın kəlməsi) adlandırılır.

إِنَّمَا الْمَسِيحُ عِيسَى ابْنُ مَرْيَمَ رَسُولُ اللّهِ وَكَلِمَتُهُ أَلْقَاهَا إِلَى مَرْيَمَ وَرُوحٌ مِّنْهُ

“Məryəm oğlu İsa əl-Məsih ancaq Allahın peyğəmbəri, Məryəmə çatdırdığı kəlmə və Onun tərəfindən olan bir ruhdur”. (“Nisa”: 171)

Bəzi ayələrdə də Allahın bütün məxluqlarına və nemətlərinə “kəlmələr” deyilir.

وَلَوْ أَنَّمَا فِي الْأَرْضِ مِن شَجَرَةٍ أَقْلَامٌ وَالْبَحْرُ يَمُدُّهُ مِن بَعْدِهِ سَبْعَةُ أَبْحُرٍ مَّا نَفِدَتْ كَلِمَاتُ اللَّهِ

“Əgər yer üzündəki bütün ağaclar qələm, dərya da arxasınca yeddi dərya qoşularaq mürəkkəb olsa, yenə də Allahın kəlmələri tükənməz”.[43] (“Loğman”: 27)

Beləliklə, Qurani-kərimdə Allahın kəlamı həm ləfzi kəlam, həm də Allahın məxluqları mənasında işlədilmişdir.

Bundan əlavə, Quranın bəzi ayələri Allahın kəlamının hadis olmasına dəlalət edir. Bu ayələrə istinad etməklə Allahın kəlamının əzəli olma nəzəriyyəsinin əsassızlığı sübut etmək olar. Ənbiya surəsində belə oxuyuruq:

مَا يَأْتِيهِم مِّن ذِكْرٍ مَّن رَّبِّهِم مُّحْدَثٍ إِلَّا اسْتَمَعُوهُ وَهُمْ يَلْعَبُونَ

“Allahdan onlara elə bir yeni zikr (xatırlatma) gəlməz ki, onu məsxərəyə qoyub dinləməsinlər”. (“Ənbiya”: 2)

[43] “Kəhf: 109.

Digər ayələrdə, o cümlədən "Hicr" surəsinin 9-cu ayəsində Quranın "zikr" adlanmasını nəzərə almaqla aydın olur ki, bu ayədə də "zikr" deyildikdə Quran nəzərdə tutulur. Ayədə zikrin yeni adlandırılması (yeni zikr) Quranın sözlərinin hadis olmasına (sonradan yaranmasına) sübutdur.

Bəzi hədislərdə də Allahın kəlamının hadis və ya əzəli olma mövzusu ilə rastlaşırıq. Məsum imamlar bəzən səhabələri bu mövzudan çəkindirirdilər. Çünki bu mövzu etiqadi məsələ olmaqdan çox siyasi xarakter daşıyırdı və hər kəs ondan öz rəqibinə qarşı silah kimi istifadə edirdi. Bu səbəbdən, İmam Rza (ə) Quran haqda soruşan səhabəsinin cavabında buyurur: "Allahın kəlamından (Qurandan) kənara çıxmayın və hidayəti Qurandan başqa şeydə axtarmayın ki, azarsınız".[44]

Bəzi hədislərdə də imamların bu mövzuda olan fikirləri aşkar şəkildə bəyan edilmişdir. İmam Hadi (ə) bəzi şiələrə göndərdiyi məktubda belə yazır: "Allahdan başqa yaradan yoxdur və Ondan başqa hər şey məxluqdur və Quran Allahın kəlamıdır. Öz yanından ona ad qoyma ki, yolunu azmışlardan olarsan".[45]

Digər bir hədisdə Əbu Bəsir İmam Sadiqdən (ə) soruşur: "Allah-taala əzəldən mütəkəllimdir?" İmam (ə) cavabında buyurur: "(Allahın) kəlamı hadisdir. Allah-taala var idi, amma mütəkəllim deyildi və sonra kəlamı yaratdı".[46]

**Terminlər**

Allahın kəlamı

Zehni kəlam

Ləfzi kəlam

Feli kəlam

**Səkkizinci fəslin xülasəsi**

1. Bəzilərinin fikrincə, Allahın kəlamı səslər və hərflərdir və Allahın zatına söykənir. Bu nəzəriyyə əsassızdır. Çünki maddi hərf və səslərin Allahın qeyri-maddi zatına söykənməsi mümkün deyildir.

2. Əşərilər Allahın kəlamını zehni kəlam hesab edirlər. Zehni kəlam Allahın zatına söykənir. Bu mənada kəlam elm və iradədən fərqlidir. Səs və hərflər bu kəlamdan xəbər verir.

3. Əşərilərin zehni kəlam nəzəriyyəsi əsassızdır. Çünki belə bir məna (əşərilərin təfsirinə görə) elm və iradədən ayrı həqiqət ola bilməz.

4. Allahın kəlamının həqiqi mənası belədir: Allah-taala hərf və səsləri müxtəlif formalarda yaradır, bu hərf və səslər hadisdir və Allahın zatına söykənmir. Həmçinin

[44] "Ət-Tövhid", 30-cu bölüm, 2-ci hədis.

[45] Yenə orada, 4-cü hədis.

[46] "Biharul-ənvar", 4-cü cild, səh. 68.

Allahın danışması insanların danışmasından fərqli olaraq, heç bir bədən üzvünə möhtac deyil.

5. Kəlamın həqiqəti mənanı çatdırmaqdan ibarət olduğu üçün bəzən geniş mənada işlənir və Allahın bütün məxluqlarına da deyilir. Bu mənaya görə, bütün kainat Allahın kəlamıdır. Çünki öz varlıqları ilə yaradanın varlığına dəlalət edirlər. Necə ki, hər bir mövcudun işi onun var olmasına dəlildir.

6. Buna əsasən, Allahın kəlamı üçün üç məna nəzərdə tutmaq olar: ləfzi kəlam, zehni kəlam və feli kəlam. Bu mənalardan ikincisi, yəni zehni kəlam şiə və mötəzilə kəlamçıları tərəfindən qəbul edilmir.

7. Allahın kəlamının həqiqi mənası açıqlandıqdan və zehni kəlamın əsassılığı aydın olduqdan sonra bu nəticəyə gələ bilərik ki, Allahın kəlamı da Onun digər yaratdıqları kimi hadisdir. Bu səbəbdən əşərilərin Allahın kəlamının əzəli olması haqda fikirləri həqiqətə uyğun deyil.

8. Qurani-kərim Allahın kəlamını həm ləfzi, həm də feli kəlam mənasında işləmişdir. Məsum imamların hədislərində də Allahın kəlamının hadis olmasına təkid edilmişdir.

**Doqquzuncu fəsil**
**Sidq (doğruluq) və hikmət**
**Müqəddimə**

Allahın kəlamı mövzusundan sonra belə bir sual qarşıya çıxır ki, Allah-taala kəlamında düz danışandır, yoxsa yalan ehtimalı da verilir? Bu sualın cavabında bütün müsəlmanlar inanırlar ki, Allahın kəlamında yalan ola bilməz, başqa sözlə desək, Allahın yalan danışması qeyri-mümkündür. Bu səbəbdən, bütün islam firqələrinin nəzərinə əsasən, "sidq", yəni kəlamın həqiqətlə uyğun olması Allahın sübuti sifətlərindən biridir.

Sidq sifəti və onunla bağlı məsələlərə azacıq diqqət etməklə onun nə qədər böyük əhəmiyyətə malik olması aşkar edilir. Bu sifət həqiqətdə insanların peyğəmbərlərin çağırışına inamlarının əsasını təşkil edir. Çünki Allahın kəlamında yalan ehtimalı verilərsə, vəhyin haqq və mötəbər olmasını isbat etmək olmaz. Eləcə də Allahın vədələrinə və vəhydə keçmiş və gələcək tarixlər haqqında verilən xəbərlərə inam itər. Daha dəqiq desək, sidq sifətinə şəkk etməklə, yaxud onu inkar etməklə ilahi vəhydən və səmavi kitablardan əldə edilən bütün təlim və həqiqətlər öz etibarını itirəcəkdir.[47]

**Sidq sifətinin zati və ya feli sifət olması**

Sidq sifətinin zati və ya feli sifət olması kəlam sifətinin mənasından asılıdır. Bu iki sifət zati və ya feli sifət olmaq cəhətindən eynidir. Odur ki, əşərilərin zehni kəlam nəzəriyyəsinə əsasən, sidq sifəti zati sifət hesab ediləcəkdir. Çünki kəlam özü də zati sifətdir. Amma qeyd etdik ki, zehni kəlam elm və iradə sifətlərinə müncər edilmədikdə aydın bir məna daşımır. Bu halda Allahın kəlam sifəti (əşərilərin nəzəriyyəsini nəzərə almaqla) elm sifətinə müncər edilsə, sidq sifətinin mənası Allahın elminin real həqiqətlə tam uyğun olması deməkdir. Amma əgər iradə sifətinə müncər edilsə, bu halda sidq sifətinin mənası olmayacaqdır. Çünki iradənin sadiq olması mənasızdır.

Allahın kəlamını feli sifət hesab etsək, şübhəsiz ki, sidq də feli sifətlərdən sayılar. Keçən mövzuda aydın oldu ki, kəlam feli sifətlərdəndir, deməli, sidq də feli sifətlərdən sayılmalıdır.

**Kəlamçıların Allahın sadiq olmasına sübutları**

Sidq sifətinin isbatı üçün nəqli dəlillərə istinad etmək dairə ilə nəticələnər. Çünki nəqli dəlillərin etibarı (ayə və hədislər) Allah-taalanın sadiq olmasından asılıdır. Buna görə də Allahın sadiq olmasını nəqli dəlillər vasitəsilə isbat etmək dairə ilə nəticələnər. Bu mövzunun isbatı üçün yeganə yol əqli dəlillərdir.

---

[47] Başqa sözlə desək, nəqli kəlamın etibarı sidq sifətinin isbatından asılıdır.

Bu məsələni hansı əqli metodla isbat etmək barədə kəlamçılar arasında fikir ayrılığı vardır. Bu ixtilaf yaxşı və pis işlərin ağılla dərk edilməsini qəbul və ya inkar etməkdən qaynaqlanır. "Yaxşı" və "pis" anlayışlarının rasionallığının tərəfdarları inanırlar ki, ağıl müstəqil şəkildə (vəhy və şəriətə ehtiyac olmadan) bəzi işlərin yaxşı və ya pis olmasını dərk edə bilər. Allah-taalanın da pis işləri yerinə yetirməsi mümkün deyil. Qeyd edəcəyik ki, şiə və mötəzilə kəlamçıları yaxşı və pis anlayışlarının rasionallığını müdafiə edir, əşərilər isə, əksinə olaraq, onu rədd edirlər.

Yaxşı və pis anlayışlarının rasionallığı nəzəriyyəsinə görə Allahın sidq sifətinin ən yaxşı əqli dəlili bundan ibarətdir:

Ağıl yalan danışmağı pis iş hesab edir. Digər tərəfdən Allahın pis iş görməsi qeyri-mümkündür. Beləliklə, Allahın yalan danışması qeyri-mümkündür.

Doğru danışmaqla yalan danışmaq bir-birinə zidd olduğundan, yuxarıda qeyd etdiyimiz dəlildən nəticə ala bilərik ki, Allah-taala doğru danışandır.

Nəsirəddin Tusi Allahın doğruluq sifətini belə sübut edir: "Allahın pis iş görməməsi Onun doğruluq sifətinə sübutdur".[48]

Bu dəlil əşərilər tərəfindən qəbul edilmir. Çünki onlar yaxşı və pis anlayışlarının rasionallığına inanmırlar. Bu səbəbdən, əşəri kəlamçılarının bir qrupu yaxşı və pis anlayışlarının rasionallığına əsaslanmayan dəlillərə istinad etmişlər. Məsələn, belə deyirlər ki, yalan nöqsandır və Allahda heç bir nöqsan ola bilməz. Deməli, Allahın dediyində yalan ola bilməz.[49]

**Quranda Allahın doğru danışmaq sifəti**

Qurani-kərim müxtəlif ayələrdə Allahın sidq sifətinə təkid etmişdir.

وَأَتَيْنَاكَ بَالْحَقِّ وَإِنَّا لَصَادِقُونَ

"Biz sənə haqqı gətirmişik. Həqiqətən, biz doğru danışanlardanıq". ("Hicr": 64)

Bəzi ayələrdə də Allahın sözü ən doğru söz sayılır.

وَمَنْ أَصْدَقُ مِنَ اللّهِ حَدِيثًا

"Allahdan daha doğru danışan kim ola bilər?!" ("Nisa": 87)

وَمَنْ أَصْدَقُ مِنَ اللّهِ قِيلاً

"Allahdan daha doğru danışan kim ola bilər?!" ("Nisa": 122)

Bəlkə də, "Allah ən doğru danışandır" cümləsi bu mənayadır ki, Onun sözü digər doğru sözlərlə müqayisədə bütün həqiqətləri aşkar edir və həqiqətin müxtəlif cəhətlərini tam şəkildə bəyan edir.

---

[48] "Kəşful-murad", səh. 315.

[49] Əllamə Hilli "Mənahicül-yəqin" kitabında bu dəlildən başqa digər üç dəlil də əşərilərdən nəql edib sonda hamısını rədd etmişdir. Bax: "Mənahicül-yəqin", səh. 195 və 196.

Bəzi ayələrdə də Allahın vədələrinin doğru olmasına təkid edilmişdir. Məsələn, Ühüd müharibəsində müsəlmanlara zəfər qazandırmaq barədə ilahi vədənin baş tutması haqda buyurur:

وَلَقَدْ صَدَقَكُمُ اللّهُ وَعْدَهُ

"Həqiqətən, Allah sizə verdiyi vədinə sadiq çıxdı". ("Ali-İmran": 152)

Allahın bütün vədələrinin doğru olması haqda belə oxuyuruq:

إِنَّ اللّهَ لاَ يُخْلِفُ الْمِيعَادَ

"Həqiqətən, Allah Öz vədinə xilaf çıxmaz". ("Ali-İmran": 9; "Rəd": 31)

"Sidq" sifətini araşdırdıqdan sonra "hikmət" sifətin haqda danışmaq münasib olardı.

**Hikmətin müxtəlif mənaları**

Allahın feli sifətlərindən biri hikmət sifətidir. Hikmət sifətinin müxtəlif mənalarını aşağıda qeyd edirik:

1. Hikmətin mənalarından biri hər bir şeyin həqiqətini tanımaqdır.

Allahın elmi mütləq olduğu üçün Onun bu mənada hikmətli olması şübhəsizdir. Amma bu mənada hikmət elm sifətindən başqa bir şey deyildir, daha dəqiq desək, Allahın elminin şaxələrindəndir.

2. Başqa mənada hikmət şəxsin öz işlərini məntiqi hədəflər əsasında yerinə yetirməsinə deyilir. Hikmətin bu mənasının Allaha aid edilməsi ixtilaflıdır. Əşərilər onu qəbul etmirlər. Biz bu mövzunu gələcəkdə bəhs edəcəyik.

3. Üçüncü mənada hikmət şəxsin öz işlərini son dərəcədə mükəmməl və möhkəm yerinə yetirməsinə deyilir. Allah-taala bu mənada hikmətlidir. Bunun isbatı üçün təbiət aləmində olan nizamlı xariqələrdən, eləcə də Allahın yaratdıqlarının misilsiz gözəlliyindən əlavə, əqli dəlillərə də istinad etmək olar. Burada iki dəlilə işarə edəcəyik:

Birinci dəlil. Hər hansı bir işin naqis olması ya o işi görənin elmsizliyindən, ya bacarıqsızlığından, ya da əbəs işlər görməsindən irəli gəlir. Bütün bu amillərin Allaha isnad verilməsi qeyri-mümkündür. Çünki Allahın elmi və qüdrəti mütləqdir və gələcək mövzularda qeyd edəcəyik ki, Allahdan əbəs işlər baş verməz. Beləliklə, işin naqisliyinə səbəb olan amillərdən heç biri Allahda olmadığı üçün Allahın bütün işləri son dərəcədə mükəmməldir.

İkinci dəlil. İşlə onu icra edən arasında uyğunluq vardır. Çünki həqiqətdə iş öz icraçısının təzahürüdür. Odur ki, hər bir cəhətdən kamil olan Allahın işi də hər bir cəhətdən mükəmməl olmalıdır.

Bu mənada olan hikmət ayə və hədislərdə də öz əksini tapmışdır. Hud surəsinin əvvəlində belə oxuyuruq:

الَر كِتَابٌ أُحْكِمَتْ آيَاتُهُ ثُمَّ فُصِّلَتْ مِن لَّدُنْ حَكِيمٍ خَبِيرٍ

"Əlif, Lam, Ra! Bu, hikmətli və agah Allah tərəfindən ayələri təsbit olunmuş, sonra da müfəssəl izah edilmiş bir Kitabdır". ("Hud": 1)

Əmirəlmöminin Əli (ə) Allahın hikmətinin mənası haqda buyurur: "Hər şeyi ölçüb-biçib yaratdı və ölçüb-biçməkdə Öz işini mükəmməl yerinə yetirdi".[50]

"Allah-taala heç kəsdən nümunə götürmədən, baxıb öyrənmədən, hansısa bir elmli xaliqi təqlid etmədən Öz elmi ilə məxluqları yaradır, hikməti ilə onları icad edir".[51]

Allahın hikmətinin nəticələrindən biri budur ki, aləmin, mümkün olan ən mükəmməl şəkildə yaranmış olduğunu bilək. Çünki aləm sonsuz genişliyi ilə Allahın feilidir. Allahın hikmətinə əsasən, Onun feili mümkün ola bilən ən mükəmməl şəkildə olmalıdır.

4. Hikmətin dördüncü mənası isə pis işlərdən uzaq olmaqdır. Bu mənaya əsasən, hikmət sahibi pis və bəyənilməz işlər görməyən şəxsə deyilir.[52]

Hikmətin bu mənasına diqqət etməklə aydın olur ki, ədalət (zülmdən uzaq olmaq) sifəti hikmətin dördüncü mənasının şaxələrindəndir. Başqa sözlə desək, hikmət dördüncü mənada ədalətə də şamil olan geniş bir məfhumdur. Çünki bu mənaya əsasən, Allah-taala yalan, vədə xilaf çıxmaq, eləcə də zülm və s. kimi heç bir pis iş görməz.[53]

Qeyd etmək lazımdır ki, sonuncu mənada Allahın hikmətli olması barədə islam firqələri arasında fikir ayrılığı vardır. Çünki Allahın hikməti (sonuncu mənaya görə) "yaxşı və pis anlayışlarının rasionallığı" nəzəriyyəsinə söykənir. Qeyd edəcəyik ki, əşərilər bu nəzəriyyəni inkar edirlər. Mötəzililər və şiələr isə onu müdafiə edərək bəşər ağlının pis saydığı işlərin Allah tərəfindən yerinə yetirilməsini inkar edirlər. Beləliklə, Allah pis işlərə qadir olsa da, Onun mütləq kamilliyi pis işləri yerinə yetirməyə yol vermir. Daha dəqiq desək, Allahın sonsuz zatı tələb edir ki, Ondan ancaq yaxşı işlər baş versin.

Hikmətin sönuncu mənası haqda "Allahın ədaləti" mövzusunda geniş bəhs edəcəyik.

**Doqquzuncu fəslin xülasəsi**

1. "Sidq" (doğru danışmaq) Allahın sübuti sifətlərindəndir. Bu məsələyə şəkk etməklə vəhy öz etibarının itirir və səmavi kitabların məzmununun düzgünlüyü sual altına gedir.

2. Sidqin zati və ya feli sifət olması kəlam sifətinin zati və ya feli sifət olmasından asılıdır. Düzgün fikir budur ki, həm kəlam, həm də sidq Allahın feli sifətlərindəndir.

3. Sidq sifətini Quran ayələrilə isbat etmək dairə ilə nəticələnir.

4. Allahın kəlamının doğru olmasını "yaxşı və pis anlayışlarının rasionallığı" nəzəriyyəsi ilə isbat etmək olar. Bu dəlildə deyilir ki, yalan danışmaq pis iş sayılır və

[50] "Nəhcül-bəlağə", 89-cu xütbə.

[51] Yenə orada, 191-ci xütbə.

[52] Bəzən bunu belə ifadə edirlər: "hikmət sahibi - nalayiq iş görməyən və yerinə yetirilməsi lazım olan işə qarşı səhlənkarlıq etməyən şəxsə deyilir."

[53] Əgər bütün çirkin işləri zülm hesab etsək, hikmətin dördüncü mənası ədalətlə eyni mənaya olar. Çünki bu halda çirkinlikdən uzaq olmaq zülmdən uzaq olmaqla bərabər olacaqdır.

Allahın pis iş görməsi qeyri mümkündür. Deməli, Allah-taala yalan danışmaz və həqiqətin əksinə söz deməz.

5. Quran Allahın "sidq" sifətinə təkid edir və Allahı ən doğru danışan adlandırır.

6. Allahın hikməti müxtəlif mənalarda işlənmişdir:

a) İşlərin həqiqətini bilmək;

b) Allahın Öz işlərini hədəf əsasında görməsi;

c) Allahın işlərinin mükəmməl olması;

d) Allahın pis işlərdən uzaq olması.

7. Allahın işlərinin mükəmməl olmasına dəlil: İşin nöqsanına səbəb olan amillər, yəni nadanlıq, acizlik və bihudə iş görmək Allaha isnad verilə bilməz. Həmçinin Allah-taala mütləq kamildir, deməli, Onun feili də son dərəcədə mükəmməldir.

8. Pis işlərdən uzaq olma mənasında olan hikmət ədalət sifətinə də şamil olur. Hikmət bu mənada "yaxşı və pis anlayışlarının rasionallığı" nəzəriyyəsinə əsaslandığından əşərilər tərəfindən inkar edilir.

**Onuncu fəsil**
**Səlbi sifətlər**

Allahın həm zati, həm də feli sübuti sifətlərindən bəzilərini araşdırdıq. İndi isə Allahın səlbi sifətlərini araşdırırıq. Qeyd etdik ki, səlbi sifətlər Allahdan nöqsan və məhdudiyyətin uzaq olmasını bildirir. Buna görə, nöqsanın inkar edilməsi kamilliyin isbatı ilə nəticələnir. Odur ki, səlbi sifətlər vahid bir həqiqətə malikdir. Bu həqiqəti "nöqsanın inkarı" və ya "məhdudluğun inkarı" adlandırırıq.

Allahın səlbi sifətləri saysızdır. Lakin bununla belə burada bir neçə əsas sifətləri araşdırırıq.

1. Mürəkkəb olmamaq;
2. Sifətlərin zata əlavə olunmaması;
3. Cisim olmamaq;
4. Cəhətsizlik və məkansızlıq;
5. Başqasında hülul etməmək;
6. Başqası ilə birləşməmək;
7. Hadisələrin Allahda hülul etməməsi;
8. Ləzzət və əzabın inkarı;
9. Görünməzlik.[54]

**Səlbi sifətlərə ümumi dəlil**

Səlbi sifətlər mövzusuna daxil olmazdan öncə bu məsələni qeyd etməyi məqsədəuyğun hesab edirəm. O da budur ki, səlbi sifətlərin məcmusunu ümumi dəlillə sübut etmək olar. Çünki bu sifətlər vahid bir həqiqətdən, yəni nöqsan və məhdudluğun inkarından ibarətdir.

Allah-taala mütləq varlıqdır və bütün kamilliklərə sahibdir. Bu səbəbdən, heç bir nöqsan və məhdudluq Allahın zatına yol tapmaz. Beləliklə, nöqsana səbəb olan hər bir şey Allahın zatından inkar edilir. Belə deyə bilərik ki, Allahın mütləq kamilliyi bütün səlbi sifətlərin Allaha isnad verilməyinə imkan yaradır. Çünki səlbi sifətlərin mənası nöqsan və məhdudluğun inkarından başqa bir şey deyil. Beləliklə, sübuti sifətləri vahid dəlillə isbat etdiyimiz kimi səlbi sifətləri də bu metodla isbat edirik.

İndi isə qeyd etdiyimiz səlbi sifətləri qısa da olsa bəyan edirik:

---

[54] Digər kəlam kitablarında bir neçə başqa səlbi sifətə də işarə etmişlər. Məsələn, Allah cövhər deyil, Allahın mahiyyəti yoxdur, şəriki yoxdur, misli yoxdur, ziddi yoxdur (Bu misallarda qeyd olunanlar tam fəlsəfi mənaları qəsd edir. Müt.)

**1-2. Mürəkkəbliyin və sifətlərin zata əlavə olmasının inkarı**

Zatda və sifətdə tövhid mövzusunda bu iki sifət haqqında geniş şəkildə bəhs etdik. Burada təkrara yol verməк istəmirik.

**3. Allah-taala cisim deyil**

Müsəlmanların bir çoxu inanır ki, Allah-taala cisim deyil. Allahın cisim olmasına inananlar çox azdır. Onlara antropomorfiklər deyilir.[55]

Allahın cisim olmamasının dəlillərindən biri budur ki, cisim üç ölçüyə - en, uzunluq və hündürlüyə malik olduğu üçün potensial hissələrdən təşkil olunur. Keçən bəhslərdə isbat etdik ki, Allah-taala hər növ tərkibdən uzaqdır. Nəticədə isbat olur ki, Allah-taala cisim deyil. Bu səbəbdən, insan hətta öz fikrində və xəyalında belə Allahı cismani varlıq kimi təsəvvür edə bilməz. Allah-taala qeyri-maddi bir varlıqdır ki, cismin xassələri Ona isnad verilə bilməz.

**4. Cəhətsizlik və məkansızlıq**

Allah-taala məxsus bir cəhətdə yerləşmir və məkanda deyil. Antropomorfiklər digər islam firqələrinin əksinə olaraq bu inanırlar ki, Allah xüsusi cəhətdə yerləşir. Məsələn, "Kərramiyyə" Allah-taalanı yuxarıda yerləşdiyini hesab edirlər.[56]

Allahın cəhət və məkanda olmamasının dəlillərindən biri budur ki, cəhət və məkan cismin və cismani aksidensiyaların xassələrindəndir. Allah-taala nə cisimdir, nə də cismani aksidensiyadır. Çünki hər bir aksidensiyanın substansiyaya ehtiyacı var. Halbuki Allah-taala zəruri və ehtiyacsız varlıqdır.

**5. Başqasında hülul etməz**

Allah-taala digər bir varlıqda hülul etməz. Bütün müsəlman firqələri bu prinsipi qəbul edir. Əlbəttə, bəzi sufi firqələrinin sözlərinin zahirindən hülul etiqadı başa düşülür. Hülulun inkarına dəlil olaraq qeyd etmək olar ki, hülul edən şey digər hər hansı bir şeydə hülul etməlidir. Daha dəqiq desək, hülul edən şey məkana möhtacdır. Allah-taala mütləq ehtiyacsız olduğundan heç bir varlıqda hülul etməz.

**6. Başqası ilə birləşməz**

Allah-taala heç bir varlıqla birləşməz. Demək olar ki, bütün islam firqələri bunu qəbul edirlər.[57]

Bu müddəanın dəlillərindən biri budur ki, "ittihad və birləşmə" dedikdə, onun məcazi mənası, yəni iki şeyin bir-birilə qarışması və ya bir şeyin formasının dəyişməsi nəzərdə tutularsa, bunun nəticəsi təsirlənmə, dəyişmə və mürəkkəb olmaqdır. Halbuki, Allah-taala belə şeylərdən uzaqdır. Çünki bunlar naqis və ehtiyaclı olmaqla nəticələnir. Amma əgər "ittihad və birləşmə" dedikdə, onun həqiqi mənası, yəni iki həqiqətin bir

---

[55] Antropomorfiklərin dəlilləri və onların tənqidi üçün bax: "Mənahicül-yəqin, səh. 202 və 203.

[56] "Mənahicul-yəqin, səh. 204; İbn Meysəm Bəhrani, "Qəvaidül-məram fi elmil-kəlam", səh. 71-73.

[57] Bəzi kəlamçılar sufilərin "insanın Allahda fani olma" prinsipindən belə nəticə alırlar ki, onlar Allahın digər varlıqlarla birləşməsinə inanırlar. Bax: "İrşadüt-talibin", səh. 237.

həqiqətə çevrilməsi nəzərdə tutularsa, nəinki Allah haqqında, hətta heç bir varlıq haqqında təsəvvür oluna bilməz.[58]

**7. Allahda hadisələr hülul etməz**

Allah-taala hadisələrə məruz qalmaz. Bu səbəbdən, Allahın heç bir sifəti hadis deyil. Hadis sifətlərin inkarına olan dəlillərdən biri budur ki, zatda bir sifətin sonradan yaranması o deməkdir ki, zatın öncədən bu sifətə malik olma potensialı olub. Potensial isə maddi varlıqların xassələrindəndir. Beləliklə, Allahda bir sifətin sonradan yaranması Onun maddi olması ilə nəticələnir. Halbuki Allah-taala maddi xüsusiyyətlərdən uzaqdır.

Allahın zatından hadisələrin inkar olunmasının nəticələrindən biri sifətlərin əzəli olmasıdır.

**8. Ləzzət və əzabın inkarı**

Allah-taala ləzzət almaz və əzab çəkməz. Ləzzət və əzab iki qismə bölünür. Birinci qisim maddi ləzzət və əzabdır. Bu qisim həyatda olan maddi varlıqlara, o cümlədən insan və heyvanlara məxsusdur. Allah-taala maddə olmadığından bu növ ləzzət və əzab Allah haqqında təsəvvür oluna bilməz.

İkinci qisim əqli ləzzət və əzabdir. Belə ki, şüurlu bir varlıq bir şeyin öz vücudu ilə uyğun olduğunu dərk etmək ləzzət, uyğun olmadığını dərk etmək əzab adlanır. Əqli əzab da, şübhəsiz, Allaha aid edilə bilməz. Çünki bütün aləm Allahın məxluqudur. Səbəblə nəticə, başqa sözlə desək, xaliqlə məxluq arasında ziddiyyət (qeyri-münasiblik) təsəvvür oluna bilməz. Bu səbəbdən, heç bir varlıq Allahla zidd ola bilməz və nəticədə, onları dərk etmək əqli əzaba səbəb ola bilməz.

Amma əqli ləzzətin Allaha aid edilib-edilməməsi haqda fikir ayrılığı vardır. Bəzi kəlamçılar filosoflara[59] tabe olub bu məsələni qəbul etmişlər. Onların fikrincə, Allahın zatı son dərəcə kamil və gözəldir. Allahın Öz zatını dərk etməsi ən kamil və gözəl varlığı dərk etməsi deməkdir. Bu kamil və gözəl varlıq Allahın zatı ilə son dərəcə uyğundur. Çünki bir mövcudla öz arasında olan uyğunluq ən üstün uyğunluqdur. Bu da Allahda əqli ləzzətin olmasını isbat edir.[60]

Digər bir dəstə Allahın Öz zatına olan dərkini qəbul edir, lakin ləzzət alma sifətini Allaha isnad verməyi düzgün hesab etmirlər. Çünki Quran və hədislərdə, bu cür sifət Allaha isnad verilməmişdir. Əllamə Hilli "Təcridül-etiqad" kitabına şərhində belə yazır: "Zatla uyğun olanı dərk etmək mənasına olan ləzzət ilkin filosoflar tərəfindən qəbul edilmişdir. Çünki Allah-taala ən kamil varlığı, yəni Öz zatını dərk edir və bu dərk

---

[58] Geniş məlumat üçün bax: yenə orada, səh. 237 və 238.

[59] Kəlam kitablarında "əqli ləzzət" nəzəriyyəsi bəzi yunan filosoflarına aid edilir. İslam filosoflarından İbn Sina da bu nəzəriyyəni müdafiə edir. İbn Sina, "əl-İşarat vət-tənbihat, 3-cü cild.

[60] Əllamə Hilli, "Ənvarül-mələkut fi şərhil-yaqut, səh. 102; "İrşadut-talibin, səh. 234 və 235.

nəticəsində də ləzzət duyur... Bu, İbn Növbəxt və digər kəlamçıların nəzəriidir. Hərçənd "ləzzət duyan" sözünü Allaha aid etmək üçün şəriətin icazəsi lazımdır".[61]

Hər halda ləzzət və əzab dedikdə, hamı onun birinci mənasını başa düşür. Bu mövzunun əsas məqsədi bunu sübut etməkdir ki, digər varlıqlardan fərqli olaraq Allahda bu cür ləzzət və əzab yoxdur.

**9. Gözlə görünməzlik**

Allah-taala gözlə görünməz. Bu sifət haqqında müxtəlif fikirlər mövcuddur. Şiə və mötəzilə kəlamçıları inanırlar ki, Allahı nə dünyada, nə də axirətdə gözlə görmək olmaz. Antropomorfiklər isə əksinə olaraq, Allah-taalanı cisim və məkanda hesab edir və nəticə etibarilə Onu gözlə görməyi (həm dünyada, həm də axirətdə) mümkün hesab edirlər. Hədis əhli və əşərilər də orta bir yol seçmişlər. Onların fikrincə, möminlər öz gözləri ilə axirətdə Allahı görə bilərlər. Əşəri bu haqda belə deyir: "Bizim etiqadımıza görə Allah-taala axirətdə gözlə görsənəcək. Möminlər on dörd gecəlik ayı gördükləri kimi Onu da görəcəklər.[62]

Hər bir firqə öz iddiasına əqli və nəqli dəlillər gətirməklə yanaşı qarşı tərəfin dəlillərini də tənqid etməyə çalışdıqları üçün Allahı gözlə görmək məsələsi geniş bir mövzuya çevrilmişdir. Biz burada Allahı gözlə görməyin qeyri-mümkünlüyünün bəzi dəlillərini qeyd edirik, mövzunun bir hissəsini də bu haqdakı ayələri araşdırdıqda bəyan edəcəyik.[63]

Qeyd etmək lazımdır ki, buradakı ixtilaf Allahın maddi gözlə görünməsinə aiddir. Amma əgər Allahı görmək dedikdə, Onu qəlblə müşahidə etmək və intuisiya nəzərdə tutularsa, bu haqda heç bir fikir ayrılığı yoxdur. Allahı qəlb gözü ilə görmək həm dünyada, həm də axirətdə mümkündür. Əlbəttə, sonrakı dövrlərdə gələn əşərilərin əsərlərinə müraciət etməklə aydın olur ki, Allahı maddi gözlə görmək nəzəriyyəsi məntiqi olmadığından onlar Allahı görməyi başqa cür izah etməyə çalışmışıar. Məsələn, deyirlər ki, Onu gözlə görmək üçün üzbəüz olmaq şərt deyil, buna görə, Onun məkanda olması lazım gəlmir.[64]

---

[61] "Kəşfül-murad, səh. 320; Xacə Tusinin "Təcridül-etiqad" kitabından belə başa düşülür ki, "əqli ləzzət" sifətini Allah haqqında düzgün hesab edir. Çünki səlbi sifətləri bəyan edərkən belə deyir: "Əzabın bütün qisimləri və maddi ləzzət Allahda ola bilməz." Bəlkə də Əllamə Hillinin "ləzzət duyma" sifətinin yalnız şəriətin icazəsi ilə Allaha aid edilməsi haqdakı fikri Allahın sifətlərinin təqlidi olması nəzəriyyəsinə əsaslanır.

[62] Əl-Əşəri, "əl-İbanə ən üsulid-diyanə", səh. 21.

[63] Əşərilərin dəlillərinin tənqidi haqda bax: "İrşadüt-talibin", səh. 244-249; "Kəşfül-murad", səh. 322-324; "Mühaziratün fil-ilahiyyat", səh. 207-212.

[64] Fazil Quşçi, Şərhüt-təcrid", səh. 328.

Bəziləri də iddia edirlər ki, möminlər Allahı qəlblə necə müşahidə edirlərsə, həmin xüsusiyyəti Allah axirətdə onların gözündə yaradacaqdır.[65] Nəticədə, yenə əşərilər Allahı görmək məsələsini ya qəlbi müşahidə mənasına təfsir edirlər, ya da onun üçün konkret olmayan qeyri-məntiqi bir məna nəzərdə tuturlar.[66]

**Allahı gözlə görməyin qeyri-mümkünlüyünün dəlili**

Allahı gözlə görməyin qeyri-mümkünlüyünə müxtəlif dəlillər qeyd edilmişdir. Burada onlardan ikisinə işarə edirik:

1. Gözlə görünməyin əsas şərti göz qarşısında olmaqdır. Göz qarşısında olmaq isə xüsusi cəhətdə (məkanda) yerləşmək deməkdir. Bu səbəbdən, gözlə görsənmək cəhət və məkanda olmaq deməkdir. Öncə qeyd etdiyimiz kimi, Allah-taala cəhət və məkanda deyil. Deməli, Allah-taala gözlə görünməz.

2. Allah-taala gözlə görünərsə ya bütünlüklə görünər, ya da bir hissəsi görünər. İkinci fərziyyə absurddur. Çünki zatda tərkiblə nəticələnir. Birinci fərziyyə də əsassızdır. Çünki Allahın zatının məhdud olması ilə nəticələnir. Halbuki Allahın zatı qeyri-məhdud və sonsuzdur.

Sonda bir daha qeyd edirik ki, səlbi sifətlər saysız-hesabsızdır. Bu sifətlərin məcmusu hər növ nöqsan və məhdudluğu inkar edir. Zamanda olmamaq, ehtiyacsızlıq, təsirə məruz qalmamaq, misli və ziddi olmamaq, eləcə də onlarla digər səlbi sifətləri Allahın varlığının zəruriliyi və sifətlərinin kamil olması ilə isbat etmək olar.

**Quranda səlbi sifətlər**

Allahı hər növ nöqsan və eyibdən uzaq bilmək mənasına olan "sübhanəllah" sözü Quranda bir çox yerlərdə işlənmişdir. Bəzi ayələrdə də "quddus" sözündən istifadə edilmişdir ki, bu da Allahın sonsuz dərəcədə pak və eyiblərdən uzaq olmasına işarədir. Həşr surəsində buyurulur:

هُوَ اللَّهُ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ

"Odur Özündən başqa heç bir məbud olmayan müqəddəs (quddus) ixtiyar sahibi". (Həşr: 23)

"Quddus" sifəti təkcə Allahın zatının nöqsansız olduğunu bildirmir, əksinə geniş mənaya malikdir ki, Allahın işlərinin, yaranış aləminin və Allahın qoyduğu hökmlərin də nöqsansız olduğunu çatdırır. Bu cəhətdən kəlam elmində bəhs olunan səlbi sifətlərdən daha genişdir.

Quran Allahın zatından və feillərindən hər bir nöqsanı inkar etməklə yanaşı xüsusi səlbi sifətləri də vurğulanmışdır. Aşağıda onlara işarə edirik.

---

[65] Lahici, "Sərmayeyi iman", səh. 54.

[66] Digər təfsirlər üçün bax: "Muhaziratün fil-ilahiyyat", səh. 204-206.

**Allah-taala məkanda yerləşmir**

Quran ayələrinin bəzilərinə diqqət etdikdə Allahın məkanda yerləşməməsi aşkar şəkildə başa düşülür. Müsəlmanların qibləsi Beytül-müqəddəsdən Kəbəyə dəyişdikdən və yəhudilər etiraz etdikdən sonra aşağıdakı ayə peyğəmbərə (s) nazil oldu:

وَلِلّهِ الْمَشْرِقُ وَالْمَغْرِبُ فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ إِنَّ اللّهَ وَاسِعٌ عَلِيمٌ

"Şərq də, Qərb də Allahındır: hansı tərəfə yönəlsəniz Allah oradadır. Şübhəsiz ki, Allah genişdir, biləndir!" (Bəqərə: 115)

Ayədən belə məlum olur ki, Allah-taala heç bir məkanda yerləşmir. Şərq və qərb dedikdə, təkcə coğrafiyada bəhs olunan cəhətlər yox, bütün cəhətlər və məkanlar nəzərdə tutulur. "Hər tərəfə üz tutsanız Allah oradadır" cümləsindən məlum olur ki, Allah-taala hər yerdədir. Ümumiyyətlə, bu ayə bəyan edir ki, qiblə yalnız möminlərin namaz halında diqqətlərinin toplaması üçündür. Odur ki, namazda üzü qibləyə durmaq Allahın xüsusi məkanda yerləşməsi demək deyil. Çünki Allah-taala hər yerdədir və hər şeydən agahdır. Əlbəttə, Allahın hər yerdə olması məkanları doldurmaq mənasına deyil. Çünki O, hissələrdən tərkiblənməmişdir. Allahın hər yerdə olması məkanın fövqündə və ya məkansız olması mənasınadır. Digər tərəfdən iki cisim vahid məkanı doldura bilməz. Buna görə də, Allah-taalanın maddi varlıqlarla dolu olan maddi aləmdə olması Onun cisim olmamasına aşkar sübutdur.

Allahın Öz yaratdıqları ilə məiyyətini bəyan edən ayələr də Onun məkansız olmasına dəlalət edir.

هُوَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ يَعْلَمُ مَا يَلِجُ فِي الْأَرْضِ وَمَا يَخْرُجُ مِنْهَا وَمَا يَنزِلُ مِنَ السَّمَاء وَمَا يَعْرُجُ فِيهَا وَهُوَ مَعَكُمْ أَيْنَ مَا كُنتُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

"Göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Odur. O, yerə girəni də, (yerdən) çıxanı da, göydən enəni də, (göyə) qalxanı da bilir. Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!" (Hədid: 4)

Şübhəsiz, Allah-taalanın hər şeylə məiyyəti Onun xüsusi məkanda məhdudlaşması ilə ziddiyyət təşkil edir. Çünki xüsusi məkanda yerləşən bir varlıq bütün varlıqlarla birgə ola bilməz. Xüsusilə, burada məiyyət dedikdə, qəyyumluq əlaqəsi nəzərdə tutulur, bu da hər bir şeyi əhatə etmək mənasınadır və Onun varlığının zəruriliyindən və sonsuzluğundan qaynaqlanır.

**Allah-taala gözlə görünməz**

Allahı gözlə görməyin qeyri-mümkünlüyü haqda ən aşkar ayə bəlkə də bu ayədir:

لا تُدْرِكُهُ الأَبْصَارُ وَهُوَ يُدْرِكُ الأَبْصَارَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ

"Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir, (hər şeydən) xəbərdardır!" (Ənam: 103)

Ayədə deyilir ki, Allah-taala bütün gözləri görür və elmi ilə onlara əhatəsi var. Amma gözlər Onu görməyə qadir deyil. “Gözlər Onu görməz” cümləsində maddi göz nəzərdə tutulur, deməli nəticə alırıq ki, Allah-taala maddi gözlə görünməz. “Gözlər” sözünün cəm halında qeyd edilməsi isə buna görə ola bilər ki, hətta gözlərin çox və müxtəlif olmasına baxmayaraq, yenə də heç bir göz Allahın görməyə qadir ola bilməz. Allahın maddi gözlə görünməməsinə dəlalət edən digər bir ayə “Əraf” surəsindədir.

وَلَمَّا جَاء مُوسَى لِمِيقَاتِنَا وَكَلَّمَهُ رَبُّهُ قَالَ رَبِّ أَرِنِي أَنظُرْ إِلَيْكَ قَالَ لَن تَرَانِي وَلَكِنِ انظُرْ إِلَى الْجَبَلِ فَإِنِ اسْتَقَرَّ مَكَانَهُ فَسَوْفَ تَرَانِي فَلَمَّا تَجَلَّى رَبُّهُ لِلْجَبَلِ جَعَلَهُ دَكًّا وَخَرَّ موسَى صَعِقًا فَلَمَّا أَفَاقَ قَالَ سُبْحَانَكَ تُبْتُ إِلَيْكَ وَأَنَاْ أَوَّلُ الْمُؤْمِنِينَ

“Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. (Musa:) “Ey Rəbbim! Özünü mənə göstər, Sənə baxım!”– dedi. Allah: “Sən Məni əsla görə bilməzsən. Lakin (bu) dağa bax. Əgər o yerində dura bilsə, sən də Məni görə bilərsən”– buyurdu. Rəbbi dağa təcəlla etdikdə onu parça-parça etdi. Musa da bayılıb düşdü. Ayılandan sonra isə: “Sən paksan, müqəddəssən! (Bütün eyib və nöqsanlardan uzaqsan!) Sənə tövbə etdim. Mən iman gətirənlərin birincisiyəm!”–dedi”. (Əraf: 143)

Quranın digər ayələrini nəzərə almaqla[67] məlum olur ki, Musa (ə), həqiqətdə, bəni-İsrail qövmünün nadanlarının istəyini bəyan edirdi. Allah-taala onun cavabında təkidlə buyurdu ki, “heç bir zaman Məni görməyəcəksən”.

Qeyd etdiyimiz ayələr möhkəm ayələrdəndir. Bəzi ayələrdən isə Allahın gözlə görünməsi başa düşülür. Lakin bunlar mütəşabih ayələrdir. Beləliklə, bu mütəşabih ayələr möhkəm ayələr əsasında izah olunmalıdır.[68] Əşərilər öz iddialarını sübut etmək üçün aşağıdakı ayələrə istinad edirlər.

وُجُوهٌ يَوْمَئِذٍ نَّاضِرَةٌ إِلَى رَبِّهَا نَاظِرَةٌ

“O gün neçə-neçə üzlər sevinib güləcək, öz Rəbbinə baxacaqdır!” (“Qiyamət”: 22 və 23)

Əşərilərin cavabında deməliyik ki, “nəzər” feili “ila” ön qoşması ilə işlənərsə, “görmək” mənasından əlavə “intizar” və “gözləmə” mənasına da ola bilər. Bu surənin 25-ci ayəsindən aydın olur ki, 22-23-cü ayələrdə bir qrup insanların Allahın mərhəmətinin intizarında olacağı, 25-ci ayədə isə digər bir qrup insanların Allahın əzabının intizarında olacağı bəyan edilir. Əqli dəlilləri və möhkəm ayələri nəzərə almaqla məlum olur ki, əşərilərin istinad etdikləri ayə onların iddiasına sübut ola bilməz.[69]

---

67 “Bəqərə”: 55; “Nisa”: 153; “Əraf”: 155.

68 Əlbəttə qeyd etməliyik ki, əşərilərin istinad etdikləri ayələr mütəşabih deyil. Bu ayələrə diqqət etsək, hətta onların zahirindən də Allahın gözlə görünməsinin mümkün olması başa düşülür.

69 İmam Rza (ə) Qiyamət surəsinin 22- və 23-cü ayələri barəsində buyurur: “Onların üzləri nur saçacaq və öz Rəblərinin hədiyyəsinin intizarında olacaqlar.” Bax: “ət-Tövhid”, 8-ci bölüm, 12-ci hədis.

**Səlbi sifətlər haqda hədislər**

Səlbi sifətlər məsum imamların hədislərində geniş şəkildə bəyan edilmişdir. Burada bir neçə hədisə işarə edirik. İmam Sadiq (ə) bir hədisdə belə buyurur: "Allah-taala zamanla, məkanla, hərəkətlə, sükunətlə və yerdəyişmə ilə vəsf olunmaz. O, zamanı, məkanı, hərəkəti, sükunəti və yerdəyişməni yaradandır. Allah-taala zalımların dediyindən çox ucadır".[70]

Göründüyü kimi, imam (ə) Allahın zamansız, məkansız, hərəkətsiz və dəyişməz olmasına təkid edir. Maraqlıdır ki, imam (ə) hərəkəti inkar etməklə bərabər sükunəti də inkar edir. Bu o deməkdir ki, hərəkət sifətinin Allahdan inkar edilməsi sükunətin Ona aid edilməsi demək deyil. Çünki bu iki sifət arasında "qismən ziddiyyət" əlaqəsi vardır və əgər hər hansı bir varlıq bu iki sifətdən birilə vəsf oluna bilməzsə, digərilə də vəsf edilə bilməz.

Həzrət Əli (ə) başqa bir hədisdə bir neçə səlbi sifətləri xatırladır:

"Səmədin mənası budur ki, Onun nə ismi var, nə də cismi; nə tayı-bərabəri var, nə də oxşarı; nə forması var, nə də çöhrəsi; nə həddi var, nə də hüdudu; nə yeri var, nə də keyfiyyəti; nə buradadır, nə də orada; nə doludur, nə də boş; nə ayaq üstədir, nə də oturan halda; nə sükunətdədir, nə də hərəkətdə; nə zülmətlidir, nə də nurani; nə ruhanidir, nə də nəfsani; hər yerdədir, eyni halda heç bir məkan Onu əhatə edə bilməz; nə rəngi var, nə bir kəsin qəlbindən keçə bilər, nə də Ondan bir iy duyula bilər. Bunların hamısı Ondan inkar edilir.[71]

Bəzi səlbi sifətlər, o cümlədən cisim olmamaq və gözlə görünməmək bir çox hədislərdə vurğulanmışdır. İmam Sadiqin (ə) səhabələrindən biri Hişam ibn Həkəmin Allahın cisim olması haqda fikrini imama (ə) dedi. İmam (ə) buyurdu: "Vay olsun ona! Bilmirmi ki, cisim və forma məhdud və sonludur? Bir şeyin həddi olarsa, azala və çoxala bilər. Azala və çoxala bilən varlıq isə məxluqdur. Ravi dedi: Dedim: "Bəs nə deyim? İmam (ə) buyurdu: "O, cisim və forma deyil. O, elə bir varlıqdır ki, cismi cism və formanı forma etmişdir. O, bölünməzdir, sonu yoxdur, çoxalmaz və azalmaz. Hişamın dediyi kimi olsaydı, xaliqlə məxluq arasında heç bir fərq olmazdı. Halbuki yaradan Odur. Cisimlə onu yaradan arasında fərq var. Çünki heç bir şey Allaha oxşar deyil və Allahın da heç bir şeyə oxşarlığı yoxdur.[72]

Bu dəyərli hədisə diqqətlə nəzər saldıqda bir sıra dərin və incə məsələlər aydın olur. O cümlədən onda Allahın cisim olmasını inkar edən iki dəlilə işarə olunmuşdur. Birinci dəlil budur ki, cisim məhdud və sonludur, məhdud olan hər bir şey isə çoxalıb azala

[70] "Biharul-ənvar", c. 3, səh. 300, 1-ci hədis.

[71] Yenə orada, 3-cü cild, səh. 230, 21-ci hədis.

[72] "Ət-Tövhid", 6-cı bölüm, 7-ci hədis, Şeyx Səduq cisimliyin inkarı haqqında iyirmi hədis nəql etmişdir. Həmçinin bax: "Üsuli-kafi", tövhid kitabı, "Allahın cisim və formaya malik olmaması" mövzusu.

bilər, bu da onun məxluq olması deməkdir. Odur ki, Allahın cisim olması Onun məxluq olması ilə nəticələnir. Halbuki Allah-taala məxluq yox, xaliqdir.

İkinci dəlil isə belədir ki, Allah-taala cismi yaradandır. Əgər Allah Özü cisim olarsa, xaliqlə məxluq cisimlikdə müştərək olar. Bu müştərəklik də xaliqlik və məxluqluq fərzi ilə düz gəlmir.

Məkanın (və zamanın) inkarı haqqında da məsum imamlardan bir çox hədislər nəql olunmuşdur. İmam Kazımdan (ə) nəql olunan bir hədisdə deyilir: "Həqiqətən, Allah-taala əzəldən zamansız, məkansız olub və indi də belədir. Heç bir məkan Onsuz deyil və eyni halda heç bir məkanı tutmamış və heç bir məkanda hülul etməmişdir".[73]

İmamın (ə) "heç bir məkan Onsuz deyil" cümləsinin mənası Allahın məkanlarda yerləşməsi mənasına yox, Allahın hər şeyi əhatə etməsi və qəyyumluğu mənasınadır. Bu əsasla, bütün varlıq Allahın hüzurundadır. Hədislərdə Allahın gözlə görünə bilməməsi haqda da qiymətli məsələlər qeyd edilmişdir.[74] Bir neçə hədisə işarə edirik.

Həzrət Əli (ə) səhabələrdən birinin: "Rəbbini görmüsənmi?" sualının cavabında buyurdu: "Görmədiyimə ibadət edərəmmi?"

"Onu necə görürsən?" – deyə soruşduqda buyurdu: Gözlər əyani şəkildə Onu görməz, amma qəlblər iman həqiqətilə Onu dərk edər".[75]

İmam Əsgəri (ə) "Bir şəxs Rəbbini görmədən ona necə ibadət edə bilər?" - sualına belə cavab verir: "Ağam, Mövlam - mənə və ata-babalarıma nemət bəxş edən Allah gözlə görünə bilməkdən daha ucadır".[76]

**Onuncu fəslin xülasəsi**

1. Allahın mütləq kamilliyi hər növ nöqsan və məhdudluğun Onun zatından uzaq olması deməkdir. Beləliklə, "Allah-taala bütün kamilliklərə sahibdir" prinsipi ilə bütün səlbi sifətləri ümumi şəkildə isbat etmək olar.

2. Səlbi sifətlərdən biri cisim olmamaqdır. Allah-taala mücərrəddir, cisim deyil, maddi xüsusiyyətlərdən uzaqdır. Bu iddiaya dəlil olaraq qeyd etmək olar ki, bütün cisimlər potensial hissələrdən ibarətdir. Halbuki Allah-taala hər cür tərkibdən uzaqdır.

3. Allah-taala cəhət və məkanda yerləşmir. Çünki cəhət və məkan cismin xassələrindəndir və Allah-taala cisim deyil.

4. Allah-taala digərində hülul etməz. Çünki hülul edənin substansiyaya ehtiyacı vardır. Halbuki Allah-taala mütləq ehtiyacsızdır.

---

[73] "Ət-Tövhid", 28-ci bölüm, 12-ci hədis.

[74] "Gözlə görünmə" mövzusu haqda bax: yenə orada, 8- ci bölüm; "Üsuli-kafi", "Tövhid" bölümü, "Allahı gözlə görməyin əsassızlığı".

[75] "Nəhcül-bəlağə", 179-cu xütbə.

[76] "Ət-Tövhid", 8-ci bölüm, 2-ci hədis.

5. Başqası ilə birəşməmək də səlbi sifətlərdən biridir. Birləşmə (ittihad) öz həqiqi mənasında heç bir şeydə mümkün deyil. Məcazi mənada isə təsirlənmə, dəyişmə və tərkiblə nəticələnir. Bunların heç biri Allaha aid edilə bilməz, çünki nöqsan və ehtiyacla nəticələnir.

6. Allah-taalada hadisə baş verməz, başqa sözlə, Onda sonradan bir sifət yaranmaz. Bir mövcudda bir sifətin sonradan yaranması o deməkdir ki, o mövcudun öncədən bu sifətə malik olma potensialı olub, potensial isə maddi varlıqların xassələrindəndir.

7. Ləzzət və əzabın inkarı da səlbi sifətlərdən sayılır. Çünki maddi ləzzət və əzab maddi varlığın xüsusiyyətlərindəndir.

8. Allah-taala mücərrəd, cəhətsiz və məkansız olduğuna görə maddi gözlə görünə bilməz. Əşərilər inanırlar ki, möminlər axirətdə öz gözləri ilə Allah-taalanı görəcəklər. Amma bu əqidə əqli prinsiplərlə və Quranın bəzi ayələrinin aşkar məzmunu ilə ziddir.

9. Allahın səlbi sifətləri bir çox ayə və hədislərdə qeyd edilmişdir.

## Dördüncü bölüm
## Allahın feilləri

**Birinci fəsil**

**Yaxşı və pis anlayışlarının rasionallığı**

**Allahın feilləri bəhsinin sstrukturu**

İndiyə qədər Allahın mühüm zati və feli sifətlərini araşdırdıq. İndi isə Allahın feilləri haqqında bəhs edəcəyik.[77] Bəhsə başlamazdan öncə onun ümumi quruluşuna nəzər salmaq məqsədəuyğun olardı.

Bu mövzunu da Allahın sifətləri mövzusu kimi iki ümumi qismə bölmək olar:

1. ümumi və oxşar məsələlər;
2. hər bir feilə məxsus olan məsələ.

Birinci qisim adından göründüyü kimi, xüsusi bir feilə aid olmyıb, feillərin ümumi xüsusiyyətlərini bəyan edir. İkinci qisim isə hidayət etmə, azdırma və s. kimi ayrı-ayrı feillərin xüsusiyyətlərini açıqlayır.

Allahı tanıma mövzusunda indiyə qədər etdiyimiz bəhslərə nəzər salsaq, aydın olar ki, onlardan bir qismi Allahın feilləri mövzusuna da aiddir. Məsələn, feildə tövhid, Allahın feilləri ilə məxluqların feilərinin əlaqəsi haqda olan məsələlər Allahın feilləri mövzusunda da araşdırıla bilər. Həmçinin feli sifətlər bəhsinin də ikinci qisimlə, yəni hər bir feilə məxsus olan məsələlərlə bir növ əlaqəsi vardır. Beləliklə, Allahın feilləri mövzusunun bəzi məsələlərini keçən bəhslərdə araşdırmışıq. Bu səbəbdən, təkrara ehtiyac görmürük. Digər tərəfdən kəlam kitablarına müraciət etməklə aydın olur ki, onlarda araşdırılan məsələlər birinci qismə, yəni feillərin ümumi xüsusiyyətlərinə aiddir, hər bir feilə məxsus olan xüsusiyyətlərdən isə çox az bəhs edilmişdir. Biz də həm məsələnin bu cəhətini, həm də kitabın həcmini nəzərə alaraq Allahın feillərinin ümumi xüsusiyyətləri ilə bağlı ən əsas məsələləri araşdırmaqla kifayətlənirik.[78]

**Yaxşı və pis anlayışlarının rasionallığı**

Allahın feilləri bəhsinə giriş olaraq yaxşı və pis anlayışlarının rasionallığı mövzusu ilə başlamaq istərdik. Çünki gələcək məsəllərdə tutulan mövqe burada seçilən nəzərdən asılıdır.

Yaxşı və pis anlayışlarının rasionallığı kəlam elminin qədim və münaqişəli mövzularından biridir və kəlamçılar arasında çoxlu mübahisəyə səbəb olmuşdur. Şiə və mötəzilə kəlamçıları yaxşı və pis anlayışlarının rasionallığının tərəfdarlarıdır. Onların

[77] Qeyd etmək lazımdır ki, qədim və yeni kəlam kitablarında Allahın feilləri mövzusunu "ədalət" adı ilə bəhs edirlər. Bax: "Mənahicül-yəqin", 6-cı mənhəc; "Muhaziratun fil-ilahiyyat", 3-cü bölüm.

[78] Bəzi kəlamçılar Allahın feilləri mövzusunda ümumi məsələləri araşdırarkən fəlsəfi məsələlərə də toxunmuşlar. Geniş məlumat üçün bax: "Gövhəri-murad", səh. 277-317.

fikrincə, ağıl şəriətin köməyi olmadan müstəqil şəkildə bəzi işlərin yaxşı və ya pis olmasını dərk edə bilər və bu əsasda nəticə çıxara bilər ki, Allah-taala pis işlərdən uzaqdır. Əşərilər isə əksinə olaraq, işlərin yaxşı və ya pis olması haqda ağlın müstəqil hökmünü inkar edir, yaxşılıq və pisliyin şəri olmasına inanırlar. Onların fikrincə, Allah nəyin yaxşı olmasına hökm etsə, yaxşıdır, nəyin pis olmasına hökm etsə, pisdir və insan zəkası bu haqda heç bir nəticəyə çata bilməz. Odur ki, Allahın əmri və qadağası olmasa, işlər yaxşılıqla, yaxud pisliklə xarakterizə oluna bilməz və bu xarakterizənin zəruri və yeganə şərti Allahın əmr və qadağasıdır.

Hər bir tərəfin dəlillərini araşdırmazdan öncə bu mövzuda olan münaqişəni daha aydın başa düşmək üçün yaxşı və pis sözlərinin mənalarına nəzər salmaq məqsədəuyğun olardı.

**Yaxşı və pis sözlərinin mənaları**

Yəqin ki, bu iki sözün ümumi mənası hamı üçün aydın və aşkardır. Ən başlıcası onların işləndiyi müxtəlif mənaları nəzərdən keçirmək, yaxşı və pis anlayışlarının rasionallığı mövzusunda bu mənalardan hansının nəzərdə tutulduğunu ayırd etməkdir. Bu iki sözün işləndiyi yerlərə nəzər salmaqla onların dörd əsas mənada istifadə olunduğunu bilmək olar:

1. Bəzən bu iki söz hər hansı bir şeyin insanın ruhu üçün kamal və ya nöqsan olması mənasında işlənir. Bu mənada yaxşı və pis sözləri həm insanların ixtiyarlı işlərinə, həm də başqa şeylərə (o cümlədən ruhi keyfiyyətlərə) şamil olur. Məsələn, belə deyilir ki, "elm yaxşıdır" və ya "elmə yiyələnmək yaxşıdır". Həmçinin deyilir: "Nadanlıq pisdir" və ya "elmə yiyələnməmək pisdir". Elm və elmə yiyələnmək insanın ruhu üçün kamal, nadanlıq və elmə yiyələnməmək isə onun üçün nöqsandır. Buna görə də, şücaət, səxavət və s. kimi keyfiyyətlər yaxşı, qorxaqlıq, paxıllıq və s. kimi keyfiyyətlər isə pis hesab edilir. Bunların hamısında yaxşı və pisin meyarı bir şeyin insanın ruhu üçün kamal və ya nöqsan olmasıdır.

2. Bəzən bu sözlər bir şeyin insanın ruhu ilə uyğun olub-olmaması mənasında işlənir. Bu mənaya görə, insanın ruhu ilə uyğun olub onun ləzzət duymasuna səbəb olan şeylər yaxşı, ruhla uyğun olmayıb onun nifrətinə səbəb olan şeylər isə pis hesab edilir. Bu mənada da həm ixtiyarlı, həm də ixtiyarsız işlər yaxşılıq və pislik xüsusiyyətləri ilə xarakterizə edilə bilər. Məsələn, gözəl səs və onu eşitmək yaxşı, çirkin mənzərə və onu görmək isə pis sayılır.

3. Yaxşı və pis sözləri bəzən bir şeyin və ya bir işin insanın xeyrinə, yaxud ziyanına olması mənasında işlənir. Xeyirlər və ziyanlar da bəzən fərdi, bəzən isə ümumi xarakter daşıyır. Məsələn, yarış iştirakçılarının hər hansı birinin qələbəsi şəxsən onun xeyrinədir, amma digər iştirakçıların şəxsi mənafeyi ilə ziddir. Ədalətin cəmiyyətdə yayılması isə əksinə olaraq, hamının xeyrinədir. Hər halda, bəzən yaxşı və pis sözləri bir sıra işlərdə və ya əşyalarda olan xeyir və ziyan mənasına istifadə edilir. Məsələn, belə deyilir ki, xəstə

üçün acı dərmanı içmək yaxşıdır, çünki onun üçün xeyirlidir və onun sağlamlığını təmin edir.[79]

4. Yaxşı və pis sözləri sonuncu mənada insanın ixtiyarlı işlərinin layiqli və ya nalayiq olmasını bildirir. Ağıl (və ya aqillər)[80] hər hansı bir işin yerinə yetirilməsini layiqli hesab hesab edib bəyənərsə, yaxşı işdir, əksinə, bir işin yerinə yetirilməsini nalayiq bilib onu pisləyərlərsə, pis işdir. Bu səbəbdən "ədalət yaxşıdır" və "zülm pisdir" cümlələrinin mənası budur ki, ağıl ədalətin icra edilməsini layiqli bilir və adil şəxsi təqdir edir. Zülmü isə əksinə olaraq, nalayiq iş hesab edir və zalımı qınayır. Qeyd etməliyik ki, ağıl dedikdə, "əməli ağıl" (praktik zəka) nəzərdə tutulur ki, onun idrak obyekti insanın ixtiyarlı işlərinin layiqli və ya nalayiq olması cəhətidir.[81]

Bu dörd mənaya diqqət etməklə onların fərqini başa düşmək olar. Məsələn, dördüncü məna digər üç mənadan fərqli olaraq, ruhi keyfiyyətlərə və xarici əşyalara yox, yalnız əməllərə aiddir. Digər üç məna yalnız insana aid olan məsələlərə şamil olur. Çünki bunlarda insan ruhunun kamilliyi və naqisliyi, insanın ruhu ilə uyğunluq və uyğunsuzluq, insanların fərdi və ya ümumi xeyri və ziyanı nəzərdə tutulur. Dördüncü məna isə əksinə olaraq, həm insanın, həm də başqa varlıqların, hətta Allahın da işlərinə şamil olur.

**Ədlilərlə (şiələr və mötəzililər) əşərilərin ixtilafı nədədir?**

Hazırkı məsələ bundan ibarətdir ki, ədlilərlə əşərilərin ixtilafı bu dörd mənadan hansında özünü göstərir.

Yaxşı və pis sözlərinin mənalarına, eləcə də bu mövzuda olan münaqişənin məzmununa diqqət etməklə sonra məlum olur ki, ixtilaf dördüncü mənaya aiddir. Digər üç məna ontoloji məsələ olduğu üçün inkaredilməzdır. Yəni insan ruhunun xilqəti belədir ki, kamil və naqis ola bilər, bəzi şeylər onunla uyğundur və ya uyğun deyil, bir sıra şeylər onun xeyrinə və ya ziyanınadır. Odur ki, bu bəhsdə əsas məsələ bundan ibarətdir ki, görəsən ağıl şəriətə ehtiyacı olmadan, müstəqil formada və yalnız işlərin özünü nəzərə almaqla (yəni işin əmr edilməsi və ya qadağan edilməsi kimi məsələləri nəzərə almamaq şərtilə) onları yerinə yetirməyin layiqli və ya nalayiq olması haqqında hökm edə bilərmi? Eləcə də onları yerinə yetirəni təqdir edə və ya qınaya bilərmi?

---

[79] Bəzilərinin fikrincə, üçüncü məna nəticə etibarilə ikinci mənadan fərqlənmir. Çünki bir şeyin xeyri və ziyanı o şeyin ruhla uyğun olub-olmamasından qaynaqlanır. Geniş məlumat üçün bax: Müzəffər, "Üsuli-fiqh", 1-ci cild, səh. 201 və 202. "Mühaziratun fil-ilahiyyat"la müqayisə edin, səh. 220.

[80] Yaxşı və pis anlayışlarının rasionallığının dəlili haqda alimlər arasında fikir ayrılığı vardır. Bəzilərinin fikrincə, yaxşı və pis işlərə görə təqdir və məzəmmət edən ağıl, bəzilərinin fikrincə isə, aqillərdir. "Ağıl (və ya aqillər)" ifadəsini işlətməyimizin səbəbi budur.

[81] Nəzəri və əməli zəkanın fərqi barəsində fikir ayrığı vardır. Yuxarıda qeyd etdiyimiz məşhur fikrə əsaslanır. Bu fikrə əsasən, nəzəri və əməli ağıl bir-birinə zidd qüvvələr deyil. Həqiqətdə vahid ağlın iki cəhətidir və yalnız idrak obyekti baxımından bir-birindən fərqlənirlər.

Həmçinin Allahın mükafat və ya əzabına layiq görə bilərmi? Bu sualların cavabları müsbət olan təqdirdə digər bir sual qarşıya çıxır və o da budur ki, ağlın hökmü təkcə insanların əməllərinə aiddir, yoxsa Allahın feillərinə də şamil olur?

Qeyd olunan bütün suallara ədlilərin cavabı müsbətdir. Müxaliflərdən bir qismi bütün suallara mənfi cavab verir. Digər bir qismi isə yalnız sonuncu sualı mənfi cavablandırırlar.[82] Beləliklə, yaxşı və pis anlayışlarının rasionallığı nəzəriyyəsinin əsası bundan ibarətdir ki, insanın ağlı bəzi əməllərin yaxşı və pis olduğunu dərk edə bilər və bu dərk əsasında hökm edə bilər ki, pis işlər Allahdan baş verə bilməz. Münaqişənin mahiyyəti aydın olduqdan sonra hər iki tərəfin dəlillərini qeyd edirik:

**Yaxşı və pis anlayışlarının rasionallığının dəlili**

Yaxşı və pis anlayışlarının rasionallığının tərəfdarları müxtəlif dəlillərlə öz iddialarını sübut edirlər. Bu dəlillərin bəzisi bir qədər mürəkkəb olduğundan nisbətən sadə olan bir dəlilə işarə etməklə kifayətlənirik:

Bütün insanlar dini təlimləri nəzərə almadan bəzi işlərin yaxşı və ya pis olmasına, məsələn, ədalət və düz danışmağın yaxşı olmasını, eləcə də zülm və yalanın pis olmasını etiraf edirlər. Bu məsələdə səmavi dinlərin ardıcılları ilə başqaları arasında heç bir fərq yoxdur. Deməli, məlum olur ki, bu işlərin yaxşı və ya pis olması şəriətə əsaslanmır, əksinə bunu dərk edən ağıldır, ağıl da bütün insanlar - istər şəriətə tabe olanlar, istərsə də onu inkar edənlər arasında müştərəkdir.

Bu dəlilin təsdiqində demək olar ki, heç bir şəriətə bağlı olmayan bir şəxsi düz danışmaqla yalan arasında azad qoysaq və xaricdən onu hər hansı bir tərəfə yönəldən heç bir amil olmasa, şübhəsiz, düz danışmağı seçəcəkdir. Onun bu seçiminə səbəb olan yeganə amil doğruluğun yaxşı və yalanın pis olmasına ağlın hökmü ola bilər.

**Yaxşı və pisin əqli olmamasına əşərilərin dəlilləri**

Əşərilər də öz iddialarının isbatı üçün bir neçə dəlilə istinad edirlər. Nümunə olaraq iki dəlilə işarə edirik:

1. Ağıl müstəqil şəkildə əməllərin yaxşı və pis olmasını dərk edə bilməz. Çünki əgər ağıl yaxşılıq və pisliyi dərk edərsə, üçüncünü istisna qanunu ilə düz danışmağın yaxşı olması arasında heç bir fərq olmamalıdır. Belə ki, ağıl bu iki hökmü eyni səviyyədə açıq-aşkar dərk etməlidir. Halbuki, onların arasındakı fərq inkaredilməzdir.

Bu dəlili belə cavablandırmaq olar ki, düz danışmağın yaxşı olması və bu qəbildən olan digər hökmlər yaxşı və pis anlayışlarının rasionallığının tərəfdarlarının nəzərində aksiom olsa da, unutmaq olmaz ki, aksiomlar hamısı eyni dərəcədə deyildir. Ağıl

[82] Fəxrəddin Razi yaxşı və pis anlayışlarının rasionallığını qəbul edir, lakin bu məsələni Allahın feilləri ilə əlaqələndirməyi düzgün hesab etmir. O, yaxşılıq və pislik mövzusundan bəhs edərkən belə deyir: "Bizim fikrimizcə, yaxşı və pis anlayışlarının rasionallığı bəndələr haqqında düzdür, lakin Allah haqqında absurddur." Bax: "əl-Mətalibül-aliyə fil-elmil-ilahi, 3-cü cild, səh. 289-304.

onlardan bir qismini digər bir qisimlə müqayisədə daha aşkar və aydın dərk edir. Məsələn, təcrübi və fitri hökmlərlə müqayisədə ilkin prinsiplər daha aşkar və aydın dərk edilir. Bu səbəbdən, üçüncünü istisna qanununun digər bir hökmlə müqayisədə daha aşkar dərk olunması o hökmün aksiom olmamasına və ya ağılla dərk edilməməsinə sübut ola bilməz.

2. Yaxşılıq və pislik ağılla dərk olunarsa, bu halda qətiyyən yaxşı iş pis və pis iş yaxşı ola bilməz. Halbuki bəzən bu cür dəyişikliklərlə rastlaşırıq. Məsələn, yalan pis işlərdən sayılır. Amma bu iş peyğəmbəri xilas etmək üçün bəyənilir və yaxşı hesab edilir. Həmçinin düz danışmaq peyğəmbərin həlak olmasına səbəb olarsa, pis iş sayılır.

Bu dəlili belə cavablandırmaq olar ki, düz danışmağın yaxşı və yalanın pis olması heç zaman dəyişmir. Lakin yalan danışmaqla müqayisədə peyğəmbəri xilas etməmək daha pis olduğu üçün ağıl hökm edir ki, qəbahəti az olan işi (yalanı) qəbahəti çox olan işdən (peyğəmbəri xilas etməmək) üstün tutaq, elə bu bu seçim də öz növbəsində yaxşılığın əqli olmasının bir nümunəsidir.[83]

**Yaxşı və pis anlayışlarının rasionallığının nəticələri**

Qeyd etdik ki, şiə və mötəzilə kəlamçıları yaxşı və pis anlayışlarının rasionallığını müdafiə edirlər, əşərilər isə bu nəzəriyyə ilə müxalifdirlər. Yaxşı və pis anlayışlarının rasionallığına etiqadın kəlam elmində bir sıra mühüm nəticələri vardır və bu nəzəriyyənin tərəfdarları bir çox prinsipləri ona əsaslandırırlar. O cümlədən, Allahı tanımağın zəruriliyi, Allahın hikməti və ədaləti, lütf qanunu, insanlara vəzifə təyin etməyin yaxşılığı, insana bacardığından artıq vəzifə təyin etmək, elan edilməyən vəzifəyə görə cəza verməyin pisliyi və s.[84]

**Yaxşı və pis anlayışlarının rasionallığı Quran və hədislərdə**

Bəzi ayələrə diqqət etməklə yaxşı və pis anlayışlarının rasionallığını nəticə almaq olar. Məsələn, aşağıdakı ayələri nəzərdən keçirək:

إِنَّ اللّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالإِحْسَانِ وَإِيتَاء ذِي الْقُرْبَى وَيَنْهَى عَنِ الْفَحْشَاء وَالْمُنكَرِ وَالْبَغْيِ يَعِظُكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ

"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi əmr edir, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. (Allah) sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir". ("Nəhl": 90)

يَأْمُرُهُم بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ

"Onları yaxşılığa çağırır və pislikdən çəkindirir". ("Əraf": 157)

قُلْ إِنَّمَا حَرَّمَ رَبِّيَ الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ وَالإِثْمَ وَالْبَغْيَ بِغَيْرِ الْحَقِّ

[83] Hər iki tərəfin dəlilləri haqda geniş məlumat üçün bax: Sübhani, "Husn və qubhe əqli və ya payehayi əxlaqi cavidan", 9-cü fəsil, səh. 11-67.

[84] Yaxşı və pis anlayışlarının rasionallığının nəticələrini araşdırmaq bu ktabın həcmi ilə uyğun deyil. Geniş məlumat üçün bax: Yenə orada, 11-ci fəsil, səh. 111-112.

"De ki, Rəbbim yalnız çirkinlikləri (istər aşkar, istərsə də gizli), günahı və zülmü haram etmişdir". ("Əraf": 33)

Qeyd olunan ayələrdən belə məlum olur ki, insanların təfəkküründə bəzi işlər "ədalət" və "yaxşılıq", bəzi işlər isə "zülm" və "çirkinlik" kimi tanınmışdır və bu idrak Allahın əmr və qadağasından müstəqildir. Başqa sözlə desək, bu ayələr belə bir postulata əsaslanır ki, bir sıra işlərin gözəlliyi və çirkinliyi öncədən insanlar üçün aydındır və buna əsasən də buyurulur ki, Allah-taala insan ağlının yaxşı hesab etdiyi işlərə (məs., ədalətə) əmr edir, pis və nalayiq bildiyi işlərdən (məs., zülmdən) çəkindirir.

Bundan əlavə, bəzi ayələrdə də müşahidə edirik ki, Allah-taala insanların ağlını və vicdanını yaxşı əməlləri və Allahın adilanə hökmlərini təsdiq etmək üçün mühakimə etməyə çağırır:

هَلْ جَزَاء الْإِحْسَانِ إِلَّا الْإِحْسَانُ

"Yaxşılığın mükafatı yaxşılıqdan başqa bir şey ola bilərmi". (ər-Rəhman": 60)

أَمْ نَجْعَلُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ كَالْمُفْسِدِينَ فِي الْأَرْضِ أَمْ نَجْعَلُ الْمُتَّقِينَ كَالْفُجَّارِ

"Yoxsa Biz iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərlə eyni tutacağıq?! Yaxud Allahdan qorxub pis əməllərdən çəkinənləri günahkarlara tay edəcəyik?!" ("Sad": 28)

**Terminlər**

Yaxşı və pis anlayışlarının rasionallığı

**Birinci fəslin xülasəsi**

1. Allahın feilləri mövzusuna aid olan məsələləri iki qismə bölmək olar: a) ümumi məsələlər; b) hər bir felə məxsus olan məsəllər. Ümumi məsələlərin bir qismi "feli sifətlər" və "feldə tövhid" mövzusunda araşdırıldı.

2. Yaxşı və pis anlayışlarının rasionallığı o məsələlərdəndir ki, Allahın feilləri mövzusunda olan ümumi məsələlərin bir çoxu, o cümlədən Allahın hikməti və ədaləti, cəbr və ixtiyar və s. bu məsələyə əsaslanır. Buna görə də, islam kəlamçıları Allahın feilləri mövzusuna giriş olaraq bu məsələdən başlayırlar.

3. Yaxşı və pis sözlərinin mənası aydın olsa da, bu sözlər müxtəlif mənalarda işlənir:

Bu sözlər bəzən bir şeyin insanın ruhu üçün kamillik və naqislik olması və ya insan ruhuna uyğun olub-olmaması mənasını ifadə edir. Bəzən də hər hansı bir şeydə və ya işdə olan xeyir və ya ziyana görə onu yaxşı və pis adlandırırlar. Amma yaxşı və pis anlayışlarının rasionallığı məsələsində bunlardan başqa məna nəzərdə tutulur.

4. Yaxşı və pis anlayışlarının rasionallığının tərəfdarlarının inanırlar ki, hər bir insanın praktik şüuru (əməli ağlı) müstəqil şəkildə və şəriətə ehtiyacı olmadan bəzi əməllərin yaxşı və ya pis olmasını dərk edir, onları yerinə yetirənləri təqdir edir və ya

qınayır. Həmçinin ağıl yaxşılıq və pislik məsələsində dərk etdiklərini Allahın feillərinə də aid edib Onu nalayiq işlərdən uzaq bilə bilər.

5. "Ədlilər" adı ilə tanınan şiə və mötəzilə kəlamçıları yaxşı və pis anlayışlarının rasionallığının tərəfdarlarıdır. Əşərilər isə əksinə olaraq bu nəzəriyyə ilə müxalifdirlər. Əşərilərin fikrincə, əməllərin yaxşı və pis olması Allahın hökmünə tabedir və bu barədə ağlın hökmü mötəbər sayıla bilməz.

6. Yaxşı və pis anlayışlarının rasionallığının dəlillərdən biri budur ki, insanlar dini mənsubiyyətlərindən və inanclarından asılı olmayaraq, bəzi işləri (məs., ədaləti) yaxşı, bəzi işləri (məs., zülmü) isə pis bilirlər. Bu məsələdə səmavi dinlərin ardıcılları ilə başqaları arasında heç bir fərq yoxdur. İnsanlar arasında olan bu oxşarlıq ağlın müstəqil şəkildə bəzi işlərin yaxşı və bəzi işlərin pis olmasına hökm etməsinə sübutdur.

7. Yaxşı və pis anlayışlarının rasionallığının bir çox nəticələri vardır, o cümlədən Allahın hikmət və ədaləti, cəbr və ixtiyar, vəzifə, lütf qanunu və s. məsələləri misal göstərmək olar.

8. Bəzi ayələr və hədislər də yaxşı və pis anlayışlarının rasionallığını təsdiq edir.

**İkinci fəsil**

**Allahın hikməti (feillərinin məqsədyönlü olması)**

**Giriş**

Allahın feilləri ilə bağlı ümumi məsələlərdən biri budur ki, Allahın işlərində hər hansı bir hədəf vardır, yoxsa heç bir hədəf olmadan baş verir? Bu məsələ "Allahın hikməti" bəhsi ilə sıx bağlıdır. Çünki hikmətin mənalarından biri iş görənin əbəs işlərdən uzaq olması və öz işlərini məntiqi hədəflər əsasında görməsidir. Odur ki, hazırki məsələ Allahın hikmətinin isbat və inkarına bağlıdır.[85]

Yuxarıdakı sualın cavabında ədlilərlə (şiə və mötəzilə) əşərilər arasında fikir ayrılığı vardır. Ədlilərin fikrincə, Allahın işləri hədəf əsasındadır, əşərilər isə Allahın işlərini hədəfsiz hesab edirlər.

Hər iki tərəfin dəlillərinə işarə etməzdən öncə ədlilərnin bu haqda olan nəzərini bəyan etmək məqsədəuyğun olardı.

**İş görənin hədəfi və işin hədəfi**

Biz insanlar ixtiyarlı və hədəfli işlər görərkən hər şeydən öncə bir hədəfi nəzərdə tuturuq ki, onun vasitəsilə bir çox ehtiyaclarımızı aradan qaldıraq. İşi yerinə yetirməzdən öncə hədəf haqqında zehnimizdə yaranan anlayış bizi o işə addım atmağa, bununla da hər hansı bir mənfəətə çatmağa sövq edir. Beləliklə, bizim işlərimiz, ən azı, iki xüsusiyyətə malikdir:

1. İşin hədəfi insanların ehtiyaclarının aradan qaldırılması və onların kamilləşməsi üçündür.

2. İşi yerinə yetirməzdən öncə hədəf haqqında insanların zehində yaranan anlayış onları o işi yerinə yetirməyə sövq edir.[86]

Diqqət etmək lazımdır ki, "Allahın işlərində hədəf vardır" dedikdə, Onun işlərinin insanların işlərinə bənzəməsi nəzərdə tutulmur. Daha dəqiq desək, qeyd etdiyimiz iki xüsusiyyət qətiyyən Allahın işlərində ola bilməz, çünki, Allahın işlərinin hədəfi kamilliyə çatmaq deyil. O, mütləq şəkildə kamildir və heç bir qüsuru yoxdur ki, bir iş görməklə onu aradan qaldırmaq istəsin. Əksinə, Allahın feillərinin hədəfi məxluqların kamilləşməsi üçündür. Digər tərəfdən, Allahın bir işi görməsinə səbəb hədəf haqqında

---

[85] Buna görə də, bəzi kəlamçılar bu mövzunu "Allahın hikməti" adı ilə bəhs edirlər. Bax: "Sərmayeyi iman", səh. 73.

[86] Filosoflar, hər hansı bir işi yerinə yetirməzdən öncə onun nəticəsi haqqında olan təsəvvürü hər bir hadisənin baş verməsinin dörd səbəbindən biri bilir və onu məqsəd adlandırırlar. Geniş məlumat üçün bax: Misbah Yəzdi, "Amuzeşi-fəlsəfə, 2-ci cild, səh. 106-108; Əllamə Təbatəbai, "Nihayətul-hikmət, səh. 160-161.

anlayış deyil. Çünki Allahın elmi vasitəli elm deyildir ki, anlayış təsəvvür etməyə bağlı olsun. Əksinə, Allahın zatı mütləq kamil olduğu üçün yaratdıqlarını lazımi kamilliyə çatdırmaq istəyir.

Beləliklə, Allahın işlərinin hədəfli olması bu mənayadır ki, Onun işlərində məxluqlar üçün xeyirlər vardır və o işlərin yerinə yetirilib-yetirilməməsi, şübhəsiz ki, məxluqların mənfəəti baxımından eyni deyildir. Odur ki, Allahın işlərinin hədəfi dedikdə, Allahın Özünün deyil, Onun işlərinin hədəfi nəzərdə tutulur. Çünki Allahın zatı kamil və qənidir və heç bir hədəf onun üçün təsəvvür oluna bilməz.[87]

İndi isə hər iki tərəfin dəlillərini araşdıraq:

**Allahın hikmətinə (feillərinin hədəfli olmasına) dəlil**

Allahın feillərinin hədəfli olmasının müxtəlif dəlilləri vardır. Onlardan yalnız birinə işarə edirik:

Hədəfsiz iş əbəsdir və ağıl əbəs işi yerinə yetirməyi qəbahətli hesab edir. Yaxşı və pis anlayışlarının rasionallığı qanununa görə Allah-taala qəbahətli iş görmədiyi üçün Onun işləri bihudə və əbəs ola bilməz. Nəticədə, Allahın bütün feilləri hədəfli və məqsədyönlüdür.

Gördüyünüz kimi bu dəlil yaxşı və pis anlayışlarının rasionallığı qanununa əsaslanır. Yəni buna əsaslanır ki, ağıl əbəs işin pisliyini dərk edə bilir və Allahın pis işlərdən uzaq olmasını nəticə alır.

**Allahın feillərinin hədəfsiz olmasına əşərilərin dəlilləri**

Əşərilər də öz iddialarını isbat etmək üçün müxtəlif dəlillər qeyd etmişlər. Onlardan biri budur:

Hər hansı bir işi nəzərdə tutulmuş hədəf üçün yerinə yetirmək o deməkdir ki, iş görən üçün hədəfə çatmaq çatmamaqdan yaxşıdır. Daha dəqiq desək, hədəfin hasil olması iş görən üçün kamillik sayılır, beləliklə, şəxs işi yerinə yetirməklə hansısa kamilliyə nail olur. Bu səbəbdən, Allahın feillərinin hədəfli olması o deməkdir ki, Allah-taala Öz feili vasitəsilə kamilləşir və bu da Onun allahlıq məqamı ilə ziddir.

Allahın feillərinin hədəfi haqda verdiyimiz izahdan bu dəlilin cavabı aydın olur. Çünki qeyd etdiyimiz kimi, Allahın işlərinin hədəfi Allahın Özünün yox, Onun işinin hədəfidir və məxluqların kamilliyinə səbəb olur. Əşərilərin səhvi budur ki, işin hədəfini onu yerinə yetirəndən başqasına aid edə bilmir və elə güman edirlər ki, hər hansı bir işin hədəfi o işi görənə aiddir və iş görən ondan bəhrələnməlidir.

---

[87] İslam fəlsəfəsində Allahın feilləri haqqında dəqiq bəhslər olunmuşdur. Maraqlananlar fəlsəfə kitablarına müraciət edə bilərlər.

Beləliklə aydın olur ki, Allahın feilləri bihudə deyil, əksinə hikmətli hədəf və məqsəd əsasında baş verir ki, bütün bunlar məxluqların ehtiyaclarının aradan qaldırılması və onların kamilliyə çatması üçündür.

**Allahın hikməti Quran və hədislərdə**

Qurani-kərim bir çox ayələrdə Allahın feillərinin bihudə deyil, hikmət əsasında olmasını təkidlə vurğulamışdır. Aşağıdakı ayələrə diqqət edək:

أَفَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَأَنَّكُمْ إِلَيْنَا لَا تُرْجَعُونَ

"Sanırsınız ki, sizi boş yerə yaratmışıq və siz bizə tərəf qaytarılmayacaqsınız?!" ("Muminun": 115)

Bu ayədə insanların yaranışı Allahın feillərindən biri kimi göstərilir və bəyan olunur ki, bu iş boş yerə deyil, hikmətli hədəf əsasındadır. Bəlkə də ayənin son hissəsi bu hədəfə işarə edib bəyan edir ki, insanların yaranışının hədəfi onların dünya həyatında öz səadətləri üçün çalışıb axirətdə öz əməllərinin nəticəsindən bəhrələnmələridir.

Digər bir ayədə də göylərin, yerin və onların arasında olan varlıqların hikmətlə yaranışından söhbət açır:

وَمَا خَلَقْنَا السَّمَاءَ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا بَاطِلًا

"Biz göyləri, yeri və onların arasındakıları əbəs yaratmamışıq".[88]

Hədislərdə də Allahın feillərinin hədəfli olmasına və bu hədəfin məxluqlara aid edilməsinə işarə edilmişdir. İmam Rzadan (ə) nəql olunan bir hədisdə belə deyilir: Əgər bir kəs: "Hikmətli Allah səbəbsiz olaraq bəndəsinə hər hansı bir işi yerinə yetirməyi əmr edə bilərmi?" – deyə soruşsa, cavabında deyərik: Bu mümkün deyil, çünki O, hikmətlidir, bihudə və cahilcəsinə iş görməz.[89]

İmam Sadiq (ə) "Nə üçün Allah bəndələri yaratdı?" sualının cavabında buyurdu: "Allah-taala yaratdıqlarını bihudə və boş yerə yaratmadı və onları öz başına buraxmadı. Yaratdı ki, Öz qüdrətini onlara göstərsin, Özünə itaət etməyi onlara vacib etsin və onlar da itaət edib Allahın razılığını qazansınlar. Onları yaratmadı ki, Özü bəhrələnsin və ya onların vasitəsilə hər hansı bir ziyanı Özündən dəf etsin. Yaratdı ki, onlara mənfəət çatdırsın və əbədi nemət əta etsin".[90]

**Allahın hikməti və şər**

Məlum oldu ki, Allahın bütün işləri hikmət və hədəf əsasındadır və şübhəsiz, bu hədəf məxluqların mənfəəti üçündür. Digər tərəfdən dünyada şər deyilən bir sıra işlərin olması inkaredilməz reallıqdır. Təbii hadisələrdən qaynaqlanan bəlalar və müsibətlər, o

---

88 Yenə orada, "Sad": 27.

89 "Biharul-ənvar", c. 6-cı cild, səh. 58.

90 Yenə orada, 5-ci cild, səh. 313.

cümlədən sel, tufan, zəlzələ, xəstəliklər, əzab, əziyyət, ölüm, müxtəlif çətinliklər və s. şər deyilən böyük bir məcmunu yaradır ki, hər bir insan az-çox onlarla qarşılaşır.

İlk baxışda belə güman oluna bilər ki, bu işlər Allahın hikməti və insan yaranışının hədəfi ilə uğun deyil. Çünki Allahın insanları yaratmaqdan hədəfi onların mənfəətlərini təmin etməkdir, halbuki qeyd olunan məsələlər insanların xeyrinə yox, ziyanınadır, buna görə də bəşərin yaranışının hədəfi ilə ziddir. Yaranışın hədəfi məxluqlara mənfəət çatdırmaqdırsa, bəs nə üçün Allah-taala insanlara ziyanlı olan şeyləri yaratmışdır? Başqa sözlə desək, güman oluna bilər ki, Allah-taala şəri yaratmaqla və ona mane olmamaqla hədəfinin əksinə iş görmüşdür. Hədəfin əksinə iş görmək isə Onun hikmətli olması ilə ziddir.[91]

Yuxarıdakı iradı cavablandırmaq üçün qeyd etməliyik ki, dünyada bəla, müsibət, dərd, ağrı, çətinlik və bu kimi məsələlərin olmasının müəyyən hikməti vardır. Bu işlər fərdlərin və ya bütövlükdə bəşəriyyətin həqiqi mənafeyini təmin edir. Bu səbəbdən, onları bihudə və ya yaranışın hədəfinə zidd hesab edə bilmərik. Şərlərin ən mühüm faydalarına işarə etməzdən öncə düzgün nəticə almaq üçün lazım olan bir neçə qanunu əziz oxucuların diqqətinə çatdırmaq istərdik:

**1. İnsanın biliyinin məhdudluğu**

Şübhəsiz, insanın bildikləri bilmədikləri ilə müqayisədə sonsuz dəryanın yanında bir damlaya bənzəyir. Təkcə xarici aləmdə deyil, hətta insanın vücudunda da bir çox məchul sirlər vardır ki, indiyə qədər bəşər zəkası ona nail olmamışdır. Bu səbəbdən, böyük alimlər illərlə araşdırmalardan sonra heç bir şey bilmədiklərini etiraf etmişdirlər. Quran da bu həqiqəti təsdiq edir:

وَمَا أُوتِيتُم مِّن الْعِلْمِ إِلاَّ قَلِيلاً

"Sizə yalnız cüzi elm verilmişdir". ("İsra": 85)

Bəşərin elmi məhdud olduğu üçün şər adlandırdığımız hadisələrin sirlərdən xəbərdar olduğumuzu iddia edə bilmərik. Bəlkə də bu məsələlərdə bizim xəbərimiz olmayan bir çox xeyirlər və mənfəətlər vardır. Aydındır ki, bir şeydən xəbərsiz olmaq o şeyin olmamasına qəti sübut deyil. Bu səbəbdən, ağıl hökm edir ki, şərin hikmətsiz olması haqda mühakimə yürüdərkən ehtiyatlı olaq. Çünki ola bilər ki, həqiqətdə xeyir olanı şər güman edək. Necə ki, Quran buyurur:

وَعَسَى أَن تَكْرَهُواْ شَيْئًا وَهُوَ خَيْرٌ لَّكُمْ

"Və ola bilsin ki, bir şey xoşunuza gəlməyə, ancaq onda sizin xeyriniz ola".[92] ("Bəqərə": 216)

---

[91] Şər məsələsi digər cəhətdən də sual doğurur. O da şərin Allahın ədaləti ilə uyğunluğu məsələsidir. Allahın ədaləti mövzusunda bu məsələni araşdıracağıq.

[92] Həzrət Musa (ə) ilə səfər yoldaşının, eləcə də Qarunun Quranda gələn əhvalatları xeyir və şər haqqında səhv fikir yürütməyin aşkar nümunəsi sayıla bilər. "Kəhf": 65-82; Qəsəs: 78-82.

**2. İnsanın xilqətinin son hədəfi**

Digər bir qanun da bundan ibarətdir ki, yaranışının son hədəfi dünyada rahatlıq və maddi nemətlərdən bəhrələnmək yox, həqiqi səadətə nail olmaqdır və bu da Allaha ibadət edib Ona yaxınlaşmaqla hasil ola bilər.[93] Bu səbəbdən, hər hansı bir hadisənin bir şəxsin rahatlığı və maddi rifahı ilə zidd olması insanın yaranışının hədəfi ilə zidd olması deyil. Çünki ola bilər ki, insanın səadəti çətinliklərə dözməkdə olsun.

Hər halda, insanın xilqətinin həqiqi hədəfini nəzərə almaq şərin Allahın hikməti ilə əlaqəsini izah etməkdə əhəmiyyətli rol oynayır.

**3. Cəmiyyətin mənafeyinin fərdin mənafeyindən öndə olması**

Bildiyimiz kimi, maddi aləm mənafelərin toqquşduğu bir yerdir. Bəzən fərdin mənafeyi cəmiyyətin mənafeyi ilə qarşı-qarşıya durur və onlardan birini seçmək lazım gəlir. Bu yerlərdə ağıl hökm edir ki, cəmiyyətin mənafeyi fərdin mənafeyindən irəli keçsin. Bu səbəbdən, fərdin mənafeyinə zidd olub cəmiyyətin mənafeyini təmin edən hadisələri hikmətsiz adlandırmaq olmaz. Bu bir reallıqdır ki, çox zaman mühakimə yürüdərkən hər hansı bir məsələnin ancaq kiçik bir cəhətinə nəzər salırıq. Halbuki, daha geniş miqyasda baxsaq, şər adlandırdığımız bir çox işlərin bəşəriyyətin mənafeyi baxımından və zamanca, məkanca daha geniş arenada bir sıra hikmətli hədəfləri izlədiyini görərik. Əlbəttə, Allahın ədaləti bəhsində qeyd edəcəyik ki, cəmiyyətin mənafeyi ilə toqquşduğuna görə təmin olunmayan fərdi mənafelərin əvəzi ödənir.

4. Şərlərin yaranmasında insanın rolu

Diqqət edilməsi lazım olan digər bir məsələ budur ki, bəzi şərlərin baş verməsində insanların əməllərinin təsiri vardır. İnsan azad bir varlıq olduğuna görə bəzən özü və başqaları üçün şər yaradır, amma gördüyü işlə onun nəticəsi arasındakı əlaqədən xəbərdar olmadığına görə gördüyü işin xoşagəlməz nəticəsini Allahın hikmətinə (ədalət və mərhəmətinə) etiraz etmək üçün bəhanəyə çevirir.

Quran bir çox ayələrdə insan əməllərinin xoşagəlməz hadisələrin vaş verməsində təsirindən söz açmışdır. Nisa surəsində belə oxuyuruq:

ظَهَرَ الْفَسَادُ فِي الْبَرِّ وَالْبَحْرِ بِمَا كَسَبَتْ أَيْدِي النَّاسِ

"İnsanların öz əlləri ilə etdikləri (pis əməllər) üzündən quruda və suda fəsad (pozuntu) əmələ gələr". (Rum: 41)

Digər bir ayədə bütün müsibətlər və bəlaları insan əməllərinin nəticəsi bilir:

وَمَا أَصَابَكُم مِّن مُّصِيبَةٍ فَبِمَا كَسَبَتْ أَيْدِيكُمْ وَيَعْفُو عَن كَثِيرٍ

"Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların ucbatındandır! Halbuki Allah günahların çoxunu bağışlayır". (Şura: 30)[94]

---

[93] Quran, insan xilqətinin hədəfi haqqında buyurur: "Cinləri və insanları yalnız ona görə yaratdım ki, Mənə ibadət etsinlər." ("Zariyat": 56)

[94] Bax: "Rəd": 11; "Ənfal": 53.

Hər halda, insan müəyyən hədəf üçün yaranmışdır və bu hədəfə nail olmaq üçün ona ixtiyar verilmişdir. Səbəbiyyət qanununa görə də insanın bəzi ixtiyarlı əməlləri bir sıra bəlaların və müsibətlərin meydana gəlməsilə nəticələnir. Amma bütövlükdə nəzərə alsaq, xüsusilə bəlaların müsbət cəhətlərinə nəzər salsaq görərik ki, Allahın hikmətindən xaric deyil.

Qeyd olunan prinsiplər əsasında şərin insanın fərdi və ictimai həyatındakı bəzi müsbət nəticələrini nəzərdən keçirəcəyik ki, onların Allahın hikməti ilə heç bir ziddiyyət təşkil etmədiyi aydın olsun. Amma bəhsimizi davam etməzdən öncə iki məsələni xatırlatmaq istərdim:

1. Biz bu iddiada deyilik ki, şərin bütün faydalarını göstərəcəyik (xüsusilə insan elminin məhdudluğunu nəzərə alsaq). Əksinə yaxşı bilirik ki, başqa bir çox sirlər vardır ki, daha dərin düşünməklə tədricən onlara çatmaq olar.

2. Mümkündür ki, şər üçün qeyd edəcəyimiz faydaların hər biri qarşılaşdığımız bütün şərlərdə olmasın. Lakin bu istədiyimiz nəticəyə ziyan yetirmir. Çünki hər bir şərdə faydalardan biri də olsa, tənqidləri cavablandırmaq üçün kifayətdir.

**Şərin fəlsəfəsi**

**1. İstedadların çiçəklənməsi**

İnsanın xilqəti və təbiət aləminin ümumi vəziyyəti elədir ki, onun maddi, mənəvi istedadları çətinliklər və problemlər sayəsində çiçəklənir və tərəqqi edir. Beləliklə, öz əzələlərini qüvvətləndirən bir idmançı ağır məşqlər etməyə məcbur olduğu kimi, insanın bir sıra ruhi-mənəvi qabiliyyətləri də bəlalar və müsibətlərlə toqquşmada özünü üzə çıxır. Məsələn, bir çox elmi kəşf və ixtiralar, insanların fərdi və ictimai həyatlarında çətinliklərdən doğan ehtiyaclarından meydana gəlmişdir. Qurani-kərim bu həqiqətə işarə edərək buyurur ki, hər bir çətinliyin qoynunda asanlıq və rahatlıq vardır.

فَإِنَّ مَعَ الْعُسْرِ يُسْرًا إِنَّ مَعَ الْعُسْرِ يُسْرًا

"Hər bir çətinliklə asanlıq da var. Əlbəttə, çətinliklə asanlıq da var". (İnşirah: 5-6).

**2. İlahi imtahan**

Allahın ümumi qanunlarından biri imtahan qanunudur. Allah-taala insanın xilqətinin hədəfi və onun vücudunun xüsusiyyətləri əsasında onu həyatın müxtəlif anlarında yoxlayır. Qeyd etməliyik ki, bəşər imtahanlarından fərqli olaraq, ilahi imtahan məchul bir həqiqətin kəşfi üçün deyil. Burada da işin hədəfi insana aiddir. İmtahandan məqsəd insanın daxili aləmində gizlənən istedadları çiçəkləndirməkdir. İnsan ilahi imtahanda lazımsız ünsürlərdən təmizlənmək üçün kürədə əridilən filizə bənzəyir ki, onun qiymətli gövhəri öz həqiqətini aşkar etsin. Allah-taala insanı bəzən rifahla, bəzən də çətin vəziyyətlərə salıb bəlalara düçar etməklə imtahan edir.

كُلُّ نَفْسٍ ذَائِقَةُ الْمَوْتِ وَنَبْلُوكُم بِالشَّرِّ وَالْخَيْرِ فِتْنَةً وَإِلَيْنَا تُرْجَعُونَ

"Sizi yoxlamaq məqsədilə Biz şər və xeyirlə imtahana çəkərik. Siz ancaq Bizim hüzurumuza qaytarılacaqsınız". (Ənbiya: 35)

Ayədə "şər və xeyir" sözləri geniş mənaya malikdirlər. Müsibətlərə, xəstəliklərə, çətinliklərə, məğlubiyyətlərə, yoxsulluqlara, əzab-əziyyətlərə və eləcə də rahatlıqlara, sağlamlıqlara, sərvətə, qalibiyyətlərə və s. şamil olur. Ayəyə əsasən, bütün bunlar imtahan məqsədi daşıyır. İnsanların ruhunu və cismini tərbiyə etməkdən əlavə onların daxili həqiqətlərini də aşkar edir.

Quran bir çox ayələrdə çətinliklər və bəlalar vasitəsilə insanların imtahan məsələsinə təkid edir. Bəqərə surəsinin ayələrindən birində dünyada ilahi imtahanda gələn əsas fənlərə işarə edilmişdir:

وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِّنَ الْخَوفْ وَالْجُوعِ وَنَقْصٍ مِّنَ الأَمَوَالِ وَالأنفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ

"Əlbəttə, biz sizi qorxu, aclıq, mal, can və məhsul nöqsanı ilə imtahan edərik və səbr edənlərə müjdə ver". ("Bəqərə": 155)

"Səbr edənlərə bəşarət ver" cümləsindən məlum olur ki, bu imtahanlarda başıuca çıxanları gözəl aqibət və böyük hədiyyələr gözləyir.[95] Şübhəsiz ki, bu hədiyyə bütün bəndələrə nəsib olmur. Bəzi insanlar imtahan meydanında zəiflik və süstlük göstərir, səy göstərmək əvəzinə Allaha etiraz edir:

وَأَمَّا إِذَا مَا ابْتَلَاهُ فَقَدَرَ عَلَيْهِ رِزْقَهُ فَيَقُولُ رَبِّي أَهَانَنِ

"Onu sınayıb, ruzinizi daraldanda deyər: Rəbbim məni alçaltdı (xar etdi)". (Fəcr: 16)

**3. Xəbərdarlıq**

Bəla və müsibətlərin əsas faydalarından biri budur ki, insanı, dünya nemətlərinə qərq olmaq nəticəsində düşdüyü qəflətdən ayıldıb Allahın qarşısındakı vəzifələrini onun yadına salır və təkəbbürünü təvazökarlığa döndərib haqqa qayıtmasına münasib zəmin yaradır. Qurani-kərim bir çox ayələrdə bu fəlsəfəyə işarə etmişdir:

وَمَا أَرْسَلْنَا فِي قَرْيَةٍ مِّن نَّبِيٍّ إِلاَّ أَخَذْنَا أَهْلَهَا بِالْبَأْسَاء وَالضَّرَّاء لَعَلَّهُمْ يَضَّرَّعُونَ

"Biz hansı bir məmləkətə peyğəmbər göndərdiksə, onun əhalisini müsibətə və bəlaya saldıq ki, bəlkə, yalvarıb-yaxarsınlar". (Əraf: 94)

وَلَنُذِيقَنَّهُمْ مِنَ الْعَذَابِ الْأَدْنَى دُونَ الْعَذَابِ الْأَكْبَرِ لَعَلَّهُمْ يَرْجِعُونَ

"Böyük əzabdan (axirət əzabı) qabaq onlara yaxın əzabı (dünya əzabı) dadızdırarıq ki, bəlkə, qayıdalar". (Səcdə: 21)

Həmçinin Fironun qövmü haqda bəyan edir ki, onlara nazil olan bəla və çətinli qəflətdən oyanıb öyüd almaları üçün idi.

وَلَقَدْ أَخَذْنَا آلَ فِرْعَونَ بِالسِّنِينَ وَنَقْصٍ مِّن الثَّمَرَاتِ لَعَلَّهُمْ يَذَّكَّرُونَ

"Biz Firon tayfasını qıtlıq və məhsul nöqsanına məruz qoyduq, bəlkə, öyüd alalar". (Əraf: 130)

---

[95] Qurani-kərimdə bu dəstə haqda sonrakı ayələrdə danışılır. "Bəqərə": 156 və 157.

Əlbəttə bir çox insanlar çətinliklər və əziyyətlər qarşısında münasib reaksiya göstərmir, öyüd alıb, hidayət olmaq əvəzinə qəflət və təkəbbürlərində möhkəm dayanırlar:

وَلَقَدْ أَخَذْنَاهُم بِالْعَذَابِ فَمَا اسْتَكَانُوا لِرَبِّهِمْ وَمَا يَتَضَرَّعُونَ

"Həqiqətən, onları əzaba saldıq, ancaq Allahın qarşısında nə təvazökar oldular, nə də yalvardılar" ("Möminun": 76)

**4. İlahi nemətlərin qədrini bilmək**

Xoşagəlməz hadisələrin faydalarından biri də Allahın nemətlərinin əhəmiyyətini dərk etmək və onların qədrini bilməkdir. Elə buna görə də deyilir: "Sağlamlığın qədrini xəstəliyə düçar olan bilər".

Quran da Allahın nemətlərini xatırlatmaq üçün bəzən nemətdən məhrum olduqları anları insanların yadına salmaqla sanki bildirmək istəyir ki, nemətdən məhrum olmaq onun qədrini daha yaxşı bilməklə nəticələnir.

وَاذْكُرُواْ نِعْمَةَ اللّهِ عَلَيْكُمْ إِذْ كُنتُمْ أَعْدَاء فَأَلَّفَ بَيْنَ قُلُوبِكُمْ فَأَصْبَحْتُم بِنِعْمَتِهِ إِخْوَانًا

"Allahın sizə verdiyi neməti yad edin: Siz (bir-birinizlə düşmən idiniz, qəlblərinizi bir-birinə mehriban etdik) və Onun mərhəmətilə qardaş oldunuz". ("Ali-İmran": 103)

**Çətinliklərin fəlsəfəsi haqda hədislər**

Hədislərdə də şərin faydalarına işarə edilmişdir. Əmirəlmöminin Əli (ə) çətinliklərin və bəlaların insanda gizlənən istedadların çiçəklənməsində təsiri haqda belə buyurur:

"Bil ki, çöldə boy atan ağacın budağı çox möhkəm, yaşıllıqda bitən bitkilərin dərisi çox nazik, səhra bitkilərinin odu daha çox alovlu və sönməsi daha gecdir".[96]

Həmçinin bir çox hədislər bəzi şərləri ilahi imtahan hesab edir. İmam Əli (ə) xütbələrinin birində buyurur: "Lakin Allah bəndələrini müxtəlif çətinliklərlə imtahana çəkir, müxtəlif çətinliklərlə ibadətə çağırır və müxtəlif əziyyətlərə düçar edir".[97]

Çətinliklər yolu ilə bəndələri imtahana çəkməyin hədəfi haqda belə buyurur:

"Bəndələr çirkin əməllər edərlərsə, Allah məhsul qıtlığı ilə, xeyir-bərəkətin qapılarını onların üzünə bağlamaqla onları imtahana çəkər ki, tövbə əhli tövbə etsin, günahdan əl çəkənlər əl çəksinlər, öyüd eşidənlər öyüd alsınlar və hazırlığı olanlar günahdan çəkinsinlər".[98]

İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə deyilir ki, bəlalar və çətinliklər Allahın nemətlərini yada salır:

---

[96] "Nəhcül-bəlağə", 45-ci məktub.

[97] Yenə orada, 192-ci xütbə.

[98] Yenə orada, 143-cü xütbə.

“Bəlalar həm yaxşılara, həm də pislərə çatsa da, Allah onu hər iki dəstənin xeyrinə etmişdir. Yaxşılara çatan bəlalar keçmişdə onların ixtiyarında olan nemətləri xatırlamaq üçündür və bu da onları şükür və səbr etməyə vadar edir”.[99]

**İkinci fəslin xülasəsi**

1. Allahın hikmətinin mənalarından biri Onun işlərinin hədəfli olmasıdır. Allah-taala boş və bihudə işlərdən uzaqdır. Onun işləri hikmət əsasındadır, belə ki, məntiqi hədəfi vardır.

2. “Ədlilər” adı ilə tanınan şiə və mötəzilə kəlamçıları inanırlar ki, Allahın işləri hədəf əsasındadır, əşərilər isə bunu qəbul etmirlər.

3. Allahın işlərinin hədəf əsasında olması bu mənaya deyildir ki, Allah-taala Öz işləri vasitəsilə hər hansı bir kamilliyə nail olur. Məqsəd budur ki, Allahın işində Onun məxluqlarına aid olan mənfəətlər vardır. Daha dəqiq desək, Allahın feillərinin hədəfi dedikdə, Allahın Özünün yox, Onun işlərinin hədəfi nəzərdə tutulur.

4. Allahın hikməti “yaxşı və pis anlayışlarının rasionallığı” qanunu ilə isbat olur. Bihudə və mənasız işləri yerinə yetirmək qəbahətlidir. Allah-taala qəbahətli işlərdən uzaqdır. Beləliklə, Allahın işləri bihudə və hədəfsiz ola bilməz.

5. Əşərilərin Allahın işlərinin hədəfli olması prinsipi ilə müxalif olmalarının əsas səbəbi budur ki, belə güman edirlər ki, hər bir işin hədəfi onun icraçısının nöqsanını aradan qaldırıb onu kamilləşdirir. Bunun cavab odur ki, Allahın işlərinin hədəfi, həqiqətdə, Onun yaratdıqları üçündür. Şübhəsiz, bu hədəf Allahın zatında yeni bir kamilliyə səbəb olmur.

6. İlk baxışda güman oluna bilər ki, şər, bəlalar və müsibətlər Allahın işlərinin hədəfli və yaranışın hikmət əsasında olması ilə ziddir. Amma insan elminin məhdudluğunu, onun həqiqi səadətini, cəmiyyətin mənafeyinin fərdin mənafeyindən üstünlüyünü və şərin yaranmasında insanın rolunu nəzərə almaqla bu gümanın əsassız olması sübut olur.

7. Şərin faydalarından biri çətinliklərdə istedadların çiçəklənməsidir. İnsanın bir çox potensialları yalnız bəlalar və çətinliklərlə qarşılaşdıqda aşkara çıxır.

8. Şərin digər bir faydası imtahandır. İlahi imtahanlar nəticəsində insanlar ruhi və cismi baxımdan yaxşı yetişib ilahi savaba layiq olurlar.

9. Bir çox şərlər də xatırlatma və xəbərdarlıq xarakteri daşıyır. Bəzən insanlar nemətin çoxluğu nəticəsində qəflət və dünyapərəstliyə düçar olur, bununla da öz yaranışlarının son hədəfindən qafil olurlar. Bu zaman nazil olan bəlalar və çətinliklər onları qəflət yuxusundan ayıldır.

---

[99] “Biharul-ənvar”, c. 3, səh. 139.

10. Rifah və rahatlıqda qərq olan bir çox insanlar Allahın nemətlərinin qədr-qiymətini yaddan çıxarırlar. Bu zaman çətinliklər Allahın nemətlərinin qədrini daha yaxşı bilməyə səbəb olur.

**Üçüncü fəsil**

**Allahın ədaləti**

**Giriş**

Allahın ədaləti mövzusu ən əsas etiqadi məsələlərdən biridir. Ədalət də Allahın sifətlərindən birini bəyan etsə də, bu mövzu xüsusi əhəmiyyətinə görə etiqadi məsələlər arasında özünəməxsus yer tutur. Bu əhəmiyyət o qədərdir ki, ədaləti bəzən din və ya məzhəbin beş prinsipindən biri hesab edirlər. Şübhəsiz, bu əhəmiyyət səbəbsiz deyil. Burada iki səbəb əsas rol oynayır:

1. Allahın ədaləti mövzusu geniş sahəni əhatə edir və onu qəbul edib-etməməyin insanın Allah haqqında olan əqidəsində böyük təsiri vardır. Bu mövzu həm xilqətin, həm də şəriətin bütün qanunları ilə əlaqədə olduğu üçün onu qəbul və ya inkar etmək bizim baxışımızı tamamilə dəyişə bilər. Bundan əlavə, "Allahın ədaləti" məad və axirət dünyasının savab və cəzasını sübut edə biləcək prinsiplərdən biridir. Nəhayət, bu prinsip yalnız nəzəri əhəmiyyətə malik deyildir. Allahın adil olmasına inamın insanın rəftarında xüsusi tərbiyəvi təsiri vardır. Bu inam ictimai münasibətlərdə ədaləti reallaşdırıb, zülmü aradan qaldırmaqda misilsiz rol oynayır.

2. Allahın ədaləti mövzusu kəlami düşüncə tarixində, xüsusilə islam tarixinin ilk yüzilliklərində geniş mübahisəyə və münaqişəyə səbəb olmuşdur. Məsum imamlar Allahın adil olmasına təkid etmişdirlər. Belə ki, bu cümlə dillərin əzbəri oldu: "Tövhid və ədalət əhli-beytin, təşbih (antropomorfzm) və cəbr (fatalizm) isə əməvilərin şüarıdır".

Şiə və mötəzilə kəlamçıları Allahın ədaləti prinsipini müdafiə etdiklərinə görə "ədlilər" adı ilə tanındılar. Əşərilər isə Allahın ədalətini başqa mənada izah edərək onun əsl mənasını inkar etdilər. Onların fikrincə, Allahın bütün möminəri cəhənnəmə, bütün kafirləri isə cənnətə aparması mümkündür və əgər bunu etsə, Onun ədaləti ilə heç bir ziddiyyəti yoxdur.

Hər halda, peyğəmbərin (s) xilafətini qəsb edən zalım hakimiyyət öz qanunsuz mənafelərini qorumaq, eləcə də zülmlərinə don geyindirmək üçün "qəza və qədər", "cəbr və ixtiyar" mövzularında olduğu kimi, "ədalət" prinsipi ilə də müxalifət etməyə başladılar. Bu səbəbdən, tarixi şərait də "ədalət" sifətini digər sifətlərdən fərqləndirən amillərdən biridir.

**Hikmətlə ədalət arasındakı əlaqə**

Hikmət bəhsində qeyd etdik ki, hikmətin mənalardan biri pis işlərdən çəkinməkdir və bu məna ədalətə də aid olur. Çünki ədalət layiqli iş, zülm isə qəbahətli və nalayiq bir işdir. Bu səbəbdən, ədalət sifətini hikmət sifətinin şaxələrindən hesab etmək olar.

**Ədalət prinsipi yaxşı və pis anlayışlarının rasionallığı qanununa əsaslanır**

Fikrimizcə, ədalət prinsipinə (yəni Allah-taalanın bütün işlərinin ədalət əsasında olmasına) etiqadın ən mühüm əsasını yaxşı və pis anlayışlarının rasionallığı qanunu təşkil edir. Öncə qeyd etdik ki, yaxşı və pis anlayışlarının rasionallığı prinsipinə əsasən, bəzi işləri özlüyündə nəzərə aldıqda ağıl müstəqil şəkildə onların yaxşı və pis olması haqda mühakimə yürüdə bilər. Bu mühakimədə işlər özlüyündə, onun yerinə yetirildiyi şəraitdən və onu yerinə yetirənin kimliyindən asılı olmayaraq nəzərdə tutulduğu üçün yaxşı və pis anlayışlarının rasionallığı qanunu Allahın işlərinə də şamil olur.

Bu prinsipə görə ədalət zatən yaxşı, zülm isə zatən pisdir və ağıl ədalətin yaxşı, zülmün isə pis olmasını dərk edir. Bütün insanların ağlı dərk edir ki, ədalətli olmaq hər bir şəraitdə, onu yerinə yetirənin kimliyindən asılı olmayaraq bəyənilən bir işdir. Zülm isə hər bir halda, onu yerinə yetirənin kimliyindən asılı olmayaraq pisdir. Ağıl hökm edir ki, Allah-taala zülm etməz və Onun bütün işləri ədalətlidir. Çünki Allah-taala hikmətlidir və qəbahətli işlərdən uzaqdır.

Buna görə də, yaxşı və pis anlayışlarının rasionallığının müxalifləri ədalət prinsipi üçün əqli əsas tapmaqda acizdirlər və ağılın ədalətsiz bildiyi işlərin Allahdan baş verməsini mümkün hesab edirlər.

**Ədalətin mənası**

Ədalət sözünün ədalət bəhsində nəzərdə tutulan mənaları haqda daha dəqiq izah vermək lazımdır. Ədalət sözü müxtəlif mənalarda işlənir.[100] Onlardan bir neçəsini aşağıda qeyd edirik:

1. Bərabərliyə riayət etmək. Bəzən ədalət dedikdə, başqaları arasında heç bir fərq qoymamaq və hamıya eyni gözlə baxmaq nəzərdə tutulur. Əlbəttə, unutmaq olmaz ki, bərabərliyə riayət etmək yalnız ləyaqətlərdə və istedadlarda heç bir fərq olmadıqda bəyənilir. Lakin ləyaqət nöqteyi-nəzərindən fərqli olan bir qrup şəxslər arasında bərabərliyə riayət etmək nəinki ədalət deyildir, hətta layiqli və qabiliyyətli şəxsin haqqını tapdalamaqdır. Məsələn, əgər bir müəllim bərabərliyə riayət etmək məqsədilə bütün tələbələrinə eyni qiymət verərsə, bu, ədalətli iş sayılmır. Beləliklə, yaddan çıxarmamalıyıq ki, ədalət həmişə bərabərlik deyil.

2. Başqalarının hüququna riayət etmək. Bu mənada bütün insanların hüququnu nəzərə almaq (haqq sahibinə haqqını çatdırmaq) ədalət, başqalarının hüququnu tapdalamaq isə zülm sayılır.

3. Fərdlərin və əşyaların öz layiqli yerlərində olması. Bəzən ədalət daha geniş mənada, yəni hər bir şeyi öz münasib yerinə qoymaq mənasında işlənir. Bunu Əlinin (ə)

---

[100] Ədalət bəzən mötədillik və ahəngdarlıq mənasında da işlənir, amma onun kəlam elmi ilə çox da əlaqəsi yoxdur.

kəlamında görmək olar. O buyurur: "Ədalət hər bir şeyi öz (münasib) yerində yerləşdirir".[101] Bu cümlənin mənası odur ki, xilqətdə və şəriətdə hər bir şeyin özünə münasib yeri və vəziyyəti var və ədalət də bu münasibliyi qorumaq deməkdir. Bu, ədalətin ən geniş mənasıdır, belə ki, qeyd olunan digər mənalara da şamil olur.

Beləliklə, Allahın ədalətinin mənası ümumi şəkildə bundan ibarətdir ki, Allah hər bir varlıqla onun qabiliyyətinə uyğun rəftar edir, ona öz münasib yerində qərarlaşdırır və haqqını ona əta edir.[102]

**Allahın ədalətinin ümumi təsnifi**

Allahın ədalətini aşağıdakı qisimlərə bölmək olar:

1. Təkvini ədalət (xilqətdə olan ədalət). Allah-taala hər bir varlığa ləyaqət və istedadı qədər nemət verir və heç bir qabiliyyəti cavabsız qoymur. Başqa sözlə desək, Allah-taala yaratdıqlarının hər birinə vücudunun həcmi qədər varlıq bəxşiş edir və istedadı qədər kamilliklərdən bəhrələndirir.

2. Təşrii ədalət (şəriətdə olan ədalət). Allah-taala həm insanın səadətini nəzərə alıb onu təmin edən qanunlar qoymuş, həm də heç bir insanın öhdəsinə bacarığından artıq vəzifə qoymamışdır. Beləliklə, şəriət qeyd olunan hər iki mənada ədalətlidir.

3. Mühakimədə ədalət. Allah mükafat və cəza verərkən bəndələrin əməllərinə münasib şəkildə rəftar edir, yəni, yaxşıları yaxşı əməllərinə görə mükafatlandırır və pisləri pis əməllərinə görə cəzalandırır.

Həmçinin hakimlik ədalətinə əsasən, heç bir insan ona bildirilməyən vəzifəyə görə cəzalandırılmır. Bu mükafat və cəzanın bir hissəsi dünyada, digər bir hissəsi isə axirətdə olacaqdır. Mühakimədə ədalət sonda təkvini ədalətə müncər edilir. Çünki axirət mühakiməsi ilə insanın əməlləri arasında təkvini (ontoloji) əlaqə vardır.

**Allahın ədalətinə əqli dəlil**

Qeyd etdiyimiz kimi, Allahın ədalətinin əqli dəlili yaxşı və pis anlayışlarının rasionallığı qanunudur. Beləliklə, ədalətin əqli dəlili bundan ibarətdir ki, ağıl ədaləti layiqli iş və zülmü nalayiq iş hesab edir. Allah ağlın nalayiq saydığı işlərdən uzaqdır. Deməli, Allah heç zaman zülm etməz və Onun bütün işləri ədalətlidir.

Əlbəttə, ədalət nəzəriyyəsinin tərəfdarları digər dəlillər də bəyan etmişlər. Amma o dəlillər də öz növbəsində yaxşı və pis anlayışlarının rasionallığı qanununa əsaslanır. Məsələn, belə deyilir ki, əgər Allah-taala zülm edərsə üç ehtimalla qarşılaşarıq:

1. bu əməl nadanlıqdan irəli gəlir;

---

[101] "Nəhcül-bəlağə", 437-ci hikmət.

[102] İrad oluna bilər ki, Allahın boynunda heç bir haqq yoxdur. Ədalət isə boynunda olan haqqı ödəmək deməkdir. Bu səbəbdən, ədalət Allah haqqında heç bir məna daşımır. Bu iradın cavabı budur ki, məxluqun Allahın boynunda heç bir haqqı olmasa da, Allah Öz kəraməti və bəxşişi ilə yaratdıqları üçün haqq təyin edir.

2. ehtiyacdan qaynaqlanır;

3. Allahın hikməti tələb edir.

İlk iki ehtimal absurddur. Çünki Allah-taala zəruri varlıqdır və elmi sonsuzdur. Odur ki, zülm etdiyindən xəbərsiz olması və ya zülm etməyə ehtiyaclı olması təsəvvür oluna bilməz. Üçüncü ehtimal da əsassızdır. Çünki hikmət çirkin və pis işlərdən çəkinmək mənasınadır, buna görə də Onun zülm etməsi mümkün deyil.

Beləliklə, zülmə səbəb olan ehtimalların heç biri Allahda ola bilməz, bununla da Allahın bütün işlərinin ədalətli olması sübut olur.[103]

**Allahın ədaləti haqda ayələr**

Qeyd etməliyik ki, Quranda ədalət sözü və onunla eyni kökdən olan sözlər Allah haqqında işlənməmiş,[104] Allahın ədaləti "Onun zülm etməməsi" şəklində bəyan edilmişdir. Məsələn, bəzi ayələrdə buyurulur ki, Allah-taala heç bir insana zülm etməz:

إِنَّ اللّهَ لاَ يَظْلِمُ النَّاسَ شَيْئًا وَلَكِنَّ النَّاسَ أَنفُسَهُمْ يَظْلِمُونَ

"Allah insanlara heç bir zülm etməz. Ancaq insanlar özlərinə zülm edərlər". ("Yunis": 44)

Bəzi ayələrdə isə Allahın ədaləti daha geniş sahədə bəyan edilmişdir:

وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا

"Rəbbin heç kəsə zülm etməz". ("Kəhf": 49)

وَمَا اللّهُ يُرِيدُ ظُلْمًا لِّلْعَالَمِينَ

"Allah aləmlərə zülm etmək istəməz". ("Ali-İmran": 108)

Ayədə "aləmlər" sözündən istifadə edilmişdir. Bəlkə də bununla şüurlu varlıqlar, o cümlədən insanlar, cinlər və mələklər nəzərdə tutullur. Bu ehtimal da vardır ki, bütün mövcudlar nəzərdə tutulsun. Hər iki halda Allahın ədalətinin insanlardan başqa varlıqlara da şamil olması sübut olur.

Bəzi ayələr Allahın təkvini ədalətinə işarə edir:

شَهِدَ اللّهُ أَنَّهُ لاَ إِلَهَ إِلاَّ هُوَ وَالْمَلاَئِكَةُ وَأُوْلُواْ الْعِلْمِ قَآئِمَاً بِالْقِسْطِ لاَ إِلَهَ إِلاَّ هُوَ الْعَزِيزُ الْحَكِيمُ

"Ədaləti bərpa edən Allah şəhadət verir ki, Ondan başqa heç bir məbud yoxdur. (habelə) mələklər və alimlər də şəhadət verirlər". ("Ali-İmran": 18)[105]

Bəzi ayələr təşrii ədalətə işarə edir:

---

[103] Fazil Miqdad, "ən-Nafi yəvməl-həşr fi şərhil-babil-hadi əşr," səh. 159 və 160; "İrşadut-talibin", səh. 261.

[104] Quranda "ədalət" sözünün Allah haqqında işlənməməsinin səbəbi bəlkə də budur ki, ədalət sözü bəzən (məs., "Ənam": 1) "düz yoldan azmaq" mənasında işlənir. Odur ki sinonim olduğuna görə, Allah haqqında işlənməmişdir.

[105] Bu ayədə Allahın ədaləti mütləq və qeyd-şərtsiz bəyan olunduğuna görə təkvini ədalətdən əlavə ədalətin digər qisimlərinə də şamil olur.

وَلَا نُكَلِّفُ نَفْسًا إِلَّا وُسْعَهَا

"Heç kimə gücündən artıq vəzifə təyin etmərik". ("Muminun": 62)

قُلْ أَمَرَ رَبِّي بِالْقِسْطِ

"De ki, Rəbbim ədalətə əmr etmişdir". ("Əraf": 29)

Bəzi ayələri də mühakimə ədalətinə dəlil gətirmək olar:

وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا

"Qiyamət günündə ədalət tərəzilərini quracağıq və heç kimə zülm olmayacaq". ("Ənbiya": 47)

إِنَّهُ يَبْدَأُ الْخَلْقَ ثُمَّ يُعِيدُهُ لِيَجْزِيَ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ بِالْقِسْطِ

"O məxluqları yaradır, sonra da iman gətirib, saleh əməllər görənləri ədalətlə mükafatlandırmaq üçün onları özünə tərəf qaytarır. ("Yunis": 4)

وَمَا كُنَّا مُعَذِّبِينَ حَتَّى نَبْعَثَ رَسُولاً

"Və biz heç bir tayfaya bir rəsul göndərməyənədək, əzab verməri. ("İsra": 15)

فَمَا كَانَ اللّهُ لِيَظْلِمَهُمْ وَلَكِن كَانُواْ أَنفُسَهُمْ يَظْلِمُونَ

"Allah onlara zülm etmirdi. Onlar özləri-özlərinə zülm edirdilər". ("Tövbə": 70; "Rum": 9)

Sonuncu ayə günahkar tayfaların əzabları haqqındadır. Quran onların aqibətinə işarə edib, buyurur ki, Allahın əzabı heç də onlara zülm deyil. Əzab onların öz əməllərinin təbii nəticəsidir. Əgər zülm adlandırmaq olarsa, həqiqətdə, onlar özləri-özlərinə zülm etmişdirlər.

Allahın ədaləti bir çox hədislərdə də vurğulanmışdır. Peyğəmbər (s) bir hədisdə belə buyurur: "Göylər və yer ədalət üzərində bərqərardır".[106] Həzrət Əli (ə) tövhid və ədalətin mənasını soruşan şəxsin cavabında buyurdu: "Tövhid odur ki, Allahı xəyalında canlandırmayasan. Ədalət isə odur ki, Onu ittiham etməyəsən".

Həmçinin Allahın vəsfində buyurdu: "(Allah-taala) bəndələrinə zülm etməkdən çox ucadır (yəni heç bir vaxt zülm etməz). O, yaratdıqları arasında ədaləti bərqərar etmişdir və onlara ədalətlə hökm etmişdir".[107]

**Allahın ədaləti haqda olan iradlar**

Allahın hikməti mövzusunda qeyd etdik ki, bəzilərinin fikrincə, müsibətlər, çətinliklər, bəlalar və şər sayılan hər bir şey Allahın hikməti ilə ziddir. Amma şərdə mövcud olan bəzi hikmət və xeyirlərə işarə etməklə bu gümanın puç olmasını sübut etdik. Burada lazım bilirik ki, Allahın ədaləti haqda mövcud olan bəzi iradları araşdıraq. Öncədən qeyd edirik ki, bu iradların bəziləri Allahın hikməti (Allahın işlərinin hədəfli

[106] Feyz Kaşani, "Təfsiri-Safi", "ər-Rəhman" surəsinin 7-ci ayəsi, (2-ci cild, səh. 628)

[107] Yenə orada, 185-ci xütbə.

olması) haqqında da deyilə bilər.[108] Cavablar eyni olduğundan onları Allahın ədaləti mövzusunda araşdırmağı lazım bildik.[109]

**Allahın ədaləti və fərqliliklər**

Bəzən belə güman olunur ki, yaranışda müşahidə olunan fərqliliklər ayrıseçkilik və ədalətsizlikdir. Bu səbəbdən də Allahın ədalətinə etiqadla düz gəlmir. Bu fərqliliklər bəzən müxtəlif növ varlıqlarda müşahidə olunur. Məsələn, sual olunur ki, nə üçün Allah-taala birini insan, o birini heyvan, digərini bitki yaratdı və nə üçün heyvanları, bitkiləri və cansızları insanlıqdan məhrum etdi? Bəzən də fərdlər arasında olan fərqliliklərə tənqidlə yanaşılır. Nə üçün bəziləri görür və bəziləri görmür? Nə üçün biri kifir, digəri gözəldir? Nə üçün biri ağıllı və zəkalı, digəri isə ağılsız və anormaldır?...

Bu etirazlara cavab aşağıdakı qanunlarla öz həllini tapır:

1. Təbiət aləmi, hətta bütün yaranış aləmi özünəməxsus nizam əsasında qurulmuş və ona sabit və dəyişilməz qanunlar hakimdir. Bu qanunlardan ən əsası "səbəbiyyət qanunudur". Bu qanuna əsasən, hər bir mümkün varlıq səbəbə möhtacdır. Eləcə də səbəblə nəticə arasında uyğunluğun olması da labüddür, belə ki, hər nəticə hər səbəbdən qaynaqlana bilməz.

2. Yaranışda hakim olan qanunlar onun ayrılmaz və zati xüsusiyyətidir. Yəni suyun yaş, yaxud şəkərin şirin olmamasını təsəvvür etmək mümkün olmadığı kimi, aləmi də ondakı qanunlardan kənar və ya başqa qanunlarla təsəvvür etmək olmaz.

3. Yaranışın sabit və dəyişməz qanunları bunu tələb edir ki, yaranmışlar arasında fərqliliklər olsun. Məsələn, səbəbiyyət qanunu tələb edir ki, səbəblə müqayisədə nəticənin kamalı az olsun. Həmçinin, səbəblə nəticə arasındakı uyğunluğa görə kor və ya ağlı inkişaf etməmiş bir varlığın səbəbi mövcud olarsa, ona münasib və uyğun nəticənin mövcud olması, yəni kor və ağlı inkişaf etməmiş bir insanın dünyaya gəlməsi labüddür.

Bir sözlə, yaranışda müşahidə olunan fərqliliklər yaranışdan ayrılması və dəyişməsi mümkün olmayan sabit qanunların nəticəsidir.

Beləkilə aydın olur ki, bu cür fərqlilikləri ayrıseçkilik adlandırmaq düzgün deyil. Ayrıseçkilik ona deyilir ki, iki şeyin qabiliyyəti və ləyaqəti eynidir, amma onlardan birinə üstünlük verilir. Bizim bəhsimizdə isə söhbət ondan gedir ki, bəzi varlıqların bir sıra kamilliklərə çatmaması onlarda bu kamilliyi qəbul edə biləcək qabiliyyətin olmamasından irəli gəlir. Varlığa hakim olan dəyişməz qanunlardan biri də budur ki, kamilliyi qəbul edə biləcək qabiliyyət olmazsa, şübhəsiz, kamillikdən məhrum olacaq. Daha dəqiq desək, Allahın lütfü sonsuzdur, lakin yaratdıqlarının qabiliyyəti məhduddur. Bu məhdudiyyət özü də yaranışın ayrılmaz xassələrindəndir.

---

[108] Məsələn irad oluna bilər ki, məxluqları yaratdıqdan sonra onların ölməsi Allahın hikməti və insanın yaranışının hədəfli olması ilə ziddir.

[109] Allahın ədaləti ilə bağlı daha geniş məlumat üçün bax: Şəhid Mürtəza Mütəhhəri, "İlahi ədalət".

Beləliklə, yaranışdakı fərqliliklər zülmdən və ya ayrıseçkilikdən qaynaqlanmadığı üçün heç də Allahın ədaləti ilə zidd deyil. Nəticədə, bu məsələləri Allah tərəfindən pis iş kimi qəbul etmək olmaz.

**Ölüm və yoxluq**

Allahın ədaləti mövzusunda əsas iradlardan biri də "ölüm" məsələsidir. Güman oluna bilər ki, insanların bir müddət yaşayıb sonra ölməsi Allahın ədaləti ilə uyğun deyil. Amma belə bir güman həqiqətə uyğun deyil.

Bu iradın cavabı budur ki, ölüm təbiət aləmində yaşayışın ayrılmaz xassələrindəndir. Təbiət aləmində yaşayan varlığın daimi olaraq orada qalmaq qabiliyyəti yoxdur. Bundan əlavə, bu iradda ölüm yoxluq kimi təsəvvür edilmişdir. Halbuki belə deyil və ölüm yalnız bir dünyadan digər bir dünyaya keçməkdir. Ölüm anlayışına bu nöqteyi-nəzərdən baxsaq, onun ədalətsiz olmaması aydın olar.

**Axirət əzabları və onların insanın günahı ilə əlaqəsi**

Bura qədər araşdırdığımız iki irad Allahın təkvini (yaranışın qanunları) ədalətinə aid idi. Amma axirətdəki əzablar Allahın mühakimə ədaləti ilə əlaqədədir.

Burada qeyd edəcəyimiz irad bundan ibarətdir ki, ağlın hökmünə əsasən, günahla onun cəzası arasında uyğunluq olmalıdır. Məsələn, sürücülük qanunlarını pozan insanı qatilə verilən cəza ilə cəzalandırmazlar. Amma dini qanunlarına əsasən, axirət dünyasında günahlar üçün çox ağır cəzalar təyin edilmişdir. Məsələn, Quran hər hansı bir şəxsi bilərəkdən öldürən kəs üçün əbədi cəhənnəm müəyyən edir. Beləliklə, axirətdəki əzablar istər keyfiyyət, istərsə də zaman nöqteyi-nəzərindən bəndələrin dünyadakı günahları ilə uyğun deyil. Bu uyğunsuzluq da Allahın ədaləti ilə ziddir.

Axirət dünyasındakı əzabların mahiyyətinə diqqət etməklə bu etirazı cavablandıra bilərik. Həqiqət budur ki, axirət əzabları dünyadakı şərti cəzalarla müxtəlif cəhətlərdən fərqlidir. Şərti cəzaların forması və onlar üçün nəzərdə tutulan müddət yazılan qanunlara bağlıdır. Buna görə də, bəzən müxtəlif hüquq sistemlərində eyni cinayət üçün müxtəlif cəzalar nəzərdə tutulur. Həmçinin, şərti cəzalar cinayətə məruz qalan şəxsin (və ya qohumların) təsəlli tapmasından əlavə, ictimai asayişi qoruyur və cinayətin təkrarının qarşısını alır. Axirət dünyasındakı cəzalar isə şərti bir şey deyil, əksinə, dünyadakı cinayətkarların əməllərinin təbii və ontoloji nəticələridir. Necə ki, zəhər içməyin qaçılmaz təbii təsiri vardır. Belə deyildir ki, zəhər içən şəxs məhkəməyə çağırılsın və sonra xəstəliyə və ya ölümə məhkum olunsun.

Bəzi ayələrdən də məlum olur ki, axirətdəki əzablar nəinki günahların təbii nəticəsidir, hətta çirkin əməllərin və günahların təcəssümüdür.[110] Allah-taala "Kəhf" surəsində buyurur:

---

110 Əməllərin təcəssümü haqqında "Məad" mövzusundan (ikinci cilddə) geniş araşdırma aparacağıq.

وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا

"Öz əməllərini qarşılarında görəcəklər. Rəbbin heç kəsə zülm etməz". ("Kəhf": 49)

Bu ayəyə əsasən, əməllər axirətdə öz həqiqi forması ilə aşkar olacaq və insanlar əməllərinin həqiqətini görəcəklər. Digər bir yerdə buyurur:

يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ مَّا عَمِلَتْ مِنْ خَيْرٍ مُّحْضَرًا وَمَا عَمِلَتْ مِن سُوَءٍ تَوَدُّ لَوْ أَنَّ بَيْنَهَا وَبَيْنَهُ أَمَدًا بَعِيدًا

"Hər kəs yaxşı işlərin və pis işlərin önündə hazır gördüyü gün özü ilə onların (pis işlərinin) arasında uzun məsafə olmasını arzu edər". ("Ali-İmran": 30)[111]

Beləliklə, axirətdəki əzabların insanın əməlləri ilə rabitəsi şərti olaraq qəbul edilən cəzaların ictimai cinayətlərlə rabitəsinə bənzəmir. Odur ki, uyğunsuzluqdan və ya ədalətsizlikdən danışmaq doğru deyildir. Əksinə, günahların həqiqəti axirət dünyasında aşkara çıxır. Necə ki, qısa müddətdə baş verən zəhər içmək kimi bir iş çox ağır və uzun müddətli aqibətlə (məsələn, uzun müddətli xəstəliklər və ya həyatdan əbədi məhrumluqla) qurtarır. İnsanın günahları da qaçılmaz təsirlərə malikdir ki, sonrakı dünyada üzə çıxır. Daha dəqiq desək, hər bir şeyin həqiqətinin aşkara çıxacağı axirət dünyasında günahlar və çirkin əməllərin özü öz həqiqətlərini aşkar edir. Beləliklə, mömin insanı öldürənin cəhənnəmdə əbədi qalması şərti bir cəza yox, adam öldürməyin təbii nəticəsidir (yəni öldürməyin həqiqi formasıdır). Qatil qətl hadisəsini öz ixtiyarı ilə törətdiyinə görə ədalətsizlik, yaxud cəza və mükafatın uyğunsuzluğu məsələsi tamamilə aradan qalxır.

**Allahın ədaləti və əzab-əziyyətlər**

İradlardan biri də budur ki, müsibətlər, bəlalar, xəstəliklər və bu kimi şeylərdən yaranan ağrı- acılar Allahın ədaləti ilə uyğun deyil.

Əvvəlki iradların cavabında qeyd olunan məsələlərdən bu iradın cavabı aydın olsa da, əlavə olaraq belə demək olar ki, dünyada insanlara üz gətirən dərd və əzablar iki cür ola bilər:

1. İnsanın bəzi müsibətləri onun nalayiq əməllərindən irəli gəlir və öz günahlarının nəticəsidir. İnsan azad yaranmışdır. Amma bəzi insanlar öz azadlığından sui-istifadə edərək günaha, nalayiq işlərə əl atırlar və onun ağrılı-acılı nəticəsinə də düçar olurlar. Şübhəsiz, insanın öz əməllərinin nəticəsi olan bu cür əzab-əziyyətlər Allahın ədaləti ilə ziddiyyət təşkil etmir.

Qurani-kərim bir çox ayələrdə bu həqiqətə işarə etmiş və buyurmuşdur ki, insanın bir çox çətinlikləri öz əməllərinin nəticəsidir.[112]

2. İnsanın (məsələn, günahsız uşaqların) çəkdiyi bəzi əzab-əziyyətlərin onun əməlləri ilə heç bir əlaqəsi yoxdur və günahların cəzası da deyil. Bu məsələdə şiə kəlamçıları bu

---

[111] Bax: "Bəqərə": 281; "Zəlzələ": 6-8.

[112] Allahın hikməti (feillərinin hədəfli olması) mövzusunda bu haqda geniş araşdırma apardıq.

qənaətdədirlər ki, Allahın ədaləti bu cür əzab-əziyyətlərin əvəzini verir. Allah-taala dünyada və axirətdə dərdli insana dərdindən neçə dəfə artıq nemət bəxş edir. Bu yolla əzab-əziyyət başqa bir şeylə əvəz edilir.[113]

Beləliklə, məlum olur ki, insanların dünyada əzab-əziyyətdə olmaları heç də Allahın ədaləti ilə zidd deyil.

**Terminlər**

Ədalət

Təkvini ədalət

Təşrii ədalət

Mühakimədə ədalət

**Üçüncü fəslin xülasəsi**

1. Allahın ədaləti islamın ən mühüm etiqadi prinsiplərindəndir və onu dinin, yaxud məzhəbin beş əsasından biri adlandırırlar. Ədalətə inam insanın dünyagörüşündə və Allahı tanımasında böyük rol oynamaqla yanaşı, fərdi və ictimai cəhətdən də bir çox tərbiyəvi təsirlərə də malikdir.

2. "Ədlilər" adı ilə tanınan şiə və mötəzilə kəlamçıları Allahın ədalətinə inanır, əşərilər isə əksinə olaraq onu (hamının qəbul etdiyi mənada) inkar edirlər.

3. İlahi ədalətə etiqadın möhkəm dəlillərindən biri yaxşı və pis anlayışlarının rasionallığı prinsipidir. Çünki bu prinsipə əsasən, ədalət yaxşı, zülm isə pis iş sayılır və Allah-taala pis işlərdən uzaqdır. Buna görə də, yaxşı və pis anlayışlarının rasionallığının müxalifləri ilahi ədaləti əqli dəlillərlə əsaslandırmaqda acizdirlər.

4. Ədalət "bərabərlik", "ayrıseçkilikdən çəkinmək" və "başqalarının haqqına riayət" mənalarına işlənir. Amma onun ən geniş mənası hər bir şeyi öz layiqli yerinə qoymaqdır. Bu tərif belə bir postulata əsaslanır təkvini və təşrii aləmdə (xilqətdə və şəriətdə) hər bir şeyin özünə uyğun yeri vardır və ədalət də bu uyğunluğa riayət etməkdir.

5. İlahi ədalət üç qisimdən ibarətdir: "Təkvini ədalət", "təşrii ədalət" və "mühakimədə ədalət". Təkvində ədalət odur ki, Allah-taala yaratdıqlarının hər birinə qabiliyyəti və ləyaqəti qədər varlıq və kamillik bəxş edir.

6. Təşrii ədalət bu mənayadır ki, Allah-taala insanların səadət və kamilliyini təmin edən qanunlar yaratmaqda biganə deyil. Həmçinin, heç bir kəsin öhdəsinə bacardığından artıq vəzifə qoymaz.

---

[113] Kəlamçılar arasında "əvəz" sözü termin şəklini almışdır. Şiə kəlamçıları ayrıca bir bölümdə Allahın, günahsız əzab-əziyyətlərin əvəzini ödəməsi haqda geniş şəkildə bəhs etmişlər. Bax: Əllamə Hilli, "Nəhcül-həqq və kəşfüs-sidq," səh. 137 və 138.

7. Mühakimədə ədalət odur ki, Allah-taala bəndələrini öz əməllərinə uyğun şəkildə mühakimə edir - yaxşıları yaxşı əməllərinə görə mükafatlandırır və pisləri pis əməllərinə görə cəzalandırır.

8. Kəlamçılar Allahın ədalətini müxtəlif dəlillərlə isbat etmişlər. Bu dəlillər birbaşa və ya dolayı yolla "yaxşı və pis anlayışlarının rasionallığı" prinsipinə əsaslanır.

9. Quranın bir çox ayələrində Allahın ədalətinə və onun müxtəlif cəhətlərinə toxunmuşdur. Hədislərdə də bu məsələyə təkid edilmişdir.

10. Bəziləri belə güman edirlər ki, məxluqlar arasındakı fərqliliklər Allahın ədaləti ilə ziddir. Cavabında deməliyik ki, ontoloji fərqliliklər dünyaya hakim olan qanunların ayrılmaz hissəsidir. Buna görə, bu fərqliliklər olmadan aləmin varlığı mümkün deyil.

11. Ölüm yoxluq deyil, bir dünyadan digər bir dünyaya köçməkdir. Bu səbəbdən, ölümü Allahın ədaləti zidd hesab etmək olmaz.

12. Axirət dünyasının cəzaları günahların ontoloji nəticəsi, daha dəqiq desək, günahların təcəssümüdür. Bu cəzalar şərti olmadığı üçün günahla cəzası arasındakı uyğunsuzluğu güman edib Allahı bu qanunları qoyduğuna görə ədalətsizlikdə ittiham etmək düzgün deyil.

13. Allahın ədaləti günahsızların dünyadakı ağrı-acılarını daha böyük nemətlərlə əvəz edir.

**Dördüncü fəsil**

**Qəza və qədər**

**Giriş**

Qəza və qədər məsələsi kəlam elminin əsas bəhslərindən biridir və onun hal-hazırda tale adı ilə tanınan məsələ ilə yaxın əlaqəsi vardır. Bu məsələ filosofların və kəlamçıların diqqətini cəlb etməklə yanaşı, həm də hər bir insanın həyatında əsas məsələlərdən biridir. Elə buna görə də, "alın yazısı" məsələsi qədimdən müxtəlif xalqların ədəbiyyatında özünəməxsus yer tutmuş və böyük əsərlər yaratmaqda şairlərin və yazıçıların əsas mövzusu olmuşdur. Şübhəsiz, dindarlar bu məsələni Allahın elmi və iradəsi ilə əlaqələndirirlər, ateistlər isə onu maddi səbəblərdən qaynaqlanan zərurətə məxsus bilirlər.

Hər halda, qəza və qədər prinsipi islam dininin aksiomlarındandır və bu haqda o qədər ayələr və hədislər vardır ki, heç bir şəkk-şübhəyə yer qalmır. Bununla belə, bu mühüm etiqadi prinsipin təfsirində müxtəlif islam firqələri arasında bir sıra fikir ayrılıqları vardır.

**Qəza və qədərin mənası**

"Qədər" sözü bir şeyin həddi, ölçüsü və miqdarı mənasınadır. "Qəza" sözü üçün də müxtəlif mənalar deyilmişdir. Onlardan hökm, qətiyyət və sona çatdırmaq mənalarına işarə etmək olar.

Həm bu iki söz, həm də onlarla eyni kökdən olan bir sıra sözlər bir çox ayə və hədislərdə işlənmişdir. Mövzumuzun ardında onlara işarə edəcəyik.

**Qəza və qədərin qismləri**

Məsələyə daha da aydınlıq gətirmək üçün qəza və qədəri iki qismə bölmək olar:

1. Elmi (Allahın elmi ilə bağlı) qəza və qədər;

2. Feli (Allahın işi, feili ilə bağlı) qəza və qədər.

Digər bir bölgüyə görə qəza və qədər fərdi və ümumiyə bölünür.

Mövzumuzu elmi qəza və qədərlə davam etdiririk, sonra isə digər qismlərə toxunacağıq.

**Elmi qəza və qədər**

Elmi qədərin mənası budur ki, Allah-taala hər bir şeyi yaratmazdan öncə onun həddindən və xüsusiyyətlərindən xəbərdardır. Xüsusiyyətlər dedikdə, mücərrəd varlıqlarda onların zati xüsusiyyətləri, maddi varlıqlarda isə zati xüsusiyyətlərdən əlavə,

zaman, məkan, həcm, miqdar və s. kimi xüsusiyyətlər nəzərdə tutulur. Beləliklə, Allah-taala yaratdıqlarının xüsusiyyətlərindən əzəldən xəbərdardır.

Elmi qəza isə Allah-taalanın, əşyaların səbəbləri gerçəkləşdikdə o əşyaların zəruri[114] olaraq var olacağını bilməsidir. Yəni Allah-taala hər bir şeyin xüsusi şəraitdə və xüsusi səbəblərin təsiri nəticəsində mövcud olacağını əzəldən bilir. Beləliklə, deyə bilərik ki, Allahın hər bir şeyin xüsusiyyətlərini və onların vücuda gəlməsinin zəruriliyini bilməsi "elmi qəza və qədər" adlanır.

Aydın oldu ki, bu mənada olan qəza və qədər Allahın elminə aid bir məsələdir və elm sifətinin şaxələrindəndir. Odur ki, Allah-taala hər bir şeyin hansı xüsusiyyətlərlə və hansı şəraitdə yaranacağını və öz varlığını necə davam etdirəcəyini bilir. Tale adlanan məsələ də elə bundan ibarətdir.

**Feli qəza və qədər**

Feli qədər dedikdə, Allahın bütün yaranmışlar üçün həm zati, həm də qeyri-zati xüsusiyyətlər təyin etməsi nəzərdə tutulur. Feli qəza isə budur ki, Allah-taala öz yaratdıqlarına varlıq zəruriliyi bəxş edir və səbəblər vasitəsilə onların varlığını gerçəkləşdirir.[115] Başqa sözlə desək, hər bir mümkün varlıq iki cəhətdən ibarətdir:

1. Mövcudların səbəbiyyət qanununa görə zəruriləşən varlığı;

2. Onların xüsusiyyətləri.

Feli qəza və qədər o deməkdir ki, bu iki cəhət Allah tərəfindəndir və Onun istəyinə bağlıdır. Feli qəza və qədərin mənasına nəzər salmaqla bir neçə məsələ aydınlaşır:

1. Elmi qəza və qədərin əksinə olaraq, feli qəza və qədər əşyaların varlığıdan öncə deyil, onunla birlikdədir.

2. Feli qəza və qədər Allahın yaratması ilə bağlı bir xüsusiyyətdir və onu "xaliqiyyət" sifətinə müncər etmək olar.

3. Əşyalara xaricdə xüsusiyyətlər təyin etmək (feli qədər) onların vücudunun dərəcəsindən asılı olaraq fərqlənir. Buna görə, mücərrəd varlıqlarda qədər onların zati hədlərini müəyyənləşdirmək deməkdir. Amma maddi varlıqlarda qədər zaman və məkan şəraitinə, keyfiyyət və kəmiyyət xüsusiyyətlərinə (gözəllik, sağlamlıq və s.) də aid olur.

---

[114] Fəlsəfədə qeyd edildiyi kimi, burada zəruri dedikdə "zati (özlüyündə) zəruri" yox, "vasitəli zəruri" nəzərdə tutulur. Belə ki, tam səbəb mövcud olduqda nəticənin mövcud olması zəruri olur və bu da "zati imkanla" zidd deyil.

[115] Fəlsəfi terminlə belə deyə bilərik ki, ki, mümkün mahiyyətin varlıq və yoxluğa olan nisbəti eynidir. Sanki mümkün bir şey varlıq və yoxluq arasında tərəddüd edir. Amma səbəbin gəlməsi ilə bu tərəddüd aradan qalxır və varlıq tərəfi qətiləşir.

**Tale və ixtiyar**

Qəza və qədər mövzusunda əsas məsələlərdən biri onun insan azadlığı ilə əlaqəsidir. Elmi qəza və qədərin tələbinə görə Allah-taala öncədən bilir ki, insanların əməlləri hansı xüsusiyyətdə və hansı şəraitdə olacaqdır. Həmçinin feli qəza və qədərə görə insanların əməllərinin formalaşmasında və vücuda gəlməsində Allah iradəsinin dəxaləti var. Odur ki, bəziləri belə güman edirlər ki, qəza və qədər insan ixtiyarı ilə ziddiyyət təşkil edir və insanlar bu varlıq aləmində oyunçu yox, öncədən zəruriliyi və qətiliyi təyin edilmiş hadisələri izləyən ixtiyarsız tamaşaçıdırlar. Beləliklə, qəza və qədər əqidəsi cəbriliyin (fatalizmin) amillərindən birinə çevrilmişdir. Çox qəribədir ki, Quranın insanın ixtiyarlı olmasına və məsuliyyət daşımasına təkid edib müşriklərin cəbr əqidəsini dəlillərlə rədd etməsinə baxmayaraq, müsəlmanlar arasında "qədəriyyə"[116] adlanan qrup qəza və qədər əqidəsini insanın ixtiyarının inkarı hesab etmişlər.

Bizim buna qısa cavabımız budur ki, elmi qəza və qədərdə insanların əməlləri qeyd-şərtsiz şəkildə yox, bütün xüsusiyyətləri ilə birlikdə əks olunur. Bu xüsusiyyətlərə misal olaraq əməllərin ixtiyarlı olmasını, insanın iradə və qüdrətinin əməllərin baş verməsində təsirini göstərmək olar. Beləliklə, Allah-taala əzəldən bilir ki, insan öz ixtiyarı vasitəsilə hansı əməlləri yerinə yetirəcək. Belə olduqda, Allahın elmi və "qəza və qədər" insanın ixtiyarını nəinki istisna etmir, hətta onu təsdiq edir. Bir sözlə, Allah hər hansı bir əşyanın bütün xüsusiyyətləri ilə birlikdə ondan işin necə baş verəcəyini bilir. Odur ki, şüursuz və ixtiyarsız varlıqlardan (məs.: istiliyin səbəbi olan od) işlərin ixtiyarsız baş verəcəyini bilir. Yəni Allah-taala hansısa bir odun müəyyən zaman və məkanda ixtiyarsız şəkildə istilik yaradacığını əzəldən bilir. Amma əgər iş görən şüurlu və ixtiyarlı olarsa, bu halda qəza və qədər obyekti şəxsin azad şəkildə seçimidir.

Feli qəza və qədər məsələsində də buna oxşar cavab vermək olar. Bəndələrin əməllərinin baş verməsində Allahın feli qəza və qədəri birbaşa yox, səbəblər vasitəsilə və səbəbiyyət qanunu çərçivəsində təsir göstərir. İnsanın iradəsi və ixtiyarı da azad əməllərin səbəblərindən biri olduğu üçün qəza və qədər insanın iradəsi və ixtiyarı yolu ilə öz təsirini göstərir. Beləliklə, azad əməllərin keyfiyyətlərini və xüsusiyyətini təyin edib (feli qədər), onların gerçəkləşməsini zəruri etmək (feli qəza) nəinki ixtiyarı rədd etmir, əksinə ixtiyarladır və onun vasitəsilə təsir göstərir.[117]

---

[116] Qeyd etmək lazımdır ki, "qədəriyyə" termini iki antonim mənada işlənmişdir. Bəzən Allahın qədərini cəbr hesab edənlər, bəzən də Allahın qədərini cəbr bilməyən ixtiyar tərəfdarları mənasında işlənir. Buna görə, hər bir tərəf (cəbr və ixtiyar tərəfdarları) peyğəmbərdən (s) qədəriyyənin məzəmməti barədə nəql olunan hədisi qarşı tərəfə aid edir.

[117] Bu haqda geniş məlumat üçün bax: Şəhid Mütəhhəri, "İnsan və tale" (Əsərlərinin külliyatı, 1-ci cild, səh. 344-436.)

**Ümumi qəza və qədər**

İndiyə qədər araşdırdıqlarımız xüsusi varlıqlara aid olan qəza və qədər idi. Lakin qəza və qədərin başqa mənası da vardır, o da Allahın fərdlər və cəmiyyətlər üçün təyin etdiyi ümumi qanunlardır. Beləliklə, Allah-taala əzəli elminə əsasən, müəyyən qanunları özünəməxsus xüsusiyyətlərlə təyin etmiş və onları tarix boyu insan cəmiyyətində icra etmişdir. Məsələn, "səbəbiyyət qanunu" Allahın ümumi qanunlarındandır və ilahi qəza və qədər ona şamil olur.

**Qəza və qədər Quran və hədislərdə**

Qəza və qədər məsələsi bir çox ayə və hədislərdə öz əksini tapmışdır. Burada onlardan bir neçəsinə işarə edirik:

Bəzi hədislərdə qəza və qədərin mənasına işarə edilmişdir. İmam Rzadan (ə) nəql olunan bir hədisdə belə deyilir: "Qədər əşyaların qalmasının və ya fani olmasının hədlərini təyin etməkdir. Qəza isə möhkəmlətmək və icad etməkdir".[118]

İmam Rzadan (ə) nəql olunan digər bir hədisdə deyilir:

"Qədər uzunluq, en və qalmaq cəhətindən hədd təyin etməkdir. Sonra buyurur: Allah-taala bir şeyi istəsə (məşiyyət), onu iradə edər və onu iradə etsə, ölçüsünü təyin edər (qədər) və ölçüsünü təyin etsə, o işi başa çatdırar (qəza) və bundan sonra onu imzalayar".[119]

Quranda bir çox ayələr elmi qəza və qədərdən bəhs edir. Bu ayələr Allahın elmini "kitab" adlandırır.[120] Aşağıdakı ayələri nəzərdən keçirək:

وَمَا كَانَ لِنَفْسٍ أَنْ تَمُوتَ إِلاَّ بِإِذْنِ الله كِتَابًا مُّؤَجَّلاً

"Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. O, vaxtı müəyyən edilmiş bir yazıdır". (Ali-İmran: 145)

وَاللَّهُ خَلَقَكُم مِّن تُرَابٍ ثُمَّ مِن نُّطْفَةٍ ثُمَّ جَعَلَكُمْ أَزْوَاجًا وَمَا تَحْمِلُ مِنْ أُنثَى وَلَا تَضَعُ إِلَّا بِعِلْمِهِ وَمَا يُعَمَّرُ مِن مُّعَمَّرٍ وَلَا يُنقَصُ مِنْ عُمُرِهِ إِلَّا فِي كِتَابٍ إِنَّ ذَلِكَ عَلَى اللَّهِ يَسِيرٌ

"Allah sizi torpaqdan, sonra nütfədən xəlq etmiş, sonra da sizi (kişi və qadın olmaqla) cüt-cüt yaratmışdır. O bilmədən heç bir qadın hamilə olmaz və doğmaz yerə qoymaz. Uzunömürlünün uzun ömür sürməsi də, onun (yaxud başqa birinin) ömrünün qısaldılması da ancaq kitabda yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır". ("Fatir": 11)

مَا أَصَابَ مِن مُّصِيبَةٍ فِي الْأَرْضِ وَلَا فِي أَنفُسِكُمْ إِلَّا فِي كِتَابٍ مِّن قَبْلِ أَن نَّبْرَأَهَا إِنَّ ذَلِكَ عَلَى اللَّهِ يَسِيرٌ

---

118 "Üsuli-kafi", 1-ci cild, səh. 158.

119 "Biharul-ənvar", c. 5, səh. 122.

120 Şübhəsiz, "kitabdan" məqsəd yazılmış olan maddi bir şey deyil. Bu kəlmə, Allahın elminin bəzi dərəcələrinə işarə edir.

“Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda yazılmamış olsun. Bu, Allah üçün çox asandır”. (“Hədid”: 22)

Digər ayələrdə feli qəza və qədərə işarə edilmişdir. Bu haqda aşağıdakı ayələri qeyd edirik:

فَقَضَاهُنَّ سَبْعَ سَمَاوَاتٍ فِي يَوْمَيْنِ وَأَوْحَى فِي كُلِّ سَمَاء أَمْرَهَا

“Yeddi göyü iki gündə yaratdı və hər bir göyə işini vəhy etdi”. (“Fussilət”: 12)

هُوَ الَّذِي خَلَقَكُم مِّن طِينٍ ثُمَّ قَضَى أَجَلاً

“Sizi palçıqdan yaradan, sonra da sizə əcəl (ömürlərinizə müddət) yazan Odur. (“Ənam”: 2)

وَإِذَا قَضَى أَمْراً فَإِنَّمَا يَقُولُ لَهُ كُن فَيَكُونُ

“Bir işin yaranmasını istədiyi zaman, ona (o işə) yalnız: “Ol!” –deyər, o da (dərhal) olar”. (“Bəqərə”: 117)

Aşağıdakı ayələr də “feli qədərə” işarə edir:

الَّذِي خَلَقَ فَسَوَّى وَالَّذِي قَدَّرَ فَهَدَى

“O Rəbbin ki, xəlq etdi və nizama saldı. O Rəbbin ki, (hər şeyin xüsusiyyətini, davam müddətini) əzəldən müəyyən etdi və yol göstərdi”. (“Əla”: 2-3)

مِن نُّطْفَةٍ خَلَقَهُ فَقَدَّرَهُ

“Rüşeymdən yaratdı və onu ölçüsündə əmələ gətirdi”. (“Əbəsə”: 19).

إِنَّا كُلَّ شَيْءٍ خَلَقْنَاهُ بِقَدَرٍ

“Həqiqətən, biz hər şeyi öz ölçüsündə yaratmışıq”. (“Qəmər”: 49)

Quranın müxtəlif ayələrində ümumi qəza və qədərə işarə edilmişdir. Onlardan bir neçəsini qeyd edirik:

إِنَّ اللّهَ لاَ يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأَنْفُسِهِمْ

“Və Allah xalqın vəziyyətini özləri dəyişdirmək istəməyənədək dəyişməz”.[121] (“Rəd”: 11)

وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِن شَكَرْتُمْ لأَزِيدَنَّكُمْ وَلَئِن كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ

“Rəbbiniz bunu bildirib ki, həqiqətən, əgər Mənə şükür etsəniz, sizə (olan nemətimi) artıracağam. Yox, əgər nankorluq etsəniz, Mənim əzabım, həqiqətən, şiddətlidir!” (“İbrahim”: 7)

وَمَن يَتَّقِ اللَّهَ يَجْعَل لَّهُ مَخْرَجًا وَيَرْزُقْهُ مِنْ حَيْثُ لَا يَحْتَسِبُ

“Kim Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər”. (“Talaq”: 2 və 3)

[121] Bax: Ənfal: 53.

Peyğəmbər (s) və əhli-beytinin hədislərində qəza və qədər məsələsinin müxtəlif cəhətlərinə toxunulmuşdur.[1] Bəzi hədislər ona etiqadın əhəmiyyət və zəruriliyindən bəhs bəhs edir. Peyğəmbər (s) buyurur: "Hər bir bəndə dörd şeyə iman gətirdikdən sonra (həqiqi) mömin olar: Yeganə Allahdan başqa bir məbudun olmamasına, mənim Allahın peyğəmbəri olmağıma və haqq ilə göndərilməyimə, ölümdən sonrakı dünyaya və Allahın təyin etdiklərinə (qəza və qədərinə) iman gətirsin.[2]

Göründüyü kimi, peyğəmbər (s) Allahın qəza və qədərinə imanı tövhid, nübuvvətə və məada etiqadla yanaşı qeyd etmişdir. Bu həqiqət, qəza və qədərin böyük əhəmiyyətə malik olmasını bildirir.[3]

Bəzi hədislərdə qəza və qədərin həqiqətinə varmağın çox çətin olması vurğulanmışdır. Əmirəlmöminin qəza və qədər haqda soruşan şəxsin cavabında buyurdu: "Qaranlıq bir yoldur, orada addım atmayın. Dərin bir dəryadır, oraya baş vurmayın və Allahın sirridir, özünüzü (həqiqətini dərk etmək üçün) zəhmətə salmayın".[4]
salmayın".[4]

İmamların özləri başqa hədislərdə qəza və qədər haqqında müəyyən qədər izahlar verdiyi üçün bu hədisi belə başa düşmək olar ki, qəza və qədərin bəzi cəhətlərini dərk etmək mümkün olsa da, onun həqiqətini dərk etmək - xüsusilə adi insanlar üçün - müyəssər olmur.

Bəzi hədislərdə də qəza və qədərin cəbriliklə əlaqəsi ciddi şəkildə rədd edilmişdir. Peyğəmbər (s) buyurur: "Tezliklə mənim ümmətim üçün elə bir zaman gələcəkdir ki, günahkarlar günahlarını qəza ilə əlaqələndirəcəklər (və onları Allahın qəza və qədərindən hesab edəcəklər). Onlar məndən uzaqdırlar, mən də onlardan uzağam".[5]

Həzrət Əli (ə) qəza və qədər haqqında olan sualın cavabında buyurdu: "Deməyin ki, Allah bəndələrini öz başına buraxmışdır. Çünki bu söz Allaha təhqirdir. Nə də deməyin ki, onları günahlara məcbur etmişdir. Çünki bu, Allaha zülmdür. Deyin ki, xeyir və yaxşılıq Allahın lütfünə görədir, şər və pisliksə Allah Öz lütfünü kəsdiyinə görədir. Allah hər şeyi öncədən bilir".

---

[1] Qeyd etməliyik ki, qəza və qədər məsələsi "Əhli-sünnə" hədislərində elə bəyan edilmişdir ki, "cəbr" əqidəsi ilə nəticələnir. Bu hədislər sənəd baxımından zəif olmaqla yanaşı, insanın ixtiyarlı olmasına birmənalı şəkildə çatdıran ayələrlə zidd olduğu üçün qəbul oluna bilməzlər. Bax: "əl-İlahiyyat əla hudəl-kitabi vəs-sunnəti vəl-əql" 2-ci cild, səh. 203-211.

[2] "Biharul-ənvar", c. 5, səh. 87, 2-ci hədis.

[3] Bu haqda oxşar hədilsəri mütaliə etmək üçün bax: "Biharul-ənvar", 5-ci cild, Qəza və qədər fəsli, 2-7-ci ci hədislər.

[4] "Nəhcül-bəlağə", 287-ci hikmət.

[5] Zinəddin Amuli, "əs-Siratul-müstəqim ila müstəhəqqit-təqdim." Səh. 32.

**Terminlər**

Qəza

Qədər

Elmi qəza və qədər

Feli qəza və qədər

Ümumi qəza və qədər

**Dördüncü fəslin xülasəsi**

1. Qəza və qədər məsələsi islam dininin aksiomlarındandır. Bu haqda Quran və hədislərdə birmənalı şəkildə danışılmışdır. Qəza və qədər bəhsi "tale" məsələsi ilə əlaqəli olduğu üçün hamının diqqət mərkəzində olan məsələlərdəndir.

2. "Qədər" ölçü və miqdar mənasınadır. "Qəza" isə qətilik deməkdir.

3. Qəza və qədər bir bölgüyə görə "elmi və obyektiv"yə, başqa bir cəhətdən "fərdi və ümumi"yə bölünür.

4. "Elmi qədər" o deməkdir ki, Allah-taala hər hansı bir şeyi yaratmazdan öncə onun xüsusiyyətlərindən və hədlərindən xəbərdardır. "Elmi qəza" isə bu mənayadır ki, Allah-taala hər bir şeyin vücuda gəlməsinin zəruriliyindən və qətiliyindən xəbərdardır.

5. "Feli qədər" Allah-taalanın hər bir şeyi yaratdıqda onların xüsusiyyətlərini və hədlərini təyin etməsindən ibarətdir. "Feli qəza" Allahın, məxluqların varlığını qətiləşdirməsi və onları var etməsidir.

6. Allahın elmi qəza və qədəri insanın ixtiyarlı işlərinə onların ixtiyarlı şəkildə baş verməsi şərtilə aid olur və bu səbəbdən, insanın ixtiyarı ilə zidd deyil. Həmçinin, feli qəza və qədər səbəblər yolu ilə həyata keçir və buna görə də insanın iradəsinin ixtiyarlı işlərdə təsiri ilə zidd deyil. Beləliklə, qəza və qədər qətiyyən cəbrlə nəticələnmir.

7. Allahın hər bir fərdə və əşyaya aid olan qəza və qədərindən əlavə ümumi qəza və qədəri də vardır. Ümumi qəza və qədərin mənası budur ki, Allah əzəli elmində bir sıra ümumi qanunları özünəməxsus xüsusiyyətlərlə müəyyənləşdirir və bu qanunları tarix boyu cəmiyyətdə həyata keçirir.

8. Ayə və hədislərdə də qəza və qədərin qisimlərinə və onun insanın ixtiyarı ilə uyğunluğuna işarə edilmişdir.

**Beşinci fəsil**

**Cəbr və ixtiyar**

**Giriş**

Qədimdən insanların fikrini özünə cəlb edən əsas məsəllərdən biri də "cəbr və ixtiyar" məsələsidir. Bu məsələ ilə bağlı əsas suallardan biri budur ki, insanlar ən azından bəzi əməllərində ixtiyarlıdırıar, yoxsa heç bir ixtiyarları yoxdur və bütün işləri məcburiyyət üzündəndir? İxtiyar dedikdə, insanın işlərinin şüur, qüdrət və iradə əsasında baş verməsi və onu tərk etməyə qadir olması nəzərdə tutulur. Başqa sözlə desək, ixtiyarlı iş - iş görənin seçimi, qərarı və iradəsi əsasında baş verən işə deyilir. Əlbəttə, qeyd etməliyik ki, ixtiyarlı iş həmişə həvəs və rəğbətdən irəli gəlmir. Bəzi hallarda insan öz həvəsinin əksinə olsa da, faydalı olduğunu bildiyi üçün bir işi yerinə yetirir və belə işlər də ixtiyarlı iş sayılır. Necə ki, bir xəstə öz istəyinin əksinə olaraq acı dərmanı içməyə razılaşır.

Hər bir halda, qeyd etdiyimiz sualın cavabında iki əsas fikir mövcuddur: cəbr tərəfdarı olan bir qrup insanın heç bir işini ixtiyarlı hesab etmirlər.[1] Digər bir dəstə isə insan ixtiyarı əqidəsindən müdafiə edir və insanı bəzi işlərində azad hesab edirlər.

**Cəbr və ixtiyar mövzusunun müxtəlif aspektləri**

Qeyd etməliyik ki, haqqında danışdığımız məsələ kəlam elminə məxsus deyil. Əksinə, bir çox elmlərdə bu haqda müxtəlif aspektlərdən bəhs edilir və bu da cəbr və ixtiyar məsələsinin çoxcəhətli olmasını göstərir. Bu məsələsinin bir hissəsi kəlam, digər bir hissəsi isə fəlsəfə ilə bağlıdır. Digər tərəfdən, insanla bağlı bir məslə olduğundan antropologiya elminin məsələləri ilə də əlaqəlidir. Odur ki, cəbr və ixtiyar məsələsi bir çox sahələrdə araşdırılır və buna görə də ona müxtəlif aspektlərdən yanaşılır ki, burada onların üçünə işarə edirik:

1. Kəlami baxış. Burada əsas mövzu cəbr və ixtiyar məsələsinin Allahın xaliqiyyətdə tövhid, iradə, elm və s. sifətləri ilə əlaqəsindən ibarətdir. Bu cəhətdən məsələ kəlami xarakter daşıyır.

2. Fəlsəfi baxış. Burada cəbr və ixtiyar məsələsinin bəzi ümumi fəlsəfi qanunlarla əlaqəsi araşdırılır və Allah və Onun sifətləri bəhsi ilə birbaşa əlaqəsi yoxdur.[2]

---

[1] Quran ayələrindən ərəb müşrikləri arasında cəbr əqidəsinin geniş yayıldığı başa düşülür. Bax: Ənam: 148; Zuxruf: 20.

[2] Fəlsəfədə səbəbiyyətlə bağlı qanunlardan biri budur ki, tam səbəb mövcud olan şəraitdə nəticə də zəruri olur. Digər tərəfdən, insanın əməlləri nəticədir və onların hər birinin özünün tam səbəbi vardır, buna

3. Sosioloji və psixoloji baxış. Şübhəsiz, irs, tərbiyə və mühit və s. amillərin insanın rəftarında inkaredilməz dərin təsiri vardır. Burada, cəbr və ixtiyar məsələsi bu cəhətdən araşdırılır ki, bu amillər insanın ixtiyarını əlindən alıb onun məcbur olmasına gətirib çıxarmırmı?

Hər halda biz bu kitabın məqsədini və mövzusunu nəzərə alıb mövzunu birinci cəhətdən araşdıracaq və cəbr və ixtiyarın yalnız kəlam elminə aid olan əsas məsələlərini vurğulayacayıq.

**Müsəlmanlar arasında cəbr və ixtiyar məsələsinin tarixi**

Erkən islama nəzər saldıqda cəbrilik əqidəsinin hicri tarixi ilə I əsrdə müsəlmanlar arasında tədricən yayılmış olduğu aydın olur. Bu əqidə istibdadçı hakimlərin mənafeyi ilə üst-üstə düşdüyü üçün onlar tərəfindən dəstəklənməyə başladı.[3] Beləliklə, əhli-hədisdən bəziləri cəbr əqidəsini qəbul etdi. Cəbr nəzəriyyəsi ilk dəfə cəhmiyyə firqəsinin banisi Cəhm ibn Səfvan tərəfindən (hicri tarixi ilə 124-cü ildə vəfat etmişdir) ortaya atıldı. O, bu məsələdə ifrat mövqe seçmişdi və insanın öz əməllərində heç bir rol oynamadığına inanırdı. Məsələn, inanırdı ki, insanda heç bir qüdrət, iradə, ixtiyar yoxdur və Allah-taala cansız əşyalarda bir sıra təsirlər yaratdığı kimi insanın əməllərini onda yaradır. İfratçı cəbrilik sonralar mötədil formaya düşdü və əşərilər insanın öz ixtiyarlı əməllərindəki roluna müəyyən qədər yer vermək məqsədilə "kəsb" nəzəriyyəsini ortaya atdılar.

Cəbrililərin əksinə olaraq, Məbəd Cuhəni və onun şagirdi Qeylan Dəməşqi insanın ixtiyarlı olmasını müdafiə edirdilər. Lakin "ixtiyar" əqidəsi mötəzililər tərəfindən tədricən "təfviz" (həvalə) nəzəriyyəsinə tərəf yönəldi. Amma məsum imamların səhabələri və ardıcılları təfviz əqidəsinə düçar olmadan cəbriliklə mübarizə aparıb, nə cəbriliklə, nə də təfviz ilə nəticələnməyən dəqiq və incə bir yol seçə bildilər.

Beləliklə, cəbr və ixtiyar məsələsinin kəlami müzakirəsi tarixində üç əsas nəzəriyyənin olduğunu görürük:

1. Cəbr nəzəriyyəsi. Bu nəzəriyyə ilk öncə xalis cəbr şəklində meydana gəldi, amma sonralar "kəsb" nəzəriyyəsini artırmaqla mötədil vəziyyətə gəldi. Əşərilər mötədil cəbriliyin tərəfdarıdırlar.

2. Təfviz nəzəriyyəsi. Bu nəzəriyyə ifratçı cəbriliyə qarşı mötəzililər tərəfindən göstərilən reaksiya idi.

3. İxtiyar və ya orta hal (əmrun beynəl-əmreyn) nəzəriyyəsi. Şiə kəlamçıları məsum imamların dərin təlimlərindən bəhrələnib, nə cəbr nəzəriyyəsini, nə də təfviz

---

görə, səbəbləri var olduqda özləri də zəruri şəkildə mövcud olurlar. Burada belə bir sual ortaya çıxır ki, bu fəlsəfi zəruriliklə əməllərin ixtiyarlı olması arasında uyğunluq varmı? Cəbr və ixtiyarla bağlı fəlsəfi bəhslər haqda bax: "əl-İlahiyyat əla hudəl-kitabi vəs-sunnə", 2-ci cild, səh. 303-314.

[3] Qazi Əbdülcabbar Mötəzili deyir: "Cəbr məsələsi Müaviyə hakimiyyətə gəldikdən sonra meydana gəldi və əməvi hakimləri bu əqidəni dəsdəkləyirdilər. Bu səbəbdən də cəbr məsələsi əməvi hakimləri arasında meydana gəldi və şamlılar arasında genişləndi..." Qazi Əbdülcabbar, "Fəzlul-etizal", səh. 122.

nəzəriyyəsini qəbul etmədilər. Onlar hədislərdən iqtibas etməklə üçüncü fikir olan ixtiyar nəzəriyyəsi qəbul etdilər.

Cəbr və ixtiyar bəhsindəki nəzəriyyələr aydın olduqdan sonra bu nəzəriyyələri bir-bir bəyan edib, dəlillərini əziz oxuculara təqdim etmək lazımdır. Amma hər şeydən öncə mühüm bir məsələyə işarə etmək istərdik:

**Vicdan ixtiyar nəzəriyyəsini təsdiq edir**

İxtiyar nəzəriyyəsinin tərəfdarları inanırlar ki, bu nəzəriyyə heç bir insaflı şəxsin inkar etmədiyi qəti sübutlara əsaslanır. Hər bir insan ixtiyarlı olduğunu öz daxilində duyur. Daxili aləmimizə müraciət etməklə etiraf etməliyik ki, bəzi əməllərdə ixtiyar sahibiyik. Bu idrak vasitəsiz elm olduğu üçün onda xəta və səhv ehtimalı yoxdur. Digər bir çox dəlillər də bunu təsdiq edir. Məsələn, əməllərə görə peşmançılıq hissi, əməllər qarşısında məsuliyyət daşımaq, özünə və ya başqalarına bəzi işləri vəzifə bilmək, digərlərini əmrə tabe olmadıqlarına görə cəzalandırmaq və... bütün bunlar onu göstərir ki, insan öz qəlninin dərinliklərində özünün və başqalarının ixtiyar sahibi olmasına inanır.

Sual oluna bilər ki, əgər belədirsə, bəs nə üçün bəzi tanınmış alimlər və mütəfəkkirlər cəbr əqidəsini seçib, insanın ixtiyarını inkar edirlər?

Sualı belə cavablandırmaq olar ki, cəbr əqidəsinin əsas amili (psixoloji amillərdən, siyasi mənafelərdən və şəxsi qərəzlərdən əlavə) ixtiyar əqidəsinə qarşı meydana çıxan bəzi nəzəri şübhələrdir. Nəticədə, şübhələrlə qarşılaşanlar, onları cavablandıra bilmədiklərindən öz daxili aləmlərindəki aşkar sübutları ayaq altına alıb, cəbr uçurumuna yuvarlanmışlar. Əlbəttə, bu çox da qəribə və nadir bir hal deyil. Çünki bəşər düşüncəsinin tarix boyu bəzən ən aşkar həqiqətlərə şübhə ilə yanaşanlar olmuşdur.

**Cəbr nəzəriyyəsinin tənqidi**

Cəbr nəzəriyyəsində əşərilərin əsas dəlillərini nəzərdən keçirək:

1. Xaliqiyyətdə tövhid. Əşərilərin cəbr nəzəriyyəsinə olan əsas dəlillərindən biri onların xaliqiyyətdə tövhiddən başa düşdükləri məxsus mənadır. Bu mənaya əsasən, hər bir şeyin yeganə xaliqi Allah-taaladır. "Şey" anlayışı insan əməllərinə də şamil olduğu üçün Allahın xaliqiyyəti insanın əməllərini də ehtiva edir. Odur ki, insanın əməllərini yaradan Allahdır. Bu alternativsizliyin mənası odur ki, insanın öz əməllərini yaratmaqda heç bir rolu yoxdur və elə buna görə də ixtiyarlı olmağa heç bir yer qalmır.

Feldə tövhid və onun təfərrüatı haqqında etdiyimiz geniş bəhsləri nəzərə almaqla yuxarıdakı dəlilin cavabı aydın olur. Xaliqiyyətdə tövhidin mənası budur ki, digər varlıqların icazəsinə ehtiyacı olmadan yaradan yeganə müstəqil xaliq Allah-taaladır. Buna görə, digər varlıqların Allahın izni ilə və Allahın yaratdığı qanunlar çərçivəsində yaranışda təsir göstərmələrinin xaliqiyyətdə tövhidlə heç bir ziddiyyəti yoxdur. Keçən bəhslərlə bunu da qeyd etdik ki, bir çox Quran ayələrində icad və təsir məxluqlara da

isnad verilmişdir. Beləliklə, xaliqiyyətdə tövhid insanın öz əməllərindəki rolu ilə heç də ziddiyyət təşkil etmir. Şübhəsiz, xaliqiyyətdə tövhidə görə istər insanlar, istərsə də başqa varlıqlar öz işlərində müstəqil deyillər, əksinə, onların təsiri Allahın təsiri ilə iyerarxikdir.[4]

2. Allahın əzəli elmi. Əşərilərin cəbr nəzəriyyəsinə olan dəlillərindən biri də Allahın əzəli və mütləq elmidir. Bu dəlil qəza və qədər mövzusu ilə sıx əlaqəlidir və doğrusu, qəza və qədər mövzusu ilə cəbr və ixtiyar mövzusu arasında körpü rolunu oynayır. Allahın əzəli elminə əsaslanan dəlilin xülasəsi bundan ibarətdir:

Allah-taala öncədən insanın əməllərinin baş verəcəyindən (və ya baş verməcəyindən) xəbərdardır. Digər tərəfdən, Allahın elminin obyektiv aləmlə uyğun olmaması mümkün deyil. Beləliklə, Allah hansı işin baş verməyəcəyini bilirsə, onun insan tərəfindən baş verməsi qeyri-mümkündür və Allah hansı işin baş verəyəcəyini bilirsə, onun insan tərəfindən baş verməsi zəruridir. Üçüncü bir ehtimal olmadığından insanın əməlləri üçün iki variant qalır: ya qeyri-mümkündür, ya da zəruridir. Qüdrət yalnız mümkün (zəruri və qeyri-mümkün olmayan) işlərdə olduğu üçün insanın əməlləri onun qüdrəti ilə baş vermir, deməli ixtiyarlı şəkildə deyil.

Bu dəlili cavablandıra biləcək ən güclü cavab qəza və qədər bəhsində işarə etdiyimiz cavabdır: Allah-taala insanın əməllərindən bütün xüsusiyyətləri ilə agahdır. Bu səbəbdən, Allah-taala öncədən bilir ki, insan öz ixtiyarı ilə hansısa bir işi görəcək (ayağa qalxmaq, yol getmək və s.). Bu isə o deməkdir ki, Allah-taalaya məlumdur ki, müəyyən bir şəxs müəyyən zaman və məkanda öz ixtiyarı ilə filan işi görəcəkdir. Şübhəsiz, belə bir halda o işin yerinə yetirilməsi zəruridir. Amma bu zərurilik insanın ixtiyarı ilə zidd deyil. Çünki bu zərurilik o deməkdir ki, haqqında danışdığımız iş o işi görənin ixtiyarına da şamil olan tam səbəb vasitəsilə zəruri olmuşdur. Necə ki, hər bir nəticə öz tam səbəbinin mövcud olması ilə zəruriləşir.[5]

Bir çox islam filosofları Allahın əzəli elminin insanın ixtiyarlı işləri ilə ziddiyəti haqda irada belə cavab vermişlər. Əllamə Təbatəbai deyir: "Əzəli elm hər bir şeyə, o şeyin bütün xüsusiyyətləri ilə birlikdə aid olur. Buna görə də, insanın ixtiyarlı əməllərinin ixtiyarlı şəkildə baş verməsi bu elmdə əks olunur. Odur ki, onların ixtiyarsız şəkildə baş verməsi mümkün deyil. Başqa sözlə desək, qəza və qədər obyekti bir işin hər hansı bir şəxsdən ixtiyarlı şəkildə baş verməsidir. Buna görə də, o iş qəza və qədər obyekti olduğu

---

[4] Əşərilər öz nəzəriyyələrinə (məhz Allah-taala insan əməllərini yaradandır) digər cüzi dəlillər də qeyd etmişdirlər. Geniş şəkildə kəlam elmi mənbələrində qeyd edilmişdir. Bax: Fəxrəddin Razi, "əl-Mətalibül-aliyyə", 9-cu cild, səh. 7-244.

[5] Buna başqa belə bir cavab da vermişlər ki, elm məluma tabedir və onda təsir qoya bilməz. Buna görə, Allahın elmi insan əməllərinin ixtiyarsız olmasına səbəb ola bilməz. Çünki əks təqdirdə elmin məlumda (insan əməllərində) təsiri ilə nəticələnər. Halbuki hər bir elm öz məlumuna tabedir. Lakin qeyd etməliyik ki, bu, cavab düzgün deyil. Çünki Allahın elmi (insan elmindən fərqli olaraq) məluma tabe deyil. Geniş məlumat üçün bax: Hazırkı kitabın müəllifindən: "Elme pişineye ilahi və ixtiyare insan", səh, 15-44.

halda ixtiyarsız şəkildə baş verərsə, qəza və qədərin öz-özü ilə paradoks olmasına gətirib çıxaracaqdır (Bu da qeyri-mümkündür).[6]

3. Allahın iradəsinin istisnasızlığı. Cəbr nəzəriyyəsinin tərəfdarları olan əşərilərin üçüncü dəlili Allahın iradəsinin istisnasızlığı, yəni hər şeyi əhatə etməsidir. Əşərilərin fikrincə, Allahın iradəsinin istisnasız olması o deməkdir ki, insanın işlərinə də şamil olur. Odur ki, bəndələrin bütün işləri Allahın iradəsi ilə meydana gəlir və deməli, ixtiyarlı deyil. Çünki insanın yox, Allahın iradəsindən qaynaqlanır.

Məsələni cavablandırmazdan öncə əziz oxucuların diqqətinə çatdırmalıyıq ki, Allahın iradəsinin bəndələrinin işlərini əhatə etməsi haqda fikir ayrılığı vardır. Amma bəndələrin işlərindən Allahın öncədən agah olması haqda heç bir ixtilaf yoxdur.[7] Əşərilər Allahın iradəsinin istisnasızlığını, yəni insanların əməllərini əhatə etməsini qəbul edirlər. Mötəzililər isə insanın ixtiyarlı olmasını müdafiə etsinlər deyə bu fikri qəbul etməmişlər. Beləliklə, hazırkı mövzuda iki məsələni cavablandırmalıyıq.

1. Allahın iradəsi insanın işlərinə də şamil olurmu?

2. Allahın iradəsi insanın əməllərinə şamil olursa, bu fikir əşərilərin dediyi kimi, cəbrlə nəticələnirmi?

Düzgün cavab bundan ibarətdir ki, birinci sualın cavabı müsbət və ikinci sualın cavabı isə mənfidir. Allahın iradəsi insan əməllərini də əhatə edir. Ümumiyyətlə, varlıq aləmində heç bir hadisə və varlıq Allahın iradəsindən kənar deyil. Lakin əşərilərin dediyinin əksinə olaraq, bu məsələ cəbrlə nəticələnmir. Çünki burada da (elm mövzusunda olduğu kimi) Allahın iradəsi əməlin mütləq şəkildə baş verməsini əhatə etmir. Allahın iradəsi hər bir işin bütün xüsusiyyətləri ilə öz birbaşa səbəbindən baş verəcəyini ehtiva edir. Allahın iradəsi istiliyin ixtiyarsız şəkildə alovdan baş qaldıracağını əhatə edir. Eləcə də insanın əməlləri elm, ixtiyar və digər xüsusiyyətləri ilə Allahın iradəsinə daxildir.

Əşərilər digər dəlillər də qeyd etmişdirlər. Lakin bəhsin çox uzanmaması üçün onları araşdırmırıq.

**Kəsb nəzəriyyəsi**

Qeyd etdik ki, ixtiyar nəzəriyyəsinə qəti və inkaredilməz sübutlar mövcuddur. Odur ki, cəbr nəzəriyyəsi aşkar həqiqətin inkarıdır. Buna görə də əşərilər öz qəbul etdikləri prinsiplərdə qalmaqla insanı öz əməllərində ixtiyarlı hesab etmək istəmişlər. Məhz buna

[6] "Sədrəddin Şirazi", "əl-Əsfar əl-ərbəə", 6-cı cild, səh. 318, 2-ci haşiyə; Əllamə Təbatəbai, "Nihayətül-hikmət", 12-cı mərhələ, 14-cü fəsil; Misbah Yəzdi, "Təliqətün əla nihayətül-hikmət", səh. 238; "əl-İlahiyyat əla hudəl-kitabi vəs-sunnə", 1-ci cild, səh. 631.

[7] Əşəri "Məqalatul-islamiyyin" kitabında Hişam ibn Həkəmdən nəql edir ki, o, məlumun aktual varlığını lazım bilirmiş və buna görə, Allahın əvvəlcədən bəndələrin əməllərindən xəbərdar olmasını inkar edirmiş. Amma bu nəzəriyyənin Hişam ibn Həkəmə - xüsusilə o, İmam Sadiqin (ə) şagirdlərinə qoşulduqdan sonra - aid edilməsi şübhəlidir.

görə idi ki, kəsb nəzəriyyəsi meydana gəldi. Əşəri alimlərinin sözlərinə nəzər saldıqda bu nəzəriyyənin müxtəlif şəkillərdə təfsir olunduğunu görürük. Burada onlardan bir neçəsini qeyd edirik:

1. Bir təfsirə əsasən, kəsb insanda yaranan qüdrətin işin görülməsində təsirindən ibarətdir. Bu təfsirə görə insan qeyri-məcburi bir iş görmək istədikdə Allah-taala onda qüdrət yaradır və insanda yaranan qüdrət işin yerinə yetirilməsində təsir qoyur. Bu təfsirə cavab olaraq qeyd etməliyik ki, yaranan qüdrət Allahın qüdrəti ilə yanaşıdırsa (üfüqi), bu, iki tam səbəbin bir nəticədə təsir göstərməsi deməkdir və bu da qeyri-mümkündür. Amma əgər insanın qüdrəti Allahın qüdrəti ilə iyerarxikdirsə (şaquli), bu o deməkdir ki, insanın öz işində təsiri vardır və "ixtiyar" nəzəriyyəsinin tərəfdarlarının dediyi də elə budur.

2. Hər bir işin iki cəhəti vardır:

a) İşin vücudu;

b) Vücuddan əlavə olan xüsusiyyətlər.

İnsan qüdrəti yalnız ikinci cəhətdə təsir göstərir və bu təsir sayəsində insan əzab və savaba layiq olur. Beləliklə, işlərin vücudu Allahın məxluqudur, lakin bu əməllərin xüsusiyyətləri, o cümlədən "namaz qılmaq", "yemək", "yalan danışmaq" və bu kimi xüsusiyyətlər insanda yaranan qüdrətdən qaynaqlanır. Bu təfsirə görə kəsb insanın qüdrətinin yalnız əməllərin xüsusiyyətlərinin meydana gəlməsində təsir göstərməsi deməkdir.

Bu təfsirin cavabı budur ki, işlərin xüsusiyyətləri real və həqiqidirsə, əşərilərin xaliqiyyətdə tövhid barədə etdikləri təfsirə görə onlar (işlər) Allahın məxluqu olmalı və nəticədə insanın onlarda heç bir təsiri olmamalıdır. Amma əgər xüsusiyyətlər yalnız şərti xarakter daşıyırsa, kəsb nəzəriyyəsi də qeyri-həqiqi bir bir şeydir.

3. Bəzən kəsb nəzəriyyəsini belə izah edirlər ki, insanda hər hansı bir iş üçün iradə və qüdrət yarandıqda Allah o işi insan iradəsi və qüdrətinin təsiri olmadan icad edir.

Bu təfsirin də iradı budur ki, insanın iradəsinin Allahın məxluqu sayılan bir işlə eyni zamanda olması bu işin insana aid olması demək deyil, nəticədə insan o iş qarşısında məsuliyyət daşımır. Bundan əlavə, burada insanın iradəsi formal və qeyri-həqiqi bir iradədir. Çünki həqiqi iradənin baş verən işdə təsiri olmalıdır və onun baş vermə səbəblərindən sayılmalıdır.

Deyilənlərdən nəticə alırıq ki, əşərilər Allahın təkliyinə, mütləq qüdrətinə, elminə və mülkiyyətinə əqidəni qorumaq üçün və bu sifətlər haqqında səthi təfəkkürə malik olduqlarına görə fikirlərini cəbriliyə üz tutmuş və öz fikirlərinin bütün insanların qəbul etdikləri aksiomlarla aşkar ziddiyyətdə olmaması üçün kəsb nəzəriyyəsini (müxtəlif təfsirləri ilə) ortaya atmışlar. Amma bir sözlə deməliyik ki, onların nəzəriyyəsi həqiqətlə uyğun deyil və qeyd edəcəyik ki, hətta Quran ayələri ilə də ziddir.

**Təfviz nəzəriyyəsi**

Burada mötəzililərin təfviz nəzəriyyəsini araşdıracağıq. Əşərilərlə tam əks mövqedə dayanan mötəzililər inanırlar ki, insanın ixtiyarlı işləri yalnız qüdrətinin nəticəsidir, insan bu işlərdə tamamilə müstəqildir və Allahın bu işlərdə heç bir təsiri yoxdur. Başqa sözlə desək, Allah-taala azad əməllər sahəsində hər şeyi insanın özünə həvalə etmişdir. Mötəzililər də əqidələrini sübut etmək üçün əşərilər kimi əqli və nəqli dəlillərə istinad etmişlər. Dəlillərdən biri budur ki, insanlar əməllərində azad olmasalar, şəri vəzifələrin mənası olmaz. Çünki bu halda heç bir insan öz əməlləri qarşısında məsuliyyət daşımaz, eləcə də savab və ya əzaba layiq olmaz.

Mötəzililərin nəzəriyyəsi haqda bunu demək olar ki, onların dəlilləri düzgün olarsa, yalnız cəbr nəzəriyyəsini rədd edə bilər. Lakin cəbriliyin yanlış olması özlüyündə təfviz nəzəriyyəsinin sübutu demək deyil. Çünki mötəzililərin dəlilləri üçüncü nəzəriyyə ilə, yəni ixtiyar nəzəriyyəsi ilə də uyğundur. Daha dəqiq desək, təfviz nəzəriyyəsi o vaxt qəbul oluna bilər ki, bu nəzəriyyənin dəlilləri cəbr nəzəriyyəsindən əlavə şiə kəlamçılarının nəzəriyyəsinin də əsassızlığını isbat etsin. Halbuki mötəzililərin dəlillərinin belə bir nəticə çıxmır.

**Mötəzililərin təfviz nəzəriyyəsinə yönəlmələrinin səbəbi**

Mötəzililər bir tərəfdən Allahın ədalət sifətini hər bir yolla qorumaq istəyirdilər, digər tərəfdən səhv olaraq belə fikirləşirdilər ki, insanlara verilən cəzalar onlar öz işlərində yalnız tam azad olduqda ədalətli sayıla bilər. Bu yolla nəticə aldılar ki, ilahi ədaləti qorumağın yeganə mümkün yolu təfviz nəzəriyyəsidir. Beləliklə, göründüyü kimi, əşərilər ifrat tərəfdə dayanırlarsa, mötəzililər təfrit mövqe seçərək Allahı insanın əməlləri sahəsindən kənarlaşdırmışlar. Halbuki əgər insanın əməllərinin həqiqəti və onların Allahın feili ilə rabitəsi haqqında dərindən düşünsəydilər, feildə tövhidlə Allahın ədaləti arasında ortaq məxrəcə nail ola bilərdilər.

**İxtiyar nəzəriyyəsi**

Qeyd etdik ki, əşərilərin ifratçı və mötəzililərin təfritçi mövqeləri qarşısında şiə kəlamçıları məsum imamların təlimlərindən bəhrələnib orta yolu seçmişlər. “Əmrun beynəl-əmreyn” adı ilə tanınan bu nəzəriyyədə insanın ixtiyarı ilə yanaşı, feldə tövhid, Allahın mütləq elmi, iradəsi və ilahi ədalət də qorunub saxlanmışdır. Əlbəttə bu nəzəriyyənin dərinliyinə varmaq o qədər də asan deyil. Buna görə də, şiə kəlamçıları arasında bu nəzəriyyə haqda müxtəlif bəyanlar mövcuddur. Filosoflar da bu nəzəriyyənin təfsirində çətin və dərin fəlsəfi qanunlara istinad etmişlər. Mümkün varlıqların zəruri varlıqla rabitəsini dəqiqliklə araşdırmaqla, eləcə də vücudun mərtəbəli vəhdəti kimi prinsiplərdən istifadə etməklə bu nəzəriyyənin fəlsəfi əsaslarını bəyan etmişlər.

Bu nəzəriyyəyə görə insanın ixtiyarlı əməlləri sözün həqiqi mənasında insanın birbaşa özünə aid edildiyi kimi, Allaha da həqiqi mənada aid edilir. Əməllər ona görə insana isnad verilir ki, onun öz qüdrəti və iradəsi əsasında, öz qərarının və seçiminin təsiri nəticəsində meydana gəlmişdir. Allaha da ona görə isnad verilir ki, insanın vücudunun bütün xüsusiyyətləri, o cümlədən əməlləri Allahın məxluqudur və Ona bağlıdır.

Bu iki isnadın həqiqəti çox dərindir və onu dərk etmək o qədər də sadə bir iş deyil. Odur ki, məsələnin çətinliyini yüngülləşdirmək üçün çox zaman təşbehdən istifadə edirlər. Bəzən belə deyilir ki, Allahla insanın əməli arasındakı əlaqə yazı yazan şəxslə onun əli arasındakı əlaqəyə bənzəyir. Yazmaq işini həm ələ, həm də şəxsin özünə isnad vermək olar. Amma bu misal bizim mövzumuzla çox fərqlidir. Çünki əlin heç bir ixtiyarı və şüuru yoxdur, halbuki insan ixtiyarlı, azad və şüurlu bir varlıqdır. Bu səbəbdən, mövzuya münasib təşbehdən istifadə edib, oxucuların diqqətini aşağıda qeyd edəcəyimiz misala cəlb edirik:

Fərz edək ki, bir şəxsin əlləri iflic olub, işdən düşüb və həkimlər ona elə bir aparat vermişlər ki, aparat işə düşdükdə həmin şəxs əllərini istədiyi kimi hərəkət etdirə bilir. Həmçinin fərz edək ki, bu aparatın işə düşməsi digər bir şəxsin əlindədir, belə ki, aparatı işə salmasa, aparat öz funksiyasını yerinə yetirə bilməz. Bu halda fərz etmək olar ki, ikinci şəxs aparatı işə saldıqdan sonra birinci şəxs öz əlləri ilə istədiyi işi yerinə yetirirsə, bu iş hər ikisinə isnad verilir.[8]

**İxtiyar nəzəriyyəsi haqda ayə və hədislər**

Əşəri və mötəzili kəlamçılarının əksinə olaraq, şiə kəlamçılarının məsələyə baxışı birtərəfli olmadığına görə bütün Quran ayələri ilə uyğun olan yeganə nəzəriyyədir. Şübhəsiz, bu məsələnin hər bir cəhətini araşdırmaq geniş bəhs tələb edir. Burada bəzi onun cəhətlərinə işarə edəcəyik.

Quranın müxtəlif ayələri bilavasitə və ya vasitə ilə insan ixtiyarını və insanın əməllərində təsirini təsdiq edir. Aşağıdakı ayələri diqqətinizə çatdırırıq:

وَقُلِ الْحَقُّ مِن رَّبِّكُمْ فَمَن شَاء فَلْيُؤْمِن وَمَن شَاء فَلْيَكْفُرْ

"Söylə: Haqq Rəbbinizin tərəfindəndir. Kim istəyir iman gətirsin və hər kim istəyir kafir olsun". ("Kəhf": 29)

كُلُّ امْرِئٍ بِمَا كَسَبَ رَهِينٌ

"Hər kəs öz əməlinə bağlıdır". ("Tur": 21)

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

---

[8] Etiraf etməliyik ki, bu bənzətmə də müxtəlif cəhətlərdən qüsurludur və "orta hal" nəzəriyyəsini dəqiqliklə bəyan etmir. Buna daha yaxşı misal insan ruhu və ruhi qüvvələridir. Yazının həcmini və məsələnin fəlsəfi qanunlara əsaslandığını nəzərə alıb bu haqda geniş məlumat vermirik.

“Biz yolu ona göstərdik: istər şükür etsin, istərsə də naşükür olsun”. (“İnsan”: 3).

مَنْ عَمِلَ صَالِحًا فَلِنَفْسِهِ وَمَنْ أَسَاء فَعَلَيْهَا وَمَا رَبُّكَ بِظَلَّامٍ لِّلْعَبِيدِ

“Kim yaxşı bir iş görsə, öz xeyrinədir və kim də pis bir iş görsə, öz zərərinədir. Sənin Rəbbin bəndələrinə zülm rəva görməz”. (“Fussilət”: 46)[9]

Digər tərəfdən, varlıq aləmində baş verən hər bir şeyi Allahın izni və istəyinə əsaslandırıb, hətta insanın istəyini də Allahın istəyindən kənar bilməyən ayələrlə də qarşılaşırıq. Aşağıdakı ayələrə diqqət edək:

وَمَا تَشَاؤُونَ إِلَّا أَن يَشَاء اللَّهُ رَبُّ الْعَالَمِينَ

“Aləmlərin Rəbbi olan Allah istəməsə, siz istəyə bilməzsiniz”. (“Təkvir”: 29)

قُل لاَّ أَمْلِكُ لِنَفْسِي نَفْعًا وَلاَ ضَرًّا إِلاَّ مَا شَاء اللّهُ

“De: Allahın istədiyindən başqa, mən öz mənfəət və zərərimin maliki deyiləm”. (“Əraf”: 188)

وَمَا كَانَ لِنَفْسٍ أَن تُؤْمِنَ إِلاَّ بِإِذْنِ اللّهِ

“Allahın izni olmadan, kimsə iman gətirə bilməz”. (”Yusif”: 100)

Göründüyü kimi, əvvəlki dörd ayə cəbr nəzəriyyəsini, sonrakı üç ayə isə təfviz nəzəriyyəsini rədd edir. Yalnız şiə kəlamçılarının nəzəriyyəsi əsasında Allahın feilləri ilə insanın işləri arasında uyğunluq yaradıb bu ayələrin məcmusundan münasib bir təfsir əldə etmək olar.

Bundan əlavə, bəzi ayələrdə eyni bir iş həm Allaha, həm də yaratdıqlarına isnad verilmişdir. Ənfal surəsində buyurulur:

فَلَمْ تَقْتُلُوهُمْ وَلَكِنَّ اللّهَ قَتَلَهُمْ وَمَا رَمَيْتَ إِذْ رَمَيْتَ وَلَكِنَّ اللّهَ رَمَى

“Siz onları öldürməyirdiniz, onları öldürən Allah idi. Ox atdığın zaman ox atan sən deyildin, ox atan Allah idi”. (“Ənfal”: 17)

Ayədən aydın olduğu kimi, “ox atdığın zaman ox atan sən deyildin” cümləsində “atmaq” işi bir tərəfdən peyğəmbərə (s) isnad verilmişdir (atdığın zaman), digər tərəfdən isə bu isnad inkar edilmiş (ox atan sən deyildin) və Allaha isnad verilmişdir (ox atan Allah idi). Bu iqrar və inkarı yalnız orta hal nəzəriyyəsi ilə başa düşmək olar. Çünki məhz bu nəzəriyyə əsasında insanın azad əməli bir tərəfdən onun özünə, digər tərəfdən isə Allaha isnad verilir. Buna görə də ikinci cəhətdən (işin Allaha aid edilməsi cəhətindən) insanın özünə verilən isnadı inkar etmək mümkündür.

Cəbr və təfvizin inkarı və “orta hal” nəzəriyyəsinin isbatı əhli-beytin (ə) hədislərində də dolğun ibarələrlə qeyd edilmişdir. İmam Baqir (ə) və İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə deyilir: “Həqiqətən, Allah-taala Öz yaratdıqlarına rəhimsiz deyil ki, onları günaha məcbur edib, günaha görə əzablandırsın. Allah-taala aciz də deyil ki, bir şeyi iradə etdikdə (insan onun əksini istədiyi üçün) o şey olmasın. Onlardan soruşdular: Cəbr

---

[9] Bu məzmunda olan ayələr üçün bax: “Nur”: 11; “Müzzəmmil”: 19; “Müddəssir”: 55; “Nəbə”: 39; “Əbəsə”: 12.

və qədər (təfviz) arasında üçüncü bir yer (hal) varmı? Dedilər: Bəli, göy və yer arasında olan məsafədən də böyük bir yer”.[10]

**Terminlər**
Cəbr
İxtiyar
Kəsb
Təfviz
Orta hal (əmrun beynəl-əmreyn)

**Beşinci fəslin xülasəsi**

1. Cəbr və ixtiyar məsələsi çətin fəlsəfi və kəlami məsələlərindəndir. Bu məsələ qədim zamanlardan insanların fikrini özünə cəlb etmişdir.

Bir qrup cəbr tərəfdarı olub insanın heç bir işini ixtiyarlı hesab etmir. Digər bir qrup isə insanın ixtiyarlı olmasını müdafiə edir və onu bəzi işlərdə azad hesab edirlər.

2. Cəbr və ixtiyar məsələsi, kəlam və fəlsəfə elmlərindən əlavə, humanitar elmlərin müxtəlif sahələrində də bəhs edilir. Bu səbəbdən, müxtəlif cəhətlərdən, o cümlədən kəlami, fəlsəfi, sosioloji, psixoloji və s. aspektlərdən bu məsələyə yanaşmaq olar.

3. Kəlamçılar arasında əşərilər cəbrə, mötəzililər isə təfviz əqidəsinə inanırlar. Şiə kəlamçıları məsum imamların təlimlərinə əsasən, üçüncü bir nəzəriyyəni seçmişlər. Bu nəzəriyyə bəzi hədislərə istinadən orta hal (əmrun-beynəl-əmreyn) adı ilə tanınmışdır.

4. Hər bir insan öz fitrətinə müraciət etdikdə bəzi əməllərdə özünün azad olduğunu duyur və qəlbinin dərinliyində özünün və başqalarının ixtiyarlı olmasına inanır. Bununla belə, bəziləri bir sıra sualları cavablandıra bilmdikləri üçün insanın ixtiyarlı olmasını inkar edir, cəbr nəzəriyyəsini müdafiə edirlər.

5. Cəbr nəzəriyyəsinə əşərilərin dəlillərindən biri Allahın əzəli elmi və bu elmin insanın əməllərinə şamil olmasıdır. Amma həqiqət budur ki, Allahın elmi insanın əməllərini azad və ixtiyarlı olmaq şərti ilə ehtiva edir. Bu səbəbdən, insan ixtiyarı ilə zidd deyil.

6. Əşərilərin dəlillərindən biri də Allahın istisnasız iradəsidir. Onların fikrincə, hər bir şey, o cümlədən insanın işləri Allahın iradəsi ilə yerinə yetirilir. Bu səbəbdən, insanın əməlləri öz ixtiyarı ilə deyil. Mötəzililər isə əksinə olaraq, insanın əməllərini Allahın iradəsindən xaric hesab edirlər.

7. Həqiqət bundan ibarətdir ki, Allahın təkvini iradəsi insan əməllərini də ehtiva edir. Çünki insanın əməli məhz azad və ixtiyar şərti ilə Allahın iradəsinə daxildir. Daha dəqiq

[10] “Ət-Tövhid, 59-cu bab, 3-cü hədis, səh. 360, Şeyx Səduq bu babda 12 hədis qeyd etmişdir. Mütaliə etmək faydalı olar.

desək, Allah-taala iradə edir ki, bəndələrinin azad əməlləri onların ixtiyarı və dəxaləti ilə yerinə yetirilsin.

8. Mütləq cəbr nəzəriyyəsi insanın öz daxilində intuisiya ilə duyduğu həqiqətlə ziddir. Buna görə də, əşərilər “kəsb” nəzəriyyəsini irəli sürmüşlər. Əşərilər bu nəzəriyyəni müxtəlif təfsirlərlə bəyan edirlər. Lakin onların hamısına iradlar vardır.

9. Mötəzililərin fikrincə, ilahi ədaləti qorumağın yeganə yolu “təfviz” nəzəriyyəsidir. Çünki Allahın günahlara görə əzab verməsi o zaman ədalətli sayıla bilər ki, insanın əməllərinin Allahın qüdrəti və iradəsi ilə heç bir əlaqəsi olmasın. Mötəzililərin dəlilləri hətta düzgün olsa belə, yalnız cəbr nəzəriyyəsini rədd etməyə qadirdir. Lakin təfviz nəzəriyyəsini isbat edə bilmir.

10. Əşərilərin və mötəzililərin nəzəriyyələri (cəbr və təfviz) absurddur. Düzgün nəzəriyyə bundan ibarətdir ki, insan bəzi əməllərdə ixtiyar sahibidir. Amma onun ixtiyarlı və azad əməlləri Allahın elmi, istəyi, iradəsi və qüdrətindən kənarda deyil. Bu nəzəriyyədə insanın azad əməlləri bir cəhətdən həqiqi mənada onun özünə və digər bir cəhətdən, yenə də həqiqi mənada Allaha isnad verilir. Lakin insanın iradəsi Allahın iradəsi ilə iyerarxik olduğundan cəbriliklə nəticələnmir.

11. Bəzi Quran ayələri insanın ixtiyarlı olmasını təsdiq edir. Bəzi digər ayələr də insanın iradəsini Allahın iradəsindən kənar bilmir. Yalnız orta hal nəzəriyyəsi ilə bu iki cür ayələrin məzmununda heç bir dəyişiklik aparmadan onları bir yerə toplayıb vahid fikrə nail olmaq olar.